Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: Tərbiyəçi-müəllim (məktəbəqədər)



# TƏLİM-TƏRBİYƏ VƏ İNKİŞAF PROSESİNİN HƏYATA KEÇİRİLMƏSİ

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Şəhla Əliyeva, Svetlana Mustafayeva , Xalidə Həmidova

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** .......... **9**
**GİRİŞ** .......... **11**
**MODULUN SPESIFIKASIYASI** .......... **12**
**TƏLİM NƏTİCƏSİ 1: FİZİKİ İNKİŞAFI TƏŞKİL ETMƏK** .......... **15**
1.1. Fiziki inkişafı təmin etmək üçün metodları uyğun şəkildə müəyyən edir .......... 16
Tələbələr üçün fəaliyyətlər .......... 19
Qiymətləndirmə .......... 20
1.2. Fiziki inkişafı təşkil etmək üçün yaş xüsusiyyətlərinə uyğun məşğələlər hazırlayır .. 21
Tələbələr üçün fəaliyyətlər .......... 28
Qiymətləndirmə .......... 30
1.3. Təlim və təlimdən kənar vaxtlarda oyun və idman dəqiqələrindən səmərəli istifadə edir .......... 31
Tələbələr üçün fəaliyyətlər .......... 36
Qiymətləndirmə .......... 39
1.4. Çeviklik və cəldliyi təmin etmək üçün təmrin və mümarisələr hazırlayır .......... 40
Tələbələr üçün fəaliyyətlər .......... 57
Qiymətləndirmə .......... 58
1.5. Böyük, kiçik və hissi motorikanın inkişafına uyğun müxtəlif oyunlar təşkil edir .......... 59
Tələbələr üçün fəaliyyətlər .......... 71
Qiymətləndirmə .......... 72
1.6. Fiziki inkişafın səmərəli təşkili üçün tədqiqat aparır .......... 73
Tələbələr üçün fəaliyyətlər .......... 75
Qiymətləndirmə .......... 76
1.7. Təlimin səmərəliliyini artırmaq üçün zəruri olan amilləri qiymətləndirir və uyğun olaraq məşğələyə dəyişiklik edir .......... 77
Tələbələr üçün fəaliyyətlər .......... 83
Qiymətləndirmə .......... 84
**TƏLİM NƏTİCƏSİ 2: İDRAK FƏALİYYƏTİNİ İNKİŞAF ETDİRMƏK** .......... **85**
2.1. İdrak fəallığını formalaşdıran müxtəlif oyunları təşkil edir .......... 86

Tələbələr üçün fəaliyyətlər......105
Qiymətləndirmə......107
2.2. Yaşa uyğun məşğələlər üçün müvafiq oyunlar hazırlayır. ......108
Tələbələr üçün fəaliyyətlər......117
Qiymətləndirmə......118
2.3. İnteqrativ məşğələlər üçün plan hazırlayır ......119
Tələbələr üçün fəaliyyətlər......124
Qiymətləndirmə......125
2.4. İdraki modeldən istifadə edərək, intellektual-emosional məşğələ modellərini qurur ......126
Tələbələr üçün fəaliyyətlər......140
Qiymətləndirmə......141
2.5. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərini müəyyən edir......142
Tələbələr üçün fəaliyyətlər......145
Qiymətləndirmə......146
2.6. İdraki fəaliyyətə olan tələbat və motivasiyanın formalaşması üçün məşğələyə uyğun materiallar hazırlayır......147
Tələbələr üçün fəaliyyətlər......152
Qiymətləndirmə......153
2.7. İdrak nəzəriyyələrinin tətbiqi mexanizmini hazırlayır......154
Tələbələr üçün fəaliyyətlər......159
Qiymətləndirmə......162
2.8. İdrak fəaliyyətinin inkişafı üçün pedaqoji prosesin təşkilini təsvir edir......163
Tələbələr üçün fəaliyyətlər......172
Qiymətləndirmə......173
**TƏLİM NƏTİCƏSİ 3: ESTETİK-YARADICI İNKİŞAFI TƏŞKİL ETMƏK......175**
3.1. Müxtəlif əyləncə, tamaşa və bayramların ssenarisini hazırlayır......176
Tələbələr üçün fəaliyyətlər......180
Qiymətləndirmə......181
3.2. Uşağın meyil, maraq və qabiliyyətlərini nəzərə alaraq təsviri fəaliyyət məşğələləri hazırlayır......182
Tələbələr üçün fəaliyyətlər......186
Qiymətləndirmə......187

3.3. Musiqi, əmək və təsviri fəaliyyət üçün nümunəvi vəsaitlər hazırlayır ........................ 188
Tələbələr üçün fəaliyyətlər ........................ 207
Qiymətləndirmə ........................ 208
3.4. Estetik-yaradıcı fəaliyyətin səmərəli təşkili üçün tədqiqat aparır ........................ 210
Tələbələr üçün fəaliyyətlər ........................ 218
Qiymətləndirmə ........................ 219
**TƏLİM NƏTİCƏSİ 4: SOSİAL-EMOSİONAL İNKİŞAFI TƏŞKİL ETMƏK ........................ 221**
4.1. Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışmalar hazırlayır ........................ 222
Tələbələr üçün fəaliyyətlər ........................ 227
Qiymətləndirmə ........................ 228
4.2. Uşaqlara həssaslıq, qayğıkeşlik və xeyirxahlılığı aşılamaq üçün səmərəli yollar müəyyənləşdirir ........................ 229
Tələbələr üçün fəaliyyətlər ........................ 235
Qiymətləndirmə ........................ 236
4.3. Ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar seçir ........................ 237
Tələbələr üçün fəaliyyətlər ........................ 242
Qiymətləndirmə ........................ 243
4.4. Əməkdaşlıq və komandada işləmək bacarıqlarını formalaşdırmaq üçün çalışmalar hazırlayır ........................ 245
Tələbələr üçün fəaliyyətlər ........................ 250
Qiymətləndirmə ........................ 251
4.5. Şəxsiyyət tərbiyəsini formalaşdırmaq üçün əsas prinsipləri təsvir edir ........................ 252
Tələbələr üçün fəaliyyətlər ........................ 255
Qiymətləndirmə ........................ 256
4.6. Emosional mühitin təşkili üçün uyğun metodlar hazırlayır ........................ 257
Tələbələr üçün fəaliyyətlər ........................ 263
Qiymətləndirmə ........................ 264
**TƏLİM NƏTİCƏSİ 5: İNKİŞAFI MÜŞAHİDƏ ETMƏK ........................ 265**
5.1. Gün ərzində hər bir uşağın inkişafını izləmə mexanizmini hazırlayır ........................ 266
Tələbələr üçün fəaliyyətlər ........................ 271
Qiymətləndirmə ........................ 272
5.2. İnkişaf sahələrinə görə davamlı (formativ) qiymətləndirmə cədvəlləri hazırlayır ... 273

Tələbələr üçün fəaliyyətlər......277
Qiymətləndirmə......278
5.3. Müşahidələrə əsasən fərdi ehtiyac və maraqlarını müəyyənləşdirir......279
Tələbələr üçün fəaliyyətlər......282
Qiymətləndirmə......283
5.4. Portfolio hazırlayır......284
Tələbələr üçün fəaliyyətlər......286
Qiymətləndirmə......287
5.5. Yekun (summativ) hesabat hazırlayır......288
Tələbələr üçün fəaliyyətlər......290
Qiymətləndirmə......291
**CAVABLAR......292**
**ƏDƏBİYYAT SİYAHISI......293**

# ƏSAS ANLAYIŞLAR

**0-3 yaşlı uşaqlar üçün inkişaf və təlim mühiti –** uşağın inkişafı və böyüməsi üçün maksimal şəraitin yaradılması.

**Dəyərləndirmə –** dəyərləndirmə toplanmış məlumatların təhlili və nəticələrin çıxarılması prosesi. Dəyərləndirmə uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

**Dəyərlər –** şəxsiyyəti şərtləndirən keyfiyyətlər.

**Diferensiallaşdırma –** uşaqların fərdi xüsusiyyətlərinin, maraq və tələbatlarının, fiziki və əqli inkişaf səviyyələrinin, psixo-fizioloji xüsusiyyətləri nəzərə alınmaqla təlimin təşkil olunması.

**Erkən dövr inkişaf və təlim kurikulumu –** uşaqların erkən (0-3 yaş) dövr inkişaf və təliminin son məqsədlərini, həmin məqsədlərə çatmaq üçün müəyyən edilən yol, forma və vasitələri, uşaq inkişafının və təliminin izlənilməsini və dəyərləndirilməsini, inkişaf səviyyəsini müəyyənləşdirmək mexanizmlərini özündə cəmləşdirən dövlət sənədi.

**Əməkdaşlıq –** “tərbiyəçi-uşaq”, “uşaq-uşaq”, “valideyn-tərbiyəçi”,“uşaq-valideyn” münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunması.

**Fasilitasiya –** qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesidir.

**Fasilitator –** uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirən şəxsdir.

**Fəaliyyətin aparıcı növü –** uşaq həyatının bu dövründə uşağın inkişafına imkan yaradan ən yüksək dərəcəli fəaliyyət.

**İnkişaf sahələri –** uşaqların inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsi.

**İnklüziv təhsil –** təhsilin hamı üçü əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşıdırlmasına əsaslanan inkişaf prosesidir. Bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

**Məktəbəqədər təhsil –** məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən, ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin formalaşdırılması prosesi.

**Məktəbəqədər təhsil müəssisəsi –** məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və məktəbəhazırlığını həyata keçirən təhsil müəssisəsi.

**Məktəbəqədər təhsildə qiymətləndirmə –** məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesi.

**Məktəbəqədər təhsilin dövlət standartı –** uşaqların, ailənin, cəmiyyətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan, ölkədə məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinə xidmət edən ümumi normalar məcmusu.

**Məktəbəqədər təhsilin kurikulumu –** təlim nəticələri və məzmun standartlarını, inkişaf sahələrini, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən konseptual dövlət sənədi.

**Məzmun standartı –** təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbi.

**Motivasiya –** məşğələnin vacib komponenti olmaqla, uşaqların idrak fəallığına təkan verən proses.

**Nəticəyönümlülük –** fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulması.

**Portfolio –** uşaq haqqında məlumatların və onun müəyyən müddət ərzində yerinə yetirdiyi işlərin toplandığı xüsusi qovluq.

**Resurslar –** məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələri.

**Şəxsiyyətyönümlü təlim prosesi –** fərdiliyin tanınması, hər bir insanın orijinallığı, dəyəri, onun hər şeydən əvvəl şəxsiyyət kimi inkişafı, özünün təkrarolunmaz subyektiv təcrübəsinə dayanan təlim.

**Şəxsiyyətyönümlülük –** uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı və onlarda həyat üçün lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını vəzifə kimi qarşıya qoyan prinsip.

**Təhsildə inteqrasiya –** təlimin məzmun komponentlərinin əlaqələndirilməsini təmin edən didaktik prinsip.

**Təlim nəticəsi –** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret səviyyəsi.

**Təlim strategiyası –** təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusu.

**Təlimin məzmunu –** uşaq şəxsiyyətinin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusu.

**Tərbiyəçi-müəllim –** uşaqların təlim-tərbiyəsini, hərtərəfli inkişafını, məktəbəhazırlıq təlimini təşkil edən və həyata keçirən, məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxs.

**Uşağın inkişafı –** uşağın hərəkətlərin, təfəkkürün, nitqin, qavrayış və ünsiyyətin mürəkkəb növlərini öyrəndiyi təşkil olunmuş və uzunmüddətli proses.

**Uşaq nailiyyətləri –** təlim zamanı uşaqların qazandıqları dəyərlər.

# GİRİŞ

Məktəbəqədər təhsil müəssisələrində tədris prosesində uşaqlarla, əsasən, dörd istiqamətdə iş aparıldıqda daha səmərəli nəticələr əldə etmək mümkündür: fiziki, idraki, sosial-emosional və estetik yaradıcı inkişaf. İnkişafın qarşıya məqsəd qoyulması və uşaqlarla aparılacaq işin istiqamətinin müəyyənləşdirilməsi gələcək nəslin fəal yaradıcı həyat fəaliyyətinə vaxtında hazırlanmasının vacibliyindən irəli gəlir.

Modulda fiziki inkişafın metodları təsvir edilmiş və yaş xüsusiyyətlərinə uyğun fiziki məşğələlərin hazırlanması üçün qaydalar tam şəkildə təsvir edilmişdir. Fiziki məşğələlərdə istifadə olunan böyük, kiçik və hissi motorikanın inkişafına uyğun təmrin, mümarisə, oyun və idman dəqiqələrinin səmərəli istifadə yolları təsvir olunmuşdur.

Modulda idrak fəaliyyətinin inkişaf etdirilməsi nəticəsində idrak fəallığını formalaşdıran müxtəlif oyunların təşkili qaydaları öz əksini tapmışdır. Eyni zamanda yaşa uyğun inteqrativ məşğələlər üçün planın hazırlanması və bu zaman lazım olan oyunların seçilməsi geniş formada izah edilmişdir. Məşğələlərin mərhələlərə uyğun aparılması və bu zaman idrak nəzəriyyələrinin tətbiqi mexanizmlərinin istifadə yolları haqqında məlumat verilmişdir.

Estetik-yaradıcı inkişafın təşkil edilməsi üçün isə modulda tam əhatəli şəkildə müxtəlif əyləncə, tamaşa və bayramların ssenarisinin hazırlanması qaydaları, musiqi, əmək və təsviri fəalliyyət məşğələləri üçün nümunə vəsaitlərin hazırlanmasında məlumatlar geniş formada izah edilmişdir. Eyni zamanda sosial-emosional inkişafın təşkil edilməsi oyun və çalışmaların hazırlanması üçün nümunələr verilmişdir.

İnkişafın müşahidə edilməsi ilə bağlı da geniş formada izləmə mexanizmləri, davamlı (formativ) qiymətləndirmə, fərdi ehtiyac və maraqların müəyyənləşdirilməsi yolları, portfolio və yekun (summativ) hesabat hazırlama qaydaları izah edilmişdir.

Bu modul tam şəkildə təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi üçün lazım olan məlumatlarla əhatə olunmuşdur.

Tələbələr üçün fəaliyyətlərdə təlim nəticələri təlimata müvafiq bəndlərdə öz əksini tapmış və qiymətləndirmə meyarları müasir tələblərə uyğun verilmişdir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək işinizin yüksək səviyyədə qurulmasının açarı sizə verilən materialların həm nəzəri, həm də praktik mənimsənilməsindən çox asılıdır.

# MODULUN SPESIFIKASIYASI

| | |
|---|---|
| **Modulun adı:** | Təlim-tərbiyə və inkişaf prosesinin həyata keçirilməsi |
| **Modulun kodu:** | SS-2020-54 |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra müvafiq metodlardan istifadə edərək fikizi, idrakı, estetik-yaradıcı inkişafı təşkil etməyi, uşaqların ünsiyyət, əməkdaşlıq və komandada işləmək bacarıqlarını və sosial-emosional inkişafını təşkil etməyi, onlarda gedən inkişafı izləməyi bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Fiziki inkişafı təşkil etmək | 1. Fiziki inkişafı təmin etmək üçün metodları uyğun şəkildə müəyyən edir;<br>2. Fiziki inkişafı təşkil etmək üçün yaş xüsusiyyətlərinə uyğun məşğələlər hazırlayır;<br>3. Təlim və təlimdən kənar vaxtlarda oyun və idman dəqiqələrindən səmərəli istifadə edir;<br>4. Çeviklik və cəldliyi təmin etmək üçün təmrin və mümarisələr hazırlayır;<br>5. Böyük, kiçik və hissi motorikanın inkişafına uyğun müxtəlif oyunlar təşkil edir;<br>6. Fiziki inkişafın səmərəli təşkili üçün tədqiqat aparır;<br>7. Təlimin səmərəliliyini artırmaq üçün zəruri olan amilləri qiymətləndirir və uyğun olaraq məşğələyə dəyişiklik edir. |
| 2. İdrak fəaliyyətini inkişaf etdirmək | 1. İdrak fəallığını formalaşdıran müxtəlif oyunları təşkil edir;<br>2. Yaşa uyğun məşğələlər üçün müvafiq oyunlar hazırlayır;<br>3. İnteqrativ məşğələlər üçün plan hazırlayır;<br>4. İdraki modeldən istifadə edərək intellektual-emosional məşğələ modellərini qurur;<br>5. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərini müəyyən edir;<br>6. İdraki fəalliyyətə olan tələbatın və motivasiyanın formalaşması üçün məşğələyə uyğun materiallar hazırlayır; |

| | |
|---|---|
| | 7. İdrak nəzəriyyələrinin tətbiqi mexanizmini hazırlayır;<br>8. İdrak fəaliyyətinin inkişafı üçün pedaqoji prosesin təşkilini təsvir edir. |
| 3. Estetik-yaradıcı inkişafı təşkil etmək | 1. Müxtəlif əyləncə, tamaşa və bayramların ssenarisini hazırlayır;<br>2. Uşağın meyil, maraq və qabiliyyətlərini nəzərə alaraq təsviri fəaliyyət məşğələləri hazırlayır;<br>3. Musiqi, əmək və təsviri fəalliyyət üçün nümunəvi vəsaitlər hazırlayır;<br>4. Estetik-yaradıcı fəaliyyətin səmərəli təşkili üçün tədqiqat aparır. |
| 4. Sosial-emosional inkişafı təşkil etmək | 1. Sosial-emosional inkişafı təmin etmək üçün oyun və çalışmalar hazırlayır;<br>2. Uşaqlara həssaslıq, qeyğıkeşlik və xeyirxahlığı aşılamaq üçün səmərəli yollar müəyyənləşdirir;<br>3. Ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar seçir;<br>4. Əməkdaşlıq və komandada işləmək bacarıqlarını formalaşdırmaq üçün çalışmalar hazırlayır;<br>5. Şəxsiyyət tərbiyəsini formalaşdırmaq üçün əsas prinsipləri təsvir edir;<br>6. Emosional mühitin təşkili üçün uyğun metodlar hazırlayır. |
| 5. İnkişafı müşahidə etmək | 1. Gün ərzində hər bir uşağın inkişafını izləmə mexanizmini hazırlayır;<br>2. İnkişaf sahələrinə görə davamlı (formativ) qiymətləndirmə cədvəlləri hazırlayır;<br>3. Müşahidələrə əsasən fərdi ehtiyac və maraqlarını müəyyənləşdirir;<br>4. Portfolio hazırlayır;<br>5. Yekun (summativ) hesabat hazırlayır. |

# TƏLİM NƏTİCƏSİ 1

# FİZİKİ İNKİŞAFI TƏŞKİL ETMƏK

## 1.1. Fiziki inkişafı təmin etmək üçün metodları uyğun şəkildə müəyyən edir

### Fiziki inkişafın təmin edilməsi üçün metodlar

Fiziki mədəniyyət məşğələlərində uşaqların fiziki hərəkətləri tez və asan mənimsəmələri və həmin hərəkətləri müvəffəqiyyətlə yerinə yetirmələri üçün məşğələlərin təşkilində istifadə olunan forma və metodların böyük əhəmiyyəti vardır.


Şəkil 1.1. Konveyer forma

**Fiziki inkişafın təşkil edilməsi üçün frontal və fərdi iş formaları**

Məşğələlərin təşkilində aşağıdakı formalardan istifadə olunur:

- Frontal;
- Qruplarla;
- Fərdi.

Bəzi ədəbiyyatlarda əlavə olaraq **konveyer** iş forması (Şəkil 1.1) da göstərilir. Bu iş formasında uşaqlar fəaliyyəti ardıcıllıqla yerinə yetirirlər.

**Frontal iş forması** tərbiyəçinin uşaqlarla daimi qarşılıqlı əlaqəsi və uşaqların fiziki hərəkətlərinin yerinə yetirməsi üçün ən yaxşı təlim şəraitinin yaradılmasını təmin edir. Bu zaman bütün uşaqlar diqqət mərkəzində saxlanılaraq müəyyən göstərilərin verilməsi və tərbiyə problemlərinin həlli həyata keçirilə bilər.

Frontal iş formasının tətbiqi zamanı uşaqların hamısına eyni hərəkətlər təklif olunur və hərəkətlər verilmiş müddət ərzində yerinə yetirilir. Yeni hərəkətlərin öyrədilməsi və əvvəlkilərin möhkəmləndirilməsi zamanı bu iş formasının tətbiqi məqsədəuyğun hesab edilir. Buna görə də bu üsuldan ən çox məşğələnin əsas hissəsində istifadə olunur.


Şəkil 1.2. Fərdi iş

Frontal iş formasının tətbiqi nəticəsində uşaqların hərəkət vərdişlərinin möhkəmləndirilməsi və fiziki keyfiyyətlərinin inkişafı üçün şərait yaradılır. Bununla yanaşı, uşaqlarda fiziki hərəkətlərin kollektiv şəkildə yerinə yetirilməsi vərdişləri də yaranır.

**Fərdi iş formasında** (Şəkil 1.2) hər bir uşaq ayrı-ayrılıqda və tərbiyəçinin nəzarəti altında ona tapşırılan fiziki hərəkətləri yerinə yetirir. Bu iş formasında uşaq tapşırılan fiziki hərəkətləri yerinə yetirir, tərbiyəçi tapşırığın

keyfiyyətinə nəzarət edir və uşağa lazımi göstərişlər verir. Digər uşaqlar hərəkətlərin icrasını müşahidə edir və onun müsbət və mənfi cəhətlərini qeyd edirlər. Bu iş forması uşaqların, xüsusilə, ehtiyat etdikləri irəli və hündürlüyə tullanma kimi hərəkətlərin yerinə yetirilməsi zamanı tətbiq edilir.

**Fiziki inkişafın təşkil edilməsi üçün qruplarla iş forması**

Bu iş formasının tətbiqi zamanı uşaqlar bir neçə qrupa bölünərək tərbiyəçinin rəhbərliyi altında hər hansı bir hərəkətin təkrar edilməsinə cəlb edilirlər. Bu zaman bir qrupun üzvlərinə hər hansı yeni bir hərəkətin öyrədilməsi, digər qrupların üzvlərinə (Şəkil 1.3) isə əvvəllər öyrədilmiş hərəkətlərin təkrar olunması üçün şərait yaradılır. Məsələn, bir qrupun üzvləri topu hədəfə atır, digər qrupun üzvləri gimnastika skamyası üzərində gəzir, o biri qrupun üzvləri halqanın içərisindən keçir və s.. Uşaqlar bu fiziki hərəkətləri yerinə yetirdikdən sonra hər bir qrupun üzvləri yerlərini dəyişirlər. Məşğələ ərzində dörd dəfə yerdəyişmə baş verir. Beləliklə, bütün qrupların üzvləri müxtəlif fiziki hərəkətlərlə məşğul ola bilirlər. Tərbiyəçi bütün qrupları nəzarətdə saxlayaraq növbə ilə bir qrupdan o biri qrupa keçir və lazım gəldikdə uşaqlara kömək və rəhbərlik edir. Qrupların hər birinə lider təyin olunur ki, o da hərəkətlərin düzgün yerinə yetirilməsinə nəzarət edə bilsin.



**Şəkil 1.3. Qrup işi**

Bəzi tapşırıqların yerinə yetirilməsi üçün uşaqlar iki yarım qrupa bölünürlər. Bir qrupun üzvləri topu özündən bir metr uzağa elə atmalıdır ki, top zalın o tərəfində olan digər yarımqrupa tərəf sıçramış olsun. Beləcə, növbə ilə topu yerə vurmaqla yarımqrupların üzvləri tapşırığı yerinə yetirmiş olurlar.

**Fiziki inkişafın təşkil edilməsi üçün istifadə olunan metodlar**

Fiziki mədəniyyət məşğələsində frontal, qrup və fərdi iş formalarında məşğələ aparan tərbiyəçi müxtəlif fiziki hərəkətlərin uşaqlar tərəfindən yaxşı mənimsənilməsi və yerinə yetirilməsi üçün aşağıdakı metodlardan istifadə edir:

- Hərəkətin izah edilməsi və göstərilməsi (Şəkil 1.4);
- Hərəkətlərin təkrarlanması;
- Konkret tapşırıq yolu ilə hərəkətlərin öyrədilməsi;
- Hərəkətlərin möhkəmləndirilməsi.



**Şəkil 1.4. Hərəkətin göstərilməsi**

Hərəkətlərin icrasının düzgün mənimsənilməsi üçün onları uşaqlara göstərmək, eyni zamanda izah etmək lazımdır. Əgər göstərişlər izahatla müşayiət olunmazsa, nöqsanlar aşkara çıxacaq. İzahat ilə göstəriş birlikdə aparıldıqda uşaqlar həm hərəkəti görür, həm də onun haqqında təsəvvürlər əldə edirlər. İzahat aydın və konkret şəkildə verilməlidir, məsələn, kiçik qrupda uşaqlar "Topu tut", "Topu diyirlət", "Hoppan" və digər ifadələrin nə demək olduğunu bəzən başa düşmürlər. Odur ki, hərəkətlərin göstərilməsi zərurəti yaranır.

Hərəkətlərin təkrarı yolu da uşaqlara hərəkətlərin öyrədilməsində ən əlverişli yollardan biri sayılır. Belə ki hərəkətlərin dəfələrlə təkrarı nəticəsində uşaqların yaddaşında hərəkətlər möhkəmlənir. Konkret tapşırıq yolu ilə hərəkətlərin öyrədilməsi (Şəkil 1.5) də hərəkətlərin mənimsənilməsi üçün praktik yollardan biridir. Bu tapşırıqlar əşyalardan (toplar, bayraqlar, halqalar və s.) istifadə yolu ilə yerinə yetirilir.



**Şəkil 1.5. Hərəkətlərin öyrədilməsi**

Fiziki tapşırıqları öyrənmə mərhələləri:

1. İlkin tapşırıqlar (pedaqoq hərəkətləri dəqiq göstərməlidir);
2. Təkmilləşdirilmiş öyrənmə (məşğələ prosesində);
3. Möhkəmləndirmə;
4. İcra texnikasının təkmilləşdirilməsi (yaradıcılıq).

Bacarıq ⇄ Vərdiş - hərəkətlər təkrar olunduqca vərdişə çevrilir.

Fiziki hərəkətlərin tədrisi metodları və üsulları:

1. Əyani metod: Vizual (görmə), eşitmə və daktil (toxunma);
2. Şifahi (sözlü) metodlar: İzahat, təlimat, əmr vermə, sual-cavab, hekayə və söhbət və sözlərlə təlimat;
3. Praktik metodlar – dəyişən və dəyişməyən tapşırıqların təkrarlanması, oyun və yarış formasında keçirilməsi;
4. Dövrü məşq metodu;
5. Yarış metodu.

## Tələbələr üçün fəaliyyətlər



1. Qrup işi. Sxemdə göstərilən iş formalarını müəyyən edin və müvafiq nümunələr təklif edin.




2. Qrup işi. Göstərilən sxemdəki forma və metodları müəyyənləşdirin və istifadə olunan alətləri adlandırın. Əlavə təklifləri qeyd edin.

3. “Dörd künc” üsulundan istifadə edərək fəaliyyəti təşkil edin. Fiziki hərəkətlərin uşaqlar tərəfindən yaxşı mənimsənilməsi və yerinə yetirilməsi üçün tərbiyəçi-müəllimin istifadə etdiyi metodlardan hansını vacib hesab edirsiniz? Araşdırın, cavabınızı müəyyən edin və səbəbini izah edin:

   1-ci künc: Hərəkəti izah etmə və göstərmə;
   2-ci künc: Hərəkətlərin təkrar edilməsi;
   3-cü künc: Konkret tapşırıqlar yolu ilə hərəkətlərin öyrədilməsi;
   4-cü künc: Hərəkətlərin möhkəmləndirilməsi.

4. Fiziki mədəniyyət məşğələlərində istifadə olunan üsulları müəyyən edin:

| Fiziki hərəkətlərin tədrisi metodları | Üsulları |
|---|---|
| Əyani metod | |
| Şifahi (sözlü) metodlar | |
| Praktik metodlar | |
| Dövrü məşqlər metodu | |
| Yarış metodu | |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Fiziki inkişafı təmin etmək üçün metodları uyğun şəkildə müəyyən edir”.**

1. Uşaqlar birlikdə topla müəyyən hərəkətlər edirlər. Topu atır, diyirlədir və bir-birilərinə ötürürlər. Bu zaman hansı iş formasından istifadə olundugunu müəyyənləşdirin və izah edin.
2. Uşaqların fiziki hərəkətləri kollektiv şəkildə yerinə yetirmə vərdişləri hansı iş formasına aiddir?
3. Tərbiyəçi-müəllimin fiziki mədəniyyət məşğələlərində istifadə etdiyi metodları sadalayın və izah edin.
4. Bacarıq və vərdişləri möhkəmləndirən öyrənmə metodlarını sadalayın.
5. Dəyişən və dəyişməyən hərəkətlərin təkrarlanması və hərəkətlərin oyun və yarış formasında keçirilməsi fəaliyyətləri hansı metoda aiddir?

## 1.2. Fiziki inkişafı təşkil etmək üçün yaş xüsusiyyətlərinə uyğun məşğələlər hazırlayır

### 0–3 yaşlı uşaqların fiziki inkişaf xüsusiyyətləri

Uşaq həyatının birinci ili bütün orqan və sistemlərin intensiv inkişafı ilə səciyyələnir. Uşaq müəyyən irsi və bioloji, o cümlədən əsas sinir proseslərinin tipoloji xüsusiyyətləri ilə (güc, müvazinət və mütəhərriklik) anadan olur. Bu xüsusiyyətlər gələcək fiziki (Cədvəl 1.1) və psixi inkişafın yalnız əsasını təşkil edir.

| Aylar | Çəki | | Boy | |
|---|---|---|---|---|
| | Oğlanlar (kq-la) | Qızlar (kq-la) | Oğlanlar (sm-lə) | Qızlar (sm-lə) |
| Anadan olanda | 3,400 | 3,200 | 51,0 | 50,0 |
| 1-ci ayın axırında | 4,010 | 3,760 | 53,9 | 52,9 |
| 2-ci ayın axırına | 4,850 | 4,610 | 57,0 | 56,6 |
| 3-cü _______ | 5,630 | 5,270 | 60,1 | 58,8 |
| 4-cü _______ | 6,360 | 5,970 | 62,1 | 61,0 |
| 5-ci _______ | 7,060 | 6,600 | 64,4 | 63,1 |
| 6-cı _______ | 7,650 | 7,190 | 66,3 | 65,0 |
| 7-ci _______ | 8,090 | 7,550 | 67,7 | 66,2 |
| 8-ci _______ | 8,090 | 7,550 | 67,7 | 66,2 |
| 9-cu _______ | 8,890 | 8,210 | 70,7 | 68,8 |
| 10-cu _______ | 9,230 | 8,620 | 71,4 | 70,7 |
| 11-ci ay _______ | 9,420 | 8,880 | 72,6 | 71,1 |
| 12-ci ay _______ | 9,840 | 9,120 | 74,4 | 72,8 |

**Cədvəl 1.1. Birinci ilin fiziki inkişaf göstəriciləri**

Uşağın həyatının ikinci ilində onun fiziki və psixoloji inkişafı yüksək templə davam edir. İki yaşlı uşağın çəkisi, orta hesabla, 12–13 kq, boyu isə 85–86 sm olur. İki il ərzində uşaq boyu 20 sm, çəkisi isə 4–4,5 kq artır. Müşahidələr göstərir ki, uşağın həyatında baş verən dəyişmələr 3 yaşına nisbətən, 2 yaşında daha intensiv olur. Beləliklə, müəyyən vərdişlərin əmələ gəlməsi üçün qıcıqlandırıcıların müəyyən dərəcədə təkrar və ardıcıl tətbiqi tələb olunur. Müəyyən olunmuş plan üzrə həyata keçirilən təmrinlər belə qıcıqlandırıcı hesab olunur. Xüsusi məşğələlərin keçirilməsi zamanı uşaqların sərbəst hərəkət fəaliyyəti üçün şəraitin yaradılması mərkəzi sinir sistemi və nəticə etibarı ilə psixoloji və hərəki vərdişlərin inkişafına zəmin yaradır.

Həyatının ikinci ilində uşaq mürəkkəb hərəkət aktına – yeriməyə yiyələnir və ilin axırında artıq qaçmağa başlayır. Həyatının üçüncü ilində uşaqlarda tullanmağa hazırlıq hərəkətləri meydana çıxır və ilin axırında onlar irəliyə doğru hərəkət etməklə tullana bilirlər.

Üçyaşlı uşaqlar sərbəst hərəkət fəaliyyəti həyata keçirməyə başlayırlar.

Erkən və məktəbəqədər yaşlı uşaqlarda fiziki inkişaf əsas göstəricilərin - boy və bədən çəkisi, baş çevrəsi və döş qəfəsinin fasiləsiz artması ilə səciyyələnir. Fiziki təmrinlərin müsbət təsiri yalnız uşaqların fiziki inkişafında deyil, həm də bədən quruluşunun

yaxşılaşmasında özünü göstərir.

Üç yaşa qədər dövrdə fiziki mədəniyyət məşğələləri bir neçə (3-6 uşaq) uşaq və ya yarımqrupla keçirilir. Bir yaşa qədər dövrdə fiziki fəaliyyətlərin əsas vasitələri masaj, gimnastika, möhkəmləndirmə prosedurları, üzgüçülük, 1-3 yaşda səhər gimnastikası və gigiyenik gimnastika, möhkəmləndirmə hərəkətləri, üzgüçülük, hərəkətli oyunlar və gəzintidir. Bu yaşda uşaqlarla ümumi inkişafetdirici hərəkətlər əvvəlcədən nümayiş edilmir və fəaliyyət uşaqlarla birlikdə həyata keçirilir. Körpə uşaqlar çox impulsivdir və gözləyə bilmirlər. Hər hərəkət yerinə yetirilərkən onun səsləndirilməsi uşağa onu yada salmaq və yerinə yetirməyə kömək edir. Müəllimin səs tonu mülayim və müraciət forması yaşa uyğun olmalıdır.

**3–6 yaşlı uşaqların fiziki inkişaf xüsusiyyətləri**

3–4 yaşdan etibarən sümük toxumalarının əmələ gəlməsi prosesi başlayır. Skeletin sümükləşməsi prosesi tədricən bütün uşaqlıq dövrünü əhatə edir.

Məktəbəqədər dövr ərzində uşaqların fiziki hazırlığı və hərəki fəallığının fiziki inkişafdan asılılığının dəyişməsi baş verir: kiçik məktəbəqədər yaş dövründə (3–4 yaş) fiziki inkişaf orqanizmin funksional təkmilləşməsində əsas rol oynayır; böyük məktəbəqədər yaş dövründə (5–6 yaş) onun rolu azalır, lakin yenə əhəmiyyətli dərəcədə qalır; fiziki hazırlığın rolu artır, bu da fiziki mədəniyyət prosesində fəal pedaqoji təsirin əhəmiyyətini artırır.

Altıyaşlıların fiziki mədəniyyət məşğələlərinin düzgün təşkil edilməsi üçün uşaq orqanizminin fiziki inkişaf xüsusiyyətlərini bilmək lazımdır. Həyatın altıncı ilində uşaqların fiziki inkişafında çox mühüm dəyişikliklər baş verir. Uşağın bədəninin çəkisi hər ay təxminən 200 qram, boyu isə 0,5 santimetr artır və bədənin mütənasibliyində ciddi dəyişikliklər baş verir. Onun boyu 115–116 santimetr, çəkisi 21,5–22 kiloqram və döş qəfəsinin dairəsi 56-57 santimetrə çatır. Buna müvafiq olaraq, altıyaşlıların fiziki mədəniyyət proqramında qarşıya sağlamlaşdırıcı, təlimedici və tərbiyəedici vəzifələr qoyulur. Beləliklə, altıyaşlıların fiziki inkişaf xüsusiyyətlərinin (Cədvəl 1.2) nəzərə alınması onlarla aparılan fiziki mədəniyyət işinin əsasını təşkil edir. Buna müvafiq olaraq, məktəbəhazırlıq qruplarında altıyaşlıların fiziki tərbiyəsinin qarşısına təlimedici və tərbiyəedici (Cədvəl 1.3) vəzifələr qoyulur.

| **Göstəricilər** | | **Yaş** | | |
|---|---|---|---|---|
| | **3** | **4** | **5** | **6** |
| Qızlar | | | | |
| Çəki (kq-la) | 13,8–17,1 | 16,8–19,8 | 17,5–22,0 | 19,9–25,0 |
| Boy (sm-lə) | 96,0–104 0 | 103–110,0 | 109,0–116,0 | 115,0–123,0 |
| Oğlanlar | | | | |
| Çəki (kq-la) | 4,7–17,5 | 16,0–20,1 | 18, –22,9 | 20,0–25 0 |
| Boy (sm-lə) | 99,0-106,0 | 105,0–111,0 | 109,0-118, | 115,0–125,0 |

**Cədvəl 1.2. Uşaqların yaşına uyğun çəki və boy göstəriciləri**

| Yaş | Hərəki fəaliyyəti |
|---|---|
| 3–4 yaş | Qaçır, bir və hər iki ayağı üstə hoppanır, dırmaşır, topu atır və tutur, üçtəkərli velosiped sürür və bir neçə hərəkəti ardıcıl şəkildə yerinə yetirir. |
| 5 yaş | Hərəkətləri dəqiq və sürətli olur. Hərəkətin tempini saxlayır, istiqamətini müəyyənləşdirir və oyun zamanı tez-tez dəyişən ardıcıl hərəkətləri yerinə yetirir. |
| 6 yaş | Qaçaraq irəli və hündürlüyə tullanır, ip üzərindən tullanır, kanat və nərdivana dırmaşır, uzağa və hədəfə atır. İkitəkərli velosiped sürür və üzür. Hərəkətləri axıcı və dəqiq yerinə yetirir. |

**Cədvəl 1.3. Uşaqların yaşlarına uyğun hərəki fəaliyyətlər**

### Fiziki tərbiyə məşğələlərinə hazırlıq

Fiziki mədəniyyət məşğələsinin yüksək səmərə verməsi üçün qarşıya bir sıra tələblər qoyulur. Bu tələblər aşağıdakılardan ibarətdir:

- Zal və ya idman meydançasının hazırlanması;
- Məşğələ planının düzgün tərtib olunması;
- Tərbiyəçi-müəllimin məşğələyə hazırlığı;
- Məşğələnin təşkili;
- Məşğələnin keçirilmə metodikası.

Tərbiyəçiyə verilən tələblər:

- Fiziki hərəkətlərin nümayişi zamanı müxtəlif təlim metodlarından istifadə etməlidir;
- Uşaqların hərəkətləri və əhval-ruhiyyəsinə nəzarət etməlidir;
- Nitq mədəniyyəti və mülayim səs tonuna malik olmalıdır;
- Nəzakətli və xoş əhval-ruhiyyədə olmalıdır;
- Məşğələni düzgün yekunlaşdırmalıdır.

Fiziki mədəniyyət məşğələsi bir-biri ilə qarşılıqlı əlaqədə olan üç hissədən ibarətdir: giriş, əsas və yekun hissə. Bu məşğələlərdə sağlamlaşdırıcı, tərbiyəedici və təlimedici vəzifələr yerinə yetirilir.

Fiziki mədəniyyət məşğələsinin giriş hissəsində əsas vəzifələr uşaqlarda məşğələyə maraq oyatmaq, onların əhval-ruhiyyəsini yüksəltmək, uşaqların diqqətini cəmləşdirmək və onların hazırlıq dərəcəsini yoxlamaq, beləliklə də onları məşğələnin əsas hissəsinə hazırlamaqdan ibarətdir.



**Şəkil 1.6. Giriş hissəsi**

Giriş hissəsində (Şəkil 1.6) yerimə, qaçma, pəncə və daban üstündə gəzmə və qrupun istiqamətini dəyişməklə gəzmə və qaçma,

ilanvari yeriş, cütlərlə gəzmə, əşyalar arasında bir-birinin ardınca və dağınıq halda gəzmə və digər hərəkətlər yerinə yetirilir. Bunlarla yanaşı, giriş hissəsində tərbiyəçinin işarəsi ilə diqqəti inkişaf etdirən cərgə və dairədə düzlənmək, yeriş zamanı tək cərgədən iki cərgə olmaq, dağınıq qaçışdan sonra öz yoldaşını tapmaq, manqa ilə düzlənmək və digər hərəkətlər yerinə yetirilməlidir. Giriş hissənin müddəti kiçik qrupda 2–4 dəqiqə, orta qrupda 3–5 dəqiqə, böyük qrupda isə 4–6 dəqiqə olmalıdır.

Əsas hissədə qarşıya qoyulan (Şəkil 1.7) vəzifələr uşaqların fiziki hazırlığının inkişaf etdirilməsi üçün onlara fiziki hərəkətlərin öyrədilməsi və hərəkətli oyunların keçirilməsindən ibarətdir.



**Şəkil 1.7. Əsas hissə hərəkətləri**

Əsas hissədə əvvəlcə ümumi inkişafetdirici hərəkətlər yerinə yetirilir. Ümumi inkişafetdirici hərəkətlər növbə ilə – əvvəlcə əl və çiyin qurşağı əzələləri, sonra isə gövdə və ayaq əzələləri üçün yerinə yetirilir. Onların sayı kiçik və orta qruplarda 3–5, böyük və məktəbəhazırlıq qruplarında 5–6 hərəkət ola bilər.

Ümumi inkişafetdirici hərəkətlərdən sonra əsas hərəkətlər yerinə yetirilir. Bu hərəkətlərə yerimə, qaçma, tullanma və s. daxildir. Bir qayda olaraq, öyrənmə üçün məşğələnin əsas hissəsinə mühüm hərəkətlərdən bir-ikisi daxil edilir. Bu hərəkətlərlə birlikdə əvvəllər öyrənilmiş əsas hərəkətlər də təkrar oluna bilər, məsələn, ipin altından keçdikdən sonra ensiz taxtanın üstündən aşıb keçmək.

Əsas hərəkətlər yerinə yetirildikdən sonra uşaqlarda emosional və fizioloji təsiri gücləndirən hərəkətli oyunlar təşkil olunur. Burada bütün uşaqların iştirak etməsi vacibdir. Əsas hissədə istifadə olunan hərəkətlər bunlardır: atma, dırmanma, tullanma, qaçış və yeriş.

Əsas hissənin müddəti orta qrupda 15–18 dəqiqə, böyük qrupda 20–22 dəqiqə, məktəbəhazırlıq qruplarında isə 25–28 dəqiqə ola bilər.

Əsas hissədən sonra yekun hissə gəlir. Yekun hissədə məqsəd uşağın orqanizmini yaranmış həyəcanlı vəziyyətdən (ürək döyüntülərinin tezləşməsi, sürətli tənəffüs və s.) çıxarmaq və onu tədricən daha sakit vəziyyətə gətirməkdən ibarətdir. Bu məqsədlə bir-birinin ardınca və xaotik yeriş zamanı tənəffüs hərəkətləri yerinə yetirilir. Bəzi hallarda bu, yeriş və az hərəkətli oyunla əvəz edilir. Məşğələnin sonunda tərbiyəçi məşğələni yekunlaşdıraraq uşaqların başqa fəaliyyət növünə keçməsini təşkil edir.



**Şəkil 1.8. Ümumiləşdirici hissə**

Yekun hissənin (Şəkil 1.8) müddəti orta qruplarda 2–3 dəqiqə, böyük qruplarda isə 3–4 dəqiqə ola bilər. Fiziki mədəniyyət məşğələsinin hər üç hissəsi (giriş, əsas və yekun) arasındakı bu bölgü şərtidir.

Məşğələnin təşkilinə aid nümunələr aşağıda verilmişdir.

***Nümunə məşğələ 1.***
Standartlar: 1.3.1., 1.3.2.
Mövzu: Hərəkət sürətinin inkişaf etdirilməsi
Məqsəd:

- Fiziki hərəkətlərin yerinə yetirilməsində sürət nümayiş etdirir;
- Siqnala əsasən tez hərəkət edir;
- Məkanda düzgün istiqamət götürə bilir.

İnteqrasiya: 2.3.1., 4.3.2.
İş formaları: Qrup və kollektiv.
Metodlar və qaydalar: Suallar və hərəkətli oyunlar.
Resurslar: Uşaqların sayına görə bayraqcıqlar, toplar və oyun məkanını işarə etmək üçün ləvazimatlar (qaytanlar, kubiklər və s.)

Məşğələnin gedişi
I. Giriş hissə (1-2 dəq.) - adi yeriş, pəncələr və dabanlar üzərində yeriş, dizləri hündürə qaldırmaqla yeriş, adi qaçış, siqnalla sürətli və yavaş qaçış.
Tənəffüsün bərpa olunması üçün tənəffüs hərəkətləri:

- Əlləri yuxarı qaldırmaq, nəfəs almaq–buraxmaq (4-5 dəfə);
- Yavaş yeriş (sonunda uşaqlar 2 sıraya düzlənirlər).

Motivasiya və ya aktuallaşdırma. Sürətli hərəkət etmək nə üçün lazımdır? Hərəkətlərin tezliyi hərəkətli oyunlar zamanı uşaqlara kömək edirmi?
İnformasiya təminatı**.** Uşaqlara məlumat verilir ki, sürətli qaçış onlara hərəkətli oyunlar zamanı kömək edir. Bu gün onlar çoxlu oyunlar oynayacaq və nə qədər sürətlə qaça bildiklərini göstərəcəklər.

II. Hazırlıq hissəsi (5 dəq.)
Ümumi inkişafetdirici hərəkətlər (əşyalar olmadan) (5–7 dəq.)

1. “Saat”. 6 dəfə təkrar etmək.
Hərəkətdən çıxış vəziyyəti (H.Ç.V.):
Əllər düz bədənin yanında
7 – 8 – başı sağa-sola əymək.

2. “Rəflər”. 6 dəfə təkrar etmək
H.ç.v.: Ayaqlar çiyin bərabəri aralı, əllər döş qəfəsinin önündə dirsəklərdən qatlanmış vəziyyətdə və dirsəklər aralı:
1 – 4 – dirsəklərdən qatlanmış əllərlə yana doğru yumşaq dartınmalar;
5 – 8 – yanlara açılmış əllərlə yanlara doğru yumşaq dartınmalar.

3. “Dəyirman”. Hər ayaqla 6 dəfə təkrar etmək

H. ç.v.: ayaqlar çiyin bərabəri aralı və əllər yanlarda:
H. ç.v.: ayaqlar çiyin bərabəri aralı və əllər yanlarda:

1 – 2 – əyilmək və sağ əlin barmaqları ilə sol ayağın pəncəsinə toxunmaq;
3 – 4 – əyilmək və sol əlin barmaqları ilə sağ ayağın pəncəsinə toxunmaq.

4. “Qozları yığ.” 6–8 dəfə təkrar etmək
H. ç.v.: dabanlar üstə oturmaq və əllər öndə:
1 – dizlər üstə qalxmaq və əlləri yanlardan yuxarı qaldırmaq;
2 – sağ tərəf və döşəməyə oturmaq və əlləri aşağı salmaq;
3 – dizlər üstə qalxmaq və əlləri yanlardan yuxarı qaldırmaq;
4 – sol tərəf və döşəməyə oturmaq və əlləri aşağı salmaq.

5. “Velosiped”. 8 dəfə təkrar etmək
H. ç.v.: arxası üstə uzanmaq və əllər başın arxasında və ayaqlar irəli uzadılıb:
1 – 8 – ayaqları irəli fırladaraq velosiped sürməyi təqlid etmək.

6. “Supermen”. 6 dəfə təkrar etmək
H. ç.v.: “dörd ayağı” (əllər və ayaqlar) üstə dayanmaq:
1 – 4 – sağ əli və sol ayağı döşəməyə paralel olaraq uzatmaq;
5 – 8 – sol əli və sağ ayağı döşəməyə paralel olaraq uzatmaq.

7. “Dartınmalar”. 5 dəfə təkrar etmək
H. ç.v.: Ə.D., əllər bədənin yanında:
1 – 4 – pəncələr üzərində qalxmaq və əlləri yanlardan yuxarı qaldıraraq dartınmaq;
5 – 8 – yavaş-yavaş h.ç.v.-nə qayıtmaq.
Hazırlıq hərəkətləri
1. Yerində qaçış;
2. Dizləri hündürə qaldırmaqla yerində qaçış;
3. “Qurbağa” – dərin oturma vəziyyətindən tullanma;
4. Siqnalla istiqaməti dəyişməklə yana “dördayaqlı” qaçış (üzü və ya arxası dairəyə tərəf).

III. Əsas hissə
1. “Qarğalar və sərçələr” hərəkətli oyunu (Şəkil 1.9). Uşaqlar iki komandaya bölünürlər: “Qarğalar” və “Sərçələr”. Zalın əks tərəflərində komandalar üçün “evciklər” qeyd olunur. Ortadan xətt çəkilir. Uşaqlar xəttin üzərində arxa-arxaya dayanırlar. “Qarğalar” siqnalı ilə həmin komandadan olan uşaqlar arxaya çevrilir və “Sərçələr” komandasının uşaqlarını “dimdikləməyə” başlayırlar, “sərçələr” isə mümkün qədər tez öz “evciklərinə” qaçmalıdırlar və əksinə. Hər dəfə sonda tutulmuş “sərçələr” və “qarğaların” sayı hesablanır.


**Şəkil 1.9. “Qarğalar və sərçələr” oyunu**

**Qeyd:** Rəqib komandaların oyunçularını müxtəlif çıxış vəziyyətlərində tutmaq olar (pəncələr üzərində oturaraq, uzanmış vəziyyətdə və s.).

2. “Kimin adı çəkildi, topu o tutur” hərəkətli oyunu. Uşaqlar meydançada sərbəst gəzişirlər. Aparıcı seçilir. O, zalın mərkəzində dayanır. Aparıcı əlindəki topu yuxarı atır və oyunçunun adını çəkir. Adı çəkilən oyunçu top yerə düşmədən onu tutmalıdır (Şəkil 1.10).




**Şəkil 1.10. “Kimin adı çəkildi, topu o tutur” oyunu**

3. “Özünə tay tap” azhərəkətli oyunu. Oyun üçün oyunçuların sayı qədər bayraqcıqlar hazırlamaq lazımdır. Bayraqcıqların yarısı bir rəngdə, digər yarısı isə başqa rəngdədir. Uşaqların hərəsinə bir bayraqcıq verilir. Müəllimin siqnalı ilə (məsələn, bir dəf zərbəsi) uşaqlar zalda gəzişməyə başlayırlar. Digər siqnaldan sonra (iki dəf zərbəsi) eyni rəngli bayraqları olan uşaqlar özlərinə tay tapırlar.

**Qeyd:** Oyunda cüt sayda deyil, tək sayda oyunçular iştirak etməlidirlər ki, uşaqlardan biri tək qalsın. Bütün oyunçular tək qalan uşağa müraciətlə oxuyurlar:

- Lalə (*və ya başqa uşaq adı*), bir tez olsana;
- Özünə tay tapsana.

IV. Yekun hissə (3 dəq.)

Bərpaedici hərəkətlər

“Toplar” hərəkəti. “Toplar boşaldı!” siqnalı ilə bədən və əl-ayağı boşaltmaq, aşağı əyilmək lazımdır ki, əllər sərbəst halda yellənsin. “Topları şişirdirik!” siqnalı ilə əzələləri tədricən gərginləşdirərək ayağa qalxmaq və əlləri yuxarı qaldırmaq lazımdır. Hərəkəti 2–3 dəfə təkrar etmək lazımdır.

“Meymunlar kimi dartınaq”:

1. Növbə ilə hər iki ayağa tərəf əyilmək.
2. Bədəni irəli verərək dartınmaq.
3. Əllər və ayaqlarla müxtəlif istiqamətlərə dartınmaq.
4. Ayaqları yuxarı qaldırmaq və onları silkələmək.
5. Yeriş və tənəffüs hərəkətləri.

V. Refleksiya.

Müəllim uşaqlardan soruşur: Hansı oyunlar onların daha çox xoşuna gəldi? Hansı oyunlarda onlar daha tez hərəkət edirdilər?

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Üç yaşa qədər dövrdə fiziki mədəniyyət məşğələləri bir neçə (3–6 nəfər) uşaq və ya yarımqrupların üzvləri ilə keçirilir. Səbəbini müəyyən edin.
2. Qrup işi. Cədvəl 1.1-ə görə uşaqların yaş xüsusiyyətlərinə uyğun olan fiziki fəaliyyətlərin əsas vasitələrini müəyyənləşdirin.
3. Qrup işi. 1–3 yaş dövründə uyğun fiziki mədəniyyət məşğələlərinin əsas vasitələrini yaş dövrünün xüsusiyyətlərinə uyğun qruplaşdırın.

| Yaş | Vasitələr |
|---|---|
| 1–2 yaş | |
| 2–3 yaş | |

4. Cədvəl 1.2 və cədvəl 1.3-dən istifadə edərək aşağıdakı formanı doldurun:

| Yaş | Çəki | Boy | Fəaliyyət |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

5. "Akvarium" üsulundan istifadə edərək “Yaş xüsusiyyətlərinə görə fəaliyyətlərin müəyyənləşdirilməsi” mövzusunda müzakirə aparın.



6. Şəkildə göstərilən hissənin məşğələnin hansı mərhələsinə aid olduğunu müəyyən edin:
7. Qrup işi. 1-3 yaşlı qruplar üçün məşğələ nümunəsi hazırlayın.
8. Qrup işi. 3-6 yaşlı qruplar üçün məşğələ nümunəsi hazırlayın.

9. Aşağıdakı strukturlardan istifadə edərək fərqli fəaliyyət formaları təklif edin:

| Giriş hissə | Əsas hissə | Yekun hissə |
|---|---|---|
| (Emosional tonusun yüksəldilməsi və motivasiya. 2–4 dəq.):<br>• Sırada yeriş;<br>• Qaçış;<br>• Diqqət tapşırıqları;<br>• Pəncə və daban üstə gəzmə;<br>• İstiqamət və aparıcını dəyişməklə gəzmə və qaçma, müvazinət, ilanvari yeriş, cüt-cüt gəzmə, əşyalar arasında bir-birinin ardınca və dağınıq halda gəzmə. | (Əzələlərin məşqi):<br>• İnkişafetdirici tapşırıqlar kompleksi (3–8 dəq.);<br>• Əsas hərəkətlər (1–5 dəq.);<br>• Hərəkətli oyun( 1–4 dəq.). | (Fiziki yükün və emosiyaların azaldılması):<br>• Həyəcanlı vəziyyətdən tədricən daha sakit fizioloji vəziyyətə gətirmək və ya az hərəkətli oyunun keçirilməsi (1–4 dəq.). |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Fiziki inkişafı təşkil etmək üçün yaş xüsusiyyətlərinə uyğun məşğələlər hazırlayır”.**

1. 1–3 yaş xüsusiyyətlərinə aid fəaliyyət növlərini sadalayın.
2. 3–6 yaş xüsusiyyətlərinə aid fəaliyyət növlərini sadalayın.
3. Giriş hissə nəyə xidmət edir?
4. Əsas hissədə yerinə yetirilən fəaliyyətlər hansılardır?
5. Hərəkətli oyunlardan hansı hissədə istifadə olunur?
6. Yekun hissənin keçirilməsində məqsəd nədir?
7. Orta qrup üçün fiziki mədəniyyət məşğələsində istifadə edilən oyun hazırlayın.

## 1.3. Təlim və təlimdən kənar vaxtlarda oyun və idman dəqiqələrindən səmərəli istifadə edir

### Hərəkətli oyunların keçirilməsi metodikası

Hərəkətli oyunlar uşaqların orqanizminin fiziki inkişafı və sağlamlığına hərtərəfli təsir göstərir. Hərəkətli oyunlarda uşaqlarda fəallıq, fərasətlilik, bu və ya digər tapşırığın yerinə yetirilməsi üçün cəsarətlilik, qətiyyətlilik, doğruluq, yoldaşlıq və kollektivçilik kimi mənəvi keyfiyyətlər tərbiyə olunur.

Oyun qaydalarının düzgün yerinə yetirilməsinin tələb olunması uşaqlarda özünüqiymətləndirmə hissini artırır. Belə ki, oyun qaydaları uşağın xarakterində mənəvi keyfiyyətlərin formalaşması və bu keyfiyyətlərin kollektivdaxili, ictimai davranış və uşaqlar arasında münasibətlərdə əks etdirilməsində böyük rol oynayır.

Oyunun məqsədlərə uyğun təşkil edilməsinin böyük əhəmiyyəti var. Oyunun məqsədindən asılı olaraq oyunda vəzifələrin ardıcıl icrası uşaqlar tərəfindən birlikdə və ya kiçik qruplar şəklində yerinə yetirilir.

Hərəkətli oyunlar çox vaxt gəzinti zamanı və ya qrup otağında və məşğələnin sonunda təşkil edilir.

Əsas gəzinti yeri uşaq bağçasının həyətidir. Burada hər qrup üçün xüsusi yer ayrılır və həmin sahə oyunda lazımi avadanlıqlarla təmin edilir. Gəzintilərdə uşaqların müxtəlif oyunları üçün toplar, tor, qaytan, bayraqlar, halqalar və başqa oyuncaqların aparılması zəruridir. Yürüş, dırmanma və hoppanma oyunları üçün təpə və arxdan yıxılmış və sınmış ağac və kötük, tullanma oyunları üçün xırda daşlar və qozalardan istifadə edilə bilər.

Hərəkətli oyunlar qrup otağı və ya idman zalında keçirilə bilər. Bu məqsəd üçün yer genişləndirilməli və stullar divar dibinə çəkilməlidir ki, uşaqların hərəkətlərdə mane yaratmasın. Hoppanma, dırmanma, sürünmə, tullama və müvazinəti saxlama təmrinləri üçün müvafiq oyuncaqlar və vəsaitlərdən istifadə edilməlidir.

Oyun seçildikdə qrup uşaqlarının inkişaf səviyyələri nəzərə alınaraq hərəkətlərin inkişaf etdirilməsi proqramına əsaslanmaq lazımdır. Tərbiyəçi öz qrupunda olan uşaqların fərdi xüsusiyyətlərini bilməli və onların qarşılarına onlarla aparacağı işə aid konkret vəzifələr qoymalıdır.

Oyunun qaydaları kiçik qruplar şəklində uşaqlara oyun prosesində izah edilə bilər.

Orta və böyük qrup üçün olan oyunlarda yürüş və tullanmanın məsafəsi və hoppanma və dırmanmanın hündürlüyü artır. Bu qruplarda cəldlik və dözümlü olmağı təmrin etdirən oyunlar verilir.

Məktəbəhazırlıq qrupunda hərəkətli oyunların əsas hərəkətlərini tək-tək hallardan başqa bütün uşaqlar mənimsəmiş olurlar. Buna görə də hərəkətlərin yüngül, gözəl və inamlı olmasına diqqət yetirilməlidir.

Hərəkətli oyunlar yarış elementlərinə və hərəkətlərə görə növlərə ayrılmışdır. Buna "Bayrağı dəyişdir!", "Lenti kim tez götürər?"," Kim tez çıxar?" və digər oyunlar daxildir. Oyunlar bütün qrup və ya kiçik qruplarla təşkil olunur.

Bütün qrupla oyunlar fiziki mədəniyyət məşğələlərində hərəkətli oyunlar zamanı gəzintidə aparılır. Oyunların çox hissəsi hər gün müxtəlif vaxtlarda kiçik qruplarla keçirilən

oyunlar təşkil edilir.

**Təlim və təlimdən kənar vaxtlarda oyun**

Rollu oyunlar uşaqların sevimli əyləncəsi olmaqla bərabər, həm də onların əsas işidir. Oyun uşaq üçün ilk iradə məktəbidir. Məhz oyunda uşaqlar ilk dəfə könüllü şəkildə müxtəlif tələblərə riayət etməyə başlayırlar, məsələn, əgər rollu oyunda uşaq sərhədçidirsə, onu postda kimsə əvəz etməyincə yerindən tərpənməyəcək, çünki real həyatda sərhədçilər belə hərəkət edirlər. Məktəbəqədər dövrdə 3–4 yaşlı uşaqlar fərdi və 4–5 yaşlılar qrup şəklində sadə və xüsusi qaydası olmayan oyunlara, 5–6 yaşlı uşaqlar isə qrup şəklində qaydalı oyunlara üstünlük verirlər.

Oyun zamanı görmə qabiliyyəti yaxşılaşır və daha çox söz və ifadə yadda qalır. Oynayarkən uşaq həm də hərəkət edir. Əgər uşaq dovşan, siçan, pişik və digər canlıların rolundadırsa, istər-istəməz bu heyvanların hərəkətlərini təqlid edir və böyük motor əzələlər inkişaf edir.

Məktəbəqədər yaş dövrü oyunları iki böyük qrupa bölünür:

- Yaradıcı oyunlar;
- Qaydalı oyunlar.

Yaradıcı oyunlar uşaqların özləri tərəfindən yaradılan oyunlardır. Uşaqlar həyatda müşahidə etdiklərini təsəvvürlərində canlandırmaqla oyun yaradırlar.

Qaydalı oyunlarda isə müəyyən qaydalar mövcud olduğundan uşaqlar bu qaydaları böyüklərin köməyi ilə öyrənirlər. Qaydalı oyunlar mütəhərrik və didaktik olmaqla iki növə ayrılır. Qaydalı oyunların əhəmiyyəti ondadır ki, uşaqlara qaydalara riayət etmək, onları izləmək və s. öyrədilir. Bu, gələcəkdə uşaqlarda həyatda rast gəldikləri digər qaydaların da əhəmiyyətli olması haqqında (məktəbdaxili qaydalar, yol hərəkəti qaydaları və s.) anlayış yaradır.

Qaydalı mütəhərrik oyunlar uşaqların hərəki fəallığını təmin edir. Mütəhərrik oyunlara milli hərəkətli oyunlar, yarışlar və s. aid edilir. Bu oyunlarda uşaqların qarşısında müəyyən hərəkətlər – topu tutmaq, yoldaşa çatmaq və digər ritmik hərəkətləri təkrar etmək tələbi qoyan vəzifələr qoyulur.

Didaktik (öyrədici) oyunların şərti olaraq 3 növü var:

- Oyuncaqlarla (müxtəlif əşyalarla);
- Şifahi və ya sözlü (tapmacalarla);

Stolüstü çap oyunları (üzərində şəkillər olan lotolar, pazllar və şəkillər olan kartlar və s.).

**İdman dəqiqəsi**

Məşğələ zamanı qruplarda intellektual gərginliyin aradan qaldırılması üçün lazım olan prosesdir. İdman dəqiqəsində qısamüddətli fiziki hərəkətlər yerinə yetirilir. Məktəbəqədər təhsil müəssisələrində idman dəqiqələrindən geniş istifadə olunur.

İdman dəqiqələrinin keçirilməsində məqsəd qrupda uşaqların intellektual fəallığının artırılması üçün məşğələ prosesində və məşğələlər arasında (hesablama, nitq inkişafı və s.)

və qısamüddətli aktiv istirahətin təmin edilməsidir. Maksimum hər 10 dəqiqədən bir fəaliyyətin dəyişdirilməsi üçün istifadə olunur. İdman dəqiqələri 1–2 dəqiqə müddətində aparılır. İdman dəqiqələrinin növləri bunlardır:

1. Məşğələnin ikinci yarısında keçirilən idman dəqiqəsi;
2. Əllər və biləklərin əzələlərinin möhkəmləndirilməsi üçün keçirilən idman dəqiqəsi;
3. Səhər saatlarında həyata keçirilən idman dəqiqəsi.

İdman dəqiqəsində həyata keçirilən əsas vəzifələr aşağıdakılardır:

- Yorğunluq və gərginliyin aradan qaldırılması;
- Emosional gərginliyin aradan qaldırılması;
- Ümumi motor bacarıqlarının təkmilləşdirilməsi;
- Nitqlə əlaqələndirilən koordinasiya edilmiş hərəkətlərin inkişaf etdirilməsi.

Musiqi və ritmik hərəkətlər yorğunluğu aradan qaldırır və uşaqların əhval-ruhiyyəsinə təsir göstərir. İdman dəqiqəsinin müxtəlif formaları təklif olunur:

- Hərəkətli oyunlar;
- Əmək fəaliyyətinin təqlid edildiyi idman hərəkətləri;
- İdman hərəkətləri ilə müşayiət olunan yanıltmaclar.

Fərqli məşğələlərdə istifadə etmək üçün idman dəqiqəsi nümunələri aşağıda verilmişdir:

1. “Yavaş-yavaş, yavaş-yavaş *(uşaqlar əlləri ilə göstərirlər)*
Fırlanırlar karusellər. *(hərəkəti göstərirlər)*
Sonra-sonra, sonra-sonra,
Daha tez-tez fırlanırlar. *(hərəkəti göstərirlər)*
Sakit, sakit, tələsməyin, *(hərəkəti göstərirlər)*
Karuseli saxlayın!
Bir-iki, bir-iki,
İndi oyunu saxlayın”.
Uşaqlar şeirdəki feillərin mənasına uyğun hərəkətləri yerinə yetirirlər.

2. “Pişiyim, ay pişiyim, *(güya əllərində pişik var, onu sığallayırlar)*
Tükü parlaq pişiyim. *(təkrar)*
Miyo-miyo edirsən, *(pişik kimi miyoldayırlar)*
Yavaş-yavaş gedirsən”. *(pişik kimi barmaqlarının ucunda yeriyirlər)*
Uşaqlar şeirdəki feillərin mənasına uyğun hərəkətləri yerinə yetirirlər. Müəllim: “Həmişə kömək üçün kimə müraciət edirsiniz?”
“Ağac göyə uzanır *(Qolları yuxarı qaldırıb dartınırlar)*
Günəşə doğru əyilir, *(Uşaqlar qolları yuxarıda pəncərəyə doğru əyilirlər)*
Möhkəm külək əsəndə
Sağa-sola yellənir”. *(Əlləri yuxarıda sağa-sola əyilirlər.)*
Müəllim idman dəqiqəsindən sonra suallarla uşaqlara müraciət edir.

“Külək əsir çəmənlikdə, *(Əllərini yellədirlər)*
Otları da yellədir. *(Əlləri yellədirlər)*
Külək əsir zəmilərdən, *(Əlləri yellədirlər)*
Sünbülləri sağa-sola tərpədir. *(Əlləri yellədirlər)*
Biz qalxırıq təpəyə *(Yerində addımlayırlar)*
Oturub dincəlməyə”. *(Yerlərinə otururlar)*

3. Dovşanım ay, dovşanım
Dovşanım səhər durar, *(əllərini göyə qaldırıb gərnəşirlər)*
Dovşanım əl-üz yuyar, *(əlləri ilə göstərirlər)*
Dovşanım əynini geyər, *(göstərirlər)*
Sonra corabını geyər, *(göstərirlər)*
Sonra çəkməsini geyər, *(göstərirlər)*
Sonra da kürkünü geyər. *(göstərirlər)*
Bax, beləcə oynayar. *(yerlərində dovşan kimi tullanırlar)*
Sən elə şap-şap-şap-şap. *(hamı əl çalır)*
Əgər xoşun gəlirsə,
Sən elə şıp-şıp-şıp-şıp. *(çırtma çalırlar)*
Əgər xoşun gəlirsə,
Sən elə tap-tap-tap-tap. *(ayaqlarını yerə vurular)*
Əgər xoşun gəlirsə,
Başqalarına öyrət! *(sürəti artıraraq hərəkətləri təkrar edirlər)*

4. Siçan
Siçan tez-tez qaçırdı, *(yerlərində qaçırlar)*
Quyruğunu tərpədirdi, *(hərəkəti təqlid edirlər)*
Yumurtanı saldı yerə. *(əyilərək «yumurtanı qaldırırlar»)*
Baxın yumurtanı sındırdı! *(uzadılmış əllərdə «yumurtanı» göstərirlər)*

5. Keçilər
Biz keçilər ailəsiyik,
Hoppanmağı xoşlayırıq, *(yerlərində hoppanırlar)*
Qaçmağı və oynamağı sevirik, *(yerində qaçış)*
Buynuzumuzla vururuq *(iki əlin barmaqları ilə “buynuzlarını” göstərirlər)*

6. Kəpənək
Kəpənək tezdən oyandı, *(qollarını uzadıb gərnəşirlər)*
Gərnəşib, gülümsündü, *(hərəkətləri hər çümləyə uyğun təkrarlayırlar)*
O, əvvəlcə yuyundu;
İkidə qəşəng fırlandı.
Üçdə əyilib, oturdu,
Dörddə isə o uçdu!

7. Çiçəklər
Bizim rəngli çiçəklər;

Ləçəklərin açırlar *(əlləri yuxarı qaldırırlar);*
Meh yavaşca əsəndə *(külək səsi çıxarırlar);*
Sağa–sola yellənər *(sağa-sola əyilirlər);*
Bizim rəngli çiçəklər;
Ləçəklərin bağlayar *(çöməlib əlləri ilə üzlərini gizlədirlər);*
Başlarını yelləyər *(başlarını yelləyirlər);*
Sakitcə yuxulayarlar *(iki əllərini birləşdirib, yanaqlarına qoyur və gözlərini yumurlar).*

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Aşağıda təsviri verilən hərəkətli oyunlar hansı fiziki hərəkətlərin inkişafına xidmət edir? Cavabı cədvəldə qeyd edin:

| Oyunun adı | Təyinatı |
|---|---|
| "Topu torun üstündən at" | |
| "Siçan-Pişik" | |

**"Topu torun üstündən at" oyunu**

Ağaclar və ya idman tirlərinin arasından uşağın sinəsinin hündürlüyündə ip və ya tor bağlanır. Torun hər iki tərəfində ondan 1 metr məsafədə xətt çəkilir. Uşaqlar iki qrupa bölünürlər. Hər qrupdan 4–6 nəfər ayrılır. Onlar bir-birinin qarşısı və xətlərin üzərində dayanırlar. Bir qrupdakı uşaqlara top verilir. Tərbiyəçinin işarəsi ilə onlar topu torun üstündən o biri tərəfdə dayanmış uşaqlara atırlar, onlar isə topu geri atırlar. Beləliklə, topun atılması bir neçə dəfə təkrar olunur. Tərbiyəçi topu yerə salmayan uşaqları qeyd edir. Oyun yenidən təkrar olunur. Topu ən çox yerə salmış qrupun uşaqlarına oyunu birinci başlamaq ixtiyarı verilir.

**"Siçan-Pişik" oyunu**

Uşaqlar əl-ələ tutub dairədə dururlar. Dairənin bir tərəfində iki uşaq əlini aşağı salır – bu, qapıdır. Tərbiyəçi uşaqlardan birini Pişik, digərini isə Siçan təyin edir. Siçan dairənin içərisində, Pişik isə dairənin xaricində dayanır.

Uşaqlar dairə üzrə hərəkət edərək aşağıdakı sözləri deyirlər:

- Pişiyim, ağ pişiyim;
- Tükü parlaq pişiyim;
- Miyov-miyov edirsən;
- Yavaş-yavaş gedirsən;
- Siçanlar səndən qaçır;
- Qorxudan uzaqlaşır;
- Miyov-miyov edirsən;
- Yavaş-yavaş gedirsən.

"Yavaş-yavaş gedirsən" sözündən sonra Pişik Siçanı tutmağa başlayır. Pişik dairəyə yalnız qapıdan girə bilər. Siçan isə həm qapıdan, həm də uşaqların əllərinin altından çıxıb qaça bilər. Pişik Siçanı tutduqdan sonra oyun yenidən təkrar olunur.

2. Aşağıda təsviri verilmiş iki oyunun oxşar və fərqli cəhətlərini müəyyən edin və onları Venn diaqramında göstərin:

**Venn diaqram**



**"Karusel" oyunu**

Uşaqlar dairə təşkil edərək sağ əlləri ilə ucları bir-birinə bağlanmış ipdən tuturlar. Tərbiyəçi əlində dəf dairənin mərkəzində dayanır. Uşaqlar tərbiyəçinin əvvəl aramla, sonra isə tez-tez dəfə vurması ilə dairə üzrə sol tərəfə hərəkət edirlər, yəni karuseldə gəzirlər.

İşarə üzrə uşaqların hamısı dayanır və ipi yerə qoyub müxtəlif istiqamətlərdə qaçışırlar. Şərti işarə ilə (dəfə 3 dəfə vurulmaqla) uşaqlar cəld dairəyə düzülüb ipdən tutmalıdırlar. Kim həmin hərəkəti vaxtında edə bilməsə, bir dəfə bu oyunda iştirakdan kənarlaşdırılır. Sonra uşaqlar istiqamətlərini dəyişdirərək sol əllə ipdən tutub sağ tərəfə hərəkət edirlər.

**"Hiyləgər tülkü" oyunu**

Uşaqlar bir-birindən bir addım aralı olmaqla dairə şəklində düzlənirlər. Dairədən kənarda və otağın (meydançanın) bir tərəfində "Tülkü"nün yuvası müəyyən olunur. Dairədə dayanan uşaqlar gözlərini yumurlar, tərbiyəçi isə dairənin kənarında dolanaraq uşaqların birinə toxunur. Həmin uşaq "Hiyləgər tülkü" olur. Sonra tərbiyəçi uşaqlara müraciət edib gözlərini açmağı və "Hiyləgər tülkü"nü tapmağı təklif edir. "Tülkünü" tapmaq üçün uşaqların hamısı birlikdə "Hiyləgər tülkü, haradasan?" – deyir, ətrafa baxır və bu cümləni üç dəfə təkrar edirlər. "Tülkü" cəld dairənin mərkəzinə gəlir və əllərini yuxarı qaldıraraq "Mən buradayam" deyib uşaqları tutmağa başlayır. "Tülkü" tutduğu uşağı yuvasına aparır. 2–3 uşaq tutulduqdan sonra tərbiyəçi "Hamı dairəyə" deyə uşaqları səsləyir. Oyunçular yenidən dairə təşkil edir və yeni "tülkünün" seçilməsi ilə oyun təzədən başlanır.

3. Aşağıda verilən hərəkətli oyunların fiziki mədəniyyət məşğələsinin hansı mərhələsində keçirildiyini müəyyən edin və səbəbini izah edin:

**"Tilov" oyunu**

Uşaqlar bir-birindən bir addım məsafədə və dairə şəklində dururlar. Tərbiyəçi ucuna kiçik qum kisəciyi bağlanmış bir ipi əlində tutub dairənin mərkəzində dayanaraq onu dairə boyunca (uşaqların ayağı altında) hərlədir. Bu, tilovdur. Tərbiyəçi ipi hərlədərkən uşaqlar hoppanırlar. Tilov kimin ayağına dəyərsə, o, oyundan müvəqqəti kənar edilir. Az fasilədən sonra oyun yenə təkrar olunur.

**"Ayılar və arılar" oyunu**

Oynayan uşaqların bir neçəsi "Ayılar"ı, qalanları isə "Arılar"ı təmsil edirlər.

Otağın (meydançanın) bir tərəfində kiçik nərdivan qoyulur. Bura "Arılar"ın yuvası – pətəyidir. Nərdivandan 3–4 metr aralı məsafədə "Meşə", o biri tərəfdə isə 5–10 metr məsafədə "Çəmənlik" təyin olunur.

"Arılar" nərdivanın pillələrində oturur. Bu, "Arı pətəyi"dir. Tərbiyəçinin işarəsi üzrə "Arılar" çəmənliyə uçaraq vızıldaşır. "Arılar" uçan kimi "Ayılar" bal yemək üçün nərdivana ("Arı pətək"inə) dırmaşır. Tərbiyəçinin "Ayılar gəldi" sözləri ilə "Arılar" nərdivana tərəf uçur və vaxtında meşəyə qaça bilməyən "Ayılar"ı sancır (əl ilə toxunur).

"Arı"nın sancdığı "Ayı" nərdivana – "Arı pətək"inə tərəf getməməlidir.

Oyunu 2–3 dəfə təkrar etmək olar. Uşaqların rollarının dəyişdirilməsi ilə oyunun yenidən başlanılması mümkündür.

4. Qaydalı oyunu (xalq oyunu) aşağıdakı şərtlərə uyğun planlaşdırın.

Tərbiyəçi qrupları yarımqruplara bölmək, rolları bölüşdürmək və uşaqlardan başçı və aparıcı seçməyə diqqətlə yanaşmalıdır. Oyunun keçirilməsi üçün aşağıdakılar planlı surətdə nəzərə alınmalıdır:

- Tərbiyəçinin oyunun keçirilməsinə hazırlığı;
- Oyunun keçirilməsi;
- Oyunun yekunlaşdırılması.

Oyunun düzgün təşkil edilməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:

- Tərbiyəçinin qarşıya məqsəd qoyması;
- Oyunda iştirak edəcək uşaqların sayı;
- Oyunun keçirilmə vaxtı;
- Oyunun keçirilmə yeri;
- Hava şəraiti və onun temperaturu;
- Vəsait və avadanlığın əldə edilməsi.

**"Əl üstə kimin əli" oyunu**

Uşaqlar stullar və ya xalçanın üstündə dairəvi şəkildə otururlar. Həmin uşaqlardan 4-5 nəfəri dairənin mərkəzində dayanırlar. Tərbiyəçinin göstərişi ilə uşaqlardan biri tapıcı təyin edilir. Həmin uşaq belini bir qədər də qabağa əyərək əlləri ilə dizinə söykənir. Qalan digər dörd nəfər uşaq isə əllərini bir-birinin üstü və tapıcının kürəyinə qoyurlar. Tərbiyəçi həmin dörd uşaqla birlikdə "Əl üstə kimin əli?" deyə tapıcıya sual verir.

Tapıcı əl üstə kimin əli olduğunu düzgün müəyyən etsə, qalib hesab edilir. Adı tapılan uşaq isə tapıcını əvəz edir. Tapıcı suala düzgün cavab verməsə, uşaqların arzusu ilə ya rəqs etməli, ya da mahnı oxumalıdır.

5. Qrup işi. Didaktik (öyrədici) oyunların şərti olaraq 3 növü var. Bu növlərə uyğun oyunlar tərtib edin.

6. Mühazirədə verilmiş idman dəqiqələrini təhlil edin və uyğun növləri qruplaşdırın.

7. Mühazirədə idman dəqiqələrini təhlil edin və vəzifələrinə uyğun qruplaşdırın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim və təlimdən kənar vaxtlarda oyun və idman dəqiqələrindən səmərəli istifadə edir”.**

1. Oyunların neçə növü var? Hansılardır? Sadalayın.
2. Hərəkətli oyunların keçirilməsində məqsəd nədir?
3. Hərəkətli oyunlar nə zaman keçirilir?
4. Təlim prosesində hansı oyunlardan istifadə edilir?
5. Gəzinti zamanı hansı oyunlardan istifadə edilir?
6. İdman dəqiqəsinin əsas vəzifələri hansılardır?
7. İdman dəqiqəsinin növləri hansılardır?
8. İdman dəqiqəsinin hansı formaları var?
9. Qaydalı mütəhərrik oyunlar uşaqların hansı hərəki fəallığını təmin edir?

## 1.4. Çeviklik və cəldliyi təmin etmək üçün təmrin və mümarisələr hazırlayır

### Ümumi inkişafetdirici hərəkətlər

Fiziki mədəniyyət məşğələlərinin hazırlıq hissəsində ümumi inkişafetdirici hərəkətlər yerinə yetirilir. Həmin hərəkətlər ayrı-ayrı əzələ qruplarına təsir edir və oqranizmi qarşıdakı tədris yükünə hazırlayır, lakin belə hərəkətlərin icrasına bəzən çox vaxt sərf etmək lazım gəlir. Buna görə də hazırlıq hissəsi üçün ümumi inkişafetdirici hərəkətlər tərtib edilərkən diqqətli olmaq lazımdır. Bu, əvvəlki məşğələlərdə öyrənilmiş hərəkətlərin təkrar olunması, qazanılmış bacarıq və vərdişlərin qorunub saxlanması və fiziki hərəkət keyfiyyətlərinin müntəzəm inkişaf etdirilməsini təmin edir.

Məşğələnin hazırlıq hissəsinin qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədi ilə sadə, yaxud uşaqların daha tez öyrənə biləcəkləri müxtəlif hərəkətlərdən istifadə olunur.

Hazırlıq hissəsində tətbiq edilən hərəkətlər bunlardır: müxtəlif düzülmələr; yeriş, qaçış və tullanmalar; xüsusi və ümuminkişafetdirici (əşyalarla və əşyasız) hərəkətlər; qollar, gövdə və başın əsas vəziyyətləri, hərəkətləri və bunların bir-biri ilə əlaqələndirilməsi; sadə rəqs elementləri, çox da gərginlik tələb etməyən mütəhərrik oyunlar və s..

**Salamlaşma.** Fiziki mədəniyyət məşğələlərinin ən gözəl və tərbiyəvi cəhətlərindən biri salamlaşmadır. Salamlaşma məşğələnin hazırlıq hissəsində düzülmələrdən sonra aparılmalıdır. Uşaqlarla salamlaşma yalnız yuxarı qruplarda deyil, həmçinin aşağı yaş qruplarında da aparılır. Bu proses yüksək zövq, emosionallıq və xoş təəssüratla həyata keçirilməlidir. Salamlaşma zamanı tələsməməli, səslərdə ümumi ahəngdarlıq, oxşarlıq və uyğunluq olmalıdır. Əlbəttə, deyilənlərə əməl edilməsi tədrisin keyfiyyətini yüksəltmək və məşğələ zamanı uşaqların işlərini asanlaşdırmaq üçün vacib şərtdir.

**Dönmə, yeriş, qaçış və hoppanmalar** (Şəkil 1.11). Məşğələnin hazırlıq hissəsində orqanizmin funksiyasının formalaşmasında diqqətin toplanıb tədris fəaliyyətinə istiqamətləndirilməsində müxtəlif yeriş, qaçış və hoppanma hərəkətlərinin icrası böyük əhəmiyyətə malikdir. Qarşıda duran vəzifələrin həyata keçirilməsində uşaqların ritmik yeriş, qaçış, dönmələr və hoppanmalara tədricən müstəqil yiyələnmələrinə xüsusi diqqət yetirilməli və bunun üçün hər cür şərait yaradılmalıdır.



**Şəkil 1.11. Ümumi inkişafetdirici hərəkətlər**

Kiçik bağçayaşlı uşaqlar düzgün yeriməyi bacarmırlar. Onlar ayaqlarını yerə düzgün qoymur, pəncələr bəzən daxilə, bəzən də xaricə meyil edir. Addımlar bəzən böyük, bəzən də kiçik olur. Bəziləri isə yeriş, qaçış və hoppanmalar zamanı gövdəni düz saxlamır, ayaqları bir-birinə uyğun hərəkət etdirə bilmirlər.

Yeriş, qaçış və hoppanma hərəkətlərinin icra olunması sağlamlıq və estetik baxımdan

ritmik yerinə yetirilməli, qamət düzgün saxlanmalı, gərginləşdirilməməli, baş əyilməməli, addımlar nə böyük, nə də kiçik olmalı və çiyinlər bir qədər arxaya dartılmalıdır. Bundan əlavə əl və ayaqlar bir-birinə uyğun hərəkət etdirilməlidir. Ayaqlar yerdən yüngül götürülməli, yerə yumşaq qoyulmalı və sürtünməməlidir. Yeriyərkən yerə əvvəlcə daban qoyulmalı, sonra isə ağırlıq pəncələr üzərinə keçirilməlidir. Pəncə ilə təkan verdikdən sonra ayaq dizdən bükülməməli, irəliyə daban üstündə yumşaq addım atılmalıdır. Nəhayət, ağırlıq növbə ilə gah pəncə, gah daban üzərinə salınmalıdır.

Qruplarda bir və iki sırada, habelə dairə üzrə sağa, sola, geriyə dönməklə yeriş vərdişləri aşılanır. Pəncə və daban üzərində yerişi növbələşdirməyi uşaqlara öyrətmək lazımdır. Bu hərəkətlərdə əsas məsələ onların yerinə yetirilməsidir.

**Qaçış.** Qaçış əsas hərəkətlərdəndir. Qaçış addımları yüngül, çevik və sürətlə atılmaqla yanaşı, həm də bərabər ölçü və tempdə olmalıdır. Məşğələnin hazırlıq hissəsində də qaçış elementlərinin öyrənilməsi mümkündür. Bunun üçün 8–10 paralel xətt çəkilməli və uşaqlara öyrədilməlidir ki, onlar ayaqları növbə ilə bu və ya digər xəttin üzərinə qoyaraq qaçsınlar. Qaçış vaxtı pəncə, daban və dizlər yuxarı qaldırılmalı, bədən düz tutulmalı və tənəffüsün müntəzəmliyi diqqət mərkəzində olmalıdır.

**Hoppanmalar.** Hoppanmaların məşğələnin hazırlıq hissəsində icra edilməsi uşaqların hərəkət fəaliyyəti və idrak fəallığının artırılması ilə yanaşı, kiçik məktəbəqədər yaşlı uşaqların marağına da səbəb olur və onları əsas hissədə eyniadlı hərəkətlərin yerinə yetirilməsinə hazırlayır. Məhz buna görə də hazırlıq hissəsində müxtəlif növ hoppanmalara geniş yer verilməli və onlar ritm, sürət və xüsusi cəldliklə yerinə yetirilməlidir. Bütün bunlar həmin hərəkətlərin gözəlliyi və estetik imkanlarını daha da artırır.

Hoppanmalar hazırlıq hissədə əşyasız, həmçinin əşyalarla (qısa iplər, toplar və s.) icra edilə bilər.

Ümumi inkişafetdirici hərəkətlərin yerinə yetirilməsi zamanı qarşıya qoyulan vəzifələr:

- Uşaqları fəaliyyətə cəlb etmək, əhval-ruhiyyəsi və emosionallığını yüksəltmək və diqqətini toplayıb əsas məqsədə yönəltmək;
- Məşğələ müddətində icra ediləcək işin məzmunu və xarakteri ilə uşaqları tanış etmək və suallara qısa və aydın cavab vermək;
- Orqanizmi «Qızışdırmaq», onun hərəki fəaliyyətini artırmaq və əsas hissədə yerinə yetiriləcək hərəkətlərə hazırlamaq (Şəkil 1.12);
- Təhsil və tərbiyə vəzifələrinin – uşaqların ideya-siyasi səviyyəsinin yüksəldilməsi məqsədi ilə nəzəri məlumatlar vermək, hərəki fəallığı artırmaq, hərəki keyfiyyətlərini inkişaf etdirmək.



**Şəkil 1.12. İsinmə hərəkətləri**

Hazırlıq hissəsində yerinə yetirilən hərəkətlər bunlardır: müxtəlif düzülmələr; yeriş, qaçış və tullanmalar; xüsusi və ümumi inkişafetdirici (əşyalı və əşyasız) hərəkətlər; qollar, gövdə və başın əsas vəziyyətləri, hərəkətləri və bunların bir-biri ilə əlaqələndirilməsi; sadə rəqs elementləri, çox da gərginlik tələb etməyən mütəhərrik oyunlar və s.

**Düzülmələr.** Məşğələnin hazırlıq hissəsində hərəkətlərin sıxlığının artırılmasında hər hansı bir hərəkətdən digərinə daha tez və sürətlə keçilməsi, xüsusilə, vacibdir. Məlumdur ki, hazırlıq hissəsində yerində və yeriş zamanı bəzi hərəkətlər icra olunur. Əgər uşaqlar idman zalı (meydança) ətrafında bir sırada hərəkət edirlərsə, bu zaman zalın mərkəzinə doğru üç-üç, dörd-dörd və s. komandası verib onları iki-üç sıraya düzməklə, ya da həmin vəziyyətdə sağa (sola) döndərərək ümumi inkişafetdirici hərəkətləri yerinə yetirmək mümkündür. Yaxud da uşaqlar iki və dörd (cüt sıra) sıraya düzülüblərsə, onları üz-üzə döndərib bir-birindən aralamaq şərti ilə kiçik və böyük topları bir-birinə ötürmə hərəkətlərini icra etdirmək olar. Bundan başqa yeriş zamanı yerinə yetirilən ümumi inkişafetdirici hərəkətlərdən, habelə topların bir-birinə ötürülməsindən sıra ilə yerişə keçmək olar, məsələn, uşaqlar üz-üzə deyil, cərgəyə düzülüblərsə, (istiqamətçi tərbiyəçi-müəllimdən sol tərəfdə) onlara aşağıdakı kimi komanda verilir: “Soldan boy sırası ilə zal ətrafında tək sıra ilə marş!” Bu vaxt istiqamətçi öndə olmaqla, əvvəlcə birinci sıradakı dörd uşaq, sonra isə digər sıralar bir-birinin ardınca göstərilən istiqamətdə hərəkət edirlər.

Uşaqların idman zalında lazımi qaydada yerləşdirilmələri və düzlənmələri hazırlıq hissəsinin səmərəli təşkili üçün əsas şərtlərdən biridir. Bəzi tərbiyəçi-müəllimlər uşaqların sıraya və ya cərgəyə düzülməsi qaydalarının yerinə yetirilməsinə o qədər də diqqət vermirlər. Buna görə elə ilk mərhələdən məşğələnin qeyri-mütəşəkkilliyi diqqəti cəlb edir.


**Şəkil 1.13. Düzülmələr**

Düzülmələr, vacib idman hərəkətləri kimi uşaqlara tədrisin lap başlanğıcından öyrədilməli, getdikcə vərdiş halına salınmalıdır. Uşaqlara, ilk növbədə, zalın divarı boyu cərgəyə düzülməyi öyrətmək lazımdır (Şəkil 1.13).

Uşaqlar pəncərədən təxminən 1 m aralı düzlənməli, istiqamətçi zalın yuxarı, tamamlayıcı isə qapı tərəfində durmalıdır. Tərbiyəçi-müəllim cərgənin ortasına yaxın və uşaqlardan 1–2 m aralı dayanmalıdır. Bu zaman istiqamətçi tərbiyəçi-müəllimin sağında, tamamlayıcı isə solunda durmalıdır. Cərgə, yaxud sıraya düzülmələrdə iki cəhətə xüsusi diqqət yetirilməlidir. Əvvəla, uşaqlardan hər kəs sırada öz yerini yaxşı tanımalı, ikincisi, tərbiyəçi-müəllim sıra və ya cərgə qarşısında özü üçün elə yer seçməlidir ki, bütün uşaqlar onu və onun hərəkətlərini yaxşı görə bilsinlər.

Uşaqların zaman və məkanda bələdləşmə vərdişlərinə yiyələnmələrində sıra və cərgəyə düzülmələr xüsusi rol oynayır. Buna görə də düzülmələri həmişə eyni yerdə deyil, zal və ya idman meydançasının müxtəlif sahələrində öyrətmək lazımdır. Düzülmələri əvvəlcə idman zalında uzununa (cərgə və sıraya), sonra zalın baş və aşağı tərəflərində köndələn, daha sonra ortada, diaqonal üzrə və s. öyrətmək lazımdır. Düzülmələrə həyət

şəraitində daha çox diqqət yetirilməlidir, çünki uşaqlar həyətdə təmiz havada özlərini daha sərbəst hiss edirlər. Onların diqqəti tez və asanlıqla yayına bilir. Xarici amillər onların vərdiş etdikləri intizam qaydalarını sarsıdır. Digər tərəfdən, azyaşlı uşaqlar açıq havada çevik hərəkətlər etmək, oyunlar oynamaq və şənlənməyə daha çox meyil göstərirlər.

Tərbiyəçi-müəllim düzülmələri məşq etdirərkən aşağıdakı vəzifələri yerinə yetirir:

- Tapşırıqların yarımqruplarla yerinə yetirilməsini təşkil edir;
- Uşaqların axtarıb-tapma vərdişlərinə yiyələnmələrinə xüsusi diqqət yetirir;
- Düzülmələrin yeri və istiqamətini tez-tez dəyişir;
- Hərəkətlərin icra olunma müddətini tədricən məhdudlaşdırır;
- Hərəkətlərin yerinə yetirilməsi üsullarını yeri gəldikcə dəyişdirir;
- Yarımqruplar arasında tapşırıqların əvvəlcə dəqiq, sonra dəqiq və tez yerinə yetirilməsi uğrunda yarışlar təşkil edir;
- Düzülmə formasını uşaqlar özləri seçirlər, tərbiyəçi-müəllim isə onun yaradıcılıqla yerinə yetirilməsinə nəzarət edir.

Düzülmələr ciddi tələbkarlıqla icra edilməli, uşaqların qarşısında konkret qaydalar və tələblər qoyulmalıdır. Buraya yarımqruplar və ya qrupun zaman və məkana bələdləşmə üzrə tapşırıqlara düzgün yanaşmaları, hərəkətlərin bir-birinə uyğun və dəqiqliklə icra olunması, fərdi və kollektiv hərəkətlərin sürətlə və düzgün yerinə yetirilməsi, habelə uşaqların diqqəti toplamaq və vəziyyəti yaradıcılıqla dəyişməyə hazır olması bacarığı və s. daxildir.

Müşahidələrdən məlum olur ki, qrupda uşaqların sayı təxminən 15–20-dən çox deyilsə, onları dairə üzrə düzləndirib xüsusi və ümumi inkişafetdirici hərəkətləri yerinə yetirmək, habelə mütəhərrik oyunlar keçirmək əlverişlidir.

Dairəvi düzülmədə yerində icra olunan hərəkətlərdən yeriş hərəkətləri və əksinə keçmək asan olur. Eyni zamanda, uşaqlar dairəvi düzülmədə tərbiyəçi-müəllim və yoldaşlarının hərəkətləri necə yerinə yetirmələrini yaxşı görə bilərlər.

Hərəkətlər dairədə icra olunarkən uşaq nümunəsindən istifadə edilməsi tədrisin səmərəliliyinə kömək edir. Bu zaman hərəkəti düzgün yerinə yetirən uşaq mərkəzə çağrılır (məktəbəhazırlıq qrupunda) və hərəkət onun tərəfindən nümayiş etdirilir. Belə bir nümunə uşaqları fəallaşdırır və onların məşğələyə münasibətini yaxşılaşdırır. Uşaqlar fiziki hərəkətləri daha məsuliyyətlə icra etməyə səy göstərirlər. Hərəkəti düzgün icra edə bilməyən uşaqlar dairənin mərkəzinə çağrılıb həmin hərəkətin yerinə yetirilməsini təşkil etmək olar. Bu şərtlə ki, yoldaşları onlara istehza etməsinlər. İşin belə təşkili tərbiyəçi-müəllimin təcrübəli olması və məşğələnin düzgün aparılmasından asılıdır. Məşğələdə belə mühitin yaradılmasının



**Şəkil 1.14. Səmərəli düzülmələr**

həm tərbiyəvi, həm də tədris əhəmiyyəti var. Bu vaxt uşaqlar yoldaşı müşahidə etməklə yanaşı, hərəkətin icrasına dair yarışların keçirilməsində nöqsanları görür, və yeri gəldikcə özlərində yaranmış oxşar qüsurları da aradan qaldıra bilirlər. Ümumiyyətlə, düzülmələrin səmərəli təşkili və keçirilməsində tərbiyəçi-müəllimin təcrübəsi böyük rol oynayır (Şəkil 1.14).

**Tullanmalar**

**Uzun ip üzərindən tullanmaq -** əvvəlcə tullanmaları ipsiz yerinə yetirmək məqsədəuyğundur. Bu hərəkətlər aşağıdakılardır:

1. Əllərin müxtəlif vəziyyətlərində iki ayaqla yerində hündürlüyə tullanmalar. Belə tullanmalar zamanı hündürlük çox olmamalı, təkandan sonra ayaqlar dizdən düzəldilməli, pəncə üzərinə düşməli, düşərkən dizlər bir qədər qatlanmalı, gövdə düz saxlanmalı və tənəffüsdə müntəzəmlik gözlənilməlidir;
2. İlk dəfə (iki-üç dəfə) çox da hündürlüyə tullanmaq olmaz. Tullanma hündürlüyü tədricən artırılmalıdır. Tullanmada bu elementlərin yerinə yetirilməsi tələb olunur: Ayaqlar aralanmalı, birləşdirilməli, ayaqlar dizdən bükülməli, dizlər sinəyə yaxınlaşdırılmalı, əllər isə ayaqlara toxundurulmalıdır;
3. Əşya üzərindən tullanma;
4. İrəliyə doğru iki ayaq üzərində hündürlüyə tullanmalar. Hərəkətin yarış formasında keçirilməsi daha səmərəlidir, çünki bu, bir tərəfdən uşaqların tullanmanın icrasına marağını, digər tərəfdən isə emosionallığını artırır;
5. İp üzərindən tullanmada aşağıdakı ardıcıllığa riayət olunmalıdır:
    - Qaçaraq hündürlüyə ip üzərindən iki ayaqla və təkanla tullanma. Tullanarkən və tullanmadan sonra ayaqlar dizdən bükülməli və yerə düşərkən hər iki ayağın pəncəsi yerə eyni vaxtda dəyməlidir. Tullanma sağdan və soldan köndələninə qaçmaqla da yerinə yetirilməlidir;
    - Yellənən uzun və qısa ip üzərindən hoppanma. Uşaqlar yellənən ipin ortasına yaxın dururlar. İp yelləndirilərək ayağın altına yaxınlaşdırılanda uşaqlar onun üzərindən hoppanırlar. Bu hoppanmalar 3-5 dəfə təkrar olunur. Hərəkət yelləndirilən ipə doğru qaçaraq iki ayaqla hoppanmaqda da icra edilə bilər;
    - Fırlanan ipin üzərindən hoppanma. Yaxşı olar ki, bu hərəkətə fırlanan ipin altından qaçıb keçməklə başlansın. Fırlanan ip sinə səviyyəsinə çatdırıldıqda uşaq onun altından qaçıb keçməlidir. Bu hərəkət əllər bel, yuxarı və yanlarda olmaqla iki-üç uşağın iştirakı ilə edilir. Bundan sonra fırladılan ipin üzərindən yerində hoppanmalar yerinə yetirilir. Belə hoppanmada uşaqların böyür hissəsi fırlanan ipə tərəf olmalıdır. İp bir neçə dəfə fırladıldıqdan sonra uşaqlar onun üzərindən hoppanmağa başlayırlar. Göstərilən hərəkət uşaqlar tərəfindən öyrənildikdən sonra onlar fırlanan ipə doğru qaçaraq iki ayaqla hoppanırlar. Həmin hərəkət fırladılan qısa ipin üzərindən hoppanmaqla icra edilə bilər.

**Əşyanı atmaq**. (Şəkil 1.15) Hərəkətə yerindən kiçik tennis topu atılmaqla başlanıla bilər. Atışa hazırlıq zamanı arxaya mümkün qədər çox əyilməli, ağırlıq sağ ayaq üzərinə

salınmalı, əldə olan top boynun arxasına aparılmalı, sağ ayaq dizdən bir qədər qatlanmalı, sol ayaq düz olmalı, ağırlıq isə dabana salınmalıdır. Atış anında sağ ayaq diz oynağından açılmalı, ağırlıq mərkəzi sol ayağa düşməlidir. Bu vəziyyətdə əl sürətlə irəli doğru aparılmalı və var qüvvə ilə atılmalıdır. Top atılanda qolla birlikdə çiyin də irəli aparılmalıdır. İlk məşğələlərdə topun uzağa atılması məsləhət deyil, çünki bu zaman əzələlərin gərginliyi birdən-birə artır ki, bu da əşyanın atılma texnikasının mənimsənilməsinə mənfi təsir göstərir. Toplarla yerinə yetirilən bu müxtəlif hərəkətlər uşaqlarda sürət, çeviklik və dəqiqliyi artırır.



**Şəkil 1.15. Atma**

**Yerindən uzununa tullanmaq.** Tullanmanın texnikası belədir: Hərəkətdən çıxış vəziyyətində pəncələr üstünə qalxmaq, qolları sərbəst olaraq irəlidən yuxarıya qaldırmaq (bu zaman bədən və qollar geriyə gərilir); sonra qollar öndən aşağı salınmaqla aşağıdan arxaya aparmaq, bu zaman bədəni irəliyə tərəf əymək və önə doğru baxmaq. Uşaq pəncə-daban üzərində durur, yarıoturmuş vəziyyəti alıncaya qədər bədənini bükür, gövdəni irəli əyir; hər iki ayaqla təkan verib qolları yellədici təkan ilə uzununa – irəli tullanır. Uçuş mərhələsində uşaq ayaqları irəli uzatmalı və dabanlar üstündə yerə düşməlidir.

**Tapşırıq səciyyəli oyunlar.** Fiziki mədəniyyət məşğələlərinin əsas hissəsində müxtəlif məzmunlu, sadə və cəlbedici oyunların keçirilməsi uşaqların hərəkət fəaliyyətinin artması və hərəkətlərin intensivliyinin yüksəlməsinə zəmin yaradır. Məşğələnin əsas hissəsi üçün oyunlar seçilərkən tərbiyəçi-müəllim daha 3 cəhətə diqqət yetirməlidir:

1. Oyunlar öyrədici mahiyyət daşımalıdır;
2. Oyunlar uşaqların mənəviyyatı və əxlaqına tərbiyəedici təsir göstərməlidir;
3. Oyunlar uşaq orqanizmini psixoloji və fiziki baxımdan növbəti tədris fəaliyyətinə hazırlamalıdır.

Oyunları təşkil edərkən tərbiyəçi-müəllim onların praktik əhəmiyyəti haqqında uşaqlara nəzəri məlumatlar verməklə yanaşı, onları nizam-intizam və oyun qaydalarına dəqiq əməl etməyə dəvət etməlidir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün oyunun qaydaları aydın izah edilməlidir. Bu prosesdə əyaniləşdirməyə – təlimdə əyaniliyə geniş yer verilməlidir. Əyaniləşdirmə bir tərəfdən tərbiyəvi əhəmiyyət daşıyırsa, digər tərəfdən tədris fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri şərtlərdən biridir. Uşaqları fəallaşdıran, lakin o qədər də böyük fiziki gərginlik tələb etməyən və tapşırıq xarakterli mütəhərrik oyunlara aid bir neçə nümunə verək.

«Diqqətli olun!» oyunu keçirilərkən tərbiyəçi-müəllim oyunu uşaqlara aşağıdakı kimi başa salır: «Mən indi idman zalının hər hansı bir hissəsinə tərəf gedəcəyəm. Siz isə icazəm olmadan və yerinizdən tərpənmədən məni diqqətlə müşahidə edin. Elə ki dayanıb geriyə və sizə tərəf döndüm, onda dağınıq halda mənə tərəf qaçın. Qaçan zaman bir-birinizin qabağına keçməyin və yoldaşlarınızı itələməyin. İki addım məndən aralı və sakit dayanıb verəcəyim tapşırıqlara diqqətlə qulaq asın. Burada əsas məqsəd məsafəyə tez çatmaq deyil, hərəkəti

nizam-intizamla və düzgün yerinə yetirməkdir». Bundan sonra tərbiyəçi-müəllim işarə, yaxud siqnal verir və uşaqlar ona tərəf qaçırlar. Bu oyunda əgər uşaqlar tərbiyəçi-müəllimin işarəsindən əvvəl qaçmağa başlamışlarsa, yaxud deyilən məsafədə dayanmamışlarsa, intizamı pozmuş və məsafə saxlamamışlarsa, hərəkət yenidən təkrar olunur. Oyunun qaydaları tez-tez pozularsa, tərbiyəçi-müəllim hər bir uşağa fərdi yanaşmalı, buraxılmış nöqsanları aradan qaldırmaq üçün onlara kömək göstərməlidir.

«Diqqətli olun!» oyununu bir çox variantlarda aparmaq olar. Oyun tərbiyəçi-müəllimin verdiyi komandalarla da yerinə yetirilə bilər, məsələn, «Mənə tərəf addımla marş!» ("Qaçaraq və tullanaraq"), «Yerində addımla marş!» ("Qaçaraq və tullanaraq"). Belə oyunlar keçirilərkən kiçik məktəbəqədər yaşlı uşaqların düzgün qaçması, tullanması və qamətini düz saxlamasına diqqət yetirmək lazımdır. Bütün bunlar uşaqların qaçış və tullanmaların texnikasına yiyələnmələrinə kömək edir və hər hansı bir obyektə (əşyaya) yaxınlaşmaq bacarığı və bələdləşmə hislərinin inkişafına səbəb olur.

Tərbiyəçi-müəllim qarşıya qoyulmuş aşağıdakı məqsədlərə nail olmalıdır:

1. Ən əvvəl uşaqların nizam-intizama riayət etmələri təmin edilməlidir;
2. Fiziki təmrinlər və mütəhərrik oyunlar tədricən çətinləşdirilməlidir;
3. Düzülmələrin dəqiq, çevik və sürətlə yerinə yetirilməsinə nail olunmalıdır.

Bütün bunlar uşaqlara tərbiyəvi təsir etməklə yanaşı, həm də az vaxt ərzində daha çox hərəkət etmələrinə şərait yaradır. Bundan başqa düzülmələr zamanı gövdə və başın düz tutulması, əl, qol, ayaq hərəkətlərinin ritmik, səlis və bir-birinə uyğun və çevikliklə icra olunmasına da xüsusi diqqət yetirilməlidir. Bu tələblərə əməl olunarsa, uşaqların əhval-ruhiyyəsi və emosionallığı yüksələr, onların məşğələyə həvəsi artar, estetik hisləri və zövqü daha da inkişaf edər.

Qeyd etməliyik ki, sıra və cərgəyə düzülmə hərəkətlərinin düzgün və musiqinin müşayiəti altında yerinə yetirilməməsi uşaqlarda ruh düşkünlüyü və tez yorulmalarına səbəb olur, məşğələyə maraq azalır və uşaqlar tapşırığı lazımi fəallıqla icra etmirlər. Buna görə də qrupların fiziki mədəniyyət məşğələləri musiqinin müşayiəti altında aparılmalıdır.

**Əsas hərəkətlər**

Ümumi inkişafetdirici hərəkətlərdən sonra əsas hərəkətlər yerinə yetirilir. Bu hərəkətlərə yerimə, qaçma, tullanma və s. daxildir. Bir qayda olaraq, öyrənmək üçün hər bir məşğələnin əsas hissəsinə mühüm hərəkətlərdən bir-ikisi daxil edilir. Bu hərəkətlərlə birlikdə əvvəllər öyrənilmiş əsas hərəkətlər də təkrar oluna bilər, məsələn, ipin altından keçdikdən sonra ensiz taxtanın üstündən aşıb keçmək.



**Şəkil 1.16. Əsas hərəkətlər**

Əsas hərəkətlər (Şəkil 1.16) yerinə yetirildikdən sonra uşaqlarda emosional və fizioloji təsiri gücləndirən hərəkətli oyunlar təşkil

olunur. Bu oyunlarda bütün uşaqların iştirak etməsi vacibdir.

Məşğələdə əsas hissənin müddəti körpələr qrupunda 8 dəqiqə, orta qrupda 11 dəqiqə, böyük qruplarda 20 dəqiqə, məktəbəhazırlıq qruplarında isə 23 dəqiqə ola bilər.

Müxtəlif yaş qruplarının bağçanın həyətindəki gəzinti sahələrində onların əsas hərəkətləri üçün (dırmanma, sürünmə, hoppanma, tullanma və s.) vəsaitlərin olmasına çalışılmalı və üç-dörd uşağın eyni vaxtda istifadə edə biləcəyi qədər vəsaitin əldə edilməsi təmin edilməlidir. Kiçik qrupun sahələrində səyyar fiziki vasitələrin (pilləkən, nərdivan, şaquli pilləkən və s.), yelləncəklərin, dirəklərə bərkidilmiş səbətlər, toplar və s. olması da məqsədəuyğundur.

Əsas hissədən sonra yekun hissə gəlir. Yekun hissədə qarşıya qoyulan vəzifələrdə məqsəd uşağın orqanizmini yaranmış həyəcanlı vəziyyətdən (ürək döyüntülərinin tezləşməsi, təngnəfəslik, sürətli tənəffüs və s.) tədricən daha sakit fizioloji vəziyyətə gətirməkdən ibarətdir. Bu məqsədlə bir-birinin ardınca və qarışıq yeriş zamanı tənəffüs hərəkətləri yerinə yetirilir. Bəzi hallarda yeriş hərəkətli oyunla əvəz edilir. Məşğələnin axırında tərbiyəçi məşğələyə qısa yekun vuraraq uşaqların başqa fəaliyyət növünə keçmələrini təşkil edir.


**Şəkil 1.17. Qaməti düz saxlamaqla yeriş**

**Yeriş.** Uşaqlara qamətin düzgün saxlanması ilə iri və sərbəst addımlarla (Şəkil 1.17) yeriş öyrədilir. Həmçinin bu yaşda uşaqlara pəncədaban üzərində addımlarla yeriş, habelə ayaqların yan tərəfləri üzərində yeriş və s. öyrədilir. Kiçikyaşlı uşaqların bir çoxu yeriş zamanı qamətini düzgün saxlamır, ayaqlarını yerə sürtür və dabanlarını yerə bərk vururlar. Bu zaman gövdə silkələnir, yerişin tempi tez-tez dəyişir və ayaqlar yerə düzgün basılmır. Bəzən yerişdə sol (sağ) ayaqla addımlama həyata keçirdikdə sol (sağ) əl də irəli aparılır. Bütün bunlar uşaqlarda əl və ayaqların hərəkətlərinin bir-biri ilə düzgün əlaqələndirilməməsindən irəli gəlir. Bu qüsurların aradan qaldırılması üçün tərbiyəçi-müəllim əvvəlcə uşaqlara yavaş-yavaş və səssiz yeriməyi, sonra isə temp və sürətin artırılması ilə yeriməyi öyrədir. Tərbiyəçi-müəllim bunlara nail olmağa çalışarkən sol (sağ) ayaqla addım atıldıqda sağ (sol) qolun irəli gətirilməsini tələb etməli və buna uşaqların vərdiş etməsinə çalışmalıdır.


**Şəkil 1.18. Qaməti saxlamaqla yeriş**

Yerişlər (Şəkil 1.18):

a – iri addımlarla;

b – adi;

v – əllər beldə;
q – boyun arxasında;
ğ – qollar müxtəlif vəziyyətlərdə;
e – əllər müxtəlif vəziyyətlərdə və beldə;
ə – pəncə-daban üzərində.

Uşaqlar yeriş zamanı bədəni gərginləşdirməməli, çevik və cəld olmalı, addım atdıqda dizləri yüngülcə bükməli, ayağı yerə qoyarkən pəncə ilə dabanı səthə təmas etdirməlidirlər. Bundan əlavə addımlar həddən artıq geniş atılmamalı, ayaq pəncələri nə bayır, nə də daxilə çox meyil etdirilməməli, addımların sürəti isə bərabər və önə doğru olmalı və gövdə düz saxlanılmalıdır. Aramla tənəffüs edilməlidir. Nəfəs mütləq burunla alınıb-verilməli, 2–3 addımdan bir nəfəs alınmalı və 3–4 addımdan bir buraxılmalıdır. Birinci qrupda yerişlər iri və adi addımlarla təlim edilir. Həmin hərəkətlər əllərin müxtəlif vəziyyətlərində də (Şəkil 1.16) icra olunur. Bu cür hərəkətlər əvvəlcə yerində, sonra isə yeriş zamanı öyrədilir. Həmin hərəkətlərin aşağıdakı ardıcıllıqla mənimsənilməsi məsləhətdir:

1. Əllər beldə və boyun arxasında olmaqla yeriş;
2. Əllərin vəziyyətinin ardıcıl olaraq dəyişdirilməsi ilə yeriş (məsələn: «Bir-iki» sayda əllər beldə, «Üç-dörd» sayda əllər boyun arxasında və i.a.);
3. Əllər bel, boyun arxası və çiyinlərdə olmaqla yeriş;
4. Adi yerişin pəncə üzərində yerişlə növbələşdirilməsi (məsələn, 4 sayda adi yeriş növbəti 4 sayda pəncə üzərində yerişlə növbələşdirilir. Bu zaman əllər beldə olmalıdır).

Skamya və digər düz əşyalar üzərində yeriş əsas hissədə əsas hərəkətlərə aid edilir.

**Qaçış**

Qaçış texnikasına yiyələnmək uzun və mürəkkəb prosesdir: Qaçış zamanı bədən gərgin saxlanılmamalı, baş və qamət əyilməməli və çiyinlər sərbəst saxlanmalıdır. Qaçış zamanı ayağın yerə dəyməsi pəncə-daban üstə olmalıdır.

Qaçışa adi yerişdən tədricən sürətli yerişə keçilməklə başlanılmalı, sonra da əksinə, yəni qaçışdan sürətli yeriş və adi yerişə keçilməlidir. Bu zaman uşaqlar müntəzəm tənəffüs etməlidirlər. Hərəkətlər tərbiyəçi-müəllimin sayması ilə icra olunur. Qaçışdan yerişə keçəndə azad yeriş zamanı bədəni sakitləşdirici bir neçə tənəffüs hərəkəti də edilməlidir.

**Qaçışın yerişlə növbələşdirilməsi -** qaçışdan yerişə düzgün, səlis addımlarla və tədricən keçirilməlidir. Bu hərəkət orqanizmi «Qızışdırmaqla» onu məşğələnin əsas hissəsinə hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir.

**«Ləkə vurmaq»**

Bu oyun «Qaçdı-tutdu» oyunu da adlanır. Uşaqlar musiqinin müşayiəti ilə rəqs hərəkətlərini (yanlara, irəli və geri) və müxtəlif gəzişmələri yerinə yetirirlər. Musiqi kəsilən kimi uşaqlar öz yerlərində dayanır, qamətin düzgün saxlanılması şərti ilə əsas duruş vəziyyətini alırlar. Aparıcı tapşırığın necə icra olunması yoxlanır. Kim əsas duruş vəziyyətini düzgün almamışsa, o «Ləkələnir», yəni ona əl və ya topla toxunulur. Oyun bir neçə dəfə

təkrar edilir. Oyunda ləkələnməyən uşaq qalib hesab olunur. Həmin oyun uşaqların idman zalı və ya meydançada müstəqil gəzişmələr ilə də əvəz edilə bilər. Bu zaman tapşırıqlar tərbiyəçi-müəllimin işarəsi, yaxud siqnalı ilə icra olunur.

**«Öz bayrağına doğru».** Uşaqlar 3–5 komandaya bölünməklə sıraya düzülürlər. Komandaların bayraqları müxtəlif rəngdə olur. Tərbiyəçi-müəllim «Dağılın!» komandası verir. Bu zaman kapitanlardan başqa hamı zalda (meydançada) tərbiyəçi-müəllimin tapşırığı və musiqinin müşayiəti ilə müvafiq hərəkətlər edirlər. «Dur!» komandasında uşaqlar dayanaraq gözlərini yumur və yerində düzgün duruş vəziyyəti alırlar (düzgün qamət üçün əvvəl öyrənilmiş hərəkətlərdən biri yerinə yetirilir). Bu vaxt kapitanlar yerlərini dəyişirlər. «Öz bayrağına doğru!» komandasında isə oyunçular gözlərini açır və öz kapitanlarına doğru qaçırlar. Sonra əl-ələ tutub rəqs edirlər. Hərəkətləri düzgün və tez yerinə yetirən komanda qalib gəlir. Oyun 3 dəfə təkrar edilə bilər.

Oyun prosesinin aşağı səviyyədə keçməsinə 3 pedaqoji amil daha mənfi təsir göstərir:

1. Tərbiyəçi-müəllimin nəzəri hazırlığının aşağı səviyyədə olması;
2. Proqramdakı oyunların məzmunu və oyun qaydalarının uşaqlara lazımi səviyyədə çatdırılmaması;
3. Oyunun uşaqların yaşı və fiziki inkişafına uyğun seçilməməsi və maraqsız keçirilməsi.

Oyunun maraqsız və uşaqların yüksək hərəkət fəallığı şəraitində keçirilməməsinə zəmin yaradan əsas səbəblərdən biri də təlim prosesinin birtərəfli aparılması, və tərbiyəçi-müəllim və uşaq arasında qarşılıqlı əlaqənin düzgün təşkil olunmamasıdır. Başqa sözlə desək, uşaqlar oynayır, tərbiyəçi-müəllim isə məşğələ zamanı passiv müşahidəçiyə çevrilir. Tərbiyəçi-müəllimin qeyri-fəallığı şəraitində keçən oyun əslində tərbiyəedici xarakter daşımır, əksinə, uşaqların mənəvi tərbiyəsinə mənfi təsir göstərir. Bu halda uşaqlar kortəbii olaraq yalnız fiziki işlə, yəni fiziki hərəkətlərlə təmin edilirlər.

Kiçik qruplar üçün oyun nümunələri aşağıda verilir:

**Əsas hərəkətlər – yeriş və yürüş**

“Yanıma qaçın!”

Uşaqlar otaq və ya meydançanın üç tərəfində düzülmüş stullarda otururlar.

Tərbiyəçi əks tərəfdə - uşaqların qarşısında dayanır. ”Yanıma qaçın!” çağırışından sonra tərbiyəçinin qarşısında oturmuş uşaqlar durub onun yanına qaçırlar. Tərbiyəçi uşaqlara əl çalmaq, hoppanmaq və rəqs etməyi təklif edir. Sonra uşaqlar qaçaraq öz yerlərinə qayıdırlar. Tərbiyəçi meydançanın o biri tərəfinə qaçır. İndi başqa uşaqlar onun yanına qaçırlar. Oyun iki dəfə təkrar edilir.

**Əsas hərəkət – hoppanma**

“Sərçələr və pişik”

Uşaqlar meydança və ya otağın bir tərəfində düzülmüş alçaq skamyalar, böyük kubiklərin üstü və ya yerə qoyulmuş halqaların içində dayanırlar. Bu, “Sərçələrin dam və ya yuvalarında oturması”nı təsvir edir. Pişik rolunda olan uşaq kənarda oturur. Tərbiyəçinin “Sərçələr, uçun!” siqnalı ilə uşaqlar, yəni ”Sərçələr” “Dam”dan (skamyadan) yerə və ya

“Yuva”larından (halqanın içindən) kənara hoppanır, “Qanadlarını” düzəldir, yəni qollarını yana açır və dağınıq halda otağın hər tərəfinə qaçırlar. Bu zaman “Yatmış pişik” oyanır, ”Miyo-miyo” edərək “Sərçələr”i tutmaq üçün onların dalınca qaçır. ”Sərçələr” özlərini “Pişik”dən xilas etmək üçün qaçıb dam, skamya və ya yuvalarında öz yerlərini tuturlar. “Pişik” tutduğu “Sərçələr”i öz evinə aparır.

**Əsas hərəkətlər – dırmanma və sürünmə**

“Toyuq və cücələr”

Uşaqlar “Cücələr”i, onlardan bir nəfəri “Böyük quş”u, tərbiyəçi isə “Toyuq”u təmsil edir. Otağın (meydançanın) bir tərəfində iplə “Ev” çəpərlənir (İp iki ağac və ya dayaq arasında 40–50 sm hündürlükdə bağlanır). Burada “Toyuq” və “Cücələr” yerləşdirilir. Qarşı tərəfdə “Böyük quş” yuvasında oturur. ”Toyuq” ipin altından keçib dən axtarmağa başlayır. Bir az sonra o, “Qırt-qırt” edərək “Cücələr”ini çağırır. ”Cücələr” ipin altından keçərək “Toyuq”un yanına qaçır və onunla birlikdə meydançada gəzir.

Tərbiyəçinin “Böyük quş gəlir!” siqnalı ilə “Böyük quş”u təmsil edən uşaq “Cücələr”ə tərəf gəlir. ”Cücələr” isə evlərinə qaçır.

Oyun 3–4 dəfə təkrar olunur.

**Müxtəlif hərəkətlərlə oyunlar**

“Siçanlar anbarda”

Otaq və ya meydançanın bir tərəfinə qoyulmuş stullarda –“Yuvalar”da “Siçanlar”ı təmsil edən uşaqlar otururlar. O biri tərəfdə isə 40–50 sm hündürlükdə ip bağlanır. Bura “Anbar”dır. Qarşı tərəfdə isə “Pişik” oturur. “Pişik” rolunu əvvəlcə tərbiyəçi, sonra isə uşaqlar ifa edə bilərlər. ”Pişik” yatır, ”Siçanlar” isə anbara gedir. ”Siçanlar” anbara gedərkən ipə toxunmadan əyilib keçməlidir. Onlar çömələrək qənd və ya başqa şeyləri yeyir. Bu zaman “Pişik” birdən ayılıb miyoldayır və “Siçanlar”ı tutmağa gedir. “Siçanlar” “Pişik”i görüb öz yuvalarına qaçır.

“Pişik” öz yerinə qayıdaraq mürgüləyir və oyun yenidən başlanır.

Oyun 4–5 dəfə təkrarlana bilər.

**Orta qrupda oyun nümunələri**

**Əsas hərəkət – yürüş**

“Ayının yanında”

Otaq və ya meydançanın bir tərəfində xətt çəkilir. Bura “Meşə”dir. Xətdən 2–3 addım aralı “Ayı” üçün yuva təyin olunur. Otağın (meydançanın) o biri tərəfində “Uşaqların evi” xətlə qeyd olunur.

Tərbiyəçi uşaqlardan birini “Ayı” təyin edir. Qalan uşaqların hamısı öz “Evlər”ində dayanırlar.

Tərbiyəçi uşaqlarla ”Gəzməyə gedin” deyir. Uşaqlar “Meşə”yə tərəf gedərək “Çiyələk” və “Böyürtkən” toplayır və əyilib-qalxaraq birlikdə aşağıdakı sözləri oxuyurlar:

Ayı oturmuşdu tək
Yığdıq meşədən çiyələk
Biz meyvəni yığanda

Ayı bağırdı bərk-bərk
Bu zaman "Ayı" öz yerində dayanmalıdır.

Oynayan uşaqlar "Ayı bağırdı bərk-bərk" sözlərini dedikdə "Ayı" bağıra-bağıra yuvasından çıxıb uşaqları tutmağa çalışır. Onlar isə evlərinə qaçırlar. "Ayı" tutduğu uşaqları öz yuvasına aparır. O biri uşaqlar yenə "Çiyələk" yığmağa başlayırlar. 2–3 uşaq tutulduqdan sonra oyun sona çatır. Oyun təkrar olunduqda yeni "Ayı" seçilir.

Oyun 3–4 dəfə təkrar edilə bilər.

**Əsas hərəkət – hoppanma**

"At və tut"

Uşaqlar dairədə dayanırlar. Hər uşağın əlində bir top var. Tərbiyəçinin "At, tut və top düşməsin" deməsi ilə uşaqlar əllərindəki topları atıb-tutmağa başlayırlar. Bu zaman tərbiyəçi beşə qədər sayır. Kim topu yerə salarsa, say qurtarana qədər topu yerdən götürə bilməz. Hər dəfə uşaqlardan kimin topu neçə dəfə yerə salması nəzərə alınır. Uşaqlar topu 2–3 dəfə yuxarı və 2–3 dəfə yerə atırlar.

**Müxtəlif hərəkətlərlə oyun**

"Bayrağı tap"

Uşaqlar divarın yanı və ya meydançanın bir tərəfində düzülmüş stullarda otururlar. Tərbiyəçi əlindəki bayrağı uşaqlara göstərib onu gizlədəcəyini bildirir. Sonra uşaqlara durub üzlərini divara çevirmələrini təklif edir. Uşaqların baxmadığını müəyyən etdikdən sonra tərbiyəçi bayrağı gizlədir və deyir: "Hazırdır". Bu zaman uşaqlar üzlərini tərbiyəçiyə çevirib gizlədilmiş bayrağı axtarmağa başlayırlar. Kim onu birinci taparsa, oyun təkrar olunduqda ona bayrağı gizlətmək ixtiyarı verilir.

Bayraq elə gizlədilməlidir ki, uşaqlar onu tapmasınlar.

Əgər uşaqlar uzun müddət bayrağı tapa bilməsələr, tərbiyəçi onun gizlədildiyi yerə gəlib bayrağı burada axtarmağı uşaqlara təklif edir.

Bayrağı uşaq gizlətdikdə müvafiq yer tapmaqda ona kömək etmək lazımdır.

Bayraq başqa bir əşya ilə də əvəz edilə bilər.

**Böyük qrup**

**Əsas hərəkətlər – yeriş, yürüş.**

"Siçan-Pişik"

Uşaqlar əl-ələ tutub dairədə dururlar. Dairənin bir tərəfində iki uşaq əlini aşağı salırlar – bu, qapıdır. Tərbiyəçi uşaqlardan birini Pişik, digərini isə Siçan təyin edir. Siçan dairənin içərisində, Pişik isə dairənin xaricində dayanır.

Uşaqlar dairə üzrə hərəkət edərək aşağıdakı sözləri deyirlər:

Pişiyim, ağ pişiyim
Tükü parlaq pişiyim
Miyov-miyov edirsən
Yavaş-yavaş gedirsən
Siçanlar səndən qaçır
Qorxudan uzaqlaşır

Miyov-miyov edirsən
Yavaş-yavaş gedirsən

“Yavaş-yavaş gedirsən” sözündən sonra Pişik Siçanı tutmağa başlayır. Pişik dairəyə yalnız qapıdan girə bilər. Siçan isə həm qapı, həm də uşaqların əllərinin altından çıxıb qaça bilər. Pişik Siçanı tutduqdan sonra oyun yenidən təkrar olunur.

**Əsas hərəkətlər – qaçma və yürüş**

“Hiyləgər tülkü”

Uşaqlar bir-birindən bir addım aralı dairə şəklində düzülürlər. Dairədən kənarda və otağın (meydançanın) bir tərəfində “Tülkü”nün yuvası təyin olunur. Dairədə duran uşaqlar gözlərini yumurlar, tərbiyəçi isə dairənin kənarında dolanaraq uşaqların birinə toxunur. Həmin uşaq “Hiyləgər tülkü” olur. Sonra tərbiyəçi uşaqlara gözlərini açıb “Hiyləgər tülkü”nü tapmağı təklif edir. ”Tülkü”nü tapmaq üçün uşaqların hamısı birlikdə ”Hiyləgər tülkü, haradasan?” deyir, ətrafa baxır və bu sualı üç dəfə təkrar edirlər. ”Tülkü” cəld dairənin mərkəzinə gəlir və əllərini yuxarı qaldıraraq “Mən buradayam” deyib uşaqları tutmağa başlayır. ”Tülkü” tutduğu uşağı evinə aparır. 2–3 uşaq tutulduqdan sonra tərbiyəçi – “Hamı dairəyə!” komandasını verir və oynayanlar dairə şəklində düzülürlər. Yeni “Tülkü”nün seçilməsi ilə oyun təzədən başlayır.

**Əsas hərəkət –hoppanma**

“Tilov”

Uşaqlar bir-birindən bir addım aralı dairə şəklində dururlar. Tərbiyəçi ucuna kiçik qum kisəciyi bağlanmış bir ipi əlində tutub dairənin mərkəzində dayanaraq onu dairə üzrə (uşaqların ayağı altında) hərlədir. Bu, “Tilov”dur. Tərbiyəçi ipi hərlədərkən uşaqlar hoppanırlar. “Tilov” kimin ayağına dəysə, o, oyundan müvəqqəti kənar edilir. Bir az fasilə etdikdən sonra oyun yenə təkrar olunur.

**Əsas hərəkət – dırmanma**

“Ayılar və arılar”

Oynayan uşaqların bir neçəsi “Ayılar”ı, qalanları isə “Arılar”ı təmsil edirlər.

Otağın (meydançanın) bir tərəfində kiçik nərdivan qoyulur. Bura “Arılar”ın yuvası – pətəyidir. Nərdivandan 3–4 metr aralı məsafədə “Meşə”, o biri tərəfdə isə 5–10 metr məsafədə “Çəmənlik” təyin olunur.

“Arılar” nərdivanın pillələrində oturur. Bu, “Arı pətəyi”dir. Tərbiyəçinin işarəsi üzrə “Arılar” çəmənliyə uçaraq vızıldaşır. ”Arılar” uçan kimi “Ayılar” bal yemək üçün nərdivana (“Arı pətəyi”nə) dırmaşır. Tərbiyəçinin “Ayılar gəldi” sözləri ilə “Arılar” nərdivana tərəf uçur və vaxtında meşəyə qaça bilməyən “Ayılar”ı sancır (əl ilə toxunur).

“Arı”nın sancdığı “Ayı” nərdivana –“Arı pətəyi”nə tərəf getməməlidir.

Oyun 2–3 dəfə təkrarlana bilər. Uşaqların rollarının dəyişdirilməsi ilə oyunun yenidən başlanması mümkündür.

**Əsas hərəkət – atma**

“Halqaya at”

Uşaqlar 2–3 hissəyə ayrılaraq otaq və ya meydançanın bir tərəfində sıra ilə dayanırlar.

Onların qarşısında 1, 2 və 3 metr məsafələrdə üzərində rəngli dairə çəkilmiş 2 taxta dayaq qoyulur və ya 2 tirin arasında bağlanmış ipdən 2 halqa asılır.

Hər sıranın başında birinci dayanmış uşaq tərbiyəçinin işarəsi ilə əlindəki qum kisəciyini halqa və ya dairənin içinə atmalıdır. Əgər uşaq kisəciyi hədəfə düz ata bilməzsə, o zaman bir daha və yenidən atmalıdır. Bütün uşaqlar 2–3 dəfə kisəciyi atdıqdan sonra oyun qurtarır və hansı sıranın uşaqları hədəfə daha çox kisəcik atmışsa, bu, tərbiyəçi tərəfindən xüsusi qeyd olunur.

**Məktəbəhazırlıq qrupu**

**Əsas hərəkəti – hoppanma**

"Lenti kim tez götürər?"

Uşaqlar bir neçə qrupa bölünüb (hər qrupda 4–5 nəfər olmalıdır) meydançada çəkilmiş xəttin üzərində sırada dayanırlar. Qruplardan 10–15 metr aralı məsafədə və 10–15 sm hündürlükdə ip bağlanır. Hər qrupun qarşısındakı ipin üstündən lent asılır.

Tərbiyəçinin "Qaçın!" siqnalı ilə qruplarda birinci dayanmış uşaqlar öz lentinin yanına qaçır və hoppanaraq lenti ipdən götürürlər. Lenti birinci götürmüş uşaq qeyd olunur. Birinci dayanmış uşaqlar lenti götürdükdən sonra sıranın axırında dayanır və lenti tərbiyəçiyə verirlər. Tərbiyəçi lenti yenə ipdən asır. Qalanlar xəttə tərəf irəliləyirlər. Tərbiyəçinin yeni siqnalı ilə digər uşaqlar da bir-birinin ardınca qaçıb lenti götürürlər. Bütün uşaqlar lenti götürdükdən sonra oyun qurtarır. Bundan sonra hansı qrupun daha çox lent götürdüyü hesablanır.

**Əsas hərəkət – dırmanma**

"Meymunları tutun!"

"Meymunlar"ı təmsil edən uşaqlar meydançanın bir tərəfi və dırmanmaq üçün qoyulmuş hasarlar və skamyaların yanında dayanırlar.

Oynayanlardan 4–5 nəfər ayrılıb meydançanın o biri tərəfində dayanırlar. Bunlar "Ovçular"dır. ”Meymunlar" gördüklərini təqlid edir. Onların bu xüsusiyyətindən istifadə edərək ”Ovçular" "Meymunlar"ı tutmaq üçün onları aldatmaq istəyirlər.

"Ovçular" edəcəkləri hərəkətləri qabaqcadan öz aralarında şərtləşirlər. Onlar meydançanın mərkəzinə çıxıb şərtləşdikləri hərəkətləri icra edirlər. Bu zaman "Meymunlar" "Hasarlar"a – skamyalara çıxıb onların hərəkətlərini müşahidə edirlər.

"Ovçular" müxtəlif hərəkətlər edəndən sonra gizlənirlər, "Meymunlar" isə "Ağaclar" və "Hasarlar"dan (skamyalardan) düşüb həmin yerə yaxınlaşır və "Ovçular"ın hərəkətlərini təqlid edir. Tərbiyəçinin ”Ovçular!" siqnalından sonra "Meymunlar" ağaclara dırmanır. Ağaca dırmana bilməyən "Meymunlar"ı "Ovçular" tutub aparır.

Oyun 2–3 dəfə təkrar olunduqdan sonra yeni "Ovçular" seçilir.

**Əsas hərəkət – tullanma**

"Ovçu və vəhşi heyvanlar"

Dovşan, ceyran, ayı, tülkü və qurdu təmsil edən uşaqlar otağın (meydançanın) bir tərəfində düzülürlər. "Ovçu" isə onlardan bir qədər aralı durur.

"Ovçu" torbasında iki balaca top "Meşə"ni gəzib ”Vəhşi heyvanlar"ı axtarır. Sonra

dincəlmək üçün oturur. Bu zaman tərbiyəçinin işarəsi ilə uşaqlar vəhşi heyvanların hərəkətini təmsil edərək (məsələn, ”Dovşanlar” əllərini qulaqlarının yanında tutaraq cüt ayaqları üstündə hoppanır, “Ceyranlar” cəld qaçır, “Ayılar” yavaş-yavaş yeriyir və s.) meydançada qaçışırlar.

Tərbiyəçinin “Ovçu gəlir!” siqnalından sonra “Ovçu” torbasından topu çıxarıb “Heyvanlar”a atır. Top kimə dəyirsə, “Ovçu” onu öz evinə aparır. Oyun 3–4 uşaq tutulana qədər davam edir. Oyun təkrar başlayanda yeni “Ovçu” seçilir.

Hər yaş üçün ümumi inkişafetdirici hərəkətlər kompleksinin hazırlanması qaydaları aşağıda göstərilən sıra ilə aparılmalıdır .

1. Hərəkət kompleksi məşğələnin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəldilməlidir, məsələn, məşğələdə uşaqların cəldliyi və çevikliyinin artırılması, əzələlərinin elastikliyinin inkişaf etdirilməsi və yaxud onlara hündürlüyə tullanma vərdişlərinin aşılanması əsas vəzifə kimi qarşıya qoyularsa, bu zaman ümumi inkişafetdirici hərəkətlər kompleksinin tərkibinə cəldlik, çeviklik, elastiklik və hoppanma elementləri olan hərəkətlər daxil edilməlidir. Hər bir hərəkətin neçə dəfə təkrar olunması, tempi, tənəffüsün müntəzəmliyi və ardıcıllığına xüsusi diqqət yetirilməlidir.
2. Hərəkət kompleksi planlaşdırılarkən bağçanın idman bazası mütləq nəzərə alınmalıdır.
3. Ümumi inkişafetdirici hərəkətlər kompleksi yerli iqlim şəraiti nəzərə alınmaqla tərtib olunmalıdır. Sentyabr, oktyabr, noyabr, aprel və may aylarında sürət, cəldlik və dözümlülüyü inkişaf etdirən, dekabr, yanvar, fevral və mart aylarında isə güc və qüvvə tələb edən hərəkət kompleksləri seçilməlidir, çünki isti aylarda orqanizm güc və qüvvə tələb edən hərəkətləri yerinə yetirmək fəaliyyətinə o qədər hazır olmur. Bu zaman əzələlər boşalır, orqanizmin qüvvəsi və işgörmə qabiliyyəti aşağı düşür. Soyuq havada isə əzələlər daha möhkəm olur və orqanizmin qüvvəsi xeyli artaraq güc tələb edən hərəkətlərin icrasına hazır və gərginliyə qarşı daha davamlı olur.
4. Hərəkət kompleksləri konsentrik olaraq tərtib edilməlidir, yəni müəyyən əzələ qrupunun inkişaf etdirilməsi üçün verilən kompleks hərəkətlər unudulmamalı, bir müddət keçdikdən sonra isə yenə də təkrar olunmalıdır. Yaxud hərəkət kompleksləri elə seçilməlidir ki, növbə ilə orqanizmin bütün hissələrinə təsir etmiş olsun.
5. Ümumi inkişafetdirici hərəkət kompleksləri 2 həftədən bir dəyişdirilməli və bu zaman uşaqların fiziki hazırlığı nəzərə alınmalıdır.

Fiziki hərəkət kompleksləri tərtib olunarkən hər bir qrupun tərbiyəçi-müəllimi məktəbəqədər müəssisənin həkimi ilə məsləhətləşməlidir. Hərəkətlərin orqanizmə təsiri təxmini də olsa, müəyyənləşdirilməlidir. Hərəkətlər uşaqları yormamalı, həyəcanlandırmamalı və tənəffüs orqanları və orqanizmin bütün sistemlərinə yumşaq təsir göstərməlidir.

Fiziki hərəkətlər yerinə yetirilərkən fiziki yük tədricən artırılmalı, sonra da tədricən

azaldılmalıdır. Tədris ilində uşaqlara verilən fiziki yük hərəkət komplekslərinin mürəkkəbləşdirilməsi və intensivləşdirilməsi hesabına artırılmalıdır. Uşaqların hərəkətləri daha yaxşı icra etmələri məqsədi ilə məşğələ keçirilən yerlərdə plakat, sxem və illüstrativ şəkillərin asılması lazımdır. Müşahidələr göstərir ki, bəzi hallarda ümumi inkişafetdirici hərəkətlər kompleksinin 2 və ya 3-cü hərəkətindən sonra uşaqların diqqəti yayınır, hərəkətlərin icra edilməsinə həvəs azalır, uşaqlar onları inamla yerinə yetirmir və bir çox səhvlər buraxırlar. Bu isə uşaqların işgörmə fəaliyyətinin səviyyəsini aşağı salır. Bəzi hallarda isə uşaqlar həmin hərəkətləri axıra kimi böyük həvəs və inamla və səlis yerinə yetirirlər. Həmin uşaqların iş qabiliyyəti və fəallığı daha da yüksəlir, çünki tərbiyəçi-müəllim məşğələ prosesində elə metodik üsullardan istifadə edir ki, onlar ümumi inkişafetdirici hərəkətlərin axıra kimi fəal yerinə yetirilməsinə səbəb olur. Bu isə müxtəlif fiziki hərəkətlərin öyrədilməsinə imkan verir.

Ümumi inkişafetdirici hərəkətlərin böyük fəallıqla yerinə yetirilməsində, ilk növbədə, görmə, eşitmə və duyğu orqanları, habelə hərəkət-əzələ sisteminin inkişaf etdirilməsində uşaqlara öz hərəkətlərini idarə etmələrinin öyrədilməsi vacibdir. Məlum olduğu kimi, uşaqlar ümumi inkişafetdirici hərəkətləri müxtəlif səs siqnallarının verilməsi ilə daha yaxşı icra edirlər. Buna görə də əl çalınmaq, fit verilmək və kollektiv şəkildə sayma ilə hərəkətlərin icra etdirilməsi daha məqsədəuyğundur. Bu zaman icra olunan hərəkətin xarakterinə uyğun olaraq hərəkətlər yavaş, orta və sürətli tempdə yerinə yetirilməlidir.

Ümumi inkişafetdirici hərəkətlərin yarış elementləri formasında icra etdirilməsi tədrisin səmərəliliyini yüksəldir. Yarış formasında yerinə yetirilən hərəkətlər müxtəlif siqnallarla, əl qaldırmaqla, fit verməklə və əl çalmaqla icra olunmalıdır. Yarış hərəkətlərinin düzgün yerinə yetirilməsi sürət, çeviklik və davamlılıq keyfiyyətinin inkişafı, uşaqların mənəvi tərbiyəsi və onların intizamlı olmasına müsbət təsir edir.

I. Hərəkətdən çıxış vəziyyəti (H.Ç.V.) – əsas duruş, baş aşağı və qollar qabaqda çarpaz vəziyyətdə. Bir-iki sayanda qollar yanlardan yuxarı qaldırılır (barmaqlar sıxılır və ovuclar arxaya baxır), üç-dörd sayanda hərəkətdən çıxış vəziyyətinə qayıdış. Hərəkət yavaş tempdə dörd-beş dəfə icra olunur.

II. H.Ç.V. – əllər boyun arxasında və ayaqlar çiyin bərabərində. Bir-iki sayda gövdə sağa, üç-dörd sayda isə sola əyilir.

III. H.Ç.V. – əsas duruş, əllər beldə, bir-iki sayında gövdə düz saxlanıb pəncələr üzərində çöməlməli, üç-dörd sayanda isə hərəkətdən çıxış vəziyyətinə qayıdış. Hərəkət yavaş tempdə yerinə yetirilir.

IV. H.Ç.V. – ayaqlar çiyin bərabərində aralı, qollar yanlarda, bir-iki sayda sola irəli əyilməli, sol ayaq dizdən qatlanmalı, dizlərin səviyyəsində əl çalındıqdan sonra hərəkətdən çıxış vəziyyətinə qayıdış və üç-dörd sayında hərəkət sağ tərəfə doğru təkrar edilir.

V. H.Ç.V. – ayaqlar düz vəziyyətdə döşəmədə oturmalı və qollar yanlarda. Bir-iki sayında sol ayaq düz yuxarı qaldırılmalı, dizlərin səviyyəsində əl çalınmalı, ayaq hərəkətdən çıxış vəziyyətinə qaytarılmalı, üç-dörd sayda isə hərəkət sağ ayaqla təkrar edilir.

VI. H.Ç.V. – sağ ayaq irəlidə, sol ayaq isə üstdə dayandırılmalı. Bir-iki sayda iplə sağ, üç-dörd sayda isə sol ayaq üstdə növbə ilə hoppanma. Yerində addımlama. Dörd addım pəncələr və üç addım dabanlar üstdə yeriş.

## Tələbələr üçün fəaliyyətlər

1. Ümumi inkişafetdirici hərəkətlər üzrə fəaliyyətlər hazırlayın.
2. Əsas hərəkətlər üzrə fəaliyyətlər hazırlayın.
3. Ümumi inkişafetdirici hərəkətlər və yaş xüsusiyyətləri nəzərə alınmaqla, komplekslər hazırlayın.
4. Qrup işi. Yaş qruplarına uyğun fiziki mədəniyyət məşğələləri hazırlayın:
   I qrup: Orta qrup üçün;
   II qrup: Böyük qrup üçün;
   III qrup: Məktəbəhazırlıq qrupu üçün.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Çeviklik və çəldliyin təmin edilməsi üçün təmrin və mümarisələr hazırlayır”.**

1. Ümumi inkişafetdirici hərəkətlər üzrə fəaliyyətləri qruplaşdırın və cədvəl hazırlayın.
2. Əsas hərəkətlər üzrə fəaliyyətləri qruplaşdırın və cədvəl hazırlayın.
3. Ümumi inkişafetdirici hərəkətlər üzrə yaş xüsusiyyətlərini nəzərə alaraq kompleksləri qruplaşdırın. Cədvəldə yaş qruplarına uyğun yerləşdirin.

| 3–4 yaş | 4–5 yaş | 5–6 yaş |
|---|---|---|
| | | |
| | | |

## 1.5. Böyük, kiçik və hissi motorikanın inkişafına uyğun müxtəlif oyunlar təşkil edir

### Məktəbəqədər yaşlı uşaqlarda kiçik motor bacarıqlarının inkişafı

Kiçik motor bacarıqları beynin inkişafı və uşaqların düşüncə tərzinə təsir göstərir. Uşağın zehni barmaqlarının uclarında yerləşir! Barmaqlar və əlin kiçik motor bacarıqları inkişaf etdirməklə bütün psixi proseslərin – qavrama, təfəkkür, yaddaş, diqqət, nitq və s. inkişafı stimullaşdırılır, lakin kiçik motor bacarıqları yalnız böyük motor bacarıqları inkişaf etdikdə yaxşı inkişaf edir. Hər şeydə tarazlıq və ardıcıllıq gözlənilməlidir.

**Kiçik motor bacarıqlar üçün təmrinlər.** Bütün məşğələlər oyun şəklində həyata keçirilir. Mühüm bir qayda yadda saxlanılmalıdır: Bütün hərəkətlər hər iki əl, əvvəl sağ, sonra isə sol əllə həyata keçirilir:

1. İplə oyunlar. Uşaqlar düyün vurmaq və lenti gül şəklində bağlamağı öyrənirlər (5 yaşdan etibarən);
2. İp və ya telə muncuqların düzülməsi. Böyük uşaqlara incə bir tel və kiçik muncuqlar təklif olunur;
3. Gildən yapma. Uşağın yaşı azdırsa, əl işləri daha sadə olmalıdır. Ayı üçün şirniyyat, gəlincik üçün isə boşqabda kiçik piroqlar hazırlana bilər. Həmçinin plastik şəkillər də tərtib edilə bilər: Ana günəşi rəngləyir, uşaq isə plastilindən şüalar yapır. Yaxud ana ev şəkli çəkir, uşaq isə gildən hasar və plastilindən heykəllər yapır. Plastik materiallardan kəsib-yapışdırmalar və təbiət materiallarından istifadə edilə bilər – gilin üzərinə qarabaşaq və ya xırda daşlar yapışdırıla bilər;
4. Mozaika və xırda konstruktorlarla oyunlar. Maqnitli oyunlar, maqnitli mozaikalar və konstruktor da çox faydalı olar;
5. Suyun fincandan başqa fincana və çaydandan fincana əlavə edilməsi. Bir stəkana çox su əlavə edilir, digərinin üzərində isə işarə çəkilir və su işarəyə qədər əlavə edilir;
6. Su bir qabdan digərinə birdəfəlik şpris və ya süngər vasitəsi ilə əlavə edilir. Suyun əvəzinə uşaq bir konteynerdən digərinə taxıl da əlavə edə bilər. Bu, qarğıdalı yarması, darı və irmik ola bilər. Yarmalar kiçik fincan və ya qaşıqla əlavə edilə bilər;
7. Kiçik yaşlı uşaqlara sadə bir tapşırıq məsləhət görülür: Bir boşqaba noxud və ya xırda lobya əlavə etmək. Uşaq əvvəlcə bütün ovucu, sonra bir çimdik, sonra isə şəhadət barmağı və baş barmaqla noxudlar və lobyaları götürüb başqa qaba əlavə edir.
8. Boşqabda manna və qarabaşaq yarmalarını qarışdırın. Yanına daha bir boşqab qoyub üzərinə süzgəc qoyun. Uşaq yarmaları qaşıqla süzgəcə əlavə edir və qarışdırır. Manna yarması boşqaba süzüləndən sonra uşaq süzgəcdə qalan qarabaşağı bankaya əlavə edə bilər.
9. Əl hərəkətlərinin koordinasiyasının inkişafı üçün ən yaxşı tapşırıqlar nişan qoyulmuş xətlərə görə salfetlərin qatlanmasıdır. Böyük yaşlı uşaqlar üçün oriqami

(kağızdan fiqurların qatlanıb düzəldilməsi) məsləhətdir;

10. Bir yerdə viskoz və ya yun ipliklər asılır və uşağa müxtəlif hörük növlərini hörmək öyrədilir;
11. Dayaz bir qaba su əlavə edilir və ya tennis topları qoyulur. Uşaq suyu qaşıqla götürür və digər boşqaba əlavə edir. Yaxud qaşıqla tennis toplarını götürür və digər boşqaba əlavə edir;
12. Süngər xırda-xırda doğranaraq boşqaba yığılmalı və yanında başqa bir boşqabın qoyulması lazımdır. Uşaq maqqaş vasitəsi ilə onları bir qabdan digərinə yığacaq. Uşağa maqqaşın düzgün tutulması əvvəlcədən öyrədilir;
13. Plastik qab və ya kiçik qutunun kənarlarında adi paltar sancaqları yerləşdirilir. Onlar kənara götürülməli və yenidən qoyulmalıdır;
14. Su, şampun, qatıq, kosmetika və s. müxtəlif ölçülü plastik şüşələr hazırlanır. Uşaq onların qapaqlarını diametrinə görə seçib açsın və bağlasın;
15. Qalın penoplasta geniş başları olan mismarların balaca çəkiclə vurulması. Bu fəaliyyət 4 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulur;
16. Bir qaba rəngli sabunlu su əlavə edilir. Uşaq rəngli köpüyü çırpma yolu ilə qarışdırır. Bu fəaliyyətin hamam otağında edilməsi daha yaxşıdır;
17. Ən kiçiklər üçün başqa bir oyun: Uşaqla birlikdə çoxlu kağız parçaları hazırlayıb qutuya əlavə edir və içərisində kiçik oyuncaqları gizlədirik. Uşaq əlləri ilə axtararaq onları tapmalıdır.

Kağızla işləmək uşaq üçün çox vacibdir. Uşaq kiçik yaşlarından kağızı qatlamağı, açmağı və əzməyi öyrənir. Kağızın qayçı ilə kəsilməsi uşağa 4 yaşından etibarən öyrədilə bilər. Əvvəlcə düz xətt üzrə kəsmə və bu bacarığın mənimsənilməsindən sonra müxtəlif fiqurların kəsilməsi öyrədilir.

**Təsviri fəaliyyət guşəsi.** Kiçik motor hərəkətlərinin inkişaf etdirilməsi və şəxsi potensialın həyata keçirilməsi məqsədilə uşaq üçün təsviri fəaliyyət guşəsi yaradılmalıdır. Təsviri fəaliyyət guşəsində gil, rəngli plastilin, gil (ən kiçiklər üçün plastilin əvəzinə duzlu xəmir), mozaikalar, piramidalar, matryoşkalar, konstruktorlar, kəsib yapışdırmaq üçün rəngli kağız, qayçı, yapışqan, rəngli qələmlər, rəngli mum qələmləri və s. yerləşdirin. Əgər uşaq əlində qələm və ya fırça tuta bilmirsə, ona barmaq, çöp, pambıq və süngərlə çəkmə öyrədilir.

Quru və yaş qum ilə iş maraqlı və faydalıdır. Yaş qumun köməyi ilə müxtəlif formaların yaradılması mümkündür. Quru qum fərqli rənglərdə boyana və kulinariya torbası vasitəsi ilə fiqurlar "Çəkilə" bilər.

Əgər uşağı inkişafetdirici vəsitələr maraqlandırmırsa, ona real iş təklif edilməlidir və bu halda uşaq özünü böyük kimi hiss edər:

- Bişmiş tərəvəzlərin qabığını soymaq, bişmiş yumurtanın qabığını soymaq və naringinin qabığını təmizləmək;
- Yerə səpələnmiş əşyaların (düymələr, mismarlar, lobya və muncuqlar)

toplanmasına yardım etmək;

- Xəmirdən şirniyyat bişirilməsinə yardım etmək;
- Qapı və ya poçt qutusunu açmaq;
- Ayaqqabını geyinmək və geyinməyə cəhd etmək, ayaqqabıları çıxarmaq və geyimləri soyunmaq, əlcəkləri sərbəst geyinməyi (bunun üçün ayaqqabı və geyimlər uşağın istədiyi zaman geyinməsi üçün əlçatan yerdə olmalıdır) öyrənmək;
- Saplar və ya iplərin yumaq formasına salınmasına kömək etmək;
- Paltarları sərməyə kömək etmək;
- Müxtəlif qabların qapaqlarını – su qabları, vanna və diş pastasının qapaqlarını açmağa kömək etmək;
- Ayaqqabıları saxlamaq üçün onları kağız qırıqları ilə doldurmaq;
- Bağ və ya meşədə giləmeyvə yığmaq;
- Toz silmək;
- İşığı yandırmaq və söndürmək;
- Yapışdırıcı lentin kənarını axtarmaq;
- Kitabın səhifələrini çevirmək;
- Qələmləri yonmaq;
- Çəkilmiş şəkilləri silgi ilə silmək.
- Uşaq paltarların yuyulmasında kömək etmək istəyirsə, ona icazə verilməlidir. Ona kiçik əşyaları – corab, əl dəsmalı və əlcəklərin yuyulmasına imkan verilməlidir;
- Qabların yuyulması (əhəmiyyətli deyil, real və ya oyuncaq) hərəkətlərin koordinasiyasını inkişaf etdirməyə kömək edəcəkdir;
- Təhlükəsiz məişət əşyalarından istifadə edilərək tərəvəz və meyvələri soymağı uşağa öyrətmək mümkündür. Nəzarət altında uşaq onları doğramağa cəhd edə bilər. Bu fəaliyyət növləri 5 yaşdan yuxarı uşaqlar üçün uyğundur.

1,5 yaşdan etibarən uşağa müxtəlif işlər təklif oluna bilər. Bəzi tapşırıqlar alına bilər, bəziləri isə alınmaz. Adətən, ciddi işlərin mənimsənilməsində uşaqlar çox inadcıl olurlar.

**Böyük motorika**

Böyük motorika bədənimizin əsas orqanlarının əzələlərinin hərəkətləridir: Əllər, ayaqlar, gövdə və boyun. Bu, koordinasiya, çeviklik, yerişidir. Bu, uşağın ümumi fiziki vəziyyətidir. Uşaqda böyük motorika doğuşdan inkişaf edir və biz bunu uşağı qarnı üstünə qoyduğumuz zaman, onu masaj və gimnastika hərəkətləri edərkən, ilk addımları atmağa öyrədərkən və ona hündürlükdən tullanmaq, velosiped sürmək, topu atmaq və s. öyrədərkən müşahidə edirik. Uşağın doğulduğu andan məktəbə qədər olan dövrdə onun bütün təbiəti daim hərəkətə yönəldilmişdir. İnkişaf üçün uşaq hərəkət etməlidir. Hərəkət fəaliyyəti beynin müsbət fəaliyyətinin təminatıdır.

Böyük motorikanın inkişafına necə kömək etmək olar?

1. Açıq havada fəal gəzintilər – bütün uşaqlar üçün indi bir xəyaldır! Uşaqlara dırmaşmağı qadağan etmək lazım deyil. Qorxulu olsa da, böyüklər yaxında olmalı və

sığorta etməlidir və zamanla uşaq özü ehtiyatlı olmağı öyrənəcək. Ensiz səth üzərində (skamya və ya bordür) gəzmək faydalıdır. Hər iki ayaqları üzərində və növbə ilə bir ayaq üstə və ip üzərində tullanma hərəkətləri faydalıdır. 5 yaşından başlayaraq uşaq ip üzərindən tullanmağı öyrənə bilər.

2. Velosiped sürmək.
3. Topla oyun, topu tutmaq və topa ayaqla zərbə endirmək – bütün bunlar koordinasiyanı inkişaf etdirir. Bu zaman topun ölçüsü dəyişilə bilər – tennis topundan voleybol topuna qədər. Yadda saxlamaq lazımdır ki, uşaq olduqca kiçikdirsə, top böyük olmalıdır.
4. Üzgüçülük. Üzgüçülüyün yalnız faydası var.
5. Uşaqlar hər hansı bir idman və ya rəqs növü haqqında sistemli biliklərə malik olmalıdırlar. Məktəbəqədər yaşlı uşaqlar üçün bu  peşəkar bir səviyyə deyil. Bu, ilk növbədə, uşağın xoşuna gəlməlidir. Mürəkkəb koordinasiyalı idman növlərində – bədii gimnastika, fiqurlu konkisürmə və akrobatika kimi növlərində bədənin müxtəlif hissələri müxtəlif hərəkətlər etdikdə beyin yaxşı inkişaf edir.
6. 4 yaşından başlayaraq uşaqlara roliklər və dağ xizəkləri ilə sürüşməyi öyrətmək olar. Bu zaman mükəmməl koordinasiya və balans hissi inkişaf edir. Ehtiyatlı olmağı da unutmamaq lazımdır.

**Sensomotor inkişaf**

Sensomotor inkişaf məktəbəqədər dövrdə ümumi əqli inkişafın təməlini təşkil edir. Bilik ətraf aləmdəki obyektlər və hadisələrin qavranılmasından başlayır. İdrakın bütün başqa formaları (yadda saxlama, təfəkkür və təxəyyül) qavrayış obrazları əsasında qurulur və onların emalının nəticəsidir. Buna görə də normal əqli inkişaf tam qavrama olmadan mümkün deyil.

Müasir dövrdə həyatımızda böyük dəyişikliklər baş verir. Bütün sahələrdə biliklərin yeniləşdirilməsi prosesi gedir, insanın tez mənimsəməli və özü üçün səmərəli istifadə etməli olduğu informasiya axını artır.

Məktəbəqədər təhsil standartında uşağın gələcək idraki, iradə və emosional inkişafı üçün potensial yaranır. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyə problemi böyük əhəmiyyət kəsb edir. Sensomotor inkişafın aparılmasının aşağıdakı məqsədləri var:

- Uşaqlarda toxunma, sensor və psixomotor sahələrin inkişafı və onları forma, rəng və toxunma yolu ilə öyrənmələrinə təşviq etmək;
- Müxtəlif fəaliyyət növlərinin inteqrasiyası vasitəsilə uşaqların kasad təcrübəsini zənginləşdirmək və idrak fəallığını optimallaşdırmaq üçün ondan maksimum istifadə etmək;
- Məktəbəqədər yaşlı uşaqların ahəngdar inkişafı vasitəsi kimi sensor sahənin təkmilləşdirilməsi.

Sensomotor inkişafın aparılmasının aşağıdakı vəzifələri var:

- Hərəkət funksiyalarının inkişaf etdirilməsi;

- Sensomotor təcrübənin toplanmasının stimullaşdırılması;
- Emosional sahənin inkişafı;
- Nitqin formalaşdırılması və inkişafı.

Körpənin öz hərəkətləri və sensor biliklərini daha yaxşı mənimsəməsinə kömək etmək məqsədilə qrupda koordinasiyanın inkişafı, motor bacarıqların təkmilləşdirilməsi və sensor etalonların mənimsənilməsinə kömək edən fəal inkişafetdirici mühit yaratmaq lazımdır. Qrupdakı hər bir əşya inkişafetdirici ola bilər.

Uşağın qavrayış və təsəvvürlərinin inkişafı, biliklərin mənimsənilməsi və bacarıqların formalaşdırılması maraqlı oyun hərəkətləri zamanı baş verir. Oyun uşağın xarakterinin formalaşdırılması və təliminin ilkin, qədim və universal yoludur. O, uşağın həyatına sevinc, maraq və özünə inam gətirir.

Niyə uşaqlar üçün oyun seçilərkən sensor və motor bacarıqlarını inkişaf etdirən oyunlara üstünlük vermək lazımdır? Sensomotor bacarıqların inkişaf etmiş səviyyəsi qavrayış, yaddaş, diqqət, təxəyyül, düşüncə və nitq kimi idraki proseslərin psixi funksiyaları üçün əsasdır. Qrupda lazımi əşyavi-inkişafetdirici mühit yaradılmalı və kiçik motorikanın inkişafı üçün oyun və vəsaitlər alınmalıdır. Onların əksəriyyətini valideynlərin köməyi ilə müstəqil şəkildə hazırlamaq mümkündür.

Qrupda uşaqların yaş xüsusiyyətləri nəzərə alınaraq və kiçik motorikanın inkişafına kömək edən zəruri inkişafetdirici mühit yaradılaraq valideynlər və məktəbəqədər müəssisə mütəxəssislərinin dəstəyi və yardımı ilə qarşıya qoyulmuş məqsədlərə çatmaq mümkündür.

**Sensor-didaktik masa**

Didaktik masa arxasında fəaliyyət formalarına fərdi və kiçik qruplar şəklində iş növləri daxildir.

Uşaqlar didaktik materiallarla müstəqil fəaliyyətə sövq edilərək müşahidə edilə bilər. Lazım gəldikdə isə uşaqlara kömək də edilməlidir. Bu oyunların keçirilməsi əllərin kiçik motorikasının inkişafına kömək edir, hərəkətlərin koordinasiyasını təkmilləşdirir və uşaqların sensor bacarıqlarını formalaşdırır.

**Uşaqların sensomotor bacarıqlarının inkişaf etdirilməsi üçün istifadə olunan oyunlar**

Sensor oyunların keçirilməsində məqsəd görmə, dad, iybilmə və eşitmə sensor sisteminin inkişafına kömək etməkdir. Qum, gil, kağız və digər müxtəlif materiallar bu oyunlarda təcrübi yolla sensomotor bacarıqların formalaşdırılmasına imkan yaradır.

**Kiçik və böyük motorikanın inkişafı üçün barmaq oyunları və tapşırıqlar** zehni fəaliyyəti stimullaşdırır, barmaqların yaxşı məşq etməsini təmin edir və keçirici reseptorların funksiyalarını yaxşılaşdırır.

İdman dəqiqəsi və motor fəaliyyətinin elementi kimi uşaqlara başqa fəaliyyət növünə keçid, iş qabiliyyətinin artırılması, uzun müddətli oturma vəziyyəti ilə bağlı yorğunluq və yüklənmənin aradan qaldırılması təklif edilir. Ənənəvi olaraq idman dəqiqəsi uşaqların hərəkətləri və nitqi ilə birlikdə aparılır.

Hərəkətlərlə eyni vaxtda şeirlərin söylənməsi bir sıra üstünlüklərə malikdir: Nitq

sanki hərəkətlərlə ritm təşkil edir, daha yüksək səslə, dəqiq və emosional şəkildə söylənir, qafiyələr isə eşitmə qavramasına müsbət təsir göstərir.

**Oyunlar və topla tapşırıqlar**

Əllər və kiçik motorikanın inkişafı və uşaqların özünümasaj elementlərini mənimsəmələrinə kömək edir və uşaq orqanizminə sağlamlaşdırıcı təsir göstərir.

**Təsviri fəaliyyət**

Plastilinlə iş xırda motorikanı yaxşı inkişaf etdirir, barmaq əzələlərini möhkəmləndirir, əl və barmaq hərəkətlərinin dəqiqliyini inkişaf etdirir.

Rəsmetmə uşaqların əllərinin kiçik motorikasını asan və sərbəst şəkildə idarə edir. Əlin hərəkəti üzərində vizual nəzarəti inkişaf etdirir və əl-göz rabitəsinin formalaşmasına kömək edir.

**Oyunlar (didaktik, teatrlaşdırılmış və stolüstü çap)**

Ümumi tonusu artırmaq, diqqət, yaddaş və təxəyyülü inkişaf etdirmək və psixo-emosional gərginliyi azaltmağa imkan verir.

**Mozaika və konstruktorlar**

Kiçik motorika, sensor bacarıqları, təfəkkür və təsadüfi diqqəti inkişaf etdirir və nitqi formalaşdırır.

**Paltar sancaqları ilə oyunlar**

Uşaqlara əşyaları rənginə və ölçüsünə görə təsnifləşdirməyi öyrədir, kiçik motorikanı inkişaf etdirir.

**Qaytanla oyunlar**

Məkan oriyentasiyasını inkişaf etdirir, "Yuxarı", "Aşağı", "Sağ" və "Sol" anlayışlarını başa düşməyə kömək edir və gözəyarı ölçmə, diqqət və təmkinli olmağı inkişaf etdirir.

**Piramidalar və toxunma çuval ilə oyunlar**

Sensor qabiliyyətləri toxunma qavramasını və rabitəli nitqi inkişaf etdirir.

**Təbii materiallarla oyunlar**

Diqqəti inkişaf etdirir, gözəl rabitəsi və hərəkətlərin koordinasiyası və dəqiqliyini inkişaf etdirir. Uşaqlar gəzintilər zamanı təbii materiallarla oynayarkən onların sensomotor bacarıqları da inkişaf edir.

**Oyun və tapşırıqlar kompleksi**

Kompleksin məqsədi: Əşyalarla oyunlar və barmaq oyunlarından istifadə edərkən kiçik motorika və əl hərəkətlərinin koordinasiyasının inkişaf etdirilməsidir.

Vəzifələr:

- Əl və göz hərəkətlərinin koordinasiyası və düzgünlüyü, əllərin çevikliyi və ritmini artırmaq;
- Əllər və barmaqların kiçik motor bacarıqlarını artırmaq;

- Ümumi motor fəaliyyətini yaxşılaşdırmaq;
- Nitq funksiyasının normallaşdırılmasına kömək etmək;
- Təxəyyül, diqqət, görmə və eşitmə qavraması və yaradıcılıq qabiliyyətini inkişaf etdirmək;
- Həmyaşıdlar və böyüklərlə ünsiyyətdə emosional və rahat bir mühit yaratmaq;
- Uşaqları sadə əmək tapşırıqlarının yerinə yetirilməsinə həvəsləndirmək (oyundan sonra oyuncaqları təmizləmək);
- Didaktik materiallarla oynanılarkən uşaqlarda təhlükəsizlik qaydaları haqqında elementar təsəvvürlər yaratmaq.

Aşağıdakı göstəricilər kiçik motor bacarıqlarının inkişafına xidmət göstərə bilər:

- Uşağın böyük və kiçik motor bacarıqlarının inkişafında müsbət dinamika var və oyun və məşq prosesində müxtəlif növ hərəkətləri mənimsəməyə çalışır;
- Uşaq ətraf mühitdəki obyektlərlə maraqlanır və onlara münasibətdə fəal hərəkət edir;
- Uşaq kiçik motor hərəkətlərinin inkişafında oyun və vəsaitlərlə fəaliyyətə cəlb olunur, nəticəyə nail olmaq üçün səy göstərir;
- Uşaq özünəxidmət bacarıqlarını mənimsəyir, gündəlik davranışı və oyun prosesində müstəqil olmağı bacarır;
- Oyun prosesində kiçik motor bacarıqlarını inkişaf etdirərkən böyüklərlə ünsiyyət qurmağa çalışır – suallar verir, böyüklərin nitqini başa düşür və ətrafdakı obyektlər və oyuncaqların adlarını bilir;
- Böyüklərlə ünsiyyət qurmağa çalışır və kiçik motor bacarıqlarını inkişaf etdirən oyun və məşqlər apararkən hərəkətlərində onları fəal şəkildə təqlid edir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıdakı iş formalarından istifadə etməklə iş aparmaq lazımdır:

- Tərbiyəçi-müəllimin uşaqlarla birgə fəaliyyəti;
- Uşaqlarla fərdi iş;
- Uşaqların müstəqil fəaliyyəti.

Oyun və təlim məşğələlərinin hər kompleksinə aşağıdakılar daxildir:

- Barmaqları əşya ilə və ya əşyasız masaj etmək;
- Şeirlərin müşayiəti ilə barmaq gimnastikası;
- Müxtəlif əşyalardan istifadə etməklə didaktik oyunlar keçirmək.

Barmaqlar və əl hərəkətlərinin inkişafı üçün aparılan iş gün ərzində uşaqların müxtəlif fəaliyyətləri də daxil olmaqla sistemli şəkildə həyata keçirilməlidir.

**Kompleks oyun nümunələri**

<table>
<tr><td colspan="2">Mövzu: «Mən və ailəm»</td></tr>
<tr><td colspan="2">Məqsədlər:<br>• Baş barmaqdan başlayaraq barmaqların bir-bir qatlanması bacarığının formalaşdırılması;<br>• Böyüklərin hərəkətlərinin təqlid olunması;<br>• Əl əzələləri və baş barmağın gücləndirilməsi və inkişaf etdirilməsi;<br>• Əzələ tonusunun normallaşdırılması;<br>• Ailə haqqında təsəvvürlərin zənginləşdirilm si.</td></tr>
<tr><td>Oyunun adı / tapşırıqlar</td><td>Oyunun məzmunu / tapşırıqlar</td></tr>
<tr><td>Barmaq gimnastikası: «Mənim ailəm»</td><td>Bu barmaq – babadır,<br>Bu barmaq – nənədir,<br>Bu barmaq – atadır,<br>Bu barmaq – anadır,<br>Bu barmaq isə mənəm.<br>(böyük barmaqdan başlayaraq barmaqları bir-bir ardıcıl sadalayaraq qatlayır).<br>Bu – mənim bütün ailəm!<br>(barmaqları eyni anda açır və bağlayır).<br>Oyun əvvəl bir əllə, sonra isə digəri ilə keçirilir. Uğurlu alınarsa, uşaqları eyni zamanda hər iki əlin barmaqları ilə oynamağa dəvət etmək olar.</td></tr>
<tr><td>Kağızla oyun: «Ana və qızı üçün dəsmalları ütüləyək».</td><td>Hər bir oyunçunun qarşısına əzilmiş kağız qoyulur. Hər iki əlin bütün barmaqlarından istifadə etməklə kağızı hamarlamaq lazımdır. Bu tapşırığın yerinə yetirilməsində artıq çətinlik çəkməyən uşaqlara eyni tapşırığı bir əl ilə və ya iki baş barmaqla yerinə yetirməyi təklif etmək olar.</td></tr>
<tr><td>Paltar sancaqları ilə oyun: «Balaca köməkçilər»</td><td>Tərbiyəçi uşaqlara nənəyə ipə rəngli salfetləri asmağa kömək etmək və eyni rəngli salfetləri tapmağı təklif edir və uygun rəngləri birləşdir r</td></tr>
<tr><td colspan="2">Mövzu: «Payız»</td></tr>
<tr><td colspan="2">Məqsədlər:<br>• Əzələ tonusunun normallaşdırılması;<br>• Oyunda baş barmaqdan başlayaraq barmaqları bir-bir əymək bacarığının nitqin müşayiəti ilə formalaşdırılması;<br>• Paltarın düymələrinin açılması-bağlanması qabiliyyətinin formalaşdırılması;<br>• Kiçik əşyaların iki barmaqla (baş və şəhadət barmağı) götürülməsi;<br>• Hər iki əlin hərəkət koordinasiyasının formalaşdırılması;<br>• Uşaqların payız haqqında fikirlərinin genişləndirilməsi.</td></tr>
</table>

| | |
|---|---|
| Barmaq gimnastikası «Payız» | Külək meşədə əsirdi,<br>*(iki əllə dalğavari hərəkətlər edir)*<br>Külək yarpaqları sayırdı:<br>*(iki əlin barmaqlarını bir-bir qatlayır)*<br>Bu, palıdın,<br>Bu, ağcaqayının,<br>Bu, iydənin,<br>Bu, qızılyarpaq çökə ağacınındır.<br>Bu, axırıncı yarpaq vələsindir.<br>Bütün yarpaqları külək yola atdı.<br>*(əllərini dizlərinin üstünə qoyur)* |
| Oyun-stimulyator «Ehtiyatlı kirpi» | Tanış olun, bu kirpidir,<br>O, bütün meşə yollarını tanıyır.<br>Tərbiyəçi uşağa "Kirpi" oyuncaq-stimulyatoru, müxtəlif ölçüdə düymələr və iplər təklif edir. "Kirpi"nin "Tikanlar"ı üzərinə almalar və payız yarpaqları keçirmək lazımdır. |
| Lobyalarla oyun | Tərbiyəçi uşağa müxtəlif rəngli lobyaları ayırıb müxtəlif boşqablara yığmağı təklif edir. Qırmızı lobyaları sol əllə götürüb solda yerləşən boşqaba, ağ lobyaları isə sağ əllə götürüb sağda yerləşən boşqaba yığmaq lazımdır. |

Mövzu: «Ev heyvanları»

Məqsədlər:

- Əzələ tonusunun normallaşdırılması;
- Nitq müşayiəti ilə barmaqlarla müəyyən hərəkətlərin yerinə yetirilməsi bacarığının formalaşdırılması;
- Əlin kiçik motorikasının inkişafı;
- Uşaqların heyvanlar haqqında təsəvvürlərinin genişləndirilməsi.

| **Oyunun adı / tapşırıqlar** | **Oyunun məzmunu / tapşırıqlar** |
|---|---|
| Barmaq gimnastikası:<br>"Bizim ördəklər» | Bizim ördəklər səhər-səhər –<br>qa-qa-qa.<br>Bizim ördəklər gölməçənin yanında –<br>qa-qa-qa.<br>*(hər iki əlin barmaqlarını bir çimdiklə qatlayın və baş barmaq başqa barmaqlara toxunmamalıdır – açıq dimdik alınacaq)*<br>Bizim quşlar yuxarıda –<br>qu-qu-qu.<br>*(əlləri qaldırmaq və yelləmək)*<br>Bizim toyuqlar pəncərədə –<br>qo-qo, qo-qo.<br>*(işarə barmaqla stola vurmaq, elə bil toyuq dimdiklə vurur)* |

| | |
|---|---|
| | Xoruzlar səhər-səhər<br>Bizə oxuyar:<br>quq-qulu-qu!<br>*(önə tərəf əyilin, başınızı qaldırın və əllərinizi yanlara açın və silkələyin – elə bil qanadlarınızı çırpırsınız və xoruz səsi çıxarın)* |
| «Dəcəl pişik» oyunu | Tərbiyəçi uşağa pişiyin sapla oynamağı və nənənin yumağını açmağı çox sevdiyini söyləyir. Nənəyə sapı yığmağa kömək etməyi təklif edir. Daha sonra tapşırığın çətinləşdirilməsi üçün iplərdən yumaq etmək təklif edilə bilər. |
| «Kəsilmiş şəkillər» oyunu | 6 hissədən ibarət olan kəsilmiş "Ev heyvanları" şəkillərini birləşdirməyi təklif edin. Nümunə üçün ev heyvanının bütöv şəklini göstərin. Bu oyunu cütlərlə oynamaq olar. |
| **Oyunun adı /tapşırıqlar** | **Oyunun məzmunu / tapşırıqlar** |
| Barmaq gimnastikası | Gəlinciyə manna sıyığı bişirirəm:<br>*(qarışdırma hərəkəti)*<br>Boşqaba süd əlavə edirəm,<br>*(əlavə etmə hərəkəti)*<br>Ora yarma əlavə edirəm.<br>*(yarma əlavə edir)*<br>Və sobaya qoyuram.<br>*(sobaya qoyur)*<br>Sıyıq çox dadlı olur!<br>*(baş barmağı qaldırmaq – "Əla" işarəsi)*<br>Gəlincik yavaş-yavaş yesin.<br>*(şəhadət barmağı ilə təhdid edir)* |
| «Muncuqları topla» oyunu | Uşaqlara analar üçün plastik şüşə və ya flomaster qapaqlarından muncuqlar hazırlamaq və onları rəngli saplara düzməyi təklif edilir. Tapşırığın çətinləşdirilməsi və oyuna maraq yaradılması üçün uşaqlara müxtəlif rəngli sxemlər təqdim edilməlidir. |

Məktəbəqədər yaşlı uşaqlarda yüksək psixi funksiyaların inkişafı birbaşa kiçik motor bacarıqlarının vəziyyətindən asılıdır. Barmaqların hərəki inkişafı nitq funksiyası ilə yaxından bağlıdır. Beləliklə, aparılan tədqiqatlar və çox sayda uşaqların müşahidələri əsasında verilənlər aşkar edilmişdir: kiçik motor bacarıqlarının inkişafı gecikirsə, nitq inkişafı da gecikir, baxmayaraq ki, ümumi motor bacarıqları bu vəziyyətdə normal ola bilər. Buna görə də əllərin kiçik motor bacarıqlarının inkişafı və öyrədilməsi nitqin inkişafını stimullaşdırır. Beləliklə, nitqdə problemi olan uşaqlarla oyunlar və idman dəqiqələri keçirildikdə yaddaşın həcmi əhəmiyyətli dərəcədə artır və diqqəti daha da sabitləşir. Diqqətin konsentrasiyası artır, təsəvvür fəal inkişaf edir, narahatlıq azalır və barmağın əzələ

zəifliyi yox olur.

3 yaşınadək uşağın böyüklərlə ünsiyyət qurma bacarığı və arzusu inkişaf etmişdir. Bu da uşağın öz fəaliyyətinə rəhbərlik etməsi və onun müəyyən bir istiqamətə yönəldilməsinə imkan yaradır. Üç yaşında uşaq çox şey öyrənə bilər, lakin tərbiyəçi-müəllimlər və valideynlər nəyi öyrətməyi və hansı üsullardan istifadə etməyi bilməlidirlər.

Kiçik qrupların təhsil proqramlarında uşağın inkişafının əsasını təşkil edən sensomotor inkişafdır. 2– 4 yaş nitq, qavrama və duyğuların inkişafı və dünya haqqında düşüncələrin toplanması üçün ən əlverişli dövrdür.

Obyektlərin keyfiyyətləri, rənglər, forma, ölçü və digər xüsusiyyətlərin düzgün qavranılması gələcəkdə məktəb təhsilində bir çox akademik fənlərin müvəffəqiyyətlə mənimsənilməsi və yaradıcı bacarıqların formalaşdırılmasında mühüm rol oynayacaqdır. Sensor məşğələlər uşaqlarda hisləri azaldır, ətrafındakı dünyaya etibarlı bir münasibət yaradır və şən və optimist əhval meydana gətirir.

Obyektlərlə hərəkətlər yerinə yetirilərkən zehni vəzifələrin əksəriyyəti həll edilir – əllər hərəkətə gətirilir və görmə və eşitmə hisləri əsas tutulur. Valideynlərin kiçik motorikanın inkişafı üçün oyuncaqlar ("Sehirli" kisələr, müxtəlif qaytanlar, kəsilmə pazllar və s.) təbii materiallardan hazırlanmış əl işlərinin hazırlanması müsabiqəsinə cəlb edilməsi müsbət nəticələrə gətirib çıxarır. Həmçinin məşğələlərdə əşyaların rəng, forma, ölçü, səs və s. keyfiyyətlərinin düzgün fərqləndirilməsi və obyektlər arasında münasibətlər haqqında təsəvvürlərin formalaşdırılması üçün oyunlar və tapşırıqlar daxil edilir. Uşaqlar həvəslə və maraqla yeni, maraqlı tapşırıqlar və oyunlara daxil edilir, həm məşğələlər zamanı, həm də qrupda gündəlik oyunlarda və gəzintilər zamanı kiçik tədqiqatçılara çevrilirlər. Barmaq gimnastikası, muncuqlar, yarmalar, düymələr və daşlarla oyunlar məşğələlərdə geniş tətbiq olunur.

İstifadə olunan oyunlar:

- Böyük və kiçik mozaika;
- Piramida;
- Matryoşka;
- Rənginə görə seç;
- Formasına görə seç;
- Quru hovuzda əllər» oyunu;
- Torbada nə var?;
- Kəsilmiş şəkillər» (pazllar);
- Leqo ilə tik;
- Taxta və karton pazllar;
- İplər» və «Loto;
- Paltar sancaqları;
- Stəkanlardan qüllə tik;
- Sehirli torbalar (yarma ilə).

Müxtəlif yarmalardan istifadə edilməklə gil işi:

- Qoğal üçün yol (gil işi) – plastilin və lobyalardan yol düzəltmək;
- Günəş (gil işi) – plastilindən günəşin şüalarını hazırlayır;
- Dovşan üçün şərf (kəsib-yapışdırma);
- Cücələrə dən verək – buğdadan istifadə edilir.

Rəsm, kəsib-yapışdırma:

- Muncuqları topla;
- Şam ağacını bəzə;
- Piramidanı bəzə.
- Sensomotor fəaliyyətin təşkili nəticəsində uşaqların inkişafı üçün uşaq bağçası və evdə şərait və inkişafetdirici mühit yaradılaraq erkən yaşlarda aparılan sensomotor bacarıqların inkişafına yönəldilmiş oyunlar və tapşırıqlar və barmaq məşqləri uşaqları hərtərəfli inkişaf etdirir, nitqin sürətli inkişafını stimullaşdırır, uşaqlara qələmi inamla saxlamaq, düymələr və çəkmələri müstəqil bağlamaq, konstruktorun xırda detallarını quraşdırmaq, gil və plastilindən fiqurlar düzəltmək və s. inkişaf edir. Eyni zamanda:
- Uşaqlarda əşyaların forması, rəngi, böyüklüyü, məkanda yerləşdiyi haqqında təsəvvürlər və biliklər formalaşdırılır;
- Uşaqlarda obyektlər haqqında bilik və bacarıqlar inkişaf etmiş olur;
- Uşaqlar müəyyən bir əlamətə görə əşyaları qruplaşdırmaq və fərqləndirmək bacarıqlarına malik olurlar;
- Kiçik yaşlı uşaqlarda nitqin “Keyfiyyəti” və "Miqdarı" yaxşılaşdırılır;
- Valideynlərdə uşaqların sensomotor bacarıqlarının inkişaf etdirilməsinin zəruriliyinə şüurlu münasibət formalaşdırılır.

Uşağı inkişaf etdirmək cəmiyyətin vəzifəsidir, lakin tərbiyəçilər və valideynlərin birgə işi cəmiyyət üçün inkişaf etmiş və xoşbəxt insanın yetişdirilməsi üçün daha əlverişli şərait yaradır.

Uşağı inkişaf etdirmək cəmiyyətin vəzifəsidir, lakin tərbiyəçilər və valideynlərin birgə işi cəmiyyət üçün inkişaf etmiş və xoşbəxt insanın yetişdirilməsi üçün daha əlverişli şərait yaradır. Beləliklə, kiçik motor hərəkətləri və bütövlükdə sensomotor bacarıqların inkişafı üzrə ailə ilə qarşılıqlı əlaqədə aparılan məqsədyönlü və sistemli iş məktəbəqədər yaşlı uşaqlarda intellektual qabiliyyətlər və nitq fəaliyyətinin formalaşması və ən başlıcası uşağın psixi və fiziki inkişafına kömək edir. Onu da vurğulamaq lazımdır ki, məktəbəqədər yaşda kiçik motor hərəkətləri inkişaf etdirilməklə uşağın əlini yazıya hazırlamaq olur.

## Tələbələr üçün fəaliyyətlər

1. Böyük motor hərəkətlərin inkişafı üçün səmərəli metodları təsnifatlaşdırın.
2. Oyun və kompleksləri iki sütunda yerləşdirin.
3. Oyun və kompleks metodlardan birinin verilmiş nümunə üzrə tətbiqi qaydalarını izah edin.
4. Kiçik motor hərəkətlərin inkişafına xas olan xüsusiyyətləri ümumiləşdirin.
5. Sensomotor bacarıqlar və böyük motor hərəkətlərin inkişafını Venn diaqramında göstərin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Böyük, kiçik və hissi motorikanın inkişafına uyğun müxtəlif oyunlar təşkil edir".**

1. Böyük və kiçik motor və sensomotor hərəkətlərin necə baş verməsi haqqında referat hazırlayın.
2. Fiziki mədəniyyət məşğələlərində fəaliyyət mühitinin qiymətləndirilməsi şərtlərini şaxələndirmə üsulu ilə təsvir edin.
3. Böyük və kiçik motor və sensomotor inkişafı təmin etmək üçün istifadə olunan oyunları sadalayın.
4. Oyunlar kompleksinin nümunəsini hazırlayın və izah edin.

## 1.6. Fiziki inkişafın səmərəli təşkili üçün tədqiqat aparır

### Fiziki tərbiyə məşğələlərinin səmərəli təşkili

Fiziki mədəniyyət məşğələlərinin səmərəliliyinin yüksəldilməsində onun optimal şəkildə təşkili mühüm rol oynayır. Məşğələnin səmərəliliyinin yüksəldilməsi pedaqoji-psixoloji amillərdən asılıdır. Fiziki mədəniyyət məşğələlərinin təşkili zamanı səmərəlilik, sistematiklik və ardıcıllıq nəzərə alınır. Hər hansı bir fiziki hərəkət öyrədilirsə, bu hərəkətin yerinə yetirilməsinin əhəmiyyəti uşaqlara çatdırılmalıdır. Bundan əlavə hərəkətlərin yüksək fəallıqla və şüurlu öyrədilməsində şifahi, əyani, praktik, həmçinin reproduktiv və tədqiqatçılıq metodlarından istifadə olunmalıdır.

Fiziki mədəniyyət məşğələləri üzrə təlim-tərbiyə tapşırıqlarının verilməsinə kompleks yanaşma əsas vasitələrindəndir. Kompleks yanaşma qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində xüsusi rol oynayır. Tədris ilinin əvvəlində uşaqların bilik, bacarıq və vərdişlərini formalaşdıran, mənəvi və emosional hisləri və qabiliyyətləri inkişaf etdirən fiziki tapşırıqlar kompleksi planlaşdırılır.

Fiziki mədəniyyət məşğələlərinin qarşısında konkret və aydın vəzifələr qoyulmalıdır. Bu, təhsilverici, tərbiyəedici və inkişafetdirici vəzifələr olmalıdır. Buna görə də müəllim məşğələnin qarşısında duran vəzifələri düzgün müəyyənləşdirməlidir.

İcmal tutularkən məşğələnin ümumi məqsəd və vəzifələri daha da konkretləşdirilir. Məşğələ prosesində əvvəldən axıradək həmin məsələlərin həlli diqqət mərkəzində saxlanılır. Fiziki mədəniyyət məşğələlərində materiallar şifahi və əyani metodlarla izah edilir və öyrədilir. Bu prosesdə uşaqlara hərəkətlərin düzgün icra edilməsi texnikası öyrədilməklə yanaşı, tərbiyəedici izahat işi də aparılır. Nəticədə uşaqlar məşğələyə fəal və şüurlu yanaşır və verilən tapşırıqları yüksək fəallıqla, yaradıcılıqla, böyük həvəs və maraqla yerinə yetirirlər. Məşğələ prosesində uşaqların əqli və psixoloji hisləri və qabiliyyətlərini inkişaf etdirən fiziki tapşırıqlara xüsusi yer verilməlidir. Fiziki mədəniyyət məşğələlərində səmərəliliyin yüksəldilməsi məqsədilə tərbiyəçi-müəllim uşaqların yaş və cinsi xüsusiyyətlərini dərindən öyrənməli və pedaqoji prosesdə bunları nəzərə almalıdır.

Tərbiyəçı-müəllim uşaqların fiziki inkişaf səviyyəsi nəzərə alınmaqla tədris materialları və fiziki tapşırıqları seçir, daha sonra isə icra tempi, ardıcıllıq və uşaqların müstəqillik dərəcəsini müəyyən edir.

Fiziki mədəniyyət məşğələsinin məzmununun düzgün planlaşdırılması:

1. Məzmunun müəyyənləşdirilməsi təkcə bilik və bacarıqların mənimsənilməsini deyil, məşğələdə nəzərdə tutulmuş bütün vəzifələrin həllini təmin etməlidir;
2. Məzmunda başlıca olan və mahiyyəti fərqləndirmək lazımdır. Məhz başlıca olanı fərqləndirmək əməliyyatlarda optimallaşdırmanın zəruri olduğunu göstərir;
3. Məşğələnin məzmununu elə müəyyənləşdirmək lazımdır ki, qısa yolla müvafiq bacarıq və vərdişlərin formalaşdırılmasına gətirib çıxarsın.

Fiziki mədəniyyət məşğələlərinin təşkilinə verilən əsas tələblər bunlardır: Pedaqoji proses tam şəkildə təşkil olunmalı, məşğələ zamanı bütün uşaqlar üçün bərabər imkanlar yaradılmalı, uşaqyönümlülük və inkişafyönümlülük prinsiplərinə riayət olunmalı,

dəstəkləyici mühit yaradılmalı və uşaqların fəaliyyəti stimullaşdırılmalıdır.

Fiziki mədəniyyət məşğələlərinin intensivliyinin artırılması onun səmərəliliyinə təsir göstərir. Bu zaman az vaxt ərzində daha çox sayda hərəkət keyfiyyətli şəkildə yerinə yetirilir. Bu zaman hərəkətin yerinə yetirilməsi qaydalarına bütövlükdə riayət olunmalıdır. Əks təqdirdə, tədris prosesi sadəcə olaraq müxtəlif növ fiziki hərəkətlərin təkrarı ilə nəticələnər. Fiziki mədəniyyət məşğələlərinin optimallaşdırılması üçün, ilk növbədə, uşaqları tədris prosesinə mütəşəkkil formada cəlb etmək lazımdır. Bunun üçün tərbiyəçi-müəllim məşğələyə qabaqcadan hazırlaşmalı, öyrədəcəyi hərəkətlərin texnikasına dərindən yiyələnməli, məzmununa uyğun metod, vasitə və üsullar seçməli, bunları düzgün tətbiq etməli və məşğələnin təşkil olunmasında fəal uşaqların gücündən istifadə etməlidir. Təcrübədən aydın olur ki, bütün tədris materialları üçün eyni təlim üsulundan istifadə etmək məşğələnin səmərəliliyini azaldır və uşaqların məşğələyə olan marağına mənfi təsir göstərir.

Müəllim məşğələnin məzmununu müəyyənləşdirərkən iki metodik problemə xüsusi diqqət yetirməlidir. Birinci, məşğələnin hər bir hissəsi üçün xüsusi tədris materialı nəzərdə tutulmalıdır. İkincisi, həmin materiallar məzmun etibarilə bir-birinə uyğun seçilməli və biri o birini tamamlamalıdır.

Fiziki mədəniyyət məşğələlərində uşaqlara fərdi yanaşma çox əhəmiyyətlidir. Planlaşdırma fərdi yanaşmanın müvəffəqiyyətlə həll edilməsində mühüm rol oynayır.

## Tələbələr üçün fəaliyyətlər

1. Səmərəli təşkil olunmuş məşğələnin modelini qurun. Bunu təqdimat formasında nümayiş etdirin.
2. Fiziki mədəniyyət məşğələsinin məzmununu düzgün planlaşdırmaq üçün aşağıda verilən qaydalara uyğun məşğələ tərtib edin:
    - Məzmunun müəyyənləşdirilməsi təkcə bilik və bacarıqların deyil, məşğələnin nəzərdə tutulmuş bütün vəzifələrinin həllini təmin etməlidir;
    - Məzmunda başlıca olanı və mahiyyəti fərqləndirmək lazımdır. Məhz başlıca olanı fərqləndirmək əməliyyatda optimallaşdırmanın zəruri olduğunu göstərir;
    - Məşğələnin məzmunu elə müəyyənləşdirilməlidir ki, qısa yolla müvafiq bacarıq və vərdişlərin formalaşmasına gətirib çıxarsın.
3. Fiziki mədəniyyət məşğələsinin hər mərhələsinə aid olan səmərəli üsulları araşdırın, qruplaşdırın və cədvəl şəklində təqdim edin.
4. Müzakirə. Şifahi metodlara məşqlərin adı, təsviri, izahatları, təlimatları, uşaqlar üçün suallar, komandalar, qrupda söhbətlər, hekayələr, şeirlərin müzakirəsi və s. daxildir. Bu metodların rolu nədən ibarətdir?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

“Fiziki inkişafın səmərəli təşkili üçün tədqiqat aparır”.

1. Praktik metodlara məşqlərin dəyişdirilərək və dəyişdirilmədən təkrarlanması, oyun formasında və rəqabət şəraitində həyata keçirilməsi daxildir. Məşqlər zamanı hansı fiziki keyfiyyətlər formalaşır? Bu mövzunu əhatə edəcək esse hazırlayın.

2. Aşağıdakı sualları cavablandırın:
   - Hər bir rejim anının səmərəli təşkili uşaqlar üçün maraqlı və əyləncəlidirmi?
   - Qrupda fiziki mədəniyyət məşğələləri təşkil edilərkən və gündəlik qaydaları müşahidə edərkən emosional atmosferin olub-olmaması vacibdirmi?
   - Tərbiyəçi-müəllim məişət işlərinə dair tapşırıqlarda çətinlik çəkən uşaqlara kömək etməlidirmi?
   - Rejim prosesləri təşkil edilərkən hərəkətlərin ardıcıllığı düşünülməlidirmi?
   - Rejim proseslərinin icrası ilə bağlı rituallar sabitdirmi və ya təkmilləşdirilməlidirmi?

1-dən 5-ə qədər ballarla bu biliklərin əhəmiyyətini müəyyənləşdirin.

3. Fiziki mədəniyyət məşğələlərinin səmərəliliyini artırmaq üçün təkliflər verin.

4. Fiziki mədəniyyət məşğələlərinin səmərəliliyini artırmaq üçün mərhələlərə hansı dəyişiklikləri edərdiniz? Hər bir təklifi izah edin.

   Hər təklifi 1–5 ballıq şkala ilə qiymətləndirin.

## 1.7. Təlimin səmərəliliyini artırmaq üçün zəruri olan amilləri qiymətləndirir və uyğun olaraq məşğələyə dəyişiklik edir

Bədən tərbiyəsi üzrə məşğələlərin effektivliyi sağlamlaşdırıcı, təhsil və tərbiyə məsələlərinin həllinin səmərəlilik dərəcəsinə görə qiymətləndirilir. Vəzifələrin xüsusiyyətləri və onların effektivliyinin qiymətləndirildiyi meyarlar cədvəl 1.4-də təqdim olunur:

| Məşğələnin adı | Məşğələ tapşırıqlarının məzmunu | Nəticəyönümlülük meya ları |
|---|---|---|
| Təhsil | Motor bacarıqların formalaşdırılması | Bütün uşaqlar tərəfindən tapşırıqların mənimsənilməsi |
| Sağlamlıq | Bədənin bütün sistemləri və funksiyalarının formalaşması, hərəkət tələbatının ödənilməsi və bədənin gücləndirilməsi | Fiziki fəaliyyətin optimallığı; isinmə və möhkəmləndirmə hərəkətləri |
| Tərbiyəvi | Əqli, əxlaqi, əmək tərbiyəsi; fiziki hərəkətlərə marağın inkişaf etdirilməsi | Düşüncəni aktivləşdirən xüsusi vəziyyətlərin yaradılması, davranış tərzinin seçimi, estetik vəziyyət və uşaqların müsbət emo ional tonusunun yüksəldilməsi |

**Cədvəl 1.4. Bədən tərbiyəsi məşğələlərində problemlərin həllinin səmərəliliyinin qiymətləndirilməsi üçün meyarlar**

Proqramın məzmununu öyrənmək üçün uşaqları düşünmək və aşağıdakı məntiqi zəncirlər texnikası ilə təmin etmək lazımdır:

- Proqram materiallarının miqdarını uşaqların təlim, yaş və fərdi imkanlarına uyğun olaraq dəqiq müəyyənləşdirmək;
- Müəllimin tapşırığını uşaq üçün vəzifəyə çevirə bilmək və yaşını nəzərə alaraq aydın və konkret formalaşdırmaq;
- Bu və ya digər hərəkətdən asılı olaraq təlim metodlarını (əyani, şifahi, praktik və yaradıcı tapşırıqlar), eləcə də ən optimal müavinətlər, yer, növ və məşğələlərin formasını seçmək;
- Hərəkətin təkrarlanması üçün şərait yaratmaq;
- Uşaqların motor bacarıqlarının qiymətləndirilməsini təmin etmək:
  - Kiçik qruplarda – ümumi tərif;
  - Böyük qruplarda – ümumi, fərqli və fərdi.

Tərbiyəçi-müəllim fiziki mədəniyyət məşğələlərinin keçirilməsi üçün zəruri olan praktik bacarıqlara malik olmalıdır. Hər bir tərbiyəçi-müəllim tapşırıqların həlli üçün öz metod və üsullarını tapmalıdır. Bunlar aşağıdakılar ola bilər:

1. Məşğələyə hazırlıq – məşğələlərin məzmunu üzərində düşünmək, avadanlıqlar və

vəsaitlər hazırlamaq və son nəticələri müəyyənləşdirmək.

Lazımdır: mərhələlərin ardıcıllığına riayət etmək, kifayət qədər sahə və gigiyenik qaydalara riayət; geyim və ayaqqabı ilə təminat və vəsaitləri rahat yerləşdirmək.

2. Bədənin qızışdırılması – bədəni yüklənməyə hazırlamaq, hərəkətlərin məqsədəuyğunluğu və məşğələnin quruluşu, istiqamət, temp və yüklənmədə müxtəlifliyini düşünmək.

Lazımdır: Uzun sürən və məqsədsiz hərəkətlərin qarşısını almaq, aydın, qısa təşkilati və metodik göstərişlər vermək və ritmik müşayiət.

3. Ümumi inkişafetdirici tapşırıqlar – bədən üçün ən yaxşı və faydalı olanı seçmək (düzgün duruş, nəfəs və temp).

Lazımdır: Tapşırıqların adı və onların müxtəlif təqdimatlarını (müəllim, uşağın şousu və danışmaq) təmin etmək.

4. Əsas hərəkətlərin irəli sürülən vəzifələr səviyyəsində mənimsənilməsi. I mərhələdə bütövlükdə texniki elementləri yerinə yetirməyi öyrətmək, II mərhələdə həmin elementləri müstəqil yerinə yetirməyi öyrətmək və III mərhələdə yaradıcı şəkildə yerinə yetirməyi öyrətmək.

Lazımdır: Uşaqların qarşısına vahid vəzifə qoymaq və hərəkətlərin yaradıcı şəkildə təkrarlanması üçün şərait yaratmaq və tədris metodları və qiymətləndirmə vasitələri haqqında fikirləşmək.

5. Hərəkətli oyun – hərəkətlərin təkmilləşdirilməsi, yüklənmənin zirvəsinin təyin edilməsi və hərəkətli davranış.

Lazımdır: Oyunu izah etmək (uşaqların yaşı və oyunun yeniliyini nəzərə almaq və yuxarı yaşlı uşaqlar üçün qaydaları vurğulamaq), rolları bölüşdürmək, bütün mümkün vasitələrdən istifadə etmək, qaydaların icrasına nail olmaq, hərəkətləri yüksək yaradıcılıqla yerinə yetirmək və yükü tənzimlənmək.

6. Yekun hissə – nəbz və tənəffüsün bərpası.

Qaçış və başqa yüklənmələrdən sonra tədricən dayanmaq, tənəffüsü bərpa etmək, sürətləndirilmiş yerişdən başlayaraq tempi tədricən yavaşıtmaq, tənəffüs təmrinlərini yerinə yetirmək və az hərəkətli oyunlar lazımdır.

Motor bacarıq və vərdişlərinin inkişafı üçün hazırlıq:

1. Təlim-məşq məşğələlərində motor bacarıq və vərdişlərinin formalaşdırılması, fiziki keyfiyyətlərin inkişaf etdirilməsi, bacarıq və vərdişlərin təkmilləşdirilməsi (bütün məşğələlərin 50% -i) məsələləri həll olunur.
2. Süjet: Bədən tərbiyəsi fəaliyyəti. Bu süjet "Zoopark", "Kosmonavtlar", "Dovşana qonaq", "Sualtı krallıqda" və "Qış meşəsində" və digər mövzular üzərində qurulub. Bu bölümdə hərəkət bacarıqlarının təkmilləşdirilməsi və uşaqlar üçün maraqlı bir süjet vasitəsilə fiziki məşqlərə marağın artırılması vəzifələri həll edilir.

Tapşırıqların təhlil üçün suallar:

1. Şərtlər (yerin hazırlanması və vəsaitlərlə təmin olunması);

2. Uşaqlar və tərbiyəçilər üçün geyim və ayaqqabı seçimi;
3. Fiziki problemlərin həllinin səmərəliliyi, fiziki tərbiyə məsələlərinin həllinin effektivliyi, uşaqların tapşırıqları yerinə yetirmə keyfiyyəti, tapşırıqları yerinə yetirərkən uşaqların təşkili üsulları, məşğələlərin uşaqların yaş və hazırlıq və təlim mərhələlərinə uyğun olması, fiziki yüklənmənin tənzimlənməsi, uşaqların əhvalı (nəticələrə maraq, fəallıq, diqqət və digər uşaqlarla münasibətlər) və s.;
4. Tərbiyəçinin hazırlıq səviyyəsi: Fiziki tapşırıqların nümayişinin keyfiyyəti, izahların düzgünlüyü, komandalar və sərəncamların verilməsi, bütün uşaqları görüş dairəsində saxlamaq bacarığı, tapşırıqların yerinə yetirilməsində uşaqlara kömək etmək, səhvlərin qarşısını almaq, onları düzəltmək və sığortanı təmin etmək bacarığı və məşğələlərin aparılmasının xarakteri;
5. Məşğələlərin motor sıxlığı.

Məşğələnin səmərəliliyini təhlil etmək üçün suallar:

1. Süjet haqqında məlumat ("Hansı nağıl?" fiziki mədəniyyət dərsi);
2. Vəsaitlər personajlar və gigiyena qaydalarına uyğundurmu?
3. Hərəkət qabiliyyətləri və bacarıqlarının təkmilləşdirilməsi vəzifələri yerinə yetirildimi? (tapşırıqların adı çəkilən sahəyə uyğun olub-olmaması);
4. Fiziki hərəkətlərə marağın artırılması məsələlərinin həllinin səmərəliliyi: Uşaqlar üçün maraqlı olub-olmaması və tapşırıqların keyfiyyətli yerinə yetirilməsi;
5. Məşğələlərin keçirilməsi metodikasının düzgünlüyü:
   - Tapşırıqların dozası;
   - Onların icra tempi;
   - İzahat, göstərişlər, komandalar və sərəncamların düzgünlüyü və uşaqlara fərdi yanaşma.
6. Hansı süjet fiziki tərbiyə problemlərinin həllinə kömək edir?

**Oyun məşğələsi.** Bu məşğələ müxtəlif hərəkətli oyunlar, estafet oyunları, və əyləncəli oyunlar əsasında qurulur. Motor bacarıqlar, fiziki keyfiyyətlər və fiziki məşqlərə maraq inkişaf etdirilir. Məktəbəqədər yaşlı uşaq üçün ən məqbul fəaliyyət növü – hərəkətli oyunda motor hərəkətlərin müstəqilliyinin inkişaf etdirilməsidir.

Təhlil üçün suallar:

1. Oyun məşğələsinin şərtləri;
2. Məşğələ üçün yer və idman avadanlıqlarının hazırlığı;
3. Uşaqlar və tərbiyəçi-müəllim üçün geyim və ayaqqabı;
4. Oyunların təşkili: Oyuna verilən vaxt, hərəkətlərin təkrarı və fərdi məşqlər üçün verilən vaxt, otaqdan səmərəli istifadə, vəsaitlərin paylanması və toplanması; atributların toplanması;
5. Problemlərin səmərəli həlli: Fiziki keyfiyyətlərin (çeviklik, cəldlik və s.) inkişaf etdirilməsi üsulları;

6. Oyun məşğələsinin ümumi qiymətləndirilməsi;
7. Oyunların hansı növlərindən istifadə olunur, oyun hərəkətləri, hərəkətsiz və hərəkətli oyunların olub-olmaması.

**Kompleks məşğələ.** Hərəkət, nitq, təsviri incəsənət və konstruktiv – müxtəlif fəaliyyət növlərinin sintezinə yönəldilmişdir. Fiziki, psixi, əqli və mənəvi inkişaf problemləri eyni zamanda və kompleks şəkildə həll olunur.

Təhlil üçün suallar:

1. Tərbiyə məsələlərinin həlli dərəcələri: Əqli, əxlaqi, estetik və əmək tərbiyəsinə kompleks şəkildə aparılması, eyni zamanda musiqi müşayiətindən istifadə olunması;
2. Tərbiyəçinin pedaqoji ustalığının səviyyəsi: bütün uşaqlar və tapşırıqların yerinə yetirilməsinin keyfiyyəti, davranış və uşaqların əhval-ruhiyyəsinə nəzarət etmə bacarığı.

**Fiziki mədəniyyət və idrak fəaliyyəti məşğələsi** kompleks xarakter daşıyır və uşağın ekoloji-fiziki, əxlaqi-fiziki, əqli-fiziki inkişafı və s. məsələləri həll edir.

Məşğələnin səmərəliliyinin təhlili üçün suallar:

1. Bədən tərbiyəsi məşğələsində hansı istiqamətlərdə iş aparılır?
2. Fiziki-idraki, fiziki-əqli və fiziki-mənəvi fəaliyyət sahələri ilə yanaşı, fiziki tərbiyənin inkişafında hansı metodlar və üsullardan istifadə olunur?

**Tematik fiziki mədəniyyət məşğələsi** hər hansı idman oyunları və ya məşqlərin öyrənilməsinə həsr edilmişdir: xizək və voleybol oyunlarının elementləri, xokkey və s.. İdman məşqləri və oyunların yeni növləri öyrənilir və artıq mənimsənilmiş hərəkətlərdə bacarıqlar möhkəmlənir.

Məşğələnin səmərəliliyinin təhlili üçün suallar:

1. Məşğələ hansı mövzuya yönəldilmişdir?
2. Qarşıya qoyulan vəzifələr mövzuya uyğundurmu?
3. Müvafiq təlim şəraiti yaradılıbmı?
4. Tərbiyəçi-müəllim bu növ məşqlərin yerinə yetirilməsi texnikasına malikdirmi?
5. Mürəkkəb növ təlimlərin tədrisində tədricən müşahidə olunurmu?

Təlim zamanı təhlükəsizlik tələblərinə riayət olunur.

**Məşğələnin keçirilməsi üçün lazım olan praktik bacarıqlar:**

Müəllimin dərsə hazırlığı:

- Məşğələlərin konspektinin işlənib hazırlanması (onun tamlığı, savad və tərtibatının keyfiyyəti);
- Məşğələlər, avadanlıqlar və dərs vəsaitlərinin hazırlanması;
- Müəllimin zahiri görünüşü.

**Məşğələyə hazırlığın komponentləri** – məşğələlərin məzmununun müəyyənləşdirilməsi, avadanlıqların, vəsaitlərin hazırlanması və son nəticələrin müəyyən edilməsi üçün

tövsiyələr:

- Məşğələlərin keçiriləcəyi sahə, bədən tərbiyəsi zalının gigiyenası, tərbiyəçinin geyimi və ayaqqabıları və vəsaitlərin yerləşdirilməsinin normalara uyğun olub-olmadığına diqqət yetirmək lazımdır;
- Bədənin müəyyən hərəkətlərlə qızışdırılması, yüklənməyə hazırlanması, yüklənmə müxtəlifliyinin təmin edilməsi, fəaliyyətə maraq oyadılması və hərəkətlərin məqsədəuyğunluğu, onların quruluşu, istiqaməti, sürəti, yerinə yetirilmə metodlarının nəzərə alınması vacibdir.
- Uzunmüddətli və fiziki inkişafa xidmət etməyən və məqsədsiz hərəkətlərə icazə vermək olmaz.
- Təşkilati-metodik göstərişləri dəqiq və qısa şəkildə həyata keçirmək lazımdır.
- Ritmik müşayiətlərin (sayma, qaval, qramzapis, musiqi müşayiəti və s.) təşkil olunmasını təmin etmək lazımdır.

*Ümuminkişafetdirici hərəkətlərin* həyata keçirilməsi (düzgün duruş, tənəffüs, hərəkətdən çıxış vəziyyəti**,** hərəkətlərin tempi və s.):

- Hərəkətdən çıxış vəziyyətinin (h.ç.v.) dəyişilməsi və onların verilməsi müxtəlifliyi (müəllimin və uşağın adı, tələffüz və s.) nəzərdə tutulmalı;
- Ritmik müşayiətdən (sayma, söz, səs, musiqi, sürətli icra və s.) istifadə olunmalı.

*Əsas hərəkətləri* irəli sürülən vəzifələr səviyyəsində mənimsəmə: I mərhələdə ümumilikdə yerinə yetirmək, II mərhələdə texniki elementlər, III mərhələdə isə yaradıcı şəkildə tətbiq etmək aşağıdakı kimi öyrədilir:

- Uşaqların qarşısına vəzifələr qoyulmalı;
- Hərəkətlərin dəfələrlə yaradıcı təkrarı üçün şərait yaradılmalı;
- Öyrənmə və tətbiqetmə metodları haqqında düşünülməli.

Uşaqlara hər bir müraciət dəqiq, qısa və başadüşülən olmalı və uşaqlarda hərəkətlərin yerinə yetirilməsi üçün stimul və səbəb yaradılmalıdır.

Hərəkətli oyun-məşğələlərinin təkmilləşdirilməsi, yüklənmənin maksimum səviyyəsinin təmin edilməsi, gündəlik davranışda hərəkətlərin məşq etdirilməsi vacibdir. Bunun üçün aşağıdakılar nəzərə alınmalıdır:

- Oyun izah (uşaqların yaşı və yeni oyunları nəzərə almaq və böyük uşaqlar üçün oyun qaydalarını vurğulamaq) olunmalı;
- Hər məşğələdə müxtəlif üsullarla rollar paylanmalı;
- Oyunun keçirildiyi bütün sahədən istifadə olunmalı;
- Uşaqlar oyun qaydalarının yerinə yetirilməsi və hərəkətlərin keyfiyyətli və yaradıcı şəkildə yerinə yetirilməsinə çalışılmalı;
- Fiziki yüklənməni tənzimlənməli.

**Yekun hissədə** nəbz və tənəffüs bərpa olunur.

Qaçışdan sonra birdən dayanma və digər yüklənmə məşqlərinə icazə verilmir.

Tənəffüs sürətli gəzinti və qaçışla başlayan tempin tədricən yavaşlaması və tənəffüs məşqlərinin daxil edilməsi ilə bərpa olunur.

**Məşğələ zamanı uşaqların davranışı:**

- Uşaqların fərdi tapşırıqlara və məşğələlərə münasibəti (maraq, fəaliyyət, əzm və s.);
- Uşaqlar arasında qarşılıqlı yardım;
- Nizam-intizama riayət olunması;
- Məşğul olanların zahiri görünüşü.

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. Fiziki mədəniyyət məşğələsinin səmərəliliyini qiymətləndirmək üçün müşahidə vərəqi hazırlayın.
2. Oyun məşğələsi qurun və onu qiymətləndirmək üçün anket hazırlayın.
3. Kompleks fiziki mədəniyyət məşğələsi qurun və onu qiymətləndirmək üçün müşahidə vərəqi hazırlayın.
4. Tematik fiziki mədəniyyət məşğələsi qurun və onu qiymətləndirmək üçün müşahidə vərəqi hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlimin səmərəliliyini artırmaq üçün zəruri olan amilləri qiymətləndirir və uyğun olaraq məşğələyə dəyişiklik edir”**

1. Bədən tərbiyəsi məşğələsinin problemlərinin həllinin səmərəliliyini qiymətləndirmək üçün meyarları tamamlayın.

| Məşğələ | Məşğələ tapşırıqlarının məzmunu | Nəticəliliyin meyarları |
|---|---|---|
| Təhsil | | |
| Sağlamlıq | | |
| Tərbiyəvi | | |

2. Məntiqi zəncirlər texnikasını tamamlayın.

| | |
|---|---|
| Proqram materialının miqdarını uşaqların təlim, yaş və fərdi imkanlarına uyğun olaraq dəqiq müəyyənləşdirin. | |
| Tapşırığı uşaq üçün vəzifəyə çevirin. Yaşını nəzərə alaraq onu aydın və konkret olaraq formalaşdırın | |
| Bu və ya digər hərəkətdən asılı olaraq təlim metodlarını (əyani, şifahi, praktik və yaradıcı tapşırıqlar), eləcə də ən optimal müavinətləri, yeri, növü və məşğələlərin formasını seçin. | |
| Hərəkətin təkrarlanması üçün şərait yaradın. | |
| Uşaqların motor bacarıqlarının qiymətləndirilməsini təmin edin:<br>➢ Kiçik qruplarda - ümumi tərif;<br>➢ Böyük qruplarda - ümumi, fərqli və fərdi. | |

# TƏLİM NƏTİCƏSİ 2

# İDRAK FƏALİYYƏTİNİ İNKİŞAF ETDİRMƏK

## 2.1. İdrak fəallığını formalaşdıran müxtəlif oyunları təşkil edir

### Uşaqların oyun fəaliyyətinin xüsusiyyətləri

Məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyəti oyundur. Bu dövrdə uşaq fəaliyyətinin digər növləri ilə müqayisədə, oyun daha təsirli tərbiyə vasitəsidir. Bu baxımdan, uşaqların həyatında oyunlar xüsusi yer tutur. Uşağın inkişafında oyunun rolunu öyrənmək üçün onun psixoloji mahiyyətini, ilk növbədə, bu sözün mənşəyində axtarmaq lazım gəlir, məsələn, qədim yunanlara görə oyun – "uşaqlara xas olan hərəkət", yəhudilərdə – "zarafat, gülüş", romalılarda – "sevinc, şənlik", almanlarda isə "ürəyə yatan hərəkət" deməkdir.

Oyun özündə uşağın bir sıra fəaliyyət növlərini birləşdirir. Bu sırada əmək fəaliyyətinin elementləri öndə durur. Belə ki, uşaq oyunları özündə əməyin prototipini əks etdirir. Oyun prosesində uşağın mənimsədiyi hislər həyatın bu və ya digər tərəfini fəal qavramağa, öz mövqeyini, təcrübəsini, istiqamətini müəyyənləşdirməyə imkan verir.

Uşaq oyunları öz məzmununa görə sosial prosesdir – «onlar gördüklərini oynayırlar». Oyunların məzmunu uşağın həyat şəraitindən, cəmiyyətdə gördüklərindən götürülür. Xüsusilə məktəbəqədər yaşın sonunda, rollu oyunlar zamanı uşaq tərəfindən cəmiyyətin əxlaq normalarının, mənəvi dəyərlərin mənimsənilməsi prosesi intensivləşir.

Oyunların təşkili zamanı onlara uşağın özünəməxsus fəaliyyəti kimi yanaşılır. Bu özünəməxsusluq uşaq oyunlarının fərqli xüsusiyyətləri ilə bağlıdır. Belə ki, uşağın oyun fəaliyyəti müxtəlif anlayışlar toplusundan ibarət olmayıb, inkişafın müxtəlif mərhələlərində onun əmək və təlim fəaliyyətinin müxtəlif elementlərini özündə əks etdirən sistemli təcrübi fəaliyyətidir. Uşaq oyunu, həm də həyati həqiqətlərə uşağın özünəməxsus münasibətidir. Oyunların gedişi xəyali situasiyaların yaradılması, yaxud bir əşyanın əlamət və xassələrinin digərinə köçürülməsi ilə xarakterizə olunur.

Uşaq oynamaq qərarı verərkən bu prosesdə heç də konkret olaraq hansı motivi yaradacağı barədə düşünmür. Belə ki, oyun hərəkətinin motivi bu hərəkətin nəticəsində deyil, oyun prosesinin özündədir. Uşaq oyunlarına müxtəlif təsnifatlar (Sxem 2.1) verilir. Bunlardan biri aşağıdakı sxemdə verilmişdir.




**Sxem 2.1. Uşaq oyunlarının təsnifatı**

### Uşaq oyunlarının müəllif təsnifatı

Məktəbəqədər pedaqogikada aşağıdakı müəllif təsnifatları populyardır.

1. Fridrix Frebelin təsnifatı.

Bu təsnifatın əsası bir-birini tamamlayan və ayrılıqda mövcud olmayan 3 əsas istiqamət ola bilər. Lakonik ifadə: *Mən hərəkət hiss edirəm.*

Oyunlar *zehni (*psixi prosesləri inkişaf etdirir*), sensor (*sensor standartlarını inkişaf etdirir*) və motor (*motor bacarıqlarını inkişaf etdirir*)* olmaqla 3 qrupa ayrılır.

Funksiya (latınca *functio* – törədilmə, icra) bir dəyişikliyin digər bir dəyişikliyi müşayiət edən iki obyektin (qrupun) nisbətidir. Müəllifin fikrincə, bu təsnifata əsasən oyunların müəyyən edilməsi adi və xüsusi funksiyaları yerinə yetirir, lakin adi funksiyalı oyunlar iradəni inkişaf etdirən oyunların müəyyənləşdirilməsi ilə razılaşma imkanı verir. Belə hesab olunur ki, iradənin inkişafı (emosional iradə sahəsi) xüsusi keyfiyyətdir.

Oyunlar adi funksiyaları (hərəkət, əqli, sensor, oyun və iradənin inkişafı) və xüsusi funksiyaları (instinktlər və görülən tədbirlərin təkmilləşdirilməsi üçün: süjetli-rollu, səhnələşdirilmiş, konstruktiv və digər oyunlar) həyata keçirir.

2. P. F. Lesqaftın təsnifatı

Pedaqoji ensiklopediyada *imitasiya* hər hansı nümunəyə uyğun olaraq təqlidetmə kimi müəyyənləşdirilir. Erkən və məktəbəqədər yaşlı uşaq imitasiya vasitəsi ilə mövzunu, hərəkətləri, özünəxidmət bacarıqlarını, davranış normalarını mənimsəyir və nitq bacarıqlarına yiyələnir. Bu təsnifata əsasən oyunlar *yamsılama* (qaydasız) və *hərəkətli* (qaydalı oyunlar) oyunlara bölünür.

3. S. L. Novosyolovanın təsnifatı

Bu təsnifata əsasən xüsusi təşkil olunmuş (böyüklərin təşəbbüsü ilə) fəaliyyətlər, tərbiyə-təhsil prosesinin təşkili üsulları, pedaqoqun uşaqlarla birgə fəaliyyəti və şagirdlərin müstəqil fəaliyyəti fərqləndirilir.

Oyunlar - uşaqların təşəbbüsü ilə yaradılan müstəqil oyunlar (əyləncəli, süjetli-rollu, rejissorluq və oyun-eksperimentlər), böyüklərin təşəbbüsü ilə yaradılan oyunlar (təhsil, hərəki, didaktik), istirahət (oyun-əyləncə) və intellektual (oyun–əyləncə, bayram-karnaval) oyunlara bölünür. Hər iki oyun növü tarixi hadisələr (tarixi və ənənəvi) əsasında qurula bilər.

4. N.K. Krupskayanın təsnifatı

N.K. Krupskayaya görə “Oyun böyüməkdə olan uşaq orqanizminin ehtiyacıdır. Uşağın fiziki keyfiyyətləri oyun prosesində inkişaf edir: Əllər və ayaqlar daha möhkəm və güclü olur, bədən isə daha çevik olur. Bədənin bütün sistemləri və orqanları inkişaf edir. Uşaqlar oyunda təşkilatçılıq, dözümlülük, vəziyyəti qiymətləndirmək və s. bacarıqlarını inkişaf etdirirlər. Ədalət duyğusuna malik olmaq, çətinliklərə qalib gəlməkdə kömək etmək və s. keyfiyyətlər tərbiyə edən bir qrup böyük oyunlar vardır. Oyunlarla bir heyvan da yetişdirə bilərsən, əsl insan da böyüdə bilərsən ... ".

Oyunlar - *süjetli-rollu* (məişət, istehsalat mövzularında, ictimai-siyasi mövzulu, tematik, tikinti, təbii materiallarla, səhnələşdirilmiş oyunlar və əyləncəli oyunlar) və *qaydalı oyunlara* (didaktik, hərəkətli və idman oyunları) bölünür.

**Didaktik oyunların quruluşu**

Didaktik oyunlar özünəməxsus quruluşa malikdir və əksər tədqiqatçılar bu oyunlarda didaktik tapşırıq (oyunun məqsədi), oyun qaydaları, oyun hərəkətləri, oyunun nəticəsi və ya başa çatması kimi struktur elementləri müəyyənləşdirirlər (Şəkil 2.1).



**Şəkil 2.1. Didaktik oyun**

Didaktik oyunun əsas elementi didaktik tapşırıqdır. Didaktik tapşırıq tədris proqramı ilə sıx bağlıdır. Bütün digər elementlər bu tapşırığa tabedir və onun icrasını təmin edirlər.

Didaktik tapşırıqlar müxtəlifdir. Bu, ətraf mühitlə (təbiət, heyvan və bitkilərin həyatı, insanlar, onların həyat tərzi, iş və ictimai həyat hadisələri) tanışlıq və nitqin inkişafı (düzgün tələffüzün qoyuluşu, lüğət ehtiyatının zənginləşdirilməsi, rabitəli nitq və təfəkkürün

inkişafı) ola bilər. Didaktik tapşırıqlar sadə riyazi təsəvvürlərin möhkəmləndirilməsi ilə bağlı ola bilər.

Didaktik oyunların məzmunu ətraf aləmdəki gerçəkliklərdən (təbiət, insanlar, onların münasibətləri, məişəti, əməyi, ictimai həyat hadisələri və s.) götürülə bilər.

Didaktik oyunda əsas rol qaydalara aiddir. Onlar hər bir uşağın oyunda nəyi və necə etməli olduğunu müəyyən edirlər və məqsədə nail olmaq üçün yol göstərirlər. Qaydalar uşaqlarda (xüsusilə və kiçik məktəbəqədər yaşda) öz istəklərini məhdudlaşdırmaq qabiliyyətinin inkişafına kömək edir. Onlar uşaqlarda öz davranışlarını cilovlamaq və idarə etmək bacarıqlarını tərbiyə edirlər.

Didaktik oyunda qaydalar verilir. Qaydalardan istifadə edilərək oyun, idrak fəaliyyəti prosesləri və uşaqların davranışlarına nəzarət edilir.

Məktəbəqədər uşaqlar üçün intizama əməl etmək çox çətindir. Hər kəs "Sehirli torba" dan oyuncaq çıxarmaq, bir əşyanın adını çəkmək və s. işlərdə birinci olmaq istəyir, lakin uşaq kollektivində oynamaq istəyi onları tədricən bu hissə maneə törətmək qabiliyyətinə, yəni oyun qaydalarına tabe olmağa aparır.

Didaktik oyunlarda mühüm rol oyun fəaliyyətinə məxsusdur. Oyun fəaliyyəti oyun məqsədlərinin yerinə yetirilməsi üçün uşaq fəaliyyətinin təzahürüdür: Qalanı sökmək, kubikləri seçmək, təsvirinə görə əşyaları tapmaq, masaya yerləşdirilən əşyalarla bağlı hansı dəyişikliklərin baş verdiyini təxmin etmək, yarışmada qalib gəlmək və s..

Didaktik oyunları uşaqları cəlb və cazibədar edən nöqteyi-nəzərdən təhlil edəndə məlum olur ki, uşaqlar, ilk növbədə, oyunların hərəkətləri ilə maraqlanırlar.

Oyun uşaqların fəaliyyətini stimullaşdırır və uşaqlarda məmnunluq hissi yaradır. Oyun şəklində verilmiş didaktik tapşırıq uşaq tərəfindən daha uğurla həll olunur, çünki diqqət, ilk növbədə, oyun hərəkətlərinin yerinə yetirilməsi və onun qaydalarının həyata keçirilməsinə yönəldilmişdir. Uşaq çox çətinlik çəkmədən, gərginləşmədən və oynayaraq didaktik tapşırığı yerinə yetirir.

Oyun fəaliyyətinin olması səbəbindən sinifdə həyata keçirilən didaktik oyunlar tədris prosesini daha əyləncəli və emosional edir, uşaqların diqqətinin könüllü şəkildə problemə yönəldilməsinə kömək edir, bilik, bacarıq və qabiliyyətlərin daha dərindən mənimsənilməsi üçün şərait yaradır.

Kiçik məktəbəqədər yaşlı uşaqlar üçün oyun hərəkətləri sadədir: Rəngli topları onlarla eyni rəngdə olan qapılara yuvarlamaq və matryoşkaları sökmək və yığmaq; "Ayı"nı çağıranı səsindən tanımaq, "Sehirli torba"dan əşyaları çıxarmaq və s..

Kiçik məktəbəqədər yaşlı uşaq hələ oyunun nəticəsi ilə maraqlanmır, o yenə də oyun hərəkətlərinin özü və obyektlərinə valeh olur: Yuvarlanmaq, yığmaq, qatlamaq və s..

Orta və böyük məktəbəqədər yaşlı uşaqlar üçün isə oyun hərəkətləri ilə oyunun iştirakçıları arasında daha mürəkkəb əlaqələr qurulmalıdır. Bir qayda olaraq, bir oyun hərəkətində müəyyən bir oyun vəziyyətində hər hansı rolun (canavar, alıcı, satıcı, həkim və s.) yerinə yetirilməsi nəzərdə tutulur. Uşaq təsvir edilən şəkildəki kimi hərəkət edir və bu obrazla əlaqədar uğur və uğursuzluqlar yaşayaraq təxəyyülündə təsəvvür etdiyi kimi fəaliyyət göstərir.

Bir neçə oyun elementlərindən ibarət olan bir oyun hərəkəti uşaqların diqqətini oyunun məzmunu və qaydaları üzərində daha uzun müddət saxlayır və didaktik tapşırığın yerinə yetirilməsi üçün əlverişli şərait yaradır.

Nəticə (yekun) oyunun sonunda və dərhal həyata keçirilir. Bu, balların hesablanması, oyun tapşırığını daha yaxşı yerinə yetirən uşaqların aşkarlanması və qeyd olunması, qalib komandanın müəyyən edilməsi və s. ola bilər. Bu zaman hər bir uşağın nailiyyətlərini qeyd etmək və geridə qalan uşaqların da uğurlarını vurğulamaq lazımdır.

Didaktik oyunlar uşaqların dərketmə keyfiyyətlərinin (diqqət, yaddaş, müşahidə və s.) formalaşdırılmasına kömək edir. Bu oyunlar, uşaqlara mövcud bilikləri fərqli oyun şəraitində tətbiq etmək, müxtəlif idraki prosesləri aktivləşdirmək və emosional sevinc bəxş etməyi öyrədir.

**Didaktik oyunun xüsusiyyətləri**

Didaktik oyunların əsas xüsusiyyəti onların adı ilə müəyyən edilir – bunlar maarifləndirici oyunlardır. Bu oyunlar uşaqların təlimi və tərbiyəsi məqsədi ilə böyüklər tərəfindən yaradılmışdır, lakin uşaqlar üçün didaktik oyunun təlim və tərbiyəvi əhəmiyyəti açıq görünmür. Təlim-tərbiyə vəzifələri oyunun tapşırıqları, hərəkətləri və qaydaları ilə həyata keçirilir.

**Didaktik oyun sistemləri**

İlk dəfə bu sistemlər məktəbəqədər təhsil üçün F. Frebel və M. Montessori, ibtidai təhsil üçün isə O. Decroles tərəfindən hazırlanmışdır.

Didaktik oyunların özünəməxsus xüsusiyyətləri onların niyyət, planlaşdırma, təcrid oluna bilən və açıq formada qeyd oluna bilən təlim məqsədi və nəzərdə tutulan nəticənin olmasıdır. Bu oyunlar zamanla məhdudlaşdırılır.

Məktəbəqədər təhsil təcrübəsində didaktik oyunun inkişafetdirici təsirini qeyd etmək vacibdir:

- Motor əzələləri və psixomotorikanın inkişafı;
- Qaydalara uyğun davranış, identifikasiya (eyniləşdirmə) mexanizmi, empatiya (özünü başqa bir adamın yerinə qoymaq) və s. bacarıqları;
- Özünü başqasının rolunda təqdim etmək bacarığı;
- Qarşıda duran fəaliyyəti planlaşdırmaq, qiymətləndirmək və vəziyyətə istiqamətlənmək bacarıqlarının formalaşdırılması;
- Əməkdaşlıq bacarıqları (xüsusilə komanda oyunlarında) və bir sıra şəxsi keyfiyyətlərin (səbr, ixtiyari davranış və s.) inkişafı.

Didaktik oyunlar məktəbəqədər yaşlı uşaqları ətraf aləmlə tanış etmək, onun haqqında təsəvvürləri genişləndirmək və zənginləşdirməkdə mühüm yer tutur.

**Didaktik oyunların təsnifatı**

Didaktik oyunlar məzmun və məqsədlərinə görə aşağıdakı növlərə bölünür:

- Riyazi (vaxt, məkan, əşyaların sayı haqqında təsəvvürləri möhkəmləndirmək üçün);
- Sensor (rəng, ölçü, forma haqqında məlumatları möhkəmləndirmək üçün);

- Nitq (söz və cümlə ilə tanış olmaq, nitqin qrammatik quruluşunun formalaşdırılması, nitqin səs mədəniyyətinin formalaşdırılması, lüğət ehtiyatının zənginləşdirilməsi və s.);
- Musiqi (ritm hissinin inkişafı üçün);
- Təbiətşünaslıq (canlı və cansız təbiətin obyektləri və hadisələri ilə tanış olmaq);
- Ətraf aləmlə tanışlıq üçün (hazırladıqları mövzu və materiallarla, insanların peşələri ilə və s.).

Didaktik materiallardan istifadəyə görə didaktik oyunlar ənənəvi olaraq üç qrupa bölünür:

- Quruluş (səhnələşdirilmiş) oyunları;
- Stolüstü-çap oyunları (kəsmə şəkillər, qatlama kublar, loto, domino və s.)
- Sözlü oyunlar (tapmacalar, yanıltmaclar və s.).

Mövzulu oyunlar – bunlar xalq didaktik oyuncaqların (mozaika, müxtəlif təbii materiallar (yarpaqlar, toxumlar) və s.) istifadə olunduğu oyunlardır. Xalq didaktik oyuncaqlarına aiddir: taxtadan hazırlanmış konuslar, bir rəngli və rəngarəng halqalar, toplar, matryoşkalar, göbələklər və s.. Onlarla əsas: taxma, sürmə, hissələrdən tam fiquru yığmaq və s. oyunlar etdirilir. Bu oyunlar uşaqlarda rəng, ölçü və forma anlayışlarının qavranılmasını inkişaf etdirir.

**Stolüstü-çap oyunlar** ətraf aləm haqqında təsəvvürlərin dəqiqləşdirilməsi, biliklərin sistemləşdirilməsi, dərketmə prosesləri və əməliyyatlarının (analiz, sintez, ümumiləşdirmə, təsnifatlaşdırma və s.) inkişaf etdirilməsinə yönəlmişdir.

Oyun hərəkətlərinin xüsusiyyətindən asılı olaraq didaktik oyunların aşağıdakı növləri vardır:

- Səyahət oyunları;
- Oyun-fərziyyələr ;
- Tapşırıq oyunları;
- Tapmaca oyunları;
- Oyun-söhbətlər.

Didaktik oyunların təsnifatının əsasını uşaqların idrak marağı təşkil edir. Didaktik oyunların aşağıdakı növləri var:

- İntellektual oyunlar (pazl oyunları, söz oyunları, fərziyyə oyunları, tapmacalar, şahmat, məntiq oyunları və s.);
- Emosional oyunlar (xalq oyuncaqları ilə oyunlar, əyləncə oyunları, təhsil məzmunlu süjetli oyunlar, sözlü -hərəkətli oyunlar, oyun–söhbətlər və s.);
- Tənzimləmə oyunları (gizlətmə və axtarış oyunları, stolüstü-çap, tapşırıq oyunları, müsabiqə oyunları, nitq inkişafı oyunları və s.);
- Yaradıcı oyunlar (musiqi xoru, əmək oyunları, tamaşa, fantaziya oyunları və s.);
- Sosial oyunlar (əşyalarla oyunlar, didaktik məzmunlu süjetli-rollu oyunlar,

ekskursiya, səyahət oyunları və s.).

**Didaktik oyunların təşkili və idarə olunması**

Didaktik oyunlar məşğələ saatlarında və plan üzrə təşkil edilir. Bundan başqa oyunlar üçün ayrılmış saatlarda uşaqların ixtiyarına müxtəlif materiallar verilir. Bu oyuncaqlarla onlar öz istəklərinə görə (fərdi və kiçik qruplarla, bəzən də bütün kollektivlə) oynaya bilərlər.

Pedaqoji işin ümumi planına uyğun olaraq uşaqlar üçün oyun və materialların böyüklər tərəfindən seçilməsi nəzərdə tutulur.

Uşaqların müstəqil oyunları müşahidə etmələri onların biliyi, əqli inkişaf səviyyəsi və davranış xüsusiyyətlərini üzə çıxarmağa imkan verir. Bu, uşağa hansı oyunların faydalı olduğu, hansı keyfiyyətlərin inkişaf etdirildiyi və hansıların geridə qalmasını aydınlaşdırmağa yardım edir.

Didaktik oyunlarda məşğələdə olduğu kimi fərqli tədris metodlarından (əyani, şifahi, praktik və s.) istifadə olunur, lakin didaktik oyunlar özünəməxsus texnologiyaya malikdir. Bütün oyun prosesində uşağın oyun tapşırığının həvəsinin qorunması vacibdir. Bunun üçün pedaqoq tələb və şərhlərini tapşırıq və qaydalara əsaslandıraraq oyunun iştirakçısı rolunda çıxış etməlidir. Uşaqların özləri qaydalara riayət etməkdə maraqlıdırlarsa, oyunda tələb olunan ciddi intizam asanlıqla qurulur.

Didaktik oyunlar qısamüddətlidir (10–20 dəq.) və oyunçuların zehni fəallığı və onlara verilmiş vəzifələrə marağın bütün bu müddət ərzində azalmaması vacib şərtlərdəndir. Kollektiv oyunlarda bu cəhətin izlənməsi vacibdir. Yalnız bir uşağın problemin həlli ilə məşğul olmasına icazə verilir, digərləri isə hərəkətsiz olmalıdır, məsələn, "Nə dəyişdi?" oyununda uşaqları növbə ilə problemin həllinə dəvət etmək olar, lakin bu vəziyyətdə oyunçulardan yalnız biri aktiv zehni işlə məşğul olacaq, qalanları isə yalnız müşahidə edəcəklər. Adətən, belə oyunda uşaqlar passiv gözləmə şəraitindən tez yorulurlar.

Fərqli yaş qruplarında didaktik oyunların idarə olunması bir sıra xüsusiyyətlərə malikdir. Kiçik qruplarda tərbiyəçi özü uşaqlarla oynayır – onlara oyun qaydalarını izah edir, ilk olaraq mövzuya toxunaraq öyrənir və şəkli təsvir edir. Böyük qruplarda oyun başlamazdan əvvəl uşaqlara onun vəzifəsi və qaydalarını aydınlaşdırmaq lazımdır. Oyunda qarşıya qoyulan vəzifələr yerinə yetirilərkən uşaqlardan tam müstəqillik tələb olunur.

Böyük məktəbəqədər yaşlı uşaqlar üçün bir çox didaktik oyunlar və hərəkətli oyunlarda olduğu kimi rəqabət elementləri də var. Kimsə qalib gəlir və kimsə məğlub olur. Bəzən bu, uşaqlarda həddindən artıq həyəcan yaradır. Buna yol verilməməlidir.

Oyun zamanı uşaqlarda bir-birinə qarşı xeyirxah münasibəti tərbiyə etmək, onlarda tapşırığı yaxşı yerinə yetirmək istəyi oyatmaq və heç bir halda məğlub olanları lağa qoymaq və qaliblərin lovğalanmasına yol vermək lazım deyil. Məğlub olan uşağa öz gücünə inam aşılamaq, ona səhvini düzəltməyə fürsət vermək və ya tapmacanı həll etməsi üçün əlavə vaxt vermək lazımdır. Uşaqlara yoldaşının uğuruna sevinmək və oyunda yaranan mübahisələri ədalətlə həll etməyi öyrətmək lazımdır.

Oyunda, yuxarıda dediyimiz kimi, uşağın xarakter xüsusiyyətləri özünü büruzə verir və onun inkişaf səviyyəsi ortaya çıxır. Buna görə də oyun uşaqlarda fərdi yanaşma tələb

edir. Tapşırıq seçilərkən və sual verilərkən hər bir uşağın fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Birinə nisbətən asan bir tapmaca verilməlidir, çünki digərinə daha çətin ola bilər, birinə aparıcı suallarla kömək lazımdır, başqa birindən isə problemin tamamilə müstəqil şəkildə həlli gözlənilir.

Beləliklə, didaktik oyunda öyrənmə hər bir uşaq və bütün kollektivin tərbiyəsi ilə ayrılmaz şəkildə bağlıdır.

**Tikinti materialları ilə oyunların xüsusiyyətləri və təsnifatı**

Tikinti materialları ilə oyunların əsas xüsusiyyəti onların əsasında konstruktiv bacarıq və qabiliyyətlərin dayanmasıdır. Bu oyunlar dizayn fəaliyyətinin əsasını qoyaraq düşüncə və məkan təsəvvürlərinin inkişafına kömək edir.

Tikinti materiallarının aşağıdakı (Şəkil 2.2) növləri fərqləndirilir:



**Şəkil 2.2. Tikinti materialları**

1. Xüsusi olaraq yaradılan (stolüstü tikinti materialları, konstruktorlar və s.) tikinti materialları müxtəlif həndəsi fiqurlar dəstindən ibarətdir. Onlar kiçik və böyük parçalara bölünür. Erkən yaşlı uşaqlar kublar və kərpiclərlə tanış olurlar, sonra isə materiallar tədricən müxtəlifləşir;
2. Təbii tikinti materiallarına qum, qar, gil, daş və s. daxildir. Orta qrupdan başlayaraq konstruksiya üçün meyvələr, şam, küknar qozaları, ağac qabıqları, budaqlar, duz və s. istifadə edilir;
3. Köməkçi tikinti materiallarından (lövhələr, qutular və s.) orta, böyük və hazırlıq qruplarında istifadə olunur. Bu tip tikinti materiallarından (kağız və ya nazik karton, müxtəlif qutular, rulonlar və s.) istifadə edilərək həcmli oyuncaqlar hazırlamaq olar.

Məktəbəqədər təhsilin nəzəriyyəsi və praktikasında bir neçə **quraşdırma** növü inkişaf etdirilmişdir:

1. Model üzrə quraşdırma – konstruksiyanın ən geniş yayılmış növüdür. Uşağa tikintinin modeli təklif olunur. Bu modeldə tərkibi elementlərin konturları gizlidir. Uşaq əvvəlcə modeli təhlil edir: Onu tərkib hissələrinə ayırır və modelin bərpası üçün lazım olan formaları seçir;
2. Verilmiş mövzu üzrə quraşdırma. Uşağı qarşıya qoyulmuş vəzifənin yaradıcı şəkildə yerinə yetirilməsinə istiqamətləndirir, lakin onun həllinin hüdudları mövzu ilə məhdudlaşdırılır;
3. Öz niyyəti ilə quraşdırma. Mürəkkəb quraşdırma növüdür. Quraşdırmanın bu növündə uşaq bütün vəzifələri müstəqil həll edir: Öz qarşısına fəaliyyət məqsədi

qoyur, onu planlaşdırır, lazımi materialları seçir və qurduğu planı həyata keçirir.

Hər bir quraşdırma növünün öz üstünlükləri var, ona görə də onları tədris prosesində birləşdirmək lazımdır.

**Tikinti və quraşdırma oyunlarının əhəmiyyəti**

Tikinti və quraşdırma oyunları uşaq yaradıcılığı, düşüncə, məkan, təxəyyül və dizayn fəaliyyəti əsasında inkişafa kömək edir. Bu inandırıcı fakt N.N.Podlyakova, L.A.Paramonova və başqalarının tədqiqatlarında öz isbatını tapır.

Məktəbəqədər pedaqogikada quraşdırmaya uşağın hərtərəfli inkişafı vasitəsi kimi baxılır. Bunlar aşağıda göstərilən qabiliyyətləri inkişaf etdirir.

**1. Sensor qabiliyyətlər**

Ən çox məhsuldar fəaliyyətdə, xüsusilə dizayn sahəsində uğurla inkişaf etdirilmişdir. Uşaq quraşdırma ilə məşğul olarkən bir əşya və nümunənin (keyfiyyət, ölçü, quruluş və s.) zahiri xüsusiyyətlərini fərqləndirməyi öyrənir. Uşaq dizayn edərkən obyektin keyfiyyətlərini vizual qavramaqdan başqa praktik olaraq nümunəni detallara ayırır və sonra onları modeldə toplayır. Beləliklə, uşaqda müqayisə etmək və vizual analiz aparmaq, qavrama prosesinə təfəkkür proseslərini daxil etmək bacarığı da formalaşır.

**2. Əmək tərbiyəsi**

Tikinti materialları ilə oyunlar əmək fəaliyyətinə daha yaxındır. Bu, uşaqlarda elə keyfiyyətləri tərbiyə edir ki, onları bilavasitə əməyə hazırlayır: Məqsəd qoymaq bacarığı, öz işini planlaşdırmaq, lazımi material seçmək, öz işi və yoldaşlarının işinin nəticələrini tənqidi qiymətləndirmək, qarşıya qoyulmuş məqsədə yaradıcı yanaşmaq bacarıqları və s.. Quraşdırma fəaliyyəti prosesində əməksevərlik, müstəqillik, təşəbbüskarlıq və işə məsuliyyətli münasibət inkişaf edir. Uşaq bağçasında oyunların təşkili və keçirilməsi zamanı kollektivdə əlbir və mehriban işləmək üçün ilkin vərdişlərin aşılanmasında böyük imkanlar yaradır.

**3. Nitq inkişafı**

Tikinti materialları ilə oyunlar şüurun fəal işi ilə əllərin fəaliyyətinin birləşdirilməsində böyük rol oynayır. Materialist fiziologiya və duyğular kompleksini tamamlayan və əşyalar haqqında daha dolğun və dərin məlumatlar yaradan incə taktil orqan kimi əllərə böyük əhəmiyyət verir. Əl, beyin və nitq aparatının birgə fəaliyyəti sayəsində insan xarici aləmə təsir etmək və onun inkişaf qanunlarını dərk etmə imkanına malikdir. Məktəbəqədər müəssisə şəraitində tikinti materialları ilə oyunlar uşaqlarda nitqin inkişafına şərait yaradır: Onlar öz fikirlərini bölüşür, öz hərəkətlərini izah edir və qərar qəbul edirlər. Onların lüğət ehtiyatı genişlənir.

**4. Fiziki inkişaf**

Quraşdırma oyunları uşaqlara böyük emosional zövq verdiyi üçün dəyərlidir. Oyun zamanı uşaqlar ən çox sevdikləri obrazları canlandırırlar: Təyyarəçi öz təyyarəsini quraşdırır və kapitan öz dənizçiləri ilə uzun bir səyahətin təklif olunduğu bir gəminin tikintisi üçün lazım olan detalları qızğın şəkildə müzakirə edir.

**5. Estetik tərbiyə**

Tikinti materiallarından hazırlanan hər hansı bir modelin qurulması üçün uşaqları onun əsl görünüşü ilə tanış etmək lazımdır. Bunun üçün hər hansı bir obyekt və ya binanın görüntüsü, ekskursiyalar və təsvirlər lazımdır. Onların köməyi ilə uşaqlar bədii zövqü inkişaf etdirmək, gözəl binaları araşdırarkən estetik zövqə malik olmaq, insanların əlləri ilə yaradılan dəyərləri qiymətləndirilməsi bacarığını formalaşdırmaq, öz şəhəri və ölkəsinin memarlıq sərvətlərini sevmək və qorumaq imkanlarına malikdirlər.

**6. Uşaqların məktəbə hazırlanması**

Uşaqlarla dizayn sahəsində aparılan məqsədyönlü və sistemli məşğələlər onların məktəbə hazırlanmalarında mühüm rol oynayır. Bu, öyrənmə bacarığının formalaşdırılmasına kömək edir və göstərir ki, fəaliyyətin əsas mənası yalnız nəticənin deyil, həm də bilik və bacarıqların əldə edilməsi ilə bağlıdır. Belə bir idrak motivi zehni proseslərdə əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu dəyişikliklər, əsasən, zehni əməliyyatların müəyyən bir inkişaf səviyyəsinə çatmaqda idrak proseslərini özbaşına idarə etmək və biliklərin şüurlu mənimsənilməsi üçün zəruri olan zehni işləri yerinə yetirmək qabiliyyətindən ibarətdir.

**Tikinti və quraşdırma oyunlarına pedaqoji rəhbərlik**

Uşaqlarla quraşdırma oyunlarında qarşıda duran vəzifələr bunlardır:

- Tikinti-layihələşdirmə bacarıqlarını inkişaf etdirmək;
- Ətraf mühitdəki strukturlar və tikintilər haqqında fikirləri genişləndirmək, dizayn xüsusiyyətlərini görmək və quraşdırma oyun bacarıqlarını inkişaf etdirmək;
- Hər yaş qrupundan olan uşaqları quraşdırma oyunları zamanı məşğələlərdə əldə olunan bacarıqlardan istifadə etməyə həvəsləndirmək;
- Yoldaşlarının rəyi də nəzərə alınaraq evciklərin quraşdırılma işlərinin kollektiv şəkildə həyata keçirilməsi bacarıqlarını inkişaf etdirmək;
- Uşağa fikrinin faydalılığını əsaslandıraraq izah etməyi öyrətmək;
- Uşaqda materiallardan istifadə zamanı uşaqlarda intizama əməl edərək mütəşəkkil qaydada işləmək bacarığını formalaşdırmaq;
- Məqsədyönlü işləmək bacarığını inkişaf etdirmək və görəcəkləri işlər barədə əvvəlcədən fikirləşmək (işin sadə formaları üzərində əvvəlcədən düşünmək).

Uşaqlara tikinti materiallarından dizayn etməyi öyrətmək üçün tərbiyəçi müəllim müxtəlif üsullardan istifadə edir:

- Bütün dizayn texnikaları nümayiş etdirilərək və hərəkətlərin izahı verilərək evciyin müəllim tərəfindən konstruksiya olunması;
- Hazır bina nümunəsinin göstərilməsi;
- Fərdi dizayn texnikalarının nümayiş etdirilməsi;
- Tərbiyəçi tərəfindən qismən quraşdırılmış və uşaqlarının özlərinin tamamlayacağı bir bina modelinin təklifi;
- Uşaqların yerinə yetirməli olduğu şərtləri göstərən quraşdırma mövzusunda izahat;

- Binaların quraşdırılması işinin uşaqlar tərəfindən və öz planlarına uyğun olaraq həyata keçirilməsi.

**Müxtəlif yaş qruplarında tikinti-quraşdırma oyunlarının idarə edilməsi üsulları**
**Birinci körpələr qrupu.** Kiçik qruplar üçün oyuncaqlarla quraşdırma oyunları öyrədilən sadə, lakin zəruri bacarıqlar və hərəkətlərin dəqiq və möhkəm formalaşdırılması üçün quraşdırma materialları ilə məşğuliyyətlər nəzərdə tutulmuşdur. Tərbiyəçi binalar və ətraf mühitdəki tanış obyektlər arasında oxşarlıqlar tapır, uşaqları quraşdırma materialları, onların forması, ölçüsü və müstəvi üzərində müxtəlif yerdəyişmələri ilə tanış edir və birini digərinin üzərinə qoymağı öyrədir.

**İkinci körpələr qrupu.** Bu yaş qrupunda yalnız əsas quraşdırma detallarını (kubik, kərpic və s.) ayırd etmək qabiliyyəti inkişaf etdirilir, onları adlandırmaq və kərpicləri birbirindən bərabər məsafədə və bir dairə üzərində düzmək öyrədilir.

Orta qrup. Tərbiyəçinin rəhbərliyi ilə 3-4 yaşlı uşaqlar təəssüratlarını quraşdırma oyunlarında əks etdirə bilirlər. Müəllim ekskursiyalar və məqsədli gəzintilərdə uşaqların diqqətini binalar, körpülər, nəqliyyat vasitələri, küçələr və s. üzərinə yönəldir.

**Böyük qrup.** 4-5 yaş qrupunda uşaqların oyunlarına rəhbərlik daha çox intellektual və praktik fəaliyyətlərin birləşdirilməsinə yönəldilir. Tərbiyəçi uşaqların qarşıdakı oyun hərəkətlərini düşünməsi, onların bir-biri ilə müqayisə edilməsi və uyğunluğun inkişaf etdirilməsini qarşıya məqsəd qoyur. Böyük məktəbəqədər yaşlı uşaqlar üçün müxtəlif tikinti, quraşdırma materialları tövsiyə olunur. Onlara materiallardan istifadə qaydaları, onun ayrı-ayrı hissələri, blokları necə birləşdirmək, tikinti materiallarının necə daşınması, möhkəm və gözəl quraşdırmağı öyrətmək lazımdır. Oyunun düzgün idarə edilməsi bütün uşaqların fəal iştirakı, onların məmnuniyyəti, ona olan maraqları və keçirilmə müddətini müəyyən edir.

**Məktəbəhazırlıq qrupu.** Məktəbəhazırlıq qrupundakı quraşdırma oyunları daha fərqlidir, çünki uşaqlar həyat hadisələri və tikinti texnikası ilə xüsusi ekskursiyalarda, film seyr edərkən və kitablar vasitəsilə daha ətraflı tanış olurlar. Onlar oyunlarda çox vaxt böyüklərin tikintidəki fəaliyyətlərini təqlid edirlər. Buna görə də tərbiyəçi-müəllim lazımi biliklərə malik olmalı və texnologiyalar və ixtiralara maraq göstərməlidir.

Tərbiyəçi-müəllim uşaqları oyunun nəticələrini təhlil etməyə istiqamətləndirir və bunu vərdiş halına salır. Bu, onların fikirlərini nizamlayır və məqsədi quraşdırma prosesinin nəticəsi ilə əlaqələndirmək qabiliyyətini inkişaf etdirir.

**Süjetli-rollu oyunların təsnifatı (Şəkil 2.3)**

Teatrlaşdırılmış oyunların təsnifatına bir çox baxış nöqtələri mövcuddur, məsələn, L.S.Fruminanın təsnifatında obyektiv və gözlənilməz oyunlar fərqləndirilir.

Bir sıra tədqiqatlarda teatrlaşdırılmış oyunlar süjetin emosional ifadəliliyinin aparıcı üsullarından asılı olaraq təsvirin vasitələrinə görə təsnif edilir. Teatrlaşdırılmış oyunlar iki qrupa bölünür: səhnələşdirilmiş oyunlar və rejissor oyunları.

Teatrlaşdırılmış oyunlarda uşaq-artist bir sıra ifadə vasitələrindən istifadə edərək öz obrazını yaradır (jest və mimika). Teatrlaşdırılmış oyunlarda uşaq əvvəlcədən oyunun ssenarisini hekayə şəklində hazırlayır.

Teatrlaşdırılmış oyunlar tamaşaçı olmadan da keçirilə bilər və ya konsert xarakteri daşıya bilər. Adi teatr şəklində və ya kütləvi və süjetli şou şəklində oynanılırsa (səhnə, pərdə, dekorasiya və geyimlər), səhnələşdirmə adlanır.



**Şəkil 2.3. Süjetli-rollu oyunlar**

**Barmaqlarla dram oyunları.** Uşaq barmaqlarına qoyduğu xüsusiyyətlərlə əlində obrazını yaratdığı bir xarakter üçün oynayır.

**İmprovizasiya.** Bu, əvvəlcədən planlaşdırılmayan və bədahətən meydana çıxarılan süjetin ifadə olunmasıdır. Ənənəvi pedaqogikada teatrlaşdırılmış oyunlar rollu oyunların strukturuna daxil olunan yaradıcı oyunlar kimi təsnif edilir.

Rejissor oyununda uşaq aktyor deyil. O, oyuncağın xarakterinə uyğun hərəkətlər edir və həm ssenarist, həm də rejissor kimi çıxış edir və oyuncaqlara nəzarət edir. Süjetin yaradılmasında müstəqillik oyun prosesində təxəyyülün formalaşdırılmasında xüsusilə vacib hesab olunur.

Bu oyunlarda intonasiya və üz ifadələri (mimika) üstünlük təşkil edən ifadə vasitələridir. Bu oyunların əhəmiyyətli bir xüsusiyyəti funksiyanın bir real obyektdən digərinə ötürülməsidir.

Rejissor oyunları qrup şəklində də keçirilə bilər: Hər kəs ümumi süjetdə oyuncaqların rolunu icra edir və ya improvizə edilmiş konsert və tamaşanın rejissoru kimi çıxış edir. Eyni zamanda ünsiyyət, ideya və süjet hərəkətlərinin əlaqələndirilməsi təcrübəsi toplanır.

**Stolüstü oyuncaq teatrı.** Tamaşa zamanı istifadə olunan oyuncaqlar masanın üzərində olur və hərəkət zamanı heç bir maneə yaratmır.

**Stolüstü şəkillər teatrı.** Bu tamaşa növündə simvollar və dekorasiyalar şəkillərlə əvəz edilir. Şəkillərlə hərəkətlər məhduddur. Oyun zamanı obrazın xarakteri və əhval-ruhiyyəsi intonasiya ilə ötürülür. Simvollar obrazın hərəkətində görünür və bu, gözlənilməz bir element yaradaraq uşaqların marağına səbəb olur.

**Kölgə teatrı.** Onun üçün yarımşəffaf kağızdan ekran, qara rəngli və düz müstəvi personajları və onların arxasında parlaq işıq mənbəyinin yaradılması lazımdır. Bunun nəticəsində ekranlara personajların kölgələri düşür. Təsvir əl barmaqlarının köməyi ilə də əldə edilə bilər.

**Məktəbəqədər yaşlı uşaqlarla süjetli-rollu oyunların təşkilinin mərhələləri**

**Teatr fəaliyyətinin təşkili**

Uşaqlarla oyun təşkil edilməsi üçün yaradıcı fəaliyyət, tamaşa və oyunun quruluşu prosesinə hətta kifayət qədər aktiv olmayan uşaqların da cəlb edilməsi lazımdır. Bu, onların

utancaqlıqlarının aradan qaldırılması və sosiallaşdırılmalarına böyük təsir göstərir.

Tamaşaya hazırlıq zamanı bir neçə əsas qaydaya riayət edilməsi tövsiyə olunur (E.G. Qurilyova):

1. Uşaqları həddən artıq yükləməmək;
2. Böyüklərin fikirlərini məcburən tətbiq etməmək;
3. Uşaqların başqalarının hərəkətlərinə müdaxilə etmələrinə icazə verməmək;.
4. Bütün uşaqlara (ən bacarıqlıları arasında rollar bölüşdürülmədən) özlərini müxtəlif rollarda sınamaq imkanı vermək.

Gələcək fəaliyyətə maraq oyatmaq məqsədilə uşaqların səhnələşdirmə ilə ilk tanışlığı emosional şəkildə təşkil olunmalıdır. Bir qayda olaraq, bunun üçün mövzular möcüzələr, sirlər, sərgüzəştlər və məktəbəqədər yaşlı uşaqlara daha yaxın olan nağıllardan götürülür.

Nağıl üzərində işin təşkilinin planlaşdırılması (E.A. Antipina) qaydası:

**I mərhələ:**
- Nağılın oxunması;
- Nağılın məzmununa uyğun musiqi nömrələrinin ifa olunması;
- Məzmun üzərində iş.

**II mərhələ:**
- Nağıldakı obrazların rolları üçün seçilən namizədlərin müzakirəsi;
- Rollar üzrə oxu.

**III mərhələ:**
- Aparıcı uşaqla iş;
- Girişlə tanışlıq.

**IV mərhələ:**

1. Balaca aktyorlarla iş:
- İfadəli oxu;
- Oyun hərəkətləri;
- Mimika üzərində iş.

2. Rəqs formaları ilə tanışlıq.

**V mərhələ:**
- Rollar üzərində fonoqramla fərdi iş;
- Rəqsləri öyrənmək;
- Möhkəmləndirmə.

**VI mərhələ:**
- Rəqslər üzərində iş;
- Səs rejimi üzərində iş.

**VII mərhələ:**
- Tamaşanın bütün iştirakçıları ilə birgə məşq;
- Möhkəmləndirmə.

**VIII mərhələ:**

- Tamaşanın baş məşqi.

**IX mərhələ:**

- Tamaşanın premyerası (ilk tamaşa).

Səhnələşdirmək üçün material seçərkən uşaqların yaş xüsusiyyətləri, imkanları, bilik və bacarıqlarının nəzərə alınması, onlarda yeni biliklərə maraq oyadılması ilə yanaşı, onların həyat təcrübəsinin zənginləşdirilməsi və yaradıcılıq imkanlarının genişləndirilməsi lazımdır.

E.G.Qurilyova səhnələşdirmədə məktəbəqədər yaşlı uşaqlarla işin on əsas mərhələsini müəyyənləşdirir:

1. Uşaqlarla birlikdə səhnələşdirmə üçün əsərin seçilməsi və müzakirəsi;
2. Tamaşanın epizodlara bölünməsi və uşaqlar tərəfindən nəql etdirilməsi;
3. İmprovizə edilmiş mətnli etüdlər formasında ayrı-ayrı epizodlar üzərində işin aparılması;
4. Lazım gələrsə, ayrı-ayrı epizodlar və quruluşlu rəqslərin musiqili həlli üçün axtarışlar, uşaqların iştirakı ilə dekorasiyalar və geyim eskizlərinin yaradılması;
5. Tamaşanın mətninə keçid: Epizodlar üzərində iş;
6. Nitqin ifadəliliyi üzərində iş;
7. Müxtəlif kompozisiyalardakı dekorasiyaların təfərrüatları, musiqi tərtibatı üzərində iş və fərdi məşqlər;
8. Tamaşanın səhnə kostyumları və rekvizitlər, bəzək elementləri ilə məşqləri, dekorasiya və rekvizitlərin dəyişdirilməsinə cavabdeh olan şəxslərin təyin edilməsi;
9. Tamaşanın premyerası, tamaşaçılar və uşaqların iştirakı ilə müzakirə;
10. Təkrar tamaşalar.

Tamaşaya aid fotoşəkillərdən ibarət bir stend və ya albom hazırlanması və uşaq rəsmləri sərgisinin hazırlanması məqsədəuyğundur.

**Birinci mərhələdə** tamaşa üzərində mətnin seçimindən söhbət gedir. Xalq və müəllif nağılları üzrə də səhnəciklər hazırlana bilər.

**İkinci mərhələdə** tamaşanın epizodlara bölünməsi nəzərdə tutulur. Uşaqlar hər bir epizodu təkrarlayır, bir-birini tamamlayır və epizodlar üçün ad fikirləşirlər.

**Üçüncü mərhələdə** improvizə edilmiş mətnli etüdlər formasında və ayrıca epizodlar üzərində iş aparılır. Əvvəlcə ən fəal uşaqlar etüdlərin iştirakçısı olurlar, lakin tədricən kollektivin bütün üzvlərinin məcburiyyət olmadan bu prosesə cəlb edilməsi lazımdır.

**Dördüncü mərhələdə** uşaqlar tamaşada səsləndiriləcək musiqi əsərləri ilə tanış olurlar. Əvvəlcə uşaqlar sadəcə musiqi sədaları altında hərəkətləri improvizə edir, sonra onlar yerişlərini, duruşlarını və jestlərini dəyişdirərək bir obraza çevrilir və rola girirlər.

**Beşinci mərhələdə** tədricən oyunun mətni üzərində iş başlanır. Məşqlərdə eyni mətn hissələri müxtəlif ifaçılar tərəfindən təkrarlanır, yəni eyni mətn dəfələrlə səslənir. Bu, praktik olaraq, uşaqların bütün rolları öyrənmələrinə şərait yaradır.

Pedaqoq uşaqların nitqi, plastikası və aktyorluq imkanlarını nəzərə alaraq konkret rolun öhdəsindən gələ biləcək 2–3 ifaçını müəyyən edə bilər.

**Altıncı mərhələdə,** faktiki olaraq, rollar üzərində işə başlanır. Uşaq, yaş xüsusiyyətlərinə görə hər zaman özü-özünü oynayır. Hələlik o, başqalarının hislərini yenidən canlandıra və oynaya bilmir. Uşaq şəxsi emosional təcrübəsi və yaddaşına əsaslanaraq əsərin qəhrəmanlarının hislərinə bənzər hislər yaşamağa məcbur olduqda öz həyatından epizodlar xatırlaya bilər. Heç bir halda gənc ifaçılara başqasının hərəkətləri və ya onların xüsusi davranış nümunələrinin məntiqini tətbiq etməməliyik. Bu, proqramlaşdırılmış davranışa səbəb olur.

**Yeddinci mərhələdə** - ayrı-ayrı süjetlər müxtəlif tərkiblərdə (uşaqlarla) məşq olunur. Nəzarət etmək lazımdır ki, uşaqlar digər ifaçıların duruş, jest, intonasiyalarını təkrarlamasın və öz variantlarını axtarıb tapsınlar.

**Səkkizinci mərhələ** - ən qısa (vaxt baxımından) mərhələdir. Bu mərhələdə tamaşanın ayrı-ayrı hissələrinin yox, bütöv quruluşunun məşqləri aparılır. Məşq musiqi müşayiəti ilə keçirilir.

**Doqquzuncu mərhələ** - tamaşanın premyerası, eyni zamanda baş məşqidir, çünki bu ana qədər uşaqlar bir dəfə də olsun səhnə kostyumlarında məşq etməmişlər. Premyera həmişə həyəcan, təlaş və bayram əhval-ruhiyyəsi yaradır. Uşaqlar təcrübədə teatr sənətində kollektivin nə demək olduğunu və tamaşanın müvəffəqiyyətinin hər bir ifaçının diqqət və məsuliyyətindən asılı olduğunu anlamağa başlayırlar. Müzakirənin tamaşadan dərhal sonra keçirilməsinin mənası yoxdur, çünki uşaqlar çox həyəcanlı olurlar. Buna görə də öz müvəffəqiyyətləri və uğursuzluqlarını qiymətləndirə bilməyəcəklər. Yalnız növbəti gün söhbətlərdə onların öz oyunlarına aid etdikləri bir neçə tənqidi qeydləri eşitmək mümkündür. Uşaqlar səhnədə səmimiyyət və düzgün davranışı qiymətləndirmək, ayrı-ayrı ifaçıların ifadəli nitqi və bacarıqlarını qeyd etməyi öyrənirlər.

**Yekun mərhələdə** tamaşanın təkrar nümayişi həyata keçirilir. Birinci tamaşa ifaçılara nisbətən tamaşaçılara daha maraqlıdır. Uşaqlar üçün isə ən faydalı dövr tamaşanın hazırlanması və onun mümkün qədər daha tez-tez oynanılması imkanıdır. Uşaqların eyni tamaşanı oynamaqdan bezdiklərini iddia etmək düzgün deyil.

Əgər uşaqlar səhnədə nə etməli olduqlarını başa düşürlər və hər dəfə fərqli hərəkət etməyə çalışırlarsa, bu artıq yaradıcı improvizasiyanın elementidir. Tamaşalar müxtəlif kompozisiyalarda ifa edilə bilər. Eyni rol müxtəlif uşaqların ifasında dəyişilir və ona yeni rənglər və səslər əlavə olunur. Tərbiyəçi-müəllimin vəzifəsi – uşağın fərdiliyinin aşkar edilməsi, ona öz ifadə vasitələrini axtarmağın öyrədilməsi və başqa ifaçıların yamsılanmamasıdır (E.G. Qurilyova).

**Teatrlaşdırılmış oyunların xüsusiyyətləri.** Teatrlaşdırılmış oyunlarda ədəbi əsərlərin (nağıllar, hekayələr, xüsusi yazılmış səhnələr və s.) obrazlarla oynanılması təmsil edilir. Ədəbi əsərlərin qəhrəmanları fəaliyyət göstərən şəxs olurlar. Teatrlaşdırılmış oyunlar uşaqların yaradıcılığının inkişaf etdirilməsi üçün zəngin bir sahədir. Uşaqların teatrlaşdırılmış oyunda iştirakı xüsusi hazırlıq tələb edir. Bir qəhrəmanın xarakterinin başa düşülməsi üçün onun hərəkətlərinin təhlili, onların

qiymətləndirilməsi və əsərin mənəvi dəyərlərinin dərk edilməsi lazımdır.

Oyun uşağın duyğuları və təəssüratlarının təkrarlanması və ifadəsi üçün ən əlverişli və əyləncəli bir yoldur. Dialoqlar və monoloqlar zamanı intensiv şəkildə nitqin inkişafı prosesi baş verir. Teatrlaşdırılmış oyunlar süjetli-rollu oyunlara yaxındır. Süjetli-rollu və teatrlaşdırılmış oyunlar ümumi quruluşa malikdir: dizayn, süjet, məzmun, oyun vəziyyətləri, rollar və qaydalar.

Süjetli-rollu oyunla teatrlaşdırılmış oyun arasında fərq ondan ibarətdir ki, süjetli-rollu oyunlarda həyat hadisələri əks etdirilir, teatrlaşdırılmış oyunda isə ədəbi-bədii əsərlərdən süjetlər götürülür. Süjetli-rollu oyunun son nəticəsi yoxdur, lakin teatrda belə bir məhsul ola bilər – səhnələşdirilmiş tamaşa. Teatrlaşdırılmış oyunlarda oyun atributlarının – əşyalar, kostyumlar və ya kuklalar və səhnə hərəkətlərinin əhəmiyyəti böyükdür, çünki uşağın oyun hərəkətləri rolun seçiminin müəyyənləşdirilməsini asanlaşdırır. Teatrlaşdırılmış oyunlarda uşaqların emosional inkişafı həyata keçirilir: Uşaqlar obrazların duyğuları və əhval-ruhiyyələri ilə tanış olur və zahiri ifadə üsullarını mənimsəyirlər. Bu oyunların nitq inkişafı üçün də əhəmiyyəti böyükdür. Nəhayət, teatrlaşdırılmış oyun uşağın özünü ifadəetmə və özünüdərketmə vasitəsidir. Bütün bunlara baxmayaraq, müasir dövrdə məktəbəqədər müəssisələrdə teatrlaşdırılmış oyunların potensialından inkişaf edilməkdə olan gənc nəslin tərbiyə və təlimində kifayət qədər istifadə olunmur. Bu, onun təşəkkülü yollarında iki ziddiyyətli tendensiyanın olması ilə izah edilir.

**Birinci tendensiyaya** əsasən teatrlaşdırılmış oyunlar bayramlarda, əsasən, hansısa "Tamaşa" kimi tətbiq edilir və uşağa "Yaxşı artist" olmaq öyrədilir. Nəticədə tamaşa izləyicilərin xoşuna gəlir, lakin bu yolla mənimsənilmiş bacarıqlar uşaqlar tərəfindən azad oyun fəaliyyətində tətbiq edilmir. Bir də ki, axı tamaşaya hazırlığın özü də elə oyun deyilmi?!

Teatrlaşdırılmış oyunun təşkilində ikinci tendensiyanı böyüklərin müdaxilə etməməsi adlandırmaq olar. Düzdür, praktikada çox vaxt bu, oyun fəaliyyətinə tam diqqətin olmaması anlamına gəlir: Uşaqlar öz ixtiyarlarına buraxılır, müəllim isə yalnız "Teatr" üçün atributlar hazırlayır.

Teatr oyunlarının xarakterik xüsusiyyətləri onların məzmununun ədəbi və folklor əsasları üzərində qurulması və tamaşaçılarının olmasıdır.

**Süjetli-rollu oyunlara pedaqoji rəhbərlik**

**Məktəbəqədər yaşlı uşaqlarla işin məqsədləri, vəzifələri və məzmunu**

Teatrlaşdırılmış oyunun inkişafının əsas istiqamətləri uşaqların tədricən səhnələşdirilən tamaşanı müşahidə etmələri və müstəqil oyun fəaliyyəti, fərdi oyun və "Yaxın oyunlar"da rol oynayan üç-beş həmyaşıdından ibarət qruplarla oyuna keçilməsindən ibarətdir.

**İşin məzmunu və vəzifələri.** Əvvəla, uşağa tanış olan şeirlər və nağılların məzmunu əsas götürülərək müəllimin göstərdiyi kiçik kukla teatrının izlənmə prosesində ortaya çıxarılan səhnələşdirilmiş oyunlara maraq yaradılması lazımdır. Gələcəkdə nağıl qəhrəmanlarının dialoqlarındakı ifadələr tamamlanaraq uşaqların teatra qoşulmaq istəyinin

stimullaşdırılması vacibdir.

Pedaqoqun fəaliyyətinin vacib bir tərəfi də oyun təcrübəsinin oyun-dramatizasiya növlərinin inkişafı ilə tədricən genişləndirilməsidir. Bu vəzifənin icrası uşağın yerinə yetirdiyi oyun tapşırıqları və dramatik oyunların ardıcıl olaraq çətinləşdirilməsi ilə əldə edilir.

Bu fəaliyyətin mərhələləri aşağıdakılardır:

- İnsanlar, heyvanlar və quşların hərəkətlərinin ("Uşaqlar oyandılar" və "Sərçələr qanadlarını yellədi") təqlid olunması;
- Qəhrəmanın əsas duyğularının ötürülməsi ilə birlikdə ardıcıl tədbirlər zəncirinin təqlid olunması;
- Musiqi sədaları altında improvizasiya;
- Müəllimin söylədiyi qısa nağıllar, hekayələr və şeirlərin mətnlərinə görə improvizasiya;
- Nağıl qəhrəmanlarının dialoqu;
- Heyvanlar haqqında nağıllardan fraqmentlər.

Oyun təcrübəsinin zənginləşdirilməsi yalnız xüsusi oyun bacarıqları inkişaf etdirildikdə mümkündür.

**Birinci bacarıq qrupu** "Tamaşaçı" mövqeyinin inkişafı ilə əlaqələndirilir.

**İkinci bacarıq qrupu** "Rəssam" mövqeyinin ilkin formalaşdırılmasını təmin edir.

**Üçüncü bacarıq qrupuna** digər iştirakçılarla qarşılıqlı münasibətlərdə olmaq bacarıqları daxildir: Birlikdə oynamaq, mübahisə etməmək, cəlbedici rolu növbə ilə oynamaq və s.

Tərbiyəçinin fəaliyyəti uşaqlarla işləməyin vacib hissəsi olan yaradıcılıq və improvizasiya sahələrinə marağın artırılmasına yönəldilməlidir.

**Orta məktəbəqədər yaşlı uşaqlarla işin məqsədləri, vəzifələri və məzmunu**

Teatrlaşdırılmış oyunun inkişafının əsas istiqamətləri uşağın tədricən özü üçün oyundan tamaşaçıya yönəldilmiş oyuna keçirilməsindən ibarətdir. Oyunun əsas istiqaməti prosesin özüdür. Bu yaşda teatr oyunlarına maraq dərinləşir. Tərbiyəçinin 4–5 yaşlı uşaqlarla işi onların teatrlaşdırılmış oyuna marağının saxlanmasından ibarət olmalıdır.

Kiçik məktəbəqədər yaşlı uşağın mənimsədiyi oyun tapşırıqları və teatrlaşdırılmış oyunların bütün növləri orta məktəbəqədər yaşlı uşağa da faydalı və maraqlıdır. Mürəkkəblik daha mürəkkəb məzmunu ilə fərqlənən mətnlərə aiddir,

**Məktəbəqədər yaşlı uşaqlarla işin məqsədləri, vəzifələri və məzmunu**

Teatrlaşdırılmış oyunun inkişafının əsas istiqamətləri uşağın bir ədəbi mətni ifa etməkdən süjetin sərbəst şəkildə qurulmasını nəzərdə tutan oyuna tədricən keçirilməsindən ibarətdir.

Birinci vəzifə uşaqların teatr oyunlarına müsbət münasibətinin formalaşdırılmasıdır. Bu, onların müəyyən bir teatr oyunu, qəhrəman obrazı, süjet və sairəyə maraqlarının dərinləşməsini nəzərdə tutur.

Uşaqlara teatr mədəniyyətinin tanıdılması böyüklər və uşaqların birgə fəaliyyətinin

yeni bir aspektinə çevrilir. Uşaqlar oyunların məzmun seçimində daha aktiv və müstəqil olur və öz seçimlərində yaradıcıdırlar. Mətnlər tədricən mürəkkəbləşdirilir.

Uşaqlarda oyun mövqeləri kompleksinin mənimsənilməsini təmin edən xüsusi bacarıqlar inkişaf edir.

**Birinci bacarıqlar qrupu** "Ağıllı və xeyirxah məsləhətçi" kimi tamaşaçının mövqeyinin təkmilləşdirilməsi ilə bağlıdır.

**İkinci bacarıqlar qrupu** "Artist" mövqeyinin dərinləşdirilməsi və tamaşanın ideyası və qəhrəmana münasibətini ifadə etmək qabiliyyətinin inkişaf etdirilməsini nəzərdə tutur.

**Üçüncü bacarıqlar qrupu** "Rejissor-ssenarist" mövqeyinin formalaşdırılmasını təmin edir ki, bu da onların niyyətlərini təkcə öz gücləri ilə deyil, həm də digər uşaqların fəaliyyətinin təşkil edilməsi yolu ilə həyata keçirilməsi qabiliyyətini nəzərdə tutur.

**Dördüncü bacarıqlar qrupu** uşağa bəzi yaradıcı bacarıqları mənimsəməyə imkan verir. "Səhnə" və "Tamaşaçı"nın yerinin təyin edilməsi imkanı yaradılır.

**Beşinci bacarıqlar qrupu** oyunun planlaşdırılması prosesində həmyaşıdları ilə ünsiyyətin müsbət üsullarının istifadə edilməsini nəzərdə tutur.

Uşaqlar teatrlaşdırılmış oyunda müstəqillik və subyektiv mövqe nümayiş etdirirlər.

Konkret nümunələrdən istifadə edilərək uşağa həmişə "Ən yaxşı improvizasiya"nın hazırlandığını anlamağa kömək etmək lazımdır.

Bütün yaş qruplarının uşaqları ilə iş prosesində adı çəkilən vəzifələr və məzmunun həyata keçirilməsi teatrlaşdırılmış oyunun təşkilinin əsas prinsiplərinin nəzərə alınmasını tələb edir. Ən əhəmiyyətlisi oyun və bədii komponentləri özündə birləşdirən bu fəaliyyətin spesifikliyi prinsipidir.

**Komplekslik prinsipi** teatr sənətinin müxtəlif sənət növləri və uşağın bədii yaradıcılığının müxtəlif növləri ilə birləşdirilməsini özündə ehtiva edir.

**İmprovizə prinsipinə** əsasən teatrlaşdırılmış oyun yaradıcılıq fəaliyyəti kimi nəzərdən keçirilir ki, bu da böyüklərlə uşaqlar və uşaqların öz aralarında xüsusi qarşılıqlı əlaqəni şərtləndirir.

Yuxarıda göstərilən bütün prinsiplər inteqrativlik prinsipində öz ifadəsini tapır. Buna görə də teatr-oyun fəaliyyətinin inkişafı ilə bağlı məqsədyönlü işlər vahid pedaqoji prosesə daxil edilir.

**Birinci mərhələ** bədii mətnin bədii cəhətdən qavranılmasının dərinləşdirilməsinə həsr edilir. İşin məqsədi də mövzu və teatrlaşdırma üçün əsərin ideyası ilə bağlı idraki və emosional təcrübənin zənginləşdirilməsidir. Onun həyata keçirilməsi uşaqların dərketmə və nitq inkişafı, habelə ədəbi əsərin məzmununa uyğun təsviri və musiqi fəaliyyəti üzrə məşğələlərin keçirilməsini tələb edir. Tərbiyəçi ilə uşaqların birgə fəaliyyətində məşğələlərdən kənar vaxtlarda da mətnlə tanışlıq işi aparılır.

**İkinci mərhələ** obrazları yazılı, intonasiya və dilin ifadə vasitələri ilə ötürmək bacarığını inkişaf etdirmək məqsədi daşıyır. Onun həyata keçirilməsinin əsas metodu obrazlı-oyun etüdləridir.

Əşyavi-inkişafetdirici mühit uşaqların mətn əsasında müstəqil oyun və bədii fəaliyyətini təmin etməlidir.

**Üçüncü mərhələ** "Tamaşaçı", "Artist", "Ssenarist-rejissor", "Tərtibatçı-kostyumçu" və s. oyun mövqelərinin mənimsənilməsi prosesində uşağın nitq, oyun və digər bədii fəaliyyət növlərində yaradıcılığı ilə bağlıdır.

Bu məqsəd həm təsviri fəaliyyət üzrə məşğələlərdə (plakatların kollektiv çəkilməsi, dəvətnamələrin verilməsi və s.), həm də tərbiyəçi və uşaqların birgə fəaliyyətində həyata keçirilə bilər. Bu şəkildə təşkil edilən fəaliyyət və teatrlaşdırılmış oyunun öz həmyaşıdları, müxtəlif yaradıcılıq növləri və özünü təsdiqləmə vasitəsi halında bir uşağın özünü ifadə etmə vasitəsinə çevrilməsinə kömək edəcəkdir. Uşaq bağçasında məktəbəqədər yaşlı uşaqların həyatı isə oyun və teatr-oyun fəaliyyətində öz əksini tapan müxtəlif sənət növlərinin inteqrasiyası hesabına zənginləşəcək.

**Teatr tamaşaları üçün guşənin təşkili.** Qrupda teatrlaşdırılmış oyunlar və tamaşalar üçün guşələrin təşkil etdilməsi tövsiyə olunur. Barmaq oyunları, lövhə, afişa teatrı, uşaq teatrı, toplar və kublar teatrı və kostyumlar ilə rejissor oyunları üçün yer ayrılmalıdır. Qrup otağının bir küncündə:

- Müxtəlif teatrlar (bibabo (ancaq baş və paltardan ibarət olan kukla ələ geyindirilir), masa, kölgə, barmaq oyunları, flaneleqraf (yapışqan lövhə üzərində qurulur, daha çox parçadan hazırlanır ) teatrı, kukla teatrı və s.);
- Səhnələşdirilmiş tamaşalarda istifadə olunan rekvizitlər (kukla dəsti, kukla teatrı üçün ekranlar, geyim əşyaları və maskalar);
- Müxtəlif oyun mövqelərinə aid atributlar (teatr rekvizitləri);
- Makyaj, dekorasiya, rejissor kreslosu, ssenarilər, kitablar, musiqi əsərlərindən nümunələr, tamaşaçılar üçün oturacaqlar, afişalar, proqramlar, bilet kassası, biletlər, durbin, "Pul", nömrələr, kağız növləri, parçalar, boyalar, qrafit qələmlər, yapışqan, sadə qələmlər, iplər, düymələr, qutular, təbii materiallar və s.).

## Tələbələr üçün fəaliyyətlər

1. Aşağıdakı cədvələ əsasən hər hansı bir didaktik oyunun təsnifatını verin:

| № | Təsnifatın əsasları | Didaktik oyunların növləri |
|---|---|---|
| 1. | Məzmununa görə | |
| 2. | Didaktik materiallardan istifadə əsasında | |
| 3. | Uşaqların bilik və maraqları əsasında | |
| 4. | Oyun hərəkətlərinin xüsusiyyətləri əsasında | |

2. Müxtəlif yaş qruplarında məktəbəqədər yaşlı uşaqlarla didaktik oyuna pedaqoji rəhbərliyin xüsusiyyətlərini qısa təsvir edin.

3. Tikinti-quraşdırma oyunu hansıdır? Nümunə göstərin.

4. Quraşdırmanın növlərini sadalayın və hər birinin görünüşünün təsvir edin.

- ................................
- ................................
- ................................
- ................................

5. Aşağıdakı cədvəli tamamlayın:

**Tikinti və quraşdırma oyunlarına pedaqoji rəhbərlik**

| Yaş qrupu | Rəhbərlik üsulları |
|---|---|
| 1-ci kiçik qrup | |
| 2-ci kiçik qrup | |
| Orta qrup | |
| Böyük qrup | |
| Məktəbəhazırlıq qrupu | |

6. Teatrlaşdırılmış oyunlar – cədvələ uyğun tamamlayın.

**Teatrlaşdırılmış oyunların təsnifatı**

Teatrlaşdırılmış oyun .................

Rejissor oyunları .................

Teatrlaşdırılmış oyunların növləri:

1. ............................
2. ............................
3. ............................

Rejissor oyunlarının növləri:

1. ............................
2. ............................
3. ............................

7. Aşağıdakı cədvəli tamamlayın:

| **Yaş qrupları** | **Məqsəd** | **Teatrlaşdırılmış oyunların inkişafının əsas istiqamətləri** | **Teatrlaşdırma üçün tövsiyə olunan mətnlər** |
|---|---|---|---|
| Körpələr | | | |
| Orta qrup | | | |
| Böyük qrup | | | |
| M/hazırlıq | | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“İdrak fəallığını formalaşdıran müxtəlif oyunları təşkil edir”.**

1. Didaktik oyun nədir?

2. Didaktik oyunun struktur komponentləri

| ............................ | ............................ | ............................ | ............................ |
|---|---|---|---|

2. Təsvirə görə didaktik oyunun müvafiq struktur komponentini daxil edin:

Nə qədər müxtəlifdirsə ............................, oyun uşaqlar üçün bir o qədər maraqlıdır və müəllimin qoyduğu vəzifələr bir o qədər uğurla həll olunur.

............................ oyunda verilir və uşaqların münasibətləri, davranış normalarının yerinə yetirilməsi üçün mənəvi tələbləri ehtiva edir.

............................ oyundan dərhal sonra keçirildi.

............................ müəllim tərəfindən formalaşdırılır və oyun hərəkətləri müəyyənləşdirilir.

3. Süjetli-rollu oyunların xüsusiyyətlərini sadalayın (ən azı 5 xarakterik xüsusiyyət).

4. Süjetli-rollu oyunun struktur hissələrini (süjet, məzmun və rol) izah edin. Eyni zamanda rollu oyunlar üçün xarakterik olan süjet növlərinə diqqət yetirin. Esse yazın.

5. Məktəbəqədər uşaqlarla teatrlaşdırılmış oyunun təşkilinin əsas prinsiplərini sadalayın.

......................................

......................................

......................................

## 2.2. Yaşa uyğun məşğələlər üçün müvafiq oyunlar hazırlayır.

### Uşaqların müstəqil oyunlarının təşkilində tərbiyəçi-müəllimin rolu

Uşaqların müstəqil fəaliyyəti – tərbiyəçinin bilavasitə iştirakı olmadan, lakin onun tapşırığı ilə, xüsusi olaraq verilmiş vaxtda həyata keçirilən və məktəbəqədər təhsil prosesinin təşkilinin əsas modellərindən biridir. Gün rejimində uşaqların müstəqil fəaliyyəti üçün bir neçə dəfə vaxt ayrılmışdır: səhər qəbulu zamanı, səhər yeməyi və məşğələlər arasındakı fasilədə, məşğələlər arasındakı fasilələrdə, gündüz və axşam gəzintisində və günün ikinci yarısında (cəmi 240 dəqiqə).

Müstəqil oyunlar məktəbəqədər yaşlı uşaqlar üçün müstəqil fəaliyyət növlərindən biridir. Psixoloqlar vurğulayırlar ki, müstəqil oyunda məktəbəqədər yaşlıların ağlı sürətlə inkişaf edir. Yaddaş və düşüncə qavrama səviyyəsində işləyir. Uşaq oyun prosesində yaradıcı şəkildə inkişaf edir, daha çox müstəqillik nümayiş etdirir, ətraf aləm haqqında bilik ehtiyatını yada salır və onu daha da zənginləşdirir.

Uşaqların müstəqil oyunlarının təşkilində tərbiyəçi-müəllimin rolu aşağıdakılardan ibartədir:

- Uşaqların fəaliyyəti və maraqları əsasında müxtəlif oyun mühiti yaradır;
- Uşaqlar tərəfindən yaradılmış oyun sahəsi bir və ya bir neçə gün ərzində qrupda saxlanılır;
- Oyuna müdaxilə etmir: Təsəlli edir, simpatiya nümayiş etdirir və oyun münaqişələrini həll edir. Yalnız münaqişə hallarında uşaqların oyununa müdaxilə edir;
- Oyunu inkişaf etdirilməsi üçün uşağı təşviq edir və tərifləyir;
- Uşaq oyununu yaxından izləyir.

Tərbiyəçi–müəllim yaşa uyğun məşğələləri tərtib edərkən və orada istifadə edəcəyi oyunları seçərkən müəyyən bacarıqlara malik olmalıdır. Oyunları düzgün yaşa və məşğələyə uyğun seçmək, prosesi planlaşdırmaq, oyunlardan istifadəyə dair icmallar hazırlamaq və s. Oyunların planlaşdırılması , icmalların hazırlanmasına dair nümunələr aşağıda verilmişdir:

## 1. Didaktik oyunun keçirilməsi. İcmalın tərtib edilməsi

**Mövzu:** Didaktik oyunun keçirilməsi. İcmalın tərtib edilməsi

**Tələbənin adı, soyadı:** ______________________________

**DİDAKTİK OYUNUN İCMALI**

**Yaş qrupu:** ______________________________

**Oyunun adı:** ______________________________

**Məqsəd:** ______________________________

**Vəzifələr:** ______________________________

1. **Oyun;** ______________________________
2. **Təhsilləndirici.** ______________________________

**Didaktik vəsaitlər:** ______________________________

**Oyunun gedişi**

| Oyunun struktur komponentləri | Tərbiyəçinin fəal yyətinin məzmunu və uşaqların oyun fəaliyyətinə rəhbərlik üsulları | Uşaqların fəaliyyəti |
|---|---|---|
| Motivasiya | | |
| Oyun vəzifələri | | |
| Oyun qaydaları | | |
| Oyun hərəkətləri | | |
| Oyunun nəticəsi | | |

**İnformasiya mənbələri:** ______________________________
______________________________
______________________________
______________________________

**Tövsiyələr:** ______________________________
______________________________
______________________________
______________________________

**Qiymətləndirmə:** ______________ **İmza:** ______________

**2. Süjetli-rollu oyunların planlaşdırılması**

| | |
|---|---|
| **Mövzu:** | Süjetli-rollu oyunların planlaşdırılması |
| **Tələbənin adı və soyadı:** | ______________________________ |

**3. Süjetli-rollu oyunların aylıq planlaşdırılması**

**Mövzu:** Süjetli-rollu oyunların aylıq planlaşdırılması

**Yaş qrupu** ______________________________

| Sıra №-si | Oyunun adı | Oyunun məqsədi və vəzifələri | İlkin işlər | Məlumat mənbəyi |
|---|---|---|---|---|
| 1. | Nümunə: “Poçt” süjetli rollu oyunu | Məqsəd: | I. Bilik və təsəvvürlərin zənginləşdirilməsi:<br>1. Söhbət: “Evimizə qəzet və jurnalları kim gətirir?”<br>2. S.Marşakın “Poçt” əsərinin oxunması.<br>3. Xəstə dostuna məktub yazmaq və poçt qutusuna salmaq. | |
| | | Vəzifələr: | II. Oyun bacarıqlarının mənimsənilməsi:<br>1. Didaktik oyun “Poçt”.<br>2. Oyun-vəziyyət: "Poçtalyon teleqram gətirir" və “Məktub gəldi”. | |
| 2. | | Məqsəd: | Bilik və təsəvvürlərin zənginləşdirilməsi; | |
| | | Vəzifələr: | Oyun bacarıqlarının mənimsənilməsi; | |
| 3. | | Məqsəd: | Bilik və təsəvvürlərin zənginləşdirilməsi; | |
| | | Vəzifələr: | Oyun bacarıqlarının mənimsənilməsi: | |
| 4. | | Məqsəd: | Bilik və təsəvvürlərin zənginləşdirilməsi; | |
| | | Vəzifələr: | Oyun bacarıqlarının mənimsənilməsi. | |

**Tövsiyələr:** ______________________________

______________________________

______________________________

______________________________

**Qiymətləndirmə:** ____________________ **İmza:** ____________________

## 4. Didaktik oyunun keçirilməsi. İcmalın tərtib edilməsi

**Mövzu:** Didaktik oyunun keçirilməsi. İcmalın tərtib edilməsi ____________

**Tələbənin adı və soyadı:** ____________________

**HEKAYƏ VƏ ROLLU OYUNUN XÜLASƏSİ**

**Yaş qrupu:** ____________________

**Oyunun adı:** ____________________

**Məqsəd:** ____________________

**Vəzifələr:** ____________________

1. Təhsilləndirici; ____________________
2. İnkişafetdirici; ____________________
3. Tərbiyəvi; ____________________

**Oyun materialları və avadanlıqları:** ____________________

**İlkin fəaliyyətlər:** ____________________

1. Bilik və təsəvvürlərin zənginləşdirilməsi: ____________________
2. Oyun bacarıqlarının mənimsənilməsi: ____________________

| Rollar | Rol hərəkətləri |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

### Oyunun gedişi

| Oyunun struktur komponentləri | Tərbi əçinin fəaliyyətinin məzmunu və uşaqların oyun fəaliyyətinə rəhbərlik üsulları | Oyunun təşkilinin metodik üsulları | Uşaqların fəaliyyəti |
|---|---|---|---|
| **Motivasiya** | | 1. Oyuna maraq yaratmaq üçün tövsiyələr;<br>2. Problemli vəziyyətin yaradılması;<br>3. Şeir oxumaq və ritmi tutmaq. | |

| | | | |
|---|---|---|---|
| **Oyun məqsədləri və oyunun planlaşdırılması** | | 1. Məqsədlərin müəyyənləşdirilməsində kömək etmək;<br>2. Oyun vəzifələrinin müəyyənləşdirilməsinə yardım;<br>3. Mövzunun mənimsədilməsi və oyun məkanının yaradılması. | |
| **Rolların paylanması və rol hərəkətlərinin müəyyən-ləşdirilməsi** | | 1. Sövdələşmədə iştirak;<br>2. Püşkatmada sanamala dan istifadə. | |
| **Oyunun məzmunu və hərəkətləri** | Müxtəlif oyun vəziyyətləri ola bilər. | 1. Oyun hərəkətlərini öyrənmək üçün tövsiyələr;<br>2. Oyunun mövzusunun saxlanılması və inkişafı üçün tövsiyələr;<br>3. Oyunda qarşılıqlı əlaqələrin formalaşdırılması üsulları. | |
| **Oyunun tamamlanması (oyun vəziyyətindən çıxış)** | | 1. Oyundan çıxmaq üçün tövsiyələr. | |
| **Oyunun nəticəsi** | | 1. Oyun nəticələrinin müzakirəsi;<br>2. Pedaqoji qiymətləndirmə. | |

**İnformasiya mənbələri:** ____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

**Tövsiyələr:** ____________________________________________

____________________________________________

____________________________________________

____________________ ____________________

**Qiymətləndirmə:** ____________ __ __ **İmza:** ________________

### Oyun nəzəriyyələri

Oyun insanın erkən uşaqlıq dövrünün-əhəmiyyətli bir dövrünün əsasını təşkil edən özünəməxsus və müstəqil fəaliyyət formasıdır. Biz deyə bilərik ki, oyun uşağın həyatında yeganə fəaliyyət növü və onun inkişafının əsasını təşkil edən yeganə təcrübə formasıdır. Buna görə də təəccüblü deyil ki, oyun problemi uzun müddət tədqiqatçıların diqqətini cəlb etmişdir. Bu davranış formasının mahiyyəti nədir? Uşaq nəyə görə oyuna bu qədər enerji sərf edir, baxmayaraq ki, oyun onun ciddi ehtiyaclarının ödənilməsi vəzifələri ilə heç də bağlı deyil?!

Vilyam Şternə görə bütün mövcud oyun nəzəriyyələri oyunun nə ilə bağlı olmasından asılı olaraq üç qrupa bölünə bilər: subyektin əsl istəkləri və maraqları, onun keçmişdən gələn və ya gələcəyə istiqamətləndirilmiş maraqları ilə.

**1. Müasir nəzəriyyələr.** İlk belə nəzəriyyə Herbert Spenserə məxsusdur. Onun fikrincə, uşağın həyati vəzifələrinin tələb etdiyindən daha çox enerjisi var, lakin o, az iş görür, çünki böyüklər hər zaman onun qayğısına qalırlar. Buna görə də onun enerjisi tələb olunandan daha çoxdur və təbii ki, bu artıq enerjinin sərf olunmasına ehtiyac var. H. Spencerə görə mahiyyətcə bu enerji sərfi oyun zamanı baş verir. Deməli, uşağın artıq enerjini hansı istiqamətdə sərf edəcəyi məlumdur: Yəni o qaçacaq, tullanacaq, rəqs edəcək və ya hər hansı digər oyun formasına müraciət edəcək.

H. Spenser qeyd edir ki, təqlid hər bir uşağa xasdır. O, oyununu təqlid üzərində qurur.

Uşaq müxtəlif oyun formaları və böyüklərin fəaliyyətini görür və onları oyunlarında təqlid edir. Bu təqlidlər uşaqların at sürmək, evlər və qalalar tikmək, qatarlar və təyyarələr hazırlamalarında da özünü göstərir.

Spenser nəzəriyyəsi, ilk növbədə, yalnız uşağa aiddir. Bu nəzəriyyəyə görə yetkinlik yaşında artıq insanlar oynamamalıdırlar. Bununla, əlbəttə, razılaşma mümkün deyil.

İkincisi, Spenser nəzəriyyəsi oyunun məzmununu müəyyən etmir. Artıq enerjinin sərf olunmasının necə baş verdiyini bilmək, həqiqətən, vacibdir. Buna görə də H. Spenser təqlid prinsipini təqdim edir. Buna görə də oyunun mahiyyətinin izah edilməsi üçün artıq enerji konsepsiyası kifayət deyil. Bəzən uşağın yorğun olmasına baxmayaraq, yenə də oynamağa davam etməsi diqqət çəkir. Bu zaman artıq enerjidən danışmaq nə dərəcədə düzgündür? Spenser nəzəriyyəsini tənqid edənlər deyir ki, bu yanlış nəzəriyyədir.

**2. İstirahət nəzəriyyəsi.** Tamamilə əks məzmunlu bir nəzəriyyə də var ki, bu nəzəriyyəyə görə uşağın artıq enerjisi yoxdur, əksinə, problem ciddi fəaliyyətdən yorulan orqanizmin işləməyə davam edə bilməməsi və istirahətə ehtiyac duymasındadır. Ancaq istirahət yalnız hərəkətsizlik demək deyil və məsuliyyətə səbəb olmayan bir hərəkət də gətirir. Məsuliyyət və fəaliyyətə səbəb olmayan bu cür hərəkətsizlik uşaqlara yetərincə güc verir. Oyunun mənası məhz bundadır – oyun yalnız belə təbii fəaliyyəti özündə ehtiva edir, yəni insana istirahət etmək imkanı verir. Bir sözlə, həyati məqsədlərin yerinə yetirilməsi uğrunda mübarizə insanı yorur və o istirahət etmək üçün oyuna müraciət edir.

**3. Adler nəzəriyyəsi.** Uşaq zəifdir, onun xarakterinin güclü cəhətləri hələ yetərincə inkişaf etməyib ki, istəklərini yerinə yetirə bilsin. O, hər addımda bu zəifliyini hiss edir: Başqalarından asılıdır, hamı ona hər şeyi qadağan edir və o, zəif cəhətlərini kompensasiya etmək üçün təxəyyülündə ata, ana, sürücü, pilot, nəhəng və dahi ola biləcəyi yeni bir "Gerçəklik" yaradır. Bu "Gerçəklik"də onun ən azından olmaq istədiyi kimi olmaq və istədiyini etmək imkanı var. Buna görə oyunun mənası zəifliyi kompensasiya etmək və güclü olmaq istəyini təmin etməkdir. Adlerin fərdin psixologiyasında oyun nəzəriyyəsi belə ifadə olunur.

**4. Z. Freydin nəzəriyyəsi.** Freydə görə oyun da xəyal və s. digər fantaziya formaları kimi, repressiv istəklər və meyillərin təzahürüdür. Oyunun məzmunu, şübhəsiz ki, hər hansı

bir hissi cazibədə axtarılmalıdır, məsələn, “At”la oynayan zaman uşaq qamçıdan istifadə edərkən onda sadist meyillərinin təzahürünü görmək lazımdır. At rolunu oynayan ikinci uşağın aldığı bu qamçı zərbələri isə, ehtimal ki, onun mazoxist meyillərini qane edir.

**5. Keçmişin nəzəriyyələri.** Amerikalı psixoloq Stenli Hallın nəzəriyyəsinə görə, oyunlar haqqında meydana çıxan cərəyanların mənşəyini keçmişdə axtarmaq lazımdır. Bəşəriyyət müəyyən inkişaf mərhələlərindən keçmişdir. Əgər Hekkelin biogenetik qanununa görə, orqanizm embrional həyatı dövründə bəşəriyyətin bütün inkişaf mərhələlərini təkrarlayırsa, nəyə görə postembrional dövrdə təxminən eyni proseslərin baş verdiyini güman etmək olmaz?

Stenli Halla görə, oyunun mahiyyəti insana bir növ mədəni və tarixi keçmişi təkrarlamağa imkan verməsindədir.

F. Şillerin uşaq oyununun ortaya çıxarılması ilə bağlı öz nəzəriyyəsi var idi. O, oyunun estetik fəaliyyət olduğuna inanırdı, ancaq həddindən artıq fiziki fəaliyyətin həyata keçirilməsini də qeyd edirdi. Onun nəzəriyyəsi "Artıq qüvvələr nəzəriyyəsi" adlandırılır. Oyun uşaqlara estetik zövq verir. Bu cəhətdən oyun və sənət bir-birinə uyğundur, çünki onların ortaq bir cəhəti var – bu, zövqdür.

V. Vundt oyunun uşaq zəkasının inkişafının qaynağı olduğuna əmin idi: Burada uşaq alətləri məqsədlərdən ayırır. Bunun sayəsində ixtira etmək, təsəvvür etmək və yaratmaq öyrənilir.

**6. Gələcəyin nəzəriyyələri.** Karl Qroosi oyunun mənasını gələcəyin maraqlarına uyğun hesab edirdi. Oyun zamanı uşağın, adətən, ciddi fəaliyyət zamanı istinad etdiyi qüvvələrdən tam istifadə etməsinə xüsusi diqqət yetirirdi.

Kiçik bir qızın gəlinciklə maraqlanması və ona qayğı göstərməsi uşağa qulluğun psixoloji məzmununu təşkil edən cərəyanların fəaliyyəti hesab edilməlidir. Kiçik bir oğlan avtomobil idarə edərkən sürücünün fəaliyyəti müddətində meydana gələn meyillərdən istifadə edir. Bir insanın ciddi və həyati vəzifələrinin həllində iştirak edən qüvvələr və meyillər oyuna qarışdığından uşağın gələcəyə hazırlaşdığı və gələcəkdə ciddi problemləri həll etmək üçün ehtiyac duyacağı qüvvələri oyun fəaliyyətində istifadə etməsi və məşq etməsi açıq-aydın görünür. Buna görə oyun gələcək həyat üçün hazırlıq məktəbidir – bu, Karl Qroosinin oyun nəzəriyyəsinin əsas mənasıdır.

Bu nəzəriyyə, şübhəsiz, diqqətə layiqdir, lakin onun bir əsas çatışmazlığı var, buna görə tamamilə qəbuledilməz hala gəlir. Bu nəzəriyyəyə görə uşağın davranışı oyunun guya xidmət etdiyi hədəfdən irəli gəlir. Beləliklə, bu nəzəriyyənin teoloji olduğu aydın olur. Bəs oyun belə bir məqsədi necə həyata keçirir? Dünyanı bu qədər ağılla tənzimləyən və hər şeyə, o cümlədən oyuna məqsədəuyğun olan müəyyən bir gücün olduğunu düşünə bilərsiniz.

Həyati problemləri həll etmək üçün insana qüvvə lazımdır və buna görə də onların inkişafı üçün oyun təminatı lazımdır. Oynayarkən uşaq əyləndiyini düşünür, əslində haqqında heç düşünmədiyi müəyyən problemləri həll edir.

Bunlar ümumilikdə Qroosi nəzəriyyəsindən irəli gələn, bölünə bilməyən və buna görə qəbul edilə bilməyən nəticələrdir.

**7. G. Ştern nəzəriyyəsi.** Nəhayət, müəllifin fərdi adlandırdığı və bütün digər birtərəfli nəzəriyyələrin əsas elementlərini tamamlamaq və birləşdirmək cəhdini təmsil edən Ştern nəzəriyyəsi haqqında danışaq.

Şternin fikrincə, əsl oyun nəzəriyyəsi ya indiki, ya da yalnız keçmişin və ya yalnız gələcəyin meyillərinə əsaslanmamalıdır. Oyun bütün zamanlarda bu meyillərin hamısını özündə cəmləşdirən bir prosesdir. Bununla yanaşı, ən başlıcası, birmənalı olaraq oyunun yalnız bioloji mənasını axtarmaq düzgün olmazdı. Oyunların hansı məqsədə xidmət etdiyi, nələrin nəzərdə tutulduğu və bütün digər məqamları da nəzərə almalıyıq.

Bioloji olaraq, oyunun xarici təzahürlərini də dəyərləndirmək lazımdır. Bir insanın xüsusiyyətlərindən biri, heç bir ciddi tapşırıq tələb olunmadığı təqdirdə, oynaya biləcəyi fəaliyyətini göstərməsidir. Şillerin dediyi kimi, bir şəxs oynaya biləcəyi yerdədir və Ştern də bu fikirdədir. Oyunda bir insan bütün meyilləri ilə (həm mövcud, həm də keçmiş meyillər) tam əks olunur.

Fakt budur ki, insan psixikası müxtəlif meyillərdən, , xüsusən də, keçmişin donmuş, hərəkətsiz mellərindən ibarətdir. Ciddi həyati vəzifələr buna imkan verərsə, keçmişin bu hərəkətsiz qalan meyilləri və istəkləri dərhal oyanır və oyunun məzmununda aktivləşir. Gələcəyin isə yalnız bir meyili var. Uşaqlar yalnız oyunda reallaşdırılan təzahürlərə can atırlar.

Şternin öz nəzəriyyəsi ilə, xüsusilə oyunun çoxtərəfli mənası ideyasına əsaslanan, bütün digər nəzəriyyələrə şamil olunan birtərəfli baxış nöqtələrinin aradan qaldırılmasına çalışdığı diqqətə layiqdir. Buna baxmayaraq, bu nəzəriyyəni ayırmaq hələ də mümkün deyil. Fakt budur ki, bu nəzəriyyədə əsas fikir yanlışdır. Gördüyümüz kimi, Ştern nəzəriyyəsinin yanlışlığı oyunu inkişaf etməmiş və rudimentar funksiyalar və cərəyanların təzahürü kimi düşünməsindədir. Birincisi, əgər həqiqətən belə olsaydı, müəllif böyüklərin oyunları haqqında danışmamalı və oyunu yalnız uşaqlıq dövrünün fenomeni hesab etməlidir. İkincisi, elə oyun faktları məlumdur ki, onların körpəlik dövrü qüvvələrinin təzahürü olduğunu heç bir şəkildə söyləmək olmaz, məsələn, bir uşaq bir situasiyada ananın qızı, digər situasiyada isə ana rolunu oynayır. Bu vəziyyətdə uşaq öz keçmişini deyil, gələcəyini göstərir.

Sənətin mənşəyini materialist bir şəkildə anlamaq haqqında fikirlərində G. V. Plexanov eyni zamanda oyun anlayışına da toxunur: "Əməyin oynamaq və ya istəsəniz, işləmək üçün oynamaqla əlaqəsi məsələsinin həlli sənətin genezisini izah etmək üçün son dərəcə vacibdir." Bununla yanaşı, G.V.Plexanov oyunun mənşəyi problemini həll etmək üçün əsas olan bir sıra müddəalar irəli sürür. Ən əhəmiyyətlisi budur ki, insan cəmiyyəti tarixində əmək oyundan daha qədimdir.

D.B.Elkonin etnoqrafik materialın təhlili əsasında rollu oyunun tarixi mənşəyi və inkişafı ilə bağlı bir fərziyyə irəli sürürdü. İnsanın mövcudluğunun başlanğıcında uşaq oyununun olmadığına inanırdı. Əməyin özünün də çox qədim və ibtidai olması səbəbindən uşaqlar çox erkən böyüklərin əməyində iştirak etməyə başladılar (meyvə yığmaq, kökləri toplamaq, balıq ovu və s.).

Böyüklər uşaqların əməyi prosesində oyuncaqlar hazırlamağa başladılar. Oyuncaqları funksiyalarına görə deyil, xarici görünüşünə görə bənzədirdilər, yəni oyuncaqlar əşyaların görüntüsü idi. Beləliklə, oyuncaqların meydana gətirilməsi ilə uşaqların böyüklərin

həyatında fəal iştirak etmək istəyindən məmnun qaldıqları bir oyun ortaya çıxarıldı. Beləliklə, uşaq oyunlarının meydana gətirilməsinin anlaşılması üçün müxtəlif yanaşmalar araşdırıldıqdan sonra böyüklərin uşaq oyunlarının cəmiyyətin mədəniyyətinin bir hissəsinə çevrilərək nəsildən-nəslə ötürülən xüsusi hazırlanmış oyuncaqlar, qaydalar və oyun avadanlıqlarının köməyi ilə onların yayılmasına töhfə verilmələri qənaətinə gəlmək olar.

**Oyun psixologiyası. Müxtəlif uşaq oyunları nəyi öyrədir?**

1. **Təqlid.** Uşaqların ilk oyun fəaliyyəti təqlid hesab olunur. Onlar böyükləri yaxından izləyir və onların hərəkətlərini olduğu kimi təkrar etməyə çalışırlar. Belə təqlidi oyunun elementləri 5–6 aylıq uşaqda, məsələn, ana əlini masaya zərblə vurduqda və ya ucadan səs çıxardıqdan sonra həmin hərəkətləri təkrarladığı zaman müşahidə edilə bilər. Əslində, belə bir taktil təqlid yalnız böyüklər və körpələr üçün əyləncə deyil, həm də təlim prosesinin çox vacib tərəfidir. Bu, uşağın böyüklər dünyasına uyğunlaşdırılması üçün zəruri olan rollu oyunların başlanğıcıdır.
2. **Rollu oyun.** Rollu oyunlar, ümumiyyətlə, süjetli-rollu və dramatik oyunlara bölünür. Rollu oyunlar oynanarkən böyüklərin həyat hekayələri səhnələşdirilir – hamıya məlum olan "Ana və qızları", "Mağaza", "Xəstəxana" və s.. Belə oyunlarda uşaq özünü müxtəlif peşə sahibləri rolunda sınayır. Bundan əlavə rollu oyunlar yaradıcı təfəkkürün inkişaf etdirilməsi və düşünülmüş müxtəlif vəziyyətlərdə qazanılmış bilik və bacarıqların tətbiq edilməsi üçün çox münasibdir.
3. **Dramatik oyunlar** uşağın izləməli olduğu və əvvəlcədən seçilmiş süjetlə xarakterizə olunur. Bunlar həm fərdi, həm də qrup şəklində həyata keçirilən müxtəlif oyunlardır. Dramatik oyunlar sənət, peşə bacarıqları və insanlarla ünsiyyət qurma bacarığını inkişaf etdirir.
4. **Didaktik oyunlar.** Bunlar yorucu təlim prosesini uşaqlar üçün həqiqi əyləncəyə çevirən təhsilləndirici oyunlardır. Bu didaktik oyunların tipik bir nümunəsi lotodur və bu nömrələrlə oynanılan klassik loto ola bilməz, yalnız “Mövsümi loto”, yaxud “Loto ölkələri” və s. mövzularında ola bilər. Didaktik oyunlar bəzi sistemləri, hadisələri və prosesləri öyrənməyə yönəldilib, buna görə də onların əsas məqsədi yeni biliklər əldə etmək və onları tətbiq etməkdir.
5. **Tikinti-quraşdırma oyunları.** Uşaqlar tikinti-quraşdırma oyunlarını oynamağa olduqca erkən – 1-1,5 yaşından başlayırlar. Əvvəlcə qatlanan platformalar və kublardan tikilmiş evlər quraşdırılır və yalnız bundan sonra tikintiyə başlanılır. Bir çoxları tərəfindən tanınmış və sevimli LEQO-lar bu sahədə əvəzolunmaz vəsaitdir. Bu oyunlar müstəqil tikinti-quraşdırma və yaradıcılıq qabiliyyətlərini mükəmməl şəkildə inkişaf etdirir və sxemlərin quraşdırılması isə diqqətcillik və səbr öyrədir.
6. **Hərəkətli oyunlar.** Hərəkətli oyunun nə olduğunu izah etmək lazım deyil. Onların səmərəliliyi aydındır – fiziki inkişaf, təlim, koordinasiya, reaksiya sürəti və s. cəhətləri inkişaf etdirir. Yəqin ki, elə bir uşaq yoxdur (böyüklər də) ki, qaçdı-tutdu, salka və gizlənqaç oynamasın.

## Tələbələr üçün fəaliyyətlər

Tövsiyə olunan mənbələri (mühazirədən) öyrənilməklə, əlavə materiallardan da istifadə edilməyə icazə verilir. Aşağıdakı tapşırıqları yerinə yetirin:

1. Uşaq oyunlarının yaranması haqqında yerli və xarici nəzəriyyələrin mahiyyətini təsvir edin:
    - D. B. Elkoninin rollu oyunların yaradılması və inkişaf tarixi haqqında nəzəriyyəsi;
    - Q. V. Plexanovun cəmiyyətdə müxtəlif incəsənət növləri ilə yanaşı, oyunların yaradılması haqqında nəzəriyyəsi;
    - F. Şillerin artıq güc nəzəriyyəsi;
    - V. Vundtun nəzəriyyəsi;
    - Z. Freydin nəzəriyyəsi.
2. Məktəbəqədər yaşlı uşağın oyun fəaliyyətinin xüsusiyyətlərini təsvir edin (özünəməxsus olanları göstərin) (ən azı 5 xüsusiyyət ).
3. "Məktəbəqədər uşağın həyatında oyunun əhəmiyyəti" adlı kiçik esse yazın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Yaşa uyğun məşğələlər üçün müvafiq oyunlar hazırlayır”.**

1. Oyun nəzəriyyələrini qruplaşdırın və təsnifatını qeyd edin.

| Oyun nəzəriyyəsi | Təsnifat qrupu |
|---|---|
| | |

2. Müxtəlif uşaq oyunları nəyi öyrədir?

| Təqlidi oyunlar | Rollu oyunlar | Dramatik oyunlar | Didaktik oyunlar | Tikintiquraşdırma oyunları |
|---|---|---|---|---|
| | | | | |

## 2.3. İnteqrativ məşğələlər üçün plan hazırlayır

Fəal öyrənmə prosesi uşaqların ətrafdakı insanlar və əşyalarla qarşılıqlı təsiri nəticəsində baş verir. Böyüklərin uşağın inkişafını dəstəkləmələrində rolları özlərinin də bu prosesdə iştirakı və əlverişli emosional şərait yaratmalarından ibarətdir. Bu zaman uşaqlara əşyalarla manipulyasiya etmək, seçim etmək, əşya və ideyaları tədqiq etmək, eksperimentlər aparmaq və "Kəşflər etmək" imkanı vermək lazımdır. Bu zaman uşaqlar həm öz həmyaşıdları, həm də böyüklərlə təhlükəsiz və xoş mühitdə ünsiyyət qurmaq imkanı əldə edirlər.

Fəal təlim metodları əsasında qurulan məşğələ ənənəvi məşğələlərdən fərqləndirilir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərmələrinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və qabiliyyətlərini nümayiş etdirmək imkanı əldə edirlər. Fəal təlim məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi üçün ən yaxşı texnologiyadır. Bu, o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallar və əhatələrində olan insanlarla fəal və qarşılıqlı münasibətdə olurlar.

Fəal təlim metodlarından istifadə təlim prosesinin təşkili və tərbiyəçi-müəllim-uşaq münasibətlərinə yeni məzmun gətirir və bu münasibətlərin dəyişdirilməsini və onların arasında pedaqoji əməkdaşlıq, bir-birinin ləyaqəti, hüquq və azadlıqlarına hörmət etməyə əsaslanan yeni münasibətlərin yaradılmasını təmin edir.

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işi düzgün planlaşdırmadan başlanır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- Perspektiv (illik) planlaşdırma;
- Cari (həftəlik) planlaşdırma.

**Perspektiv (illik) planlaşdırma**

Standartların reallaşdırılması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün təlim prosesinin planlaşdırılması üzrə iş aparılır. Məktəbəqədər təhsil kurikulumunun əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş inkişaf sahələrinin planlaşdırılmasında inteqrativlik prinsipi ciddi şəkildə gözlənilir. Perspektiv planlaşdırmada həm müvafiq yaş qrupu, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsi nəzərə alınmalı və müəyyən müddət ərzində təlim və tərbiyənin vəzifələri konkretləşdirilməlidir.

Perspektiv planlaşdırma müxtəlif yaş qrupları və uşaqların ehtiyaclarına uyğun olaraq işin əsas mərhələlərinin nəzərdə tutulmasına imkan verir. Məktəbəqədər təhsil müəssisələrində işin planlaşdırılması uşaqların təlim-tərbiyə prosesini təşkilatlandırır və tərbiyəçi-müəllimin işini daha səmərəli və nəticəli edir.

Məktəbəqədər yaşlı uşaqların bilik və bacarıqlarının artırılmasına onun məzmunu, həmçinin təlim-tərbiyənin metodları və məktəbəqədər yaşlı uşaqların inkişaf səviyyəsinin nəzərə alınması ilə fəaliyyətin təşkili formalarının tədricən mürəkkəbləşdirilməsi kimi baxılması lazımdır. Məzmunun tədricən mürəkkəbləşdirilməsi məktəbəqədər yaşlı

uşaqların təlim-tərbiyəsinin tamlığı üçün şərait yaradır.

Uğurlu və nəticəyönümlü təlim prosesinin təşkili mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır. Bu növ planlaşdırma özündə tərbiyəçi-müəllimin hər hansı inkişaf sahəsi üzrə nəzərdə tutulmuş yaş qrupu üzrə illik fəaliyyətini əhatə edir. Orada konkret yaş qrupu üzrə məzmun standartları, məşğələnin növü, bölmələr, mövzular, inteqrasiya, resurslar və zaman kimi problemlər əhatə olunur. Perspektiv plan hazırlanması üçün tərbiyəçi-müəllimin bir sıra bacarıqlarının olması vacibdir. Bölmə və mövzuların ardıcıllığının düzgün müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Bu ardıcıllıq müəyyənləşdirilərkən bəzi prinsiplər nəzərə alınmalıdır. Təbii ki, birinci prinsip məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə və asandan çətinə istiqamətində fəaliyyətin nəzərə alınmasıdır. Tərbiyəçi-müəllim yaş qrupu üzrə fəaliyyətini planlaşdırarkən bu nəticələrə yanaşmada müstəqil və zəruri hallarda onları müxtəlif səviyyələrdə inteqrasiya etməkdə sərbəstdir.

Bölmə və mövzuların ardıcıllığı planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:

- İnkişaf sahəsi daxilində inteqrasiya;
- İnkişaf sahələri arasında inteqrasiya.

Ardıcıllığın qurulması prinsipində aşağıdakı cəhətlər nəzərə alınır:

1. Məntiqi ardıcıllıq;
2. Psixoloji ardıcıllıq (sadədən mürəkkəbə, yaxından uzağa prinsipi);
3. Xronoloji ardıcıllıq.

Planlaşdırma aparılması üçün lazım olan bacarıqlardan ən mühümü inteqrasiya imkanlarının müəyyən edilməsidir. Hər bir inkişaf sahəsinin digər inkişaf sahələri ilə inteqrasiyası mümkündür. Planlaşdırma aparılarkən mövzunun digər inkişaf sahəsi üzrə bu və ya digər mövzu ilə inteqrasiya imkanları müəyyən olunmalıdır, məsələn, savad təlimi və nitq inkişafı məşğələsində "A" hərfinin öyrədilməsi zamanı mövzunun ətraf aləmlə tanışlıq, təsviri fəaliyyət və musiqi məşğələləri ilə inteqrasiya edilərək öyrədilməsi daha müsbət nəticələr verir.

Perspektiv planlaşdırmada zəruri cəhətlərdən biri də resursların seçilməsidir. Uşaqlara tanış olmayan hadisələr və əşyaların yalnız sözlərlə aydınlaşdırılması çətindir. Məktəbəqədər dövrdə məşğələlərdə müxtəlif əyani vəsaitlərdən istifadə, xüsusilə vacibdir. Bu, elə bir yaş dövrüdür ki, burada əyani vəsaitlərin rəngarəng və baxımlı olması mühüm əhəmiyyət kəsb edir.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü vaxt bölgüsünü müəyyənləşdirməkdir.

Perspektiv planlaşdırma aparan tərbiyəçi-müəllim aşağıdakı bacarıqlara malik olmalıdır:

1. İnkişaf sahələri və məzmun standartlarına əsasən, dəqiqləşdirmələr aparmaq və hansı məşğələdə hansı standartların reallaşdırılacağını müəyyənləşdirmək;
2. Mövzuların ardıcıllığını müəyyənləşdirmək;
3. İnteqrasiya imkanlarını müəyyən etmək;

4. Əlavə resurslar seçmək;
5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.

Planlaşdırma aparılarkən aşağıdakı tövsiyələri nəzərə almaq vacibdir:

- Standartlar qrupuna əlavə standartlar daxil edilə bilər;
- Mövzular dəyişdirilə və ya artırıla bilər;
- İnteqrasiya üçün əlavə imkanlar müəyyən edilə bilər;
- Əlavə resurslar seçilə bilər.

Perspektiv (illik) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır (Cədvəl 2.1):

| tandartlar | Məşğələ | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| | | | | | |

**Cədvəl 2.1. Perspektiv planlaşdırmanın nümunəvi cədvəli**

Aşağıda ikinci inkişaf sahəsi olan idrakın inkişafı üzrə 3–4 yaş qrupunda (orta qrup) təxmini perspektiv planlaşdırma nümunəsinə nəzər salaq (Cədvəl 2.2). Cədvələ nəzər salınarkən görürük ki, yuxarıda sadalananlar nəzərə alınmışdır.

| Standartlar | Məşğələ | Mövzular | İnteqrasiya | Resurslar | Tarix |
|---|---|---|---|---|---|
| 2.2.1.<br>2.2.4. | | “Ana dilim” (Şahin Xəlilov) | Est. 3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil, D və “Bakı” albomu | **sentyabr, III həftə** |
| 2.2.1.<br>2.2.4.<br>2.2.7. | | “Sınmış fincan” (K.D.Uşinski) | Est.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat və şəkil | **sentyabr, IV həftə** |
| 2.2.1.<br>2.2.2. | | “Pələng və Tülkü” (tacik xalq nağılı) | Est.3.1.8,3.1.9<br>S.e.4.1.2. 4.2.2. | Müntəxəbat, şəkil və maskalar | **oktyabr, I həftə** |
| 2.2.4.<br>2.2.7. | | “Payızda” (Nəriman Hüseyn) | Est.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil və DVD | **oktyabr, II həftə** |
| 2.2.1.<br>2.2.2.<br>2.2.5. | | “Külək və günəş”(rus xalq nağılı) | Est.3.1.8,3.1.9<br>S.e.4.1. .,4.2.2. | Müntəxəbat və şəkil | **oktyabr, III həftə** |
| 2.2.2.<br>2.2.5. | | “Kirpi və alma” (Azərbaycan xalq nağılı) | Est.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat və şəkil | **oktyabr, IV həftə** |
| 2.2.4.<br>2.2.7. | | “Ana vətən” (Nəriman Hüseyn) | Est.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2.<br>İd. 2.1.1. | Müntəxəbat və şəkil | **noyabr , I həftə** |
| 2.2.4.<br>2.2.7. | | **“Alma ağacı” (L.N. Tolstoy)** | **Est.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2.** | **Müntəxəbat və şəkil** | **noyabr, II həftə** |

**Cədvəl 2.2. Perspektiv planlaşdırmanın nümunəsi**

### Cari (həftəlik) planlaşdırma

Cari planlaşdırma alt-standartların həyata keçirilməsi məqsədilə, ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

Cari planlaşdırma aparılarkən məşğələnin mərhələlərinə diqqət yetirilməlidir. Məşğələ aşağıda göstərilən istiqamətlər üzrə planlaşdırılmalıdır:

- Standart;
- Mövzu;
- Məqsəd;
- İnteqrasiya;
- İş formaları;
- İş üsulları;
- Resurslar.

**Qeyd:** Plan dəftərində planlaşdırma bu hissəyə qədər yazılır.

**Məşğələnin mərhələləri**

Məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodlar ilə aparılan məşğələlərin, əsasən, üç mərhələli strukturda həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. Aktuallaşdırma və ya motivasiya (mövcud biliklərin səsləndirilməsi və marağın yaradılması);
2. Dərketmə (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);
3. Tətbiqetmə (qazanılmış bilik və bacarıqların yaradıcı şəkildə tətbiq olunması).

**Aktuallaşdırma və ya motivasiya.** Məşğələ aktuallaşdırma, yəni mövcud biliklərin yada salınıb səsləndirilməsi ilə başlanır. Əgər motivasiyanın yaradılması çətindirsə, ya mümkün deyilsə, o zaman aktuallaşdırma ən yaxşı çıxış yoludur. Əlbəttə, motivasiya ilə başlanan məşğələ daha maraqlı olur, lakin hər mövzu üçün maraqlı və cəlbedici motivasiya qurulması mümkün olmayanda, aktuallaşdırmadan istifadə edilir. Motivasiya "Motiv" sözündən götürülmüşdür. Latın dilindən tərcümədə "hərəkətə gətirmək" və ya "daxili ehtiyac yaratmaq" deməkdir. Məşğələ motivasiya ilə başlanır, yəni tərbiyəçi-müəllim tərəfindən problem qoyulur və uşaqlar fərziyyələr irəli sürürlər. Deməli, tərbiyəçi-müəllim motivasiya yaradarkən uşaqlarda fikir söyləmək və fərziyyələr yürütməyə daxili ehtiyac yaradır və onları düşünməyə vadar edir. Düzgün qoyulmuş motivasiya uşaqda fəallıq yaradır.

Motivasiyanı necə qurmaq lazımdır?

- Uşaqların diqqətini cəlb etmək və maraqlandırmaq;
- Müxtəlif fərziyyələrin irəli sürülməsinə səbəb olan vəziyyət yaratmaq;
- Uşaqları müstəqil tədqiqata həvəsləndirmək;
- Məktəbəqədər yaşlı uşağın səviyyəsinə müvafiqliyi nəzərə almaq;
- Uşağı öz bacarıqlarını nümayiş etdirməyə sövq etmək.

**Dərketmə** yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi və tapşırıqları həll etmə prosesində məlumat və faktların axtarılması və toplanmasıdır. Dərketmə bilik və bacarıqların vəhdətdə formalaşdırılması prosesidir. Verilmiş işin yerinə yetirilməsi üçün uşaqlar iş formalarından asılı olaraq fikir mübadiləsi və tədqiqatlar aparır

və ümumi nəticəyə gəlirlər. Cütlər və ya qruplarla işləyən uşaqların öz aralarında seçdikləri liderlər verilmiş tapşırıqla bağlı ümumi fikri bütün qrup və tərbiyəçi-müəllimə çatdırırlar.

**Tətbiqetmə** qazanılmış bilik və bacarıqların yaradıcı şəkildə tətbiq edilməsidir. Uşaqlar əldə etdikləri bilik və bacarıqları möhkəmləndirirlər və onların praktik əhəmiyyəti artır. Tətbiqetmə məqsədilə uşaqlara praktik tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyunlardan istifadə edilməsi məqsədəuyğundur.

Gündəlik planlaşdırma aparılarkən ilk iş mövzunun standarta uyğunluğunun müəyyənləşdirilməsidir. Standart müəyyənləşdirildikdən sonra ona müvafiq mövzu seçilir. Artıq standarta və öyrənilən mövzuya uyğun müəyyənləşdirilən təlim nəticələri tərbiyəçi-müəllimə deyil, uşağa istiqamətləndirilməlidir. Əgər tərbiyəçi-müəllim məşğələnin məqsədini uşağın maraqları üzərində qurarsa, uğurlu və nəticəyönümlü təlim təşkil edə bilər. Uşağı təlimə cəlb etməyin yolu mövzuya və məqsədə uyğun fəal təlim forma və üsullarından yerində istifadə edilməsidir.

Motivasiya elə qurulmalıdır ki, uşaqlar dərs prosesinə cəlb edilə bilsinlər. Bu mərhələdə tərbiyəçi-müəllim müxtəlif mövqelər və variantların toqquşmasından yaranan vəziyyət əsasında suallar qoyaraq uşaqları düşünməyə vadar edir. Motivasiya, ilk növbədə, tədqiqat üçün həm mümkün, həm də uşağın öz bacarığı və qabiliyyətinin həyata keçirilməsinə imkan verən və onun inkişaf xüsusiyyətlərinə müvafiq olmalıdır.

İkinci mərhələdə, motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirildikdən sonra artıq yeni biliyin əldə edilməsi işinə başlana bilər. Tədqiqat müxtəlif formalarda – bütün qrupla birlikdə, kiçik qruplarda, cütlər şəklində və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həlli üçün müxtəlif variantlardan istifadə olunur.

Növbəti mərhələdə uşaqların qazandıqları bilik və bacarıqların tətbiq edilməsi prosesi başlanır. Belə ki, bu mərhələdə təfəkkürün müxtəlif növlərindən istifadə olunur. Sonrakı mərhələdə qazanılmış biliklərin ümumiləşdirilməsi məqsədilə suallar qoyulur və bu suallar əsasında biliklər sistemləşdirilir. Uşaq əldə etdiyi biliklər və gəldiyi nəticəni irəli sürülmüş fərziyyələrlə tutuşdurur.

Təqdim edilən mərhələlər məşğələ zamanı hiss olunmadan biri-birini əvəz etməlidir. Məşğələlər zamanı uşaqların yorulmasına yol vermək olmaz. Odur ki, məktəbəqədər təhsil müəssisələrində məşğələlərə oyunlar və ya oyun elementləri daxil edilməli və onlardan öyrənmə vasitəsi kimi istifadə olunmalıdır. Eyni zamanda, idman dəqiqələrindən istifadə edilməsi də məqsədəuyğundur.

## Tələbələr üçün fəaliyyətlər

1. Aşağıdakı cədvəli işləyin:

| Ənənəvi məşğələnin mərhələləri | Yeni məşğələnin mərhələləri |
|---|---|
| | |
| | |
| | |
| | |

2. 1-ci tapşırığa əsasən Venn diaqramını işləyin.

**Venn diaqram**



3. Qrup işi. Yaş qruplarına uyğun məşğələ planlaşdırın.
   **I qrup.** Ətraf aləmlə tanışlıq.
   **II qrup.** Məntiqi-riyazi təfəkkürün inkişafı.
   **III qrup.** Bədii təfəkkürün inkişafı.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“İnteqrativ məşğələlər üçün plan hazırlayır”.**

1. Məktəbəqədər yaşlı uşaqların idraki inkişafının vəzifələrini əks etdirən sxem hazırlayın.

2. Uşaqlarda idraki inkişafın elementlərini araşdırmaq üçün düzgün ardıcıllığı təyin edin:
    1. Zehnin əsas hissələrə bölünməsi və əlamətlərinin (forma, ölçü, rəng, material və s.) eyniləşdirilməsi;
    2. Hissələrin bir-biri ilə məkan korrelyasiyası (sol, sağ, yuxarıda, aşağıda və s.);
    3. Mövzunun vahid görünüşünün qavranılması;
    4. Mövzunun təkrar qavranılması;
    5. Kiçik hissələrin izolyasiyası, əsas hissələrə münasibətdə məkanda yerinin müəyyənləşdirilməsi.

A) 1, 2, 3, 4, 5;
B) 1, 3, 2, 4, 5;
C) 1, 3, 2, 5, 4;
D) 1, 5, 2, 3, 4;

3. Məşğələ planı tərtib edin.

4. Fəsil üzrə perspektiv plan hazırlayın.

5. İllüstrativ materialın köməyi ilə sensor məşğələnin hansı vəzifələri həll edilir? Şəkildən istifadə edərək, dərsin bir hissəsini hazırlayın (şəkil seçimi sərbəstdir ).

## 2.4. İdraki modeldən istifadə edərək, intellektual-emosional məşğələ modellərini qurur

Pedaqoqun tədris-idrak fəaliyyətinin təşkilinin psixoloji əsaslarını bilməsi ona, tədris prosesini peşəkarcasına təşkil etməyə imkan verir. Məktəbəqədər pedaqogikada, istiqamətləndirici hərəkətlərin formalaşdırılması sensor tərbiyədə, ali psixi proseslərin inkişaf etdirilməsi isə əqli tərbiyədə nəzərdən keçirilir. Beləliklə, sensor tərbiyənin mövzusu - qavrama, əqli tərbiyənin mövzusu isə - ali psixi proseslərdir. Sensor tərbiyə, əqli tərbiyənin bir hissəsi, onun əsasıdır.

Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinə aşağıdakılar daxildir:

- Biliklərin mənimsənilməsi prosesinə rəhbərlik;
- Əqli hərəkətlərin mənimsənilməsi əsasında əqli bacarıqların formalaşdırılması;
- Ətrafdakılara qarşı dərkedici münasibətin tərbiyə olunması;
- Əqli iş mədəniyyətinin elementar vərdişlərinin formalaşdırılması.

Bu məsələlər, uşaqların müxtəlif fəaliyyət növlərinin təşkili və onlara rəhbərliyin gedişatında pedaqoq tərəfindən həll olunur.

Uşağın əqli inkişafı zamanı onun aktiv fəaliyyəti (ünsiyyət, təcrübə, modelləşdirmə, kolleksiya toplamaq) həlledici məna daşıyır. Onun mənimsənilməsi prosesi, uşağın idraki marağı, onun subyekt mövqeyi, şəxsiyyətinin istiqamətlənməsi ilə bağlıdır.

Yeni nəslin alternativ proqramlarında uşaqların əqli inkişafının metodoloji əsasları müasir psixoloji müddəalara əsaslanır. Belə ki, uşağın təsəvvüründə dünya (aləm) obrazını mürəkkəb, tam, dondurulmamış biliklər sistemi kimi formalaşdırmağın vacibliyi, xüsusilə, qeyd olunur. Bu obraza uşağın özü, digər insanlar, öz fəaliyyəti, ümumilikdə dünya haqqında bilikləri daxildir. O, uşağın dərketmə sahəsi sayəsində yaranır və formalaşır. Onun təbii-elmi əsasını "nədir?" tədqiqat refleksi təşkil edir (İ.P.Pavlova görə). O, anadan gəlmə xarakter daşıyır və idraki istiqamətə malikdir. Uşaq inkişaf etdikcə, onun koqnitiv meyillikləri, əqli fəaliyyətlə motivlənmiş daxili hazırlıqla ifadə olunan idraki fəallığa keçir. Koqnitiv meyilliklər ətraf aləm haqqında yeni təsəvvürlərin, təəssüratların alınmasına yönələn axtarış hərəkətləri xarakterini daşıyır.

Uşağın dərketmə prosesi, onun əqli maraqları, tələbatları, bacarıqlarından irəli gəlir.

İdrak fəaliyyəti müəyyən quruluşla xarakterizə olunur. A.N.Leontyevə görə onun elementləri aşağıdakılardır:

- Vadaredici-motivasiya hissə (tələbatlar, motivlər, məqsədlər);
- Fəaliyyətin mövzusu (məzmun);
- Mövzu və motivin uyğunluğu (bir-birinə qarşılıqlı tabe olmaları);
- Həyata keçirilmə vasitələri (hərəkət və əməliyyatlar).

Məktəbəqədər yaşlı uşağı həm əşyalar və obyektlər aləmi, həm də, hadisə və təzahürlər aləmi maraqlandırır. Əxlaqi təsəvvürlər və normalarının daşıyıcısı olan insan, uşağı müxtəlif tərəflərdən maraqlandırır: nə edir, nə danışır, nəyə nə cür münasibət bəsləyir. MTM-də uşağın zehni fəallığını və maraqlarını azaltmamaq, onun əqli bacarıqlarını, dünyaya aktiv-müsbət münasibətini inkişaf etdirmək üçün böyüyün pedaqoji mövqeyini

düzgün müəyyənləşdirmək vacibdir. Pedaqoqun əsas vəzifəsi uşaqlarda sabit zehni fəallığı inkişaf etdirməkdir.

**İdrak sahəsi** mürəkkəb təhsil kimi nəzərdən keçirilir. Burada üç komponenti seçmək olar: psixi (idraki) proseslər, məlumat, məlumata münasibət .

**Əqli inkişafı** yalnız inkişafetdirici xarakter daşıyan sistemli və məqsədyönlü təlimi təmin edə bilər. Təlim – pedaqoqun uşaqlarla, müxtəlif səviyyəli məlumatların mənimsənilməsinə, əqli güc və bacarıqların formalaşdırılmasına, idrak məlumatların alınması üçün müsbət münasibətin yaradılmasına yönələn qarşılıqlı təsir prosesidir. İnkişafetdirici təlim uşağın potensial imkanlarına və onların həyata keçirilməsinə istiqamətlənir. Uşağa müəyyən səviyyədə şəxsi (empirik) təcrübəsi, istək, maraq və tələbatları olan təhsilin subyekti kimi baxılır.

Təlimin əsas forması uşaqların əqli inkişaf məsələlərinin həllinə yönələn, qaydaya salınmış fəaliyyət növü olan məşğələlərdir. Məşğələnin əsas göstəriciləri bunlardır: didaktik prinsiplərin, tədris fəaliyyətinin bütün komponentlərinin olması, qarşılıqlı təlim, dəqiq (reqlamentə salınmış) xarakter və i.a.

Məşğələlər aşağıdakı səbəblərə görə təlimin əsas təşkil forması olaraq çıxış edir:

- Onlar müəyyən proqram məzmunu əsasında keçirilir, bu da maarifləndirici işin sistemliliyini və ardıcıllığını, biliklər sisteminin formalaşmasını təmin edir;
- Didaktik prinsiplər əsasında qurulur, bu da məktəbəqədər yaşlı uşaqlarda biliklərin dolğunluğunun, möhkəmliyinin, dərkedilmənin, sistemliliyinin formalaşmasına kömək edir.
- Pedaqoq, məşğələnin məzmununa və növlərinə uyğun olan müxtəlif metod və vasitələrdən istifadə edir, tədris fəaliyyətinin ilkin şərtlərini formalaşdırır;
- Fəaliyyəti qaydaya salır, bu da uşaqlarla tədris prosesini sistemli və planlı şəkildə keçirməyə imkan verir.

İnkişafetdirici təhsil probleminə olan böyük diqqət nəticəsində son vaxtlar çoxlu nəzəriyyələr yaranmışdır: əqli hərəkətlərin mərhələli formalaşması nəzəriyyəsi (P.Y.Qalperin,N.F.Talızina), nəzəri (D.B.Elkonin,V.V.Davıdov), dialektik, qeyri-standart təfəkkürün inkişaf etdirilməsi nəzəriyyəsi (S.Altşuller, B.Krılov), idraki maraqların formalaşdırılması nəzəriyyəsi (l.V.Zankov), problemli-axtarış təlim nəzəriyyəsi (M.İ.Maxmutova, A.M.Matyuşkin), əqli bacarıqların inkişaf etdirilməsi nəzəriyyəsi (L.A.Venqer), uşaq yaradıcılığının və təcrübə aparmağın inkişaf etdirilməsi nəzəriyyəsi (N.N.Poddyakov) və b.

6 yaşına qədər olan uşaqların təhsilinin məzmunu və vəzifələri tərbiyə və təlim proqramlarında əks olunub. Metodların seçilməsi uşaqların yaşından, onların yaxın gələcək əqli inkişaf zonasından, hər bir uşağın hazırlıq səviyyəsindən asılıdır. Bununla əlaqədar olaraq, məktəbəqədər təhsildə fərqləndirmə və fərdiləşdirmə məsələsi irəli sürülür. Tədrisin təşkili formaları (frontal, qrupla, fərdi) uşaqların birləşdirilmə tipindən, pedaqoqun mövqeyindən asılıdır.

Məşğələləri qurmağın aşağıdakı didaktik prinsipləri mövcuddur:

- “Özü başa düşərək – anlayış”;
- Başlanğıc nöqtənin birinciliyi (hər bir uşağın özünəməxsus yaxın gələcək inkişaf zonası və tədrisi var. Hər bir uşağa uyğun səviyyədən başlamaq lazımdır);
- Assosiativ əlaqələrin inkişaf etdirilməsi;
- Məşğələnin bütün mərhələlərində müvəffəqiyyətin möhkəmləndirilməsi;
- Paralelləşdirmə (müşayiət etmə);
- Zehin, affekt və hərəkətin sintezi;
- Yaş xüsusiyyətlərinin mərhələliyi və nəzərə alınması;
- Uşaq bağçası, ev və məktəbdə təhsilin ardıcıllığı və varisliyi.

Bu prinsiplərin həyata keçirilməsi üçün müvafiq təhsil mühiti yaradılmalıdır ki, bu mühit, tədris prosesinin iştirakçıları arasındakı münasibətlərin, onun birmənalı keçməsi üçün zəruri olan didaktik və əşyavi-maddi şəraitin məcmusunu əks etdirsin.

Müasir tədqiqat işlərində məktəbəqədər yaşlı uşağın inkişafının koqnitiv modeli açıqlanır. Pedaqoqların diqqəti ətraf reallığın dərk edilməsində üsul və vasitələrin mənimsənilməsi üçün uşaqlara kömək edən şəraitin yaradılmasına yönəlir. Onların əsas üsulları olaraq, sensor etalonların, müxtəlif ölçü meyarlarının, əxlaqi-etik modellərin, nitqin, “hislərin dilinin” adlarını çəkmək olar. Dərketmə vasitələrinə obyektlərin müşahidəsi, müqayisəsi, tutuşdurma, təsnifat və sıralama, sillogizm və modelləşdirmə daxildir. Məktəbəqədər yaşlı uşağın əqli inkişafı dərketmə zamanı yaranan və onun gedişatına kömək edən intellektual emosiyaların inkişafını nəzərdə tutur (təəccüb, maraq, kəşfetmə sevinci, uğur, təfəkkür, şübhə, əminlik, ehtimal). Uşaq bacarığının, reallığın müxtəlif sahələri ilə tanışlıq vasitəsilə inkişaf etməsi, uşağın subyektiv təcrübəsi sahəsində durmalı, onun üçün maraqlı olmalıdır. İdraki fəaliyyətin təşkilinin əsas prinsipi inteqrasiyadır . Onun mahiyyəti əqli inkişafın əsaslı və tətbiqi məqsədlərinin qarşılıqlı əlaqəsindən; şəxsi (gündəlik) və nəzəri təcrübənin (sosial-mədəni irsin mənimsənilməsi kimi) uyğunluğundan; uşaq-böyük cəmiyyətinin yaradılması üçün əsas olan tədris mövzularının proyektləşdirilməsindən; reallığın dörd sahəsindən (təbii-elmi, estetik, sosial, məntiqi-riyazi) hər birinin müxtəlif tərəflərinin nəzərdən keçirilməsindən ibarətdir.

Uşaqların təffəkkür-nitq fəaliyyətinin təşkilinə, zehninin inkişaf etdirilməsinə olan metodiki yanaşmalar, dərketmə marağının, intellektual-zehni fəaliyyətə olan tələbatın və motivasiya formalaşması ilə bağlıdır.

Təfəkkür-nitq fəaliyyətinin təşkili texnologiyasına dərketmə-təcrübi və emosional-dəyər istiqamətləri daxildir. Texnologiyanın əsasında üçlük durur: dərketmə – yenilənmə – ünsiyyət. Pedaqoqların vəzifəsi uşaqda, fəaliyyət subyekti mövqeyini, aktivliyi, müstəqilliyi, təşəbbüskarlığı və yaradıcılığı inkişaf etdirməkdir. Şəxsi-istiqamətləndirici qarşılıqlı təsir mexanizmi tədrisin uşaq üzərində cəmlənməsini, onun subyektliyinin stimullaşdırılması və artırılmasını, fərqləndirmə və fərdiləşdirməni, fərdi və qrup təliminin hissələrə bölünməsini, pedaqoji dayağın təşkilini, dialoqlaşmanı tələb edir.

N.A.Korotkova, idraki-zehni fəaliyyətin, parsial proqramlardan istifadə vasitəsilə uşaqda ayrı-ayrı idrak funksiyalarının (yaddaş, diqqət, məntiqi düşünmə) inkişaf etdirildiyi,

funksional yanaşmaya qarşı çıxış edir. Tədqiqatçının fikrinə görə uşağın idrak subyekti olaraq formalaşması, böyüyün uşaqlarla tərəf-müqabillik fəaliyyətində daha yaxşı həyata keçir. İdraki silsilədən olan məşğələləri həftədə bir dəfə keçirmək məqsədəuyğundur. Tədqiqatın böyük və uşaqların maraqları arasında vasitəçi olan tipləri bunlardır: təcrübələr, kolleksiyaların toplanması (təsnifləyici iş), xəritəyə səyahət, “zaman çayına” səyahət. Xüsusi yaradılmış əşyavi-inkişaf etdirici mühit, müstəqil, azad uşaq fəaliyyəti üzərində qurulan məşğələlərin məzmununu birləşdirməyə imkan verir .

Proyektləşdirmə texnologiyasından axtarış fəaliyyətinin formalarından biri kimi istifadə olunması yaradıcı bacarıqların inkişaf etdirilməsi məsələsini effektiv həll etməyə imkan verir. Axtarış fəaliyyəti – qeyri-müəyyənlik şəraitində fəal davranışdır (düşüncənin, fantaziyanın, yaradıcılığın inkişafı). Yaradıcı proyektin mahiyyəti – öz subyektiv fikrinin ifadə edilməsində, həm fəaliyyətin məzmununun, həm də problemin həll edilməsi vasitələrinin seçilməsində iştirakçıların azad olmasıdır. Məktəbəqədər yaşlı uşağın proyektiv fəaliyyəti, böyüyün bilavasitə iştirakı və köməyi ilə mərhələlərlə inkişaf edir (təqlidi-icraçı – inkişafetdirici – yaradıcı səviyyələr). Pedaqoqun vəzifəsi – özünü inkişaf etdirmək tələbatını, özünü cəmiyyətin üzvü hesab etməyə imkan verən şəxsi keyfiyyətləri formalaşdırmaqdır. Beləliklə, uşağın əqli inkişafı, dərketmənin üsul və vasitələrinin mənimsənilməsini, məktəbəqədər yaşlı uşağın təfəkkürünün bütün formalarının fəallaşdırılmasını tələb edir. Bütün məşğələlərdə pedaqoqlar öyrənmə fəaliyyətinin ilkin şərtlərinin formalaşmasına kömək edirlər. Onun, məktəbəqədər yaşda aparıcı fəaliyyət olmadığını bilmək zəruridir, məqsəd məktəb təlimi məsələlərinə hazırlıqdır. Bu fəaliyyət yaşdan-yaşa dinamik şəkildə və məzmunca dəyişir. Lakin yeni nəsil proqramlarında əsas diqqət tədris-idrak fəaliyyətinin əsas məzmunu olan əqli bacarıqların inkişaf etdirilməsinə ayrılır. Müasir elmi ədəbiyyatda tədris fəaliyyətinin üç komponentinin adı çəkilir: tədris məsələsinin qəbul olunması və başa düşülməsi; verilən didaktik istiqamətdə fəaliyyət göstərmək bacarığı; özünənəzarət və özünüyoxlama.

Uşaqlarda qulaq asmaq və eşitmək, baxmaq və görmək, göstərişlərə əməl etmək bacarığını inkişaf etdirmək, təlimdə əqli vəzifələri qarşıya qoymaq və qəbul etmək bacarıqlarının formalaşdırılması üçün pedaqoq, pedaqoji prosesdə müxtəlif priyomlardan istifadə edə bilər. Həmçinin, pedaqoqun diqqəti uşaqlara öz işini planlaşdırmaq, məsələnin həlli üçün zəruri olan yol və vasitələri seçmək, fəaliyyətin gedişatına nəzarət etmək və onun nəticələrini düzgün qiymətləndirməyin öyrədilməsinə də yönəlir.

Tədris fəaliyyətini ilkin formalaşdırmağın pedaqoji şərtləri aşağıdakılardır:

- Motivasiyanın müxtəlif növlərinin (oyun, təcrübi, əqli, təhsil, şəxsi, müqayisəli və b.) tətbiqi;
- Davranışın iradiliyinin inkişaf etdirilməsi üçün oyun məşğələlərdən istifadə;
- Uşaq fəaliyyətini qiymətləndirmə növlərinin genişləndirilməsi (pedaqoqun verdiyi qiymət, uşaqların verdiyi qiymət, özünüqiymətləndirmə, qiymətləndirmənin oyun forması, qarşılıqlı qiymətləndirmə və s.);
- Təlimin müxtəlif metodlarının daxil edilməsi (problemli suallar, modelləşdirmə, təcrübə və s.);

- Əqli inkişaf və təlimin müxtəlif vasitələrindən istifadə (uşağın aktiv fəaliyyəti, inkişafetdirici oyunlar, quraşdırma, təsviri, teatrlaşdırılmış fəaliyyət, təcrübi fəaliyyət, kompüter və s.);
- Pedaqoqun inkişafetdirici fəaliyyəti.

Biliklərin qarşılıqlı əlaqəsinə iki bir-birinə zidd tendensiya nöqteyi-nəzərindən baxmaq olar:

1. Uşağın dünya haqqında dəqiq, aydın biliklərinin genişlənməsi və dərinləşməsi baş verir. Bu sabit biliklər məktəbəqədər yaşlı uşağın idrak sahəsinin özəyini təşkil edir.
2. Əqli fəaliyyət prosesində, tam aydın olmayan, fərziyyə, sual, ehtimal şəklində olan biliklərin yaranması və həcminin artması baş verir. Bu inkişaf edən biliklər uşaqların əqli fəallığının katalizatorudur. Qarşılıqlı təsirin gedişatında biliklərin qeyri-müəyyənliyi azalır, onlar dəqiqləşir, aydınlaşır, müəyyən biliklərə çevrilir. Pedaqoqun vəzifəsi aydın biliklərin formalaşması üçün şərait yaradarkən, aydın olmayanların fasiləsiz inkişafına kömək etməkdən ibarətdir. Təcrübə və modelləşdirmə biliklərin dinamikliyini, uşaq təcrübəsinin artmasını təmin edir.

**Modelləşdirmə** D.B.Elkonin, L.A.Venger, N.A.Vetlugina, N.N.Poddyakov tərəfindən işlənib hazırlanmış, əyani-təcrübi təlim metodudur. Onun mahiyyəti uşağın təfəkkürünün, obyekt və ya hadisənin gizli keyfiyyətləri və əlaqələrini əyani formada təsvir edən xüsusi sxemlərin, modellərin köməyi ilə inkişaf etdirilməsindən ibarətdir. Nəticədə, biliklər ümumiləşdirilmiş xarakter daşıyır, uşaqlar hadisələrin səbəb-nəticə əlaqələrini, qurulma məntiqini, həm təbiət aləmində, həm də sosial aləmdəki qanunauyğunluqlarını asanlıqla müəyyənləşdirir.

**Eksperiment aparmaq** məqsədin yaranması, axtarış fəaliyyətinin, şəxsiyyətin yeni motivlərinin əmələ gəlməsi və inkişafı proseslərinin daha parlaq şəkildə ifadə olunduğu xüsusi formadır. Bunların hamısı, məktəbəqədər yaşlı uşaqların özünühərəkət, özünüinkişaf etdirməsi üçün şərait yaradır.

Bir sıra eksperimentləri (idraki, səmərəli, sosial )ayırırlar. Uşaqlarda, uşaq yaradıcılığının öz məhsulu alınır: yeni oyun, rəsm, nağıl; yeni məlumatlar, biliklər, sosial davranış təcrübəsi.

Təcrübi fəaliyyət psixikanı işlətməyin ümumi üsuludur. Belə ki, burada fərqlənmə və birləşmə (inteqrasiya) psixi prosesləri, inteqrasiya prosesinin ümumi dominantlığı ilə, bir-biri ilə ayrılmaz şəkildə qarşılıqlı təsirə girir.

N.N.Poddyakov pedaqoqun müəyyən prinsip və mövqeyönümü üzərində qurulan uşaqların əqli cəhətdən inkişaf etdirilməsi və təliminin universal proqramını işləyib hazırlamışdır:

1. İnkişaf və özünüinkişaf proseslərinin optimal əlaqəsi prinsipi.

Bu prinsipin həyata keçirilməsi inkişaf prosesləri, böyüyün determinist hərəkətləri ilə uşağın şəxsi fəallığından irəli gələn özünü inkişafetdirmə arasındakı ahəngdar münasibətləri qurmağa imkan verir. Böyük tərəfindən təşkil olunmuş, uşağın inkişaf etdirilməsi prosesi elə qurulmalıdır ki, o eyni zamanda, özünü inkişaf etdirmənin gedişatını

da stimullaşdırsın, bu isə tərbiyə işinin məzmun və metodlarının xüsusi təşkilini tələb edir.

2. İnkişafetdirici mühitin, məktəbəqədər yaşlı uşaqların özünü inkişafetdirmə və inkişaf xüsusiyyətlərinə uyğunluq prinsipi.

Böyük, məktəbəqədər yaşlı uşaqların hər növ təcrübələrinin təşəkkülü üçün əlverişli şərait yaratmalıdır. Bu prosesdə, inkişafetdirici mühitin yaradılması böyük əhəmiyyət kəsb edir.

3. Təlim-tərbiyə işinin məzmununun uşağın inkişafı və özünüinkişafının əsası olaraq, ziddiyətlilik prinsipi.

Tədqiqatlar göstərir ki, bu və ya digər obyekti müxtəlif, bəzən bir-birinə zidd tərəflərdən əks etdirən biliklər sisteminin uşaqlar tərəfindən mənimsənilməsi, təfəkkürün dinamikliyini, yeni biliklər və əqli fəaliyyət üsullarını almaq imkanını təmin edir.

4. “İnkişaf edən intriqa” prinsipi.

Əgər biz təlim prosesində uşaqların fəallığının zəifləməsini istəmiriksə, onu elə qurmalıyıq ki, məşğələ zamanı əldə edilmiş yeni biliklərdən yaranan məmnunluq hissi, növbəti məşğələdə nə olacağını bilmək marağı və istəyi ilə uyğunlaşsın.

5. Təlim və tərbiyənin bütün mərhələlərində yaradıcılığın formalaşdırılması.

Uşaqlar üçün onların yeni mənimsənilmiş materialla geniş şəkildə təcrübə aparmaq imkanına malik olacaqları şərait yaradılmalıdır. Vacibi odur ki, uşaq tədris materialı ilə eksperimentləri, təlimdən əvvəl və ya onun başlanğıcında aparsın.

Beləliklə, tədris-idrak fəaliyyəti öz quruluş və xüsusiyyətlərinə malikdir, şəxsiyyətin pozitiv keyfiyyətlərinin (aktivlik, müstəqillik, cavabdehlik) tərbiyə olunması vasitəsidir. Psixoloji-pedaqoji şərtlər fəaliyyətin özünün formalaşması və uşağın şəxsiyyəti arasında qarşılıqlı əlaqənin qurulmasına yönəlmişdir.

Tədris-idrak fəaliyyətindən istifadənin səmərəliliyi, onun metodoloji əsasları, onun həyata keçirilməsi üzrə müasir elmi proqramla müəyyənləşir.

**Yaş qrupları üzrə məşğələ nümunələri**

Körpələr qrupunda təşkil edilən məşğələlərin spesifik xüsusiyyətləri vardır. Onlar bir qayda olaraq, oyun formasında aparılmalı və bu zaman uşağın məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşdırılma dərəcəsi nəzərə alınmalıdır. Məşğələlər mürəkkəb olmamalıdır. Hazırlanmış material, uşaqların yaş və fərdi xüsusiyyətləri, hazırlıq səviyyələri nəzərə alınaraq və 2–3 hissəyə bölünərək ayrı-ayrı günlərdə keçirilə bilər.

**I məşğələ**

1–2 yaş qrupu

Ətraf aləmlə tanışlıq və nitq inkişafı

Standart 2.2.5. Danışığında 1–2 sözdən ibarət sadə cümlələr qurur.

Standart 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır;

Standart 2.2.3. Böyüklərin təklifi ilə “Salam” və “Sağ ol” ifadələrindən istifadə edir.

Mövzu: “Şaxta babanın hədiyyəsi”.

Məqsəd:
- Sadə cümlələr qurur.
- "Salam" və "Sağ ol" ifadələrindən istifadə edir.
- Tanış obyektləri adlandırır.

İnteqrasiya:
- Standart 2.3.2. Ölçü anlayışını başa düşdüyünü ("Böyükdür və kiçikdir") nümayiş etdirir;
- Standart 2.3.3. İki oxşar əşyanı seçir.

İş formaları: kollektiv və fərdi.
İş üsulları: əqli hücum, sual-cavab.
Resurslar: böyük və yumşaq dovşan oyuncağı, zənbil, oyuncaqlar.

***Məşğələnin gedişi***

Uşaqlar stullarda dairəvi otururlar. Bu zaman əlində böyük zənbil tutmuş "dovşan" qrup otağına daxil olur.

Dovşan: – Salam uşaqlar! (Uşaqlar salamlaşırlar) Mən sizin yanınıza gəlməyə tələsirdim, çünki sizə hədiyyələr gətirmişəm. Bilirsiniz, onları sizə kim göndərib? Onları Şaxta baba göndərib.

Tərbiyəçi-müəllim: – Dovşan, çox sağ ol! Şaxta baba da çox sağ olsun. Uşaqlar, baxaq görək, bizim qrup otağında Şaxta babanın şəkli var? (Uşaqlar qrup otağında axtararaq, Şaxta babanın şəklini tapır və göstərirlər)

Tərbiyəçi-müəllim: – Düzdür, uşaqlar. Baxın, bizim yazı taxtasındakı tabloda da Şaxta babanın şəkli var. (Uşaqlar tərbiyəçinin təklifi ilə yazı taxtasına yaxınlaşıb, təsvirin adını söyləyirlər) – Görək Şaxta baba bizə nə göndərib? (Uşaqlar zənbilin qoyulduğu stola yaxınlaşırlar) – Şaxta baba sizin üçün nə gözəl oyuncaqlar göndərib!

Dovşan: – Uşaqlar, mən əvvəlcə sizinlə "Böyük və kiçik" oyununu oynayacağam, sonra bu oyuncaqları sizə bağışlayacağam. Baxın, bu ayı böyükdür (zənbildən götürür). Əhməd, sən mənə balaca ayını tap. Bu isə balaca topdur. Əli, sən isə böyük topu tap. (Uşaqlar oyuncaqları tapırlar) Afərin, uşaqlar!

Tərbiyəçi-müəllim: – Uşaqlar, siz oyuncaqları düzgün tapdınız. İndi isə baxaq, görək zənbildə daha nə var? (şirə içmək üçün borucuq). – Uşaqlar, gəlin küləyin kağızı necə əsdirdiyini dovşana göstərək.

Tənəffüs gimnastikası "Vərəqi üfür!". (Tərbiyəçi qabaqcadan kiçik hissələrə ayrılmış kağız parçaları ilə təcrübəni təşkil edir)

Dovşan: – Afərin, uşaqlar! Mən bilmirdim ki, külək kağızı uçurub aparır. Sizinlə oynamaq mənim çox xoşuma gəldi. Ona görə də mən hədiyyələri sizə verəcəyəm (oyuncaqları paylayır). Sağ olun! (uşaqlar "dovşan"la vidalaşırlar) Mən yenə də gələcəyəm!

**II məşğələ**

2–3 yaş qrupu
Sensor tərbiyə
Standartlar: 2.3.1. "Bir" və "çox"anlayışlarını əşyalar üzərində fərqləndirir.

Mövzu: "Bir" və "çox" anlayışları

Məqsəd:

- "Bir" və "çox" anlayışlarını, əşyaların sayına əsasən düzgün ifadə edir.
- Əşyaları müəyyən əlamətlərinə görə fərqləndirir.

İnteqrasiya: İd. 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır;
2.2.6. Nitqində "Böyük" və "Çox" sözlərindən istifadə edir;
İş forması: Kollektiv və fərdi iş.
İş üsulları: Sual-cavab, əqli hücum, müzakirə və söz assosiasiyası.
Resurslar: Ana və bala ördək oyuncaqları, içərisində su olan tas, böyük, kiçik ölçülü toplar, topları yığmaq üçün səbət, torbalar və müxtəlif şəkillər.

***Məşğələnin gedişi***

Qeyd: Əvvəlcədən üç torba hazırlanır. Birinə ana ördək, digərinə isə bala ördəklər yerləşdirilir və qrup otağının müxtəlif yerlərinə qoyulur. Boş torba isə tərbiyəçi-müəllimdə olur.

Tərbiyəçi-müəllim: – Uşaqlar, baxın, mənim əlimdə torba var. Torba neçə dənədir? (uşaqların cavabları). Baxaq, görək, otaqda bu torbadan yenə varmı? (Uşaqlarla birlikdə qrup otağında müxtəlif istiqamətlərdə gedərək torbaları axtarıb tapır və masanın üzərinə qoyurlar) Baxın, uşaqlar, bir torbanı mən gətirdim, qalanlarını isə birlikdə tapdıq. İndi bizim çoxlu torbamız var. Gəlin yoxlayaq görək, bu torbalarda nə var?

Uşaqlar əlləri ilə torbaları yoxlayaraq içindəki əşyalara dair düşündüklərini söyləyirlər.

Tərbiyəçi-müəllim: – Bizim boş torbamız hansıdır? (uşaqların cavabları). Düzdür, baxın, içində heç nə yoxdur.

Tərbiyəçi-müəllim: – Bəs bu torbada nə var? (uşaqların cavabları).

Tərbiyəçi-müəllim torbadan ana ördəyi çıxarıb masanın üzərinə qoyur.

- Uşaqlar, bu nədir? (uşaqların cavabları). İndi isə bu biri torbaya baxaq və görək burada nə var? (uşaqların cavabları).

Tərbiyəçi-müəllim torbada olan bala ördək oyuncaqlarını çıxarır və ana ördəyin yanına düzür :

- Uşaqlar, baxaq görək, ana ördək böyükdür, yoxsa bala ördəklər? (uşaqların cavabları)
- Hansı ördəklər çoxdur? (uşaqların cavabları). Gəlin, bala ördəkləri "Göl"ə buraxaq. (Uşaqlarla birlikdə bala ördəkləri qabaqcadan hazırlanmış və içərisində su olan tasa buraxır.)
- Uşaqlar, neçə ördəyimiz qaldı? (uşaqların cavabları). Gəlin, ana ördəyi də bala ördəklərin yanına qoyaq. Ana ördək bala ördəklərə üzməyi öyrətsin.

**Oyun**

Torbadakı bir böyük və çoxlu kiçik toplar yerə boşaldılır. Bütün topların yerləşəcəyi boş səbət qoyulur. Tərbiyəçi-müəllim uşaqlara müraciət edir:

- Səbətın içində nə var? (uşaqların cavabları).

Tərbiyəçi-müəllim uşaqlara kiçik topları boş səbətə yığmağı təklif edir. Yığdıqdan sonra onlara aşağıdakı suallarla müraciət edir:

- Boş səbətə nə yığdıq?
- Yerdə nə qaldı?
- Kiçik topumuz çoxdur, yoxsa böyük topumuz?

Tərbiyəçi-müəllim məşğələni ümumiləşdirib yekunlaşdırır.

**III məşğələ**

3–4 yaş qrupu
Məntiqi və riyazi təfəkkürün inkişafı
Standartlar:

- Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- Həndəsi fiqurları (dairə, kvadrat və üçbucaq) adlandırır.

Mövzu: Fermaya səyahət
Məqsədlər:

- 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.
- Dairə, kvadrat və üçbucağı adlandırır və şəklini çəkir.

İnteqrasiya:
3.1.2. Təsvirlərində uyğun rənglərdən istifadə edir.
2.1.4. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq və s.) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir.
İş formaları: Kollektiv və fərdi.
İş üsulları: Əqli hücum, sual-cavab və müzakirə.
Resurslar: “Ev heyvanları” oyuncaq komplekti, göbələk oyuncaqları, dairə, üçbucaq, kağız və rəngli karandaşlar.

***Məşğələnin gedişi***

Motivasiya
Tərbiyəçi-müəllim: – Uşaqlar, biz bu gün sizinlə gəzməyə gedəcəyik. Bilirsiniz, hara gedəcəyik? Amma əvvəlcə siz mənə deyin, görüm, ev heyvanları harada yaşayır? Hansı ev heyvanlarını tanıyırsınız? (uşaqların cavabları). Bilirsiniz, ev heyvanları evdən başqa, fermada da yaşayırlar. Bu gün biz sizinlə fermaya gedəcəyik. Gəlin, gedək. (“Fermaya gedirlər” və qrup otağının sağ və sol tərəflərinə böyük və kiçik ölçülü göbələklər düzülür).

Dərketmə.
Tərbiyəçi-müəllim:
Uşaqlar, baxın, yolun kənarında nə bitib? (Uşaqların cavabları: –Göbələk)

- Göbələklər nə qədərdir? (çoxdur).

- Bəs burada neçə göbələk var? (bir dənə).
- Göbələk nə boydadır? (böyük).
- Bəs göbələk nə rəngdədir? (uşaqların cavabları).
- Yolumuza davam edək. Qabağımıza çay çıxdı. Gəlin, çayın üzərindən tullanaq. Hamımız birlikdə tullanırıq (tullanırlar). Biz niyə tullandıq? (uşaqların cavabları) Gəlin yolumuza davam edək. Yenə qarşımıza göbələk çıxdı. Bu göbələklər necədir? (balaca)
- Bəs neçə dənədir? (bir dənə)
- Bu göbələk nə boydadır? (kiçik)
- Hə biz gəlib fermaya çatdıq. Baxın yaşıl otlaqda heyvanlar otlayır. Hansı heyvanları görürsünüz? Gəlin onları adlandıraq. (inək, qoyun, at, keçi və s.)
- Nə qədər heyvan var? (çox)
- Baxın, bu, hansı heyvandır? (at) At neçə dənədir? (bir dənə)
- Bəs inək neçə dənədir? Gəlin sayaq. (iki) Uşaqlar, inək necə səs çıxarır? (mooooo). İnək insanlara nə verir? (süd)
- Görək qoyun neçə dənədir? Sayaq. (üç)
- Qoyun necə mələyir? (məəəə)
- Bəs keçi nə qədərdir? (çox)
- Afərin, uşaqlar! Biz öyrəndik ki, fermada hansı heyvanlar yaşayır. Görürsünüz, fermada nə qədər heyvan yaşayır?! Axşam olanda heyvanlar yatırlar. Gəlin onları evlərinə yerləşdirək. (oyuncaqları yığışdırırlar)

Tərbiyəçi-müəllim:

- Uşaqlar, baxın məndə nə var?! (dairə, kvadrat və üçbucaq).
- Bu nədir? (dairə)
- Nə rəngdədir? (qırmızı). Gəlin buraya qoyunları yerləşdirək (yerləşdirirlər).
- Bəs bu nədir? (üçbucaq)
- Nə rəngdədir? (göy)
- Bura isə at ilə inəkləri yerləşdirək.
- Bu nədir? (kvadrat)
- Nə rəngdədir? (yaşıl)
- Bura isə keçiləri yerləşdirək.

İdman dəqiqəsi
Meşədə gül dərmək üçün, (əllər beldə)
Gəl aşağı əyilək. (aşağı əyilirlər)
Bir çiçək, (sağ əli sol ayağa çatdırmaq)
İki çiçək, (sol əli sağ ayağa çatdırmaq)
Alınır güldən çələng. (əlləri alnımızda dairəvi hərəkət etdiririk)

Tətbiqetmə

Tərbiyəçi-müəllim:

- Uşaqlar, bizi çağıran kimdir? Eşidirsiniz? (Stola yaxın gəlib, qulağını ata yaxınlaşdırır).
- Aha! At mənim qulağıma nə isə deyir. O istəyir ki, siz onun üçün ev şəkli çəkəsiniz. Yoxsa üçbucağın içərisində inəklərlə birlikdə onun yeri darısqaldır. Çəkəkmi? (bəli).
- Stollarınızın üzərində hər biriniz üçün ağ vərəq var. Baxaq görək orada nə şəkli çəkilib? (üçbucaq). Rəngli karandaşı götürürük, xəttin üzərindən gedib içərisini rəngləyirik. Afərin!
- Sonda tərbiyəçi-müəllim ümumiləşdirmə apararaq deyir:
- Biz bu gün sizinlə hara getdik və kimləri gördük? (fermaya getdik və ev heyvanlarını gördük).

Uşaqlar rəğbətləndirilir və məşğələ yekunlaşdırılır.

**IV məşğələ**

4–5 yaş qrupu

Bədii təfəkkürün inkişafı

Standartlar:

- Dinləyib-anladığı fikirləri şərh edir;
- Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.

Mövzu: «Qurd və dovşan» (Azərbaycan xalq nağılı).

Məqsədlər:

Dinlədiyi fikirlərə münasibət bildirir.

Fikrini sadə şəkildə şərh edir.

Fikrini rabitəli ifadə edir.

İnteqrasiya:

1.1.4. Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraşdırır, düzür və s.) koordinasiya edir.

2.1.5. Obyektlər haqqında məlumat toplayır, müxtəlif vasitələrlə (müzakirə edir, şəkillər çəkir, müxtəlif simvollar düzəldir və s.) şərh edir.

İş formaları: kollektiv, fərdi.

İş üsulları: nəqletmə, müzakirə, suallar.

Resurslar: nağıla aid atributlar, uşaqlar üçün vəsait, rəngli karandaşlar və ağ kağız.

***Məşğələnin gedişi***

Motivasiya

Tərbiyəçi-müəllim uşaqların diqqətini müxtəlif nağıl personajlarının təsvir olunduğu tabloya (imkan varsa, proyektorla göstərmək) cəlb edir:

- Uşaqlar, gördükləriniz haqqında nə deyə bilərsiniz?

Uşaqların fərziyyələri dinlənilir.

Tərbiyəçi-müəllim: – Uşaqlar, bu gün biz daha bir nağılla tanış olacağıq.

Dərketmə

Müəllim nağılı danışmağa başlayır:

- Biri var idi, biri yox idi. Bir dovşan var idi. Bir gün dovşan yuvasında balalarından birini görmədi. Balaca dovşanın yerini soruşanda balalardan biri dedi:
- O, bizim sözümüzə baxmayıb, yuvadan çıxdı. Qurd da onu ağzına alıb apardı.

Ana dovşan bütün gecəni yatmadı. Səhər tezdən meşəyə gedib gördü ki, bir ovçu dərədə çala qazıb və orada tələ qurub. Dovşan tələni görən kimi sevindi. Qurdu axtarmağa getdi. Xeyli gəzəndən sonra qurda rast gəldi:

- Hi-hi-hi… Ay qurd lələ, dalımca gəl.

Qurd təəccüblə soruşdu:

- Nə var, ay dovşan qardaş?
- Sənin üçün bir yaxşı yem tapmışam. Hi-hi-hi… Aşağıda, dərədə bir kök quzu otlayır. Yanında da heç kəs yoxdur. Hə, tələs, yoxsa çoban gəlib aparar, ac qalarsan.

Tərbiyəçi-müəllim: – Uşaqlar, sizcə, dovşan niyə belə dedi?

Quzu adını eşidəndə qurdun ağzı sulandı, ancaq dovşanın sözünə inanmadı.

- Yox, ay dovşan qardaş, mən sənin sözünə inanmıram. Axı bunun sənə nə xeyri var ki, qaçıb mənə xəbər verirsən?

Dovşan özünü itirməyib, cavab verdi:

- Hi-hi-hi, sən quzunu yeyəndən sonra dərisini atırsan. Mən də dərini aparıb, balalarımın altına sərərəm. Onlar da yumşaq yerdə yatarlar.
- Yaxşı, tez ol, gedək quzunu mənə göstər.

Dovşan qurdu tələnin yanına gətirib, yavaşca dedi:

- Qurd qardaş, bax, quzu o ağacın yanındakı çəməndədir. Asta ol. Yoxsa quzu səni görüb qaçar.

Qurd qulaqlarını şəklədi, gözlərini bərəltdi, dişlərini qıcırtdı. Yerə yatıb çəmənliyə sarı baxdı. Sonra yerindən qalxıb pəncəsini irəli atanda tələyə düşdü.

Ana dovşan tələdə çapalayan qurda dedi:

- Ay yaramaz, balamı yeyib, məni gözü yaşlı qoydun. İndi qoy sənin dərin ovçunun arvadı üçün xəz olsun.

İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər yerinə yetirilir. Suallar əsasında söhbət aparılır:

- Nağıl xoşunuza gəldimi?
- Dovşanın balasının başına hansı hadisə gəlmişdi?
- Dovşan qurdu niyə tələyə salmaq istədi?
- Sizcə, dovşan düzmü hərəkət etdi?

Tətbiqetmə

Nağıl uşaqlar tərəfindən hissə-hissə nəql edilir. Müəllim uşaqlara nağılın motivləri əsasında şəkil çəkməyi təklif edir. Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**V məşğələ**

5–6 yaş qrupu

Savad təliminə hazırlıq və nitq inkişafı

Standartlar: 2.2.4. Hərf və səsləri fərqləndirir; kəsmə əlifba vasitəsi ilə sözlər düzür;

2. 2.5. Hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur.

Mövzu: [T] səsi və T t hərfi. "Traktor" mövzusunda müsahibə.

Məqsədlər:

- Traktor haqqında danışır;
- [T] səsini və hərfini fərqləndirir;
- Tərkibində [T] səsi olan sözlər söyləyir;
- Sözlərdən cümlələr qurur.

İnteqrasiya

Standartlar: 2.3.1. Əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;

Obyektlər haqqında məlumat toplayır, müxtəlif vasitələrlə (müzakirə edir, şəkillər çəkir, müxtəlif simvollar düzəldir və s.) şərh edir.

İş formaları: kollektiv, fərdi, qruplarla iş.

İş üsulları: əqli hücum, sual-cavab, müzakirə, süjetli-rollu oyunlar.

Resurslar: təhlil üçün sxemlər, traktor, televizor, top, telefon, at, ot şəkilləri, rəngli say çöpləri, tabaşir, dəftər, kəsmə əlifba, flaneloqraf.

***Məşğələnin gedişi***

Motivasiya

Tərbiyəçi-müəllim torpağı şumlayan traktor tablosu əsasında motivasiya yaradır. Uşaqların fikirləri dinlənilir.

Dərketmə

1. [T] səsi və T (t) hərfi ilə tanışlıq.

Fonematik gimnastika:

Qatar hərəkət edərkən necə səs çıxarır? (tak-tak-tak). Sözün əvvəlində hansı səsi eşidirsiniz? ([T] səsini)

2. Sözdə səsin yerinin müəyyən edilməsi.

Traktor sözündə [T] səsinin fərqləndirilməsi.

Sözü tələffüz edin: birinci hansı səsi eşidirsiniz? ([T] səsini)

3. Artikulyasiya.

- Səsi bir daha tələffüz edək və bu zaman dodaqlarımızın vəziyyətinə diqqət yetirək.

[T] səsinin olduğu sözləri və sözdə səsin yerini müəyyən etmək üçün avtobus, traktor,

at, top, vedrə, ağac, dovşan şəkillərindən istifadə etmək. (avtobus, traktor, at, top, vedrə, ağac, dovşan şəkilləri)

4. Tərkibində [T] səsi olan sözlərin uşaqlar tərəfindən söylənilməsi.

5. T (t) hərfinin çap formasının yazılışı üzərində iş.

T hərfinin say çöplərindən qurulması və çap formasının yazılışı.

İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər yerinə yetirilir.

Tətbiqetmə

Tərkibində [T] səsi olan sözlər söyləmək və sözdə səsin yerini müəyyənləşdirmək. ATA və AT sözlərini say çöpləri ilə və qələmlə yazmaq

Məşğələ uşaqların iştirakı ilə ümumiləşdirilir və yekunlaşdırılır.

## Tələbələr üçün fəaliyyətlər

1. Tədris fəaliyyəti ilə idrak fəaliyyətini fərqli və ümumi cəhətlərini "Venn dioqramı" vasitəsi ilə gostərin.

2. Tədris-idrak fəaliyyətinin təşkili zamanı inkişaf, təlim və tərbiyənin pedaqoji şərtlərini cədvəldə göstərin.

| İnkişaf | Təlim | Tərbiyə |
|---|---|---|
| | | |

3. Tədris-idrak fəaliyyətinin, psixoloji mexanizmlərin işləndiyi müasir məşğələ nümunəsi hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"İdraki modeldən istifadə edərək intellektual-emosional məşğələ modellərini qurur".

1. Tədris-idrak fəaliyyətinin psixoloji əsasları hansılardır? Sadala və hər biri üçün nümunə yaz.
2. Tədris-idrak fəaliyyətinin, psixoloji mexanizmlə olan məşğələlərin müasir prinsipləri arasında əlaqəni müəyyən et və nümunə göstər.
3. N.N.Poddyakov, pedaqoqun müəyyən prinsip və mövqeyönümü üzərində qurulan uşaqların əqli cəhətdən inkişaf etdirilməsi və təliminin universal proqramını işləyib hazırlamışdır və 5 prinsip müəyyən etmişdir. Düzgün prinsipləri seç:
   a. İnkişaf və özünüinkişaf proseslərinin optimal əlaqəsi prinsipi
   b. İnkişafetdirici mühitin, məktəbəqədər yaşlı uşaqların özünü inkişafetdirmə və inkişaf xüsusiyyətlərinə uyğunluq prinsipi.
   c. Təlim-tərbiyə işinin məzmunu uşağın inkişafı və özünüinkişafın əsası olaraq ziddiyətlilik prinsipi.
   d. "İnkişaf edən intriqa" prinsipi.
   e. Təlim və tərbiyənin bütün mərhələlərində yaradıcılığın formalaşdırılması.
   f. Məşğələ zamanı əldə edilmiş yeni biliklərdən yaranan məmnunluq.

A) a, c, d, e, f;
B) a, b, c, d, e;( düz)
C) b, c, d, e, f;

## 2.5. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərini müəyyən edir

### Məktəbəqədər dövrdə dərketmə və emosional dəyər istiqamətlərinin yaş prinsipləri

Ətraf aləm anlayışının dairəsi çox geniş olmaqla, uşağın daim təmasda olduğu xarici mühit, təbiət və cəmiyyəti əhatə edir. Belə ki təbiətə nisbətən cəmiyyət çətinliklə dərk edilsə də, uşaq cəmiyyətdə baş verən hadisələr və həyat hadisələrindən kənarda qalmır. Cəmiyyətə münasibət, şəxsiyyətin sosial, idraki fəallığı, ictimai həyatda marağı, ətraf aləmdə baş verən hadisələr haqqında biliklər qazanması, həmin bilikləri fəaliyyətdə realizə edə bilməsi və ictimai hadisələrin dərk edilməsi prosesinə yaradıcı yanaşmasında özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqların ictimai həyat hadisələri ilə tanışlığının vacibliyi onunla şərtlənir ki, həmin məlumatlar uşaqların ictimai həyata daxil olmaları və əxlaq normalarını mənimsəmələrinə imkan verir və fəallıq və müstəqilliyi formalaşdırır.

Biliyin mövcudluğunu isə doğma şəhər və vətən haqqında saf hislər və zəruri məlumatların mənimsənilməsi prosesi təmin edir. Müstəqil bilik qazanmağa çalışmaq, ictimai həyat hadisələrinin mahiyyətini dərk etmək, öz şəxsində müsbət nümunələr göstərmək və gücü çatan işləri yerinə yetirmək – bütün bunlar öz növbəsində uşaqların maraqlarının yüksək inkişaf səviyyəsi və şəxsiyyətin fəal həyat mövqeyinin formalaşmasını təmin edir.

Bütün məktəbəqədər yaşlı uşaqların təhsillə əhatə olunması, onların hərtərəfli inkişafı, uşaqların idrak fəallığı, inteqrativ və interaktiv təlimi, tərbiyəçi-müəllimin səriştəliliyi və təhsilin demokratik prinsiplərlə idarə edilməsinin qanunauyğunluqları məktəbəqədər təhsilin fəlsəfəsini müəyyən edir:

- Məktəbəqədər təhsil sistemində göstərilən təhsil xidmətlərinin hər bir vətəndaş üçün əlçatan olması;
- Uşağın inkişafında şəxsiyyətyönümlü yanaşmanın tətbiqi;
- Təlim-tərbiyə, sağlamlıq və uşaqlara qulluq işində vahidlik prinsipi;
- Məktəbəqədər və ibtidai təhsil arasında varislik prinsipi;
- Pedaqoji prosesin humanistləşdirilməsi və demokratikləşdirilməsi;
- Müxtəlif fəaliyyət növlərində uşaq təşəbbüsünün müdafiə edilməsi;
- Hər bir uşağın hərtərəfli inkişafında tələbat və maraqları və qabiliyyət və istedadının reallaşdırması üçün bərabər şəraitin yaradılması;
- Uşaqların idraki maraq və fəaliyyətinin formalaşdırılması;
- Nəticəyönümlülük;
- Təlimin diferensiallaşdırılması və fərdiləşdirilməsi;
- İnteqrativlik;
- Tələbyönümlülük;
- Təhsildə müasirlik, millilik, azərbaycançılıq və dünyəvilik;
- Uşaqların məktəb təliminə hazırlanmasının zəruriliyi;

- Təhsilin keyfiyyətliliyi (təhsilin mövcud standartlar, normalar, sosial-iqtisadi tələblər və şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarına uyğunluğu).

1–3 yaşı əhatə edən erkən yaş dövrü daha özünəməxsusdur. Erkən yaş dövründə təlim uşaqlarının tez-tez suallar vermələri, tədqiqatlar aparmaları və onları əhatə edən aləmlə maraqlanmaları onu öyrənmələri ilə xarakterizə olunur. Bu zaman onlarda təlimə elə münasibətlər formalaşdırılır ki, bu münasibətlər ömürləri boyu onlarla birgə qalır.

Uşaqların hərtərəfli inkişafı və sağlamlıqlarının möhkəmləndirilməsi üçün aşağıda sadalanan strategiyalar çox böyük əhəmiyyət kəsb edir. Bunların nəzərə alınması hər bir uşağın fərdi ehtiyaclarının təmin edilməsi və fiziki inkişafına kömək göstərilməsi baxımından zəruridir:

- Böyüklərin nəzarəti və rəhbərliyi təmin edilməklə hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması;
- Uşaqların optimal inkişafını artıran qidaların qəbul edilməsinin təmin olunması;
- Uşaqların fiziki sağlamlığı, inkişafı və rifahı sahəsində tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət alınması;
- Uşaqların sağlamlığına xidmət edən gündəlik fəaliyyətlərin həyata keçirilməsi üçün imkanların yaradılması;
- Uşaqların fiziki fəaliyyətini məhdudlaşdırmayan və onu təmin etmək üçün müəssisənin həm daxili, həm də xaricində təhlükəsizliyin təmin edilməsi;
- Uşaqların tibbi xidmətlə təmin olunması.

Aşağıdakı strategiyalardan anadan olandan məktəbə daxil olana qədər bütün uşaqların müsbət sosial-emosional inkişafına yardım üçün istifadə edilməsi məqsədəuyğundur:

- Uşaqlara qarşı həssas olmaq;
- Təhlükəsiz və stimullaşdırıcı mühit yaradılmaqla inkişaf və təlimi inkişaf etdirmək;
- Uşaqlara öz emosiyalarını qəbul etmək, başa düşmək və idarə etməkdə kömək etmək;
- Mənfi emosiyalardan azad mühit yaratmaq;
- Özünüifadəyə şərait yaratmaq və onlara seçim hüququ vermək;
- Ünsiyyətin bacarıqlarını ardıcıl və müntəzəm inkişaf etdirmək;
- Uşaqların inkişaf xüsusiyyətləri və davranışı narahatlıq doğurursa, tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət almaq.

Təlim prosesi uşağın inkişafının mənbəyi kimi çıxış edərək onda elə funksiyalar formalaşdırır ki, bunlar olmadan, ümumiyyətlə, inkişafdan söhbət gedə bilməz. Təlim prosesində uşaq müxtəlif əməliyyatları yerinə yetirməyi öyrənir. Bu zaman o, mənimsəmənin müxtəlif prinsiplərinə yiyələnir. Bu müxtəlif tipli əməliyyatlarda hansı prinsip uşağa asan mənimsəmə imkanı verirsə, o, həmin prinsiplə də hərəkət edir.

L.S. Vıqotskinin formuluna görə, əqli inkişafın iki səviyyəsi vardır:

1. Aktual inkişaf zonası – özünün bir sıra tamamlanmış dövrləri ilə qeydə alınır;
2. Yaxın inkişaf zonası – hələ tamamlanmamış dövrlərlə cəmləşir.

I səviyyəni – aktual inkişaf zonasını uşaqların yaşına müvafiq olaraq nəzərdə tutulan tapşırıqlardan istifadə etməklə müəyyənləşdirilə bilər. Belə ki, uşaqlar bu tapşırığı tam müstəqil şəkildə yerinə yetirirlər. Ona görə də bu səviyyənin həmin yaşda uşağın böyüklər və yaşıdları ilə əməkdaşlığı şəraitində və onların köməyi ilə yerinə yetirdiyi tapşırıq təhlil edilməklə aydınlaşdırılması mümkündür. Bir müddət keçdikdən sonra uşaqlar aktual inkişaf zonası üçün nəzərdə tutulmuş bu tapşırıqları müstəqil olaraq yerinə yetirə bilirlər.

II səviyyə – yaxın inkişaf zonası elə səviyyədir ki, uşağa verilmiş tapşırıq onun tərəfindən yaşlı və daha ağıllı yaşıdlarla əməkdaşlıq şəraitində və onların köməyilə həll edilir. Bu səviyyə, aktual inkişaf zonasına ən yaxın olan mümkün inkişaf səviyyəsi, yəni əqli inkişafın mövcud vəziyyəti ilə aktual inkişaf səviyyəsi arasındakı məsafədir.

Göstərilənlər belə deməyə əsas verir ki, uşağın inkişafında "Sabah" (yəni gələcək) olacaq, ancaq həmin "Sabah" artıq "Bu gün" onun təlim-tərbiyə prosesində baş verənlərlə, xüsusilə, böyüklər və yaşıdlarla ünsiyyət və əməkdaşlığın səviyyəsi və vəziyyəti ilə daxilən bağlıdır.

5 yaşda uşağın dərketmə və emosional təlim fəaliyyəti aşağıdakı prinsiplərlə tənzimlənir.

1. Süjetin qurulması ilə yanaşı, oyun vasitələrinin seçilməsi və onlardan istifadə qaydaları uşağın yaş xüsusiyyətlərinin orta göstəricilərinə cavab verməli və uşaq oyun süjeti və nəticələrin reallığa uyğunlaşdırılması istiqamətində çalışdırılmalıdır. Bunun üçün onlara təlim tapşırıqları verilir və yeni obyektlər, hadisələrin mahiyyəti və istifadə qaydaları haqqında yeni bilik, bacarıq və vərdişlər aşılanır. Təlim fəaliyyətinin elementləri, yaxud bütövlükdə təlim prosesi bu yolla oyuna daxil edilir. Uşaq, öz növbəsində, bunları kor-təbii olaraq birdən-birə qəbul etmir. Yeni fəaliyyət və hərəkət vərdişləri də öz bitkin quruluşu ilə asanlıqla deyil, təkrarlar, özünüistiqamətləndirmə və özünütənzimləmə sayəsində yaradılır. Sonda təlim uşaq fəaliyyətinin əsas formasına çevrilir.

2. Nəticələrin səmərəli olmasının mühüm şərtlərindən biri də reallığın uşaqlara sistemli qaydada və fəaliyyət prosesində təqdim olunmasıdır. Belə yanaşmadan bir müddət sonra uşaqda yeni fəaliyyətə qarşı adekvat münasibət yaradılır. Uşaq təlim elementlərini müstəqil şəkildə bu və digər oyun və əmək fəaliyyəti prosesinə köçürür və yeri gəldikcə ondan istifadə edir. Belə kombinə edilmiş elementlər beşyaşlıların fəaliyyətini quruluş baxımından daha da möhkəmləndirir.

3. Böyüklər tərəfindən təklif edilən, yaxud tələb kimi qarşıya qoyulan fəaliyyət komponentləri ilə uşağın fəaliyyət elementləri eyni mənalı olmaya bilər və həmişə dəqiq və arzuolunan nəticələr vermir. Təlim tapşırıqlarının verilməsi o vaxt reallaşdırılmalıdır ki, uşaq yeni fəaliyyət elementlərini sınaqdan keçirməyə həm fiziki, həm iradi-emosional baxımdan hazır olsun. Ən ciddi yanaşmada da uşağa öz yaşıdlarının təcrübəsini müşahidə etdirmək və icra qaydasını əyani göstərmək lazımdır. Bu zaman uşaqda həvəs yaranır. Həvəsin təlim motivləri müstəvisinə keçirilməsi üçün uşağa onun fərdi iş üslubuna müvafiq tapşırıq verilməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərini cədvələ uyğun təsvir edin:

| | | | | | |
|---|---|---|---|---|---|
| Böyüklərin nəzarəti və rəhbərliyi təmin edilməklə hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması | Uşaqların optimal inkişafını artıran ərzaqların qəbul edilməsinin təmin olunması | Uşaqların fiziki sağlamlığı, inkişafı və rifahı sahəsində tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət alınması | Uşaqların sağlamlığına xidmət edən gündəlik fəaliyyətlərin yerinə yetirilməsi üçün imkanların yaradılması | Uşaqların fiziki fəaliyyətini məhdudlaşdırmayan və onu təmin etmək üçün həm müəssisənin daxili, həm də xaricində təhlükəsizliyinin təmin edilməsi | Uşaqların tibbi xidmətlərlə təmin olunması |

2. Ziqzaq təlim texnologiyasından istifadə edərək verilmiş mühazirə mətnini təhlil edin və fikirlərinizi paylaşın.
3. Kazusların oxunması. Aşağıda verilən kazusu/problemi araşdırın və müzakirə edin. Nəticələrin səmərəli olmasının mühüm şərtlərindən biri də reallığın uşaqlara sistemli qaydada və fəaliyyət prosesində təqdim olunmasıdır. Belə yanaşmadan bir müddət sonra uşaqda yeni fəaliyyət növünə qarşı adekvat münasibət yaradılır. Uşaq təlim elementlərini müstəqil şəkildə bu və ya digər oyun və əmək fəaliyyəti prosesinə köçürür və yeri gəldikcə ondan istifadə edir. Belə kombinə edilmiş elementlər beşyaşlıların fəaliyyətini quruluş baxımından daha da möhkəmləndirir. Göstəriş üçün qrupda oyuncaqların olması doğrudurmu? Niyə?
4. Məktəbəqədər təhsil müəssisələrində sosial və idrak proseslərinin inkişafı üçün təkliflər hazırlayın.
5. Aşağıdakı sualları müzakirə edin:
   - Dərketmə və emosional dəyər istiqamətləri hansılardır?
   - Dərketmə və emosional dəyər istiqamətlərinin psixoloji əsasları hansılardır?
   - Dərketmə və emosional dəyər istiqamətlərinin pedaqoji əsasları hansılardır?
   - Dərketmə və emosional dəyər istiqamətlərinin hansı prinsipləri var?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

“Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərini müəyyən edir”.

1. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsiplərə aid deyil:
    1. Uşağın inkişafında şəxsiyyətyönümlü yanaşmadan istifadə edilməsi;
    2. Təlim-tərbiyə, sağlamlıq və uşaqlara qulluq işində vahidlik;
    3. Məktəbəqədər və ibtidai təhsil arasında varislik;
    4. Təhlükəsiz və stimullaşdırıcı mühit yaratmaqla inkişaf və təlim prosesini inkişaf etdirmək;
    5. Məktəbəqədər təhsil müəssisələrində sosial və idrak proseslərinin inkişafı

A) 1, 2, 3, 4;
B) 2, 3, 4, 5;
C) 1, 3, 4, 5.

2. Dərketmə və emosional dəyər istiqamətlərinin prinsipləri haqqında esse yazın.

3. Təhsilləndirici mühitin yaradılmasına verilən tələblər haqqında təqdimat hazırlayın.

## 2.6. İdraki fəaliyyətə olan tələbat və motivasiyanın formalaşması üçün məşğələyə uyğun materiallar hazırlayır.

### İdraki fəalliyyətə olan tələbat və motivasiyanın formalaşdırılması

Uşağın idraki inkişafı mürəkkəb prosesdir. Onun öz istiqamətləri, qanunauyğunluqları və xüsusiyyətləri var. İdraki inkişafın məqsədi uşağın idraki maraqları, tələbat və bacarıqları və emosional-hissi təcrübə əsasında müstəqil axtarıcılıq fəaliyyətinin formalaşdırılmasıdır. Bununla yanaşı, sensor, nitq inkişafı, idraki qabiliyyətlər (müqayisə etmək, fərqləndirmək və ümumiləşdirməyi bacarmaq), ətraf aləm haqqında ilkin təsəvvürlər və anlayışlar, əşyavi fəaliyyət və dərketmə tələblərinin formalaşdırılmasının (informasiya almaqda tələb, təlim zamanı fəallıq və ətraf aləmin dərk edilməsində müstəqillik) bünövrəsinin bu dövrdə qoyulmasıdır.

Uşaqlar təmasda olduqları əşyaların adları və əlamətlərini və onlardan necə istifadə etmək lazım olduğunu düzgün ifadə etmək, bu istiqamətdə məntiqi mühakimələr yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq və əqli nəticəyə gəlmək kimi qabiliyyətlər nümayiş etdirirlər. Uşağın yerinə yetirdiyi idraki tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqları, intuisiyası və məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, təhlil-tərkib, təsnifetmə və sistemləşdirmə və ümumiləşdirmə kimi mühakimə qabiliyyətləri inkişaf edir. Beləliklə, tənqidi, məntiqi və yaradıcı təfəkkürün inkişafı təmin olunur.

Motivasiya insanı fəaliyyətə vadar edən, bu fəaliyyətdə məqsədə çatmağa yönəldilmiş daxili və xarici hərəkətverici qüvvələrin birləşdirilməsidir. Məktəbəqədər yaşlı uşaqlar üçün motivasiya problemi ilə məşğul olan bir çox müəlliflərin tədqiqatlarına əsaslanaraq motivasiyanın altı mexanizmini müəyyən etdik. Bunlar məqsədə çatılması üçün uşağın motivasiyasının artırılmağının yollarıdır. Bu altı mexanizm aşağıdakılardır:

- Uşağı ətraf mühitin tədqiqatlarına təşviq etmək;
- Uşağa ilkin tədqiqat bacarıqlarını aşılamaq, məsələn, obyektlərin müəyyənləşdirilməsi, müşahidə olunması, çeşidlənməsi, müqayisə edilməsi və s.;
- Uğurlarına görə uşağı tərifləmək;
- Bacarıqların inkişafı və tərbiyəsində kömək etmək;
- Səhvlər və mənfi nəticələr üçün cəza və tənqidlərdən mümkün qədər çəkinmək;
- Nitq və simvolik ünsiyyəti stimullaşdırmaq.

Bütün bu mexanizmlərin tətbiqi uşaqlara erkən yaşlardan uğur qazanmaq üçün motivasiya qazanmağa kömək edəcəkdir.

Təlim fəaliyyətinin təşkilində uşaq bağçasında məktəbəqədər yaşlı uşaqlar üçün motivasiya növlərini nəzərdən keçirək. Pedaqoji fəaliyyət bu yaşa xas olan uşaq fəaliyyətinin müxtəlif növləri vasitəsilə uşaqların inkişafına töhfə verməlidir: oyun, əmək, rəsm, təlim və məhsuldar fəaliyyət. Buna görə də uşaqların yalnız onlardan tələb olunan hər şeyi yerinə yetirmələri deyil, həm də müstəqil fəaliyyət göstərmələri lazımdır. Bu, yalnız uşaqlara mənimsətməyə çalışdığımız yeni bilik və bacarıqların onlar üçün maraqlı olacağı təqdirdə baş verəcəkdir. Eyni zamanda, uşaqların böyük əksəriyyətində zəruri

motivasiyanın meydana gəlməsini təmin edəcək tövsiyələr vermək lazımdır.

Pedaqoji ədəbiyyatda motivasiyanın dörd növü vardır:

**1. Birinci növ** oyun motivasiyası - "oyuncağa kömək et" adlanır. Uşaq oyuncaqların problemlərini həll edərək öyrənmə məqsədinə çatır. Bu motivasiyanın yaradılması sxemə görə qurulur: Oyuncağın yardıma ehtiyacı olduğu və ona yalnız uşaqların kömək edə biləcəyini söyləmək lazımdır. Uşaqlardan oyuncağa kömək etməyə razı olub-olmadıqları soruşulur. Uşaqlara oyuncağa kömək edilməsi üçün lazım olan şeylərin öyrənilməsi təklif edilir, sonra isə uşaqlar problemi izah etmək və göstərməklə maraqlanacaqlar. İş prosesində hər bir uşağın öz personajı olmalıdır (uşağın kömək edəcəyi kağız və ya kartondan kəsilmiş personaj). Bu oyuncaq vasitəsilə uşağın işi qiymətləndirilir və uşaq mütləq təriflənir. İşin sonunda uşaqların öz qəyyumları ilə oynamaları məsləhətdir. Bu motivasiya ilə uşaq köməkçi və müdafiəçi kimi çıxış edir.

**2. İkinci növ** böyüklərə kömək etmək motivasiyası - "mənə kömək et" adlanır. Burada uşaqlar üçün əsas məqsəd böyüklərlə ünsiyyət, kömək üçün təsdiq almaq imkanı, eləcə də onlarla birlikdə həyata keçiriləcək işlərə maraq göstərməkdir. Motivasiya yaradılması sxem üzrə qurulur: Uşaqlara bir şey hazırladığınız və sizə kömək lazım olduğunu bildirirsiniz. Onların sizə necə kömək edə biləcəklərinə maraq yaradırsınız. Hər bir uşağa onun yerinə yetirə biləcəyi tapşırıq verilir. Sonda vurğulamaq lazımdır ki, nəticə hamının birgə səyləri ilə əldə edilib və bu nəticəyə hamı birlikdə nail olub.

**3. Üçüncü növ -** "Mənə öyrət" motivasiyası - bu uşağın özünü bilikli və bacarıqlı hiss etmək istəyinə əsaslanır. Bu motivasiyanın yaradılması aşağıdakı sxemə uyğun olaraq həyata keçirilir. Uşaqlara müəyyən bir fəaliyyət göstərmək istədiyinizi söyləyir və onlardan bunu sizə öyrətmələrini xahiş edirsiniz. Sizə kömək etməyə razı olub-olmadıqlarını soruşursunuz. Hər uşağa sizə bir iş öyrətmək imkanı verilir. Oyunun sonunda hər bir uşağın fəaliyyətinə qiymət verin və onu mütləq tərifləyin. Motivasiyanın məzmunu belə ola bilər: Uşaqlar, bizim kukla Lalə gəzməyə gedirdi. Mən onu gəzinti üçün geyindirməliyəm, lakin bunu necə edəcəyimi bilmirəm. Mənə öyrədə bilərsinizmi?

**4. Dördüncü növ -** uşağın daxili maraqlarına əsaslanaraq, "öz əllərimizlə əşyalar yaratmaq"dır. Bu motivasiya uşaqları öz istifadələri və sevdikləri insanlar üçün əşyalar yaratmağa təşviq edir. Bu motivasiyanın yaradılması sxemə uyğun olaraq həyata keçirilir: Uşaqlara bir neçə əl işi göstərir və onların üstün cəhətlərini qeyd edirsiniz. Sonra uşaqlardan özləri və ya qohumları üçün həmin əşyadan istəyib-istəmədiklərini soruşursunuz. Sonra bu məhsulu hazırlamaq istəyən hər uşağa göstərin. Hazırlanmış məhsul uşağın özünə verilir.

Bütün motivasiya növlərində oyun texnologiyaların, şifahi metodlar, rollu oyunlar və refleksiyalardan istifadə olunması uşaqlarda ünsiyyət bacarıqlarının formalaşdırılmasına kömək edir.

Həmçinin uşaqların motivasiya olunmasında aşağıdakı prinsiplərə riayət olunması tövsiyə olunur:

- Problemin həlli prosesində öz fikrinizin doğruluğu üzərində təkid etməməlisiniz;

- Uşağın sizinlə işləməyə razı olduğuna əmin olun;
- Sonda mütləq uşağın fəaliyyətini təqdir edin;
- Uşaqla birgə fəaliyyətdə olarkən onu planlarınız və nəticəyə nail olmağın yolları ilə tanış edin.

Bu qaydalara əməl edərək uşaqlara yeni biliklər verilir, onlara müəyyən bacarıqlar aşılanır və lazımi bacarıqlar formalaşdırılır.

Beləliklə, motivasiya yaradılarkən oyun personajlarından istifadə edə bilərsiniz. Oyun personajlarından istifadə etmədən motivasiya yaratmaq olmaz və onlar bir-biri ilə sıx bağlıdır.

Oyun və nağıl personajları "Ziyarətə gələ", "Tanış ola", "Tapşırıq verə", "Maraqlı hekayələr söyləyə" və uşaqların işlərinin nəticələrini qiymətləndirə bilərlər. Bu oyuncaqlar və personajlar üçün bir sıra tələblər var.

Oyuncaqlar və ya oyun personajları:

- Uşaqların yaşına uyğun olmalıdır;
- Estetik cəhətdən gözoxşayan olmalıdır;
- Uşağın sağlamlığı üçün təhlükə yaratmamalıdır;
- Onların təlim dəyəri olmalıdır;
- Reallığa uyğun olmalıdır;
- Uşaqda təcavüzkarlıq və qəddarlığın təzahürünə səbəb olmamalıdır;
- Motivasiya yaradılarkən oyuncaqlar və ya personajların sayı çox olmamalıdır.

Hər bir personaj maraqlı və yaddaqalan olmalıdır və onların "Öz xarakterləri var." Məsələn, Pişik, Ördək balası və Ayı balası məşğələlərə gələ bilər. Ördək balası təbiəti sevir və səyahət edir, bu barədə çox şey bilir və uşaqlara danışır. Pişik çox şey bilmir və bacarmır, tez-tez uşaqlardan "Kömək" tələb edir. Ayı balası idmançıdır, o, bədən üçün isinmə hərəkətləri göstərir və idmanla məşğul olur. Uşağın ünsiyyət qurmaq və kömək etmək istəyi fəallığı və marağı əhəmiyyətli dərəcədə artırır. Təlim fəaliyyətinin əvvəlində biz psixoloji təlimlərdən istifadə edirik ki, uşaqlar birgə fəaliyyət və ünsiyyətə köklənsinlər. Təlim fəaliyyətinin başlanğıcı dairədə əl-ələ vermək, siqnalı ötürmək və dostluq haqqında kiçik bir şeir ola bilər.

Uşaqlar bir-birinin əllərindən tutub gülümsəyə və bir-birlərinə xoş arzular diləyə bilərlər.

Sizin diqqətinizə psixoloji təlimin variantlarını təklif edirik: Sehirli yumaq. Uşaqlar kürsüdə və ya xalça üzərində dairədə otururlar. Tərbiyəçi-müəllim yumağı uşağa ötürür, ipi barmağına bağlayır və yanında oturan uşağın adını mehribanlıqla səsləyib nəzakətlə "sehirli söz" deyir. Sonda növbə müəllimə çatana qədər uşaqlar yumağı bir-birinə ötürürlər. Dostluq münasibətləri təbəssümlə başlayır. Dairədə əyləşən uşaqlar əl-ələ tutur, hər kəs qonşusunun gözlərinə baxır və səssizcə bir-birinə gülümsəyirlər.

Uşaqlar səhər saatlarında qrupa qəbul edilərkən biz uşaqları giriş dəqiqəsindən istifadə yolu ilə motivasiya edir, uşaqları xeyirxahlığa, sakitlik, dostluq və sevgiyə çağırırıq.

**Məktəbəqədər yaşlı uşaqlarda bilik motivasiyasının formalaşdırılması yolları**

Məktəbəqədər təhsilin müxtəlif motivləri arasında məktəbəqədər yaşlı uşaqlar üçün ən mühüm motivasiyalardan biri olan idrak xüsusi yer tutur.

Məktəbəqədər təhsil müəssisəsində əqli fəaliyyət daha müstəqil xarakter daşıyır. Bu yaş dövründə uşaqlar vəzifələri kənardan yardım olmadan həll etməyə çalışırlar.

İdrak motivasiyası anlayışı daxilən digər və onunla əlaqəli anlayışlarla bağlıdır. Onların arasında aşağıdakıları qeyd etmək olar:

- İdrak probleminin həllinə emosional formada daxil olmaq;
- İdrak fəaliyyəti – yeni biliyə yönəlmiş praktik fəaliyyət;
- İdrak fəaliyyətinə hazırlıq və təşəbbüskarlıq;
- Biliyə maraq, yeni bir şey öyrənmək arzusu.

İdrak motivasiyasının ifadə göstəriciləri:

1. Uşağın fəaliyyətə emosional cəlb edilməsi;
2. Fəaliyyətin məqsədyönlülüyü və tamlığı;
3. Uşağın təşəbbüskarlığının dərəcəsi.

İdrak motivasiyasının əsas vəzifəsi uşağa əqli sahəsini müstəqil seçmək, qarşısına məqsəd qoymaq və onu həyata keçirmək yollarını tapmaq imkanı verməkdir. Bu baxımdan uşağın bilikləri təcrübi yolla öyrənməsi onda xüsusi maraq doğurur. Bir Çin aforizmində deyilir: "Eşitdim – unutdum, gördüm – yadda saxladım, təcrübə etdim - anladım”.

Uşağın eşitdiyi, gördüyü və özünün etdiyi hər şey uzun müddətə mənimsənilir. Bu, uşaq eksperimentlərinin məktəbəqədər müəssisələrdə fəal şəkildə tətbiqi üçün əsasdır. Tədqiqat işləri uşaqlarda böyük maraq doğurur.

Uşağa zehni işin sevincini anlatmaq və maraq oyatmaq üçün məktəbəqədər yaşlı uşaqlarda idrak fəaliyyətinin inkişafında səmərəli üsullardan istifadə etmək lazımdır, məsələn:

- Uşaqlarla təcrübə aparmaq üçün şərait yaratmaq;
- Böyüklər tərəfindən uşaqlar üçün həlli əlçatan olan problemli vəziyyətlərin yaradılması və yaradıcı vəzifələrin təyin edilməsi;
- İdrak fəaliyyətinin inkişafında tapmacalardan istifadə edilməsi;
- Uşağın idrak fəaliyyətinin inkişafında oyunlardan geniş istifadə olunması;
- İnteqrativ təlim metodu.

Böyüklərin idrak prosesində iştirakı uşağın kömək istəməsi və səhvlərini düzəltməsi üçün imkan yaradır. Bir-birini təqlid edən və rəqabət aparan uşaqlar idrak fəaliyyəti ilə məşğul olmaqdan məmnunluq hiss edirlər.

**Bilik motivasiyasının inkişaf etdirilməsinin əsas prinsipləri**

Bilik motivasiyasının inkişaf etdirilməsinin əsas prinsipləri aşağıdakılardır:

- Böyüklərin idrak fəaliyyətində emosional iştirakı;
- Uşağın maraq dairəsini genişləndirmək (fəaliyyətdə marağa səbəb ola biləcək

orijinal oyuncaq və materiallardan istifadə);

- Təşəbbüsün böyüklərdən uşağa ötürülməsi (yalnız uşağı maraqlandırmaq deyil, həm də ona öz qarşısına məqsəd qoymağı öyrətmək);
- Uşaqların fəaliyyətini dəstəkləmək və onlarda tədqiqatçılığa maraq yaratmaq.

Tərbiyəçi-müəllim yalnız təşəbbüsü uşağa vermir, həm də onu dəstəkləməyə, yəni uşaqların ideyalarını həyata keçirmək, mümkün səhvləri tapmaq və yaranan çətinliklərin öhdəsindən gəlməyə kömək edir. Əgər uşaqlar özləri seçdikləri məşğuliyyətləri dayandırırlarsa, onda tərbiyəçi-müəllim onlar tərəfindən irəli sürülmüş təkliflərin birlikdə müzakirə olunmasını təklif edir.

Tərbiyəçi-müəllim motivasiyanı elə qurmalıdır ki, uşağı tədris prosesinə cəlb edə bilsin. Bu mərhələdə tərbiyəçi-müəllim müxtəlif mövqelər və variantların toqquşmasından yaranan vəziyyət əsasında sual qoyaraq uşaqları düşünməyə vadar edir. Motivasiya, ilk növbədə, tədqiqat üçün həm əlçatan, həm də uşağın öz bacarıq və qabiliyyətlərini həyata keçirməsinə imkan verməli və onun inkişaf xüsusiyyətlərinə müvafiq olmalıdır.

İkinci mərhələdə motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirildikdən sonra artıq yeni biliyin əldə edilməsi işinə başlanıla bilər. Tədqiqat müxtəlif formalarda – bütün qrupla birlikdə, kiçik qruplarla, cütlərlə və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həllində müxtəlif variantlardan istifadə olunur.

## Tələbələr üçün fəaliyyətlər

1. Motivasiyanın altı mexanizmini təhlil edin.

| Ətraf mühitin tədqiqatlarına təşviq edin. | İlkin tədqiqat bacarıqlarını aşılayın, məsələn, obyektlərin müəyyən edilməsi, təşkili,çeşidlənməsi və müqayisə edilməsi. | Uğurlarına görə uşağı tərifləyin. | Bacarıqları aşılayın və inkişafında kömək edin. | Səhvlər və mənfi nəticələr üçün cəza və tənqidlərdən çəkinin. | Nitq və simvolik ünsiyyəti stimullaşdırın. |
|---|---|---|---|---|---|
| | | | | | |

2. Cədvəli tamamlayın:

| Motivasiyanın növləri | Təsnifatı |
|---|---|
| I növ | |
| II növ | |
| III növ | |
| IV növ | |

3. Motivasiyanın prinsiplərini araşdırın və ona uyğun praktik situasiyalar hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“İdraki fəaliyyətə olan tələbatın və motivasiyanın formalaşması üçün məşğələyə uyğun materiallar hazırlayır”**

1. Motivasiyanın mexanizmlərini sadalayın.
2. “Uşaqların inkişafında motivasiyanın rolu” adlı esse yazın.
3. Motivasiyanın prinsiplərini qeyd edin:

| | |
|---|---|
| Motivasiyasının prinsiplərinə riayət etmək lazımdır. | |
| Problemin həlli prosesində öz fikrinizdə təkid etməməlisiniz. | |
| Uşağın sizinlə birgə işləməyə razı olduğuna əmin olun. | |
| Sonda mütləq uşağın fəaliyyətini təqdir edin. | |
| Uşaqla birgə fəaliyyətdə olarkən onu planlarınız və nəticəyə nail olmağın yolları ilə tanış edin. | |
| Böyüklər idrak fəaliyyətində emosional iştirak etməlidirlər. | |
| Uşağın maraq dairəsini genişləndirin (fəaliyyətdə marağa səbəb ola biləcək orijinal oyuncaqlar və materiallardan istifadə). | |
| Təşəbbüs böyüklərdən uşağa ötürülür (yalnız uşağı maraqlandırmaq deyil, həm də qarşısına məqsəd qoymağı öyrətmək). | |
| Uşaqların fəaliyyətini dəstəkləyin və onlarda tədqiqatçılığa maraq yaradın. | |

## 2.7. İdrak nəzəriyyələrinin tətbiqi mexanizmini hazırlayır

### Uşaq şəxsiyyətinin inkişaf nəzəriyyələri

Bu gün uşaq inkişafı haqqında ətraflı və hərtərəfli təsəvvür yaradan nəzəriyyə mövcud deyil. Uşaq şəxsiyyətinin inkişafı haqqında az-çox təsəvvürə malik olmaq üçün müxtəlif nəzəriyyələrlə tanış olmaq lazımdır. İnkişaf nəzəriyyələri uşaqların necə təlim olunması və inkişafına dair məlumatlar verir. Nəzəriyyələr inkişaf prosesini anlamaq və istiqamətləndirməyə kömək edir. Biz nəzəriyyədən qərar qəbul etmək üçün vasitə kimi istifadə edirik. Uşaqların necə öyrənməsinə dair dörd əsas nəzəriyyə aşağıda qısa şəkildə təsvir edilir. Bu nəzəriyyələr psixoloqlar Erik Erikson, Jan Piaje, Lev Vıqotski və Hovard Qardner tərəfindən yaradılmışdır. Həmin nəzəriyyələr uşaqları müşahidə və onlarla işləmə təcrübəsinə əsaslanır.

### Psixoanalitik nəzəriyyə

Bu nəzəriyyənin predmeti insan hissləri və şəxsiyyətlərarası münasibətlərdir. Bu nəzəriyyənin iki təmsilçisi – Ziqmund Freyd və Erik Eriksonun yanaşması daha məşhurdur. Z. Freyd insan şəxsiyyətinin inkişafını bioloji faktorların təsiri və erkən uşaqlıq dövründə ailə ünsiyyəti təcrübəsi ilə izah edirdi.

E.Erikson uşaq şəxsiyyətinin inkişafında 4 mərhələni fərqləndirirdi. Hər mərhələdə insan spesifik böhran hiss edir ki, bunun da məğzini şüurun əks vəziyyətləri ilə münaqişə təşkil edir:

- Ətraf mühitə inam – inamsızlığa qarşı (0-1 yaş);
- Müstəqillik hissi – utancaqlıq və tərəddüdə qarşı (1-3 yaş);
- Təşəbbüskarlıq – günahkarlıq hissinə qarşı (4-5 yaş);
- Əməksevərlik – tənbəlliyə qarşı (6-11 yaş).

### J. Piajenin koqnitiv inkişaf nəzəriyyəsi

Jan Piajenin nəzəriyyəsi pedaqoqların fikrini uşaqların nəyi bildikləri üzərində deyil, öyrənməyə gəlmə yolları üzərində cəmləşdirməyə səsləyir. Onun koqnitiv (əqli) inkişaf nəzəriyyəsi əvvəlcədən müəyyən edilə bilən koqnitiv mərhələlərə əsaslanır:

- Şemata (sxemlər) – əqli göstərici və ya konseptlərdir. Uşaqlar yeni məlumat əldə etdikcə onlar şematanı (sxemləri) müntəzəm olaraq yaradır, dəyişir, təşkil edir və yenidən qururlar.
- Adaptasiya terminindən J. Piaje uşaqların mühitdən qavradıqlarının əqli formada təşkilini ifadə etmək üçün istifadə etmişdir. Yeni məlumat və ya yeni təcrübə baş verdikdə uşaqlar bu məlumatı öz əqli modellərinə daxil etmək üçün adaptasiya olunmalıdırlar. Bu yeni məlumat uşaqların artıq bildikləri ilə uyğun gəlməyəndə balans pozulur. Yenidən balans yaratmaq üçün assimilyasiya və ya uyğunlaşma vasitəsilə adaptasiya baş verir.
- Assimilyasiya – uşağın yeni məlumatı alaraq artıq bildiyi məlumata əlavə etməsi prosesidir.
- Uyğunlaşma – artıq məlum olan məlumatın yeni məlumata uyğunlaşdırılması

prosesidir.

J. Piajenin nəzəriyyəsində inkişaf mərhələləri bunlardır:

- Sensomotor mərhələ (0-2 yaş);
- Hazırlıq mərhələsi (2-7 yaş);
- Konservasiya, yaxud konkret təfəkkür mərhələsi (7–11 yaş)
- Formal və ya formal-məntiqi fəaliyyət və abstrakt təfəkkür mərhələsi (11 yaşdan yuxarı).

L.S. Vıqotskinin sosial-mədəni nəzəriyyəsi:

- Monoloji nitq və ya özü ilə söhbət;
- Proksimal (yaxın) inkişaf zonası;
- Dayaq ("scaffolding").

Sovet psixoloqu Lev Vıqotski təlim və inkişafda sosial-mədəni amilin təsirini əsaslandırırdı. L.Vıqotskinin nəzəriyyəsi J.Piajenin nəzəriyyəsinə çox oxşayır. Əgər Piaje öz nəzəriyyəsində dərketmə inkişafını qarşılıqlı əməkdaşlıqda görürdüsə, Vıqotski təlimin sosial kontekstlərinə daha çox diqqət yetirirdi. Piajenin nəzəriyyəsində müəllimin rolu məhduddur, Vıqotskinin nəzəriyyəsində isə müəllim təlim prosesində fəal rol oynayır və yeri gəldikcə, suallarla kömək edib yardımçı olur.

Psixoloq alimlər uzun sürən diskussiyalardan sonra Piajenin nəzəriyyəsini "Koqnitiv konstruktivizm", Vıqotskinin nəzəriyyəsini isə "sosial konstruktivizm" adlandırmışlar.

**Yaxın inkişaf zonası**

Bu ideya ondan ibarətdir ki, öyrənilməsi mümkün olan bütün biliklər üç hissəyə bölünür:

**Birinci hissə –** uşaq artıq nə isə bilir. Hətta təlimdə çox böyük çətinlikləri olan uşaq da müəyyən biliklərə malikdir. Onun bilik səviyyəsi digər uşaqların bilik səviyyəsindən əhəmiyyətli dərəcədə aşağı ola bilər, lakin o, nə isə bilir. Hərənin öz sürəti vardır. Başqa uşaqların tez və asanlıqla yerinə yetirdiyi işi hansısa uşaq gec yerinə yetirə bilər. Belə uşaqları sıxışdırmaq və onlara təzyiq göstərmək tövsiyə olunmur.

**Üçüncü hissə –** bu, bizə heç məlum olmayan hissədir. Biz hamımız nə isə öyrənə bilərik. "Təlim həyatdan uzundur" kəlamı biliklərin bu hissəsini əks etdirir.

Birinci və üçüncü hissənin arasında ikinci və ən vacib olan hissə dayanır. Bu, yaxın inkişaf zonasıdır ki, burada da təlim prosesi gedir. Uşaq üçün bu zona daimi möcüzələr və ya daimi uğursuzluqlar zonası ola bilər. Bu zona necə olacaqdır – buna tərbiyəçi-müəllim qərar verməlidir. Müəllimin iş tempi hər bir uşağa uyğun olmalıdır. Əgər o, həddən artıq yavaş getsə, təlim irəli getməyəcəkdir. Əgər o, həddindən artıq sürətlə getsə, uşaq yorulacaq və çox yüklənəcək.

Yaxın inkişaf zonasında istənilən fəaliyyət "Bələdçi" rolunu oynayır. Müəllimin "Bələdçiləri" – maddi obyektlər, dil və davranışdır. Yaxın inkişaf zonasında sərf edilən vaxt uşağın yeni məlumatları mənimsəməsi vaxtından asılıdır. Belə ki bu, heç də sürət məsələsi

deyil, qavramanın dərinliyi məsələləsidir. Məlumat qəbul olunmuş səviyyədə mənimsəmədən sonra uşaq yaxın inkişaf zonasını keçir və naməlum zonaya düşür və yeni biliklər meydana çıxır. Yeni materialın mənimsənilməsi elə bir prosesdir ki, burada uşaq yeni olanı öyrənmək üçün bildiklərindən istifadə edir və ona uyğun surətdə fəaliyyət göstərir. Uşaq yeni bilikləri mənimsədikdən sonra bir addım irəli getmiş olur və yenə də naməlum olana yaxınlaşır. Hər yeni materialın mənimsənilməsi irəliyə atılan bir addımdır və o, dəyərləndirilməlidir. 1996-cı ildə Mak Koun və onun həmkarları "Uşağın yaxın inkişaf zonasını necə müəyyən etmək olar?" sualına bir neçə cavab təklif etmişlər.

- Təlim prosesində uşaqları müşahidə edin. Bu müşahidənin nəticələrini valideynlərlə birlikdə müzakirə edin;
- Uşağa izah etməyə çalışın ki, o, nə üçün bu və digər suala belə cavab verir və ya nə üçün özünü bu və ya digər şəkildə aparır. Yenə də valideynlərlə müzakirə edə bilərsiniz;
- Uşağın qabiliyyətlərinin formativ qiymətləndirilməsini aparın.

**L.Vıqotskinin əsas ideyaları**

Yeni materialın mənimsənilməsi uşaq–müəllim qarşılıqlı təsiri nəticəsində meydana çıxarılan sosial fəaliyyətdir. Pedaqoq rolunda həm peşəkar tərbiyəçi-müəllim, həm valideyn, həm də uşaqdan daha çox biliyə malik olan və ona biliyi ötürə bilən həmyaşıdı çıxış edə bilər.

Uşağın öyrənməli olduğu materialı, onun qabiliyyətindən asılı olaraq hissələr və addımlara ayırmaq lazımdır.

**H. Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi**

H. Qardner bütün insanların dominant intellekt qabiliyyətlərini şərti olaraq səkkiz yerə bölür:

1. Bədən-kinetik intellekti;
2. Musiqili-ritmik intellekt;
3. Məntiqi-riyazi intellekt;
4. Verbal-linqvistik intellekt;
5. Interpersonal (şəxsiyyətlərarası) intellekt;
6. Intrapersonal (şəxsiyyətdaxili) intellekt;
7. Vizual-məkan intellekti;
8. Naturalist (təbiət) intellekt. (bu da iki hissəyə ayrılır, bəzi mənbələrdə 9 kimi göstərir) Cədvəl 2.3.
   Cədvəl 2.4-də cədvəl 2.3 təhlil edilmişdir.

| Uşaqların dərketmə üsulu | Uşaqların düşünmə formaları | Uşaqların əldə etdikləri bacarıqlar | Resurs və öyrənmə mühiti |
|---|---|---|---|
| Dil | sözlərlə | Oxu, yazı və söyləmə | Kitablar, maqnitofonlar, hekayələrin yazılması, söz oyunları oynamaq, kuklalar, kağızlar, gündəliklər, dialoq, müzakirələr, debat, hekayələr və s. |
| Məntiqi-riyazi | Əsaslandırmaqla | Sual-cavab, məntiqi pazlları hesablamaq, hesablama və s. | Tədqiqat aparmaq üçün düşünmək, elmi materiallar haqqında düşünmək, planetarium və elmi muzeylərə səyahətlər və s. |
| Məkan | Surətlər və şəkillər | Tərtibetmə, vizuallaşdırma və sxemləşdirmə | İncəsənət əsərləri, LEGO-lar, videolar, cizgi filmləri, slaydlar, xəyali oyunlar, labirintlər, pazllar, şəkilli kitablar və incəsənət muzeylərinə səyahətlər |
| Fiziki-kinetik | Somatik duyğular | Rəqs etmək, qaçmaq, hoppanmaq, quraşdırmaq, jestlər, toxunmaq və s. | Rollu oyunlar, tamaşalar, hərəkətlər, quraşdırma üçün vəsaitlər, idman və fiziki oyunlar, həyata keçirilən təcrübələr, praktik biliklər və s. |
| Musiqili | Ritm və melodiyalar | Mahnı oxuma, fit çalma, dinləmə və əlləri və ayaqlarını tappıldatmaq | Uzun müddət oxumaq, konsertlər, səyahət etmək, evdə və məktəbdə musiqi çalmaq, musiqi alətləri və s. |
| Şəxsiyyətlərarası | Digər insanların fikirlərinin qəbul edilməməsi | Rəhbərlik etmək, təşkil etmək, əlaqələndirmək, idarə etmək, iştirak etmək və s. | Dostlar, qrup oyunları, sosial tədbirlər, cəmiyyət hadisələri, klublar, mentorlar/təlim və s. |
| İnsanlararası | Cəlbolunma | Məqsədlərin qoyulması, vasitələrin seçilməsi, arzulamaq, sakit olmaq, planlaşdırma və s. | Oyunlar, vaxt, uşaqlar tərəfindən seçilmiş layihələr, seçimlər və s. |
| Naturalist | Ətraf mühitlə əlaqə | Ekskursiya, təbiətlə əlaqə, bağda işləmək, gəzinti və s. | Təbiət, milli parklar, heyvan izlərinin müşahidə olunması və s. |
| Ekzistensialist | Həyatın mənası haqqında | Fəlsəfi yanaşma və əlaqələndirmə | Fəlsəfəyə dair kitablar, mədəniyyət və yoqa |

**Cədvəl 2.3. Öyrənmə üsullarının doqquz növü**

| Dərketmə üsulu | Nəyi xoşlayır? | Hansı xüsusi bacarıqlar nümayiş etdirir? | Hansı şəraitdə daha yaxşı öyrənir? |
|---|---|---|---|
| Musiqi – səs | Mahnı oxumaq, zümzümə etmək, musiqi dinləmək, musiqi alətində ifa etmək və musiqiyə reaksiya verməyi | Müxtəlif səsləri təqlid etmək, musiqini yadda saxlamaq və ritmləri tutmaqda | Melodiya və musiqi vasitəsi ilə ritmlər tutmaq |
| Bədən – kinetik | Hərəkətdə olmaq, haqqında danışılan əşyalara toxunmaq, jest və mimikalardan geniş istifadə etməyi | Fiziki fəaliyyətdə (idman, rəqs və hərəkət) və emal işlərində | Toxunaraq, hərəkət edərək, sensor üzvləri vasitəsi ilə qarşılıqlı fəaliyyətdə olmaqla |
| Naturalist – təbiət | Müxtəlif coğrafi və hava şəraitlərində açıq məkanda olmaq və digər canlıların (heyvanlar və bitkilərin) yanında olmağı | Kateqoriyalara bölmək, ətrafında təbii şərait (bitkilər, heyvanlar, quşlar və balıqlar) yaratmaq, səyahətlər və ekskursiyalar təşkil etmək, əşyaları yığmaq və s. | Təbiət hadisələri öyrənilərkən, təbiət qoynunda olarkən və hadisələrin baş vermə prosesini öyrənilərkən |

**Cədvəl 2.4. Öyrənmə üsullarının təhlili**

## Tələbələr üçün fəaliyyətlər

1. Qrupunuzda olan 3 uşağın fərdi maraqlarını verilmiş suallara görə qeyd edin. Fərqli və eyni olan cəhətləri qeyd edin.

| Suallar | Uşaqların adları | Fərqli | Eyni | Qeyd |
|---|---|---|---|---|
| Adətən, uşaqlar hansı oyuncaqları daha çox seçirlər? | | | | |
| Elə oyuncaqlar varmı ki, uşaqlar onlardan istifadə etmirlər? Səbəbləri | | | | |
| Uşaqlar tək oynamağa üstünlük verirlərmi? | | | | |

2. "Öyrənmə üsullarının doqquz növü" cədvəlindən istifadə edərək hər hansı bir uşaq haqqında məlumatları aşağıdakı qrafikə qeyd edin. Uşağın hansı tipə aid olduğunu müəyyən edin.

| Adı, soyadı | Yaşı | Tempera-menti | İnkişaf səviyyəsi | Təlim forması | Marağı | Güclü cəhəti | Zəif cəhəti | Nitq inkişafı səviyyəsi |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |

3. Yaxın inkişaf zonasını hissələr üzrə cədvələ yerləşdirin:

| 1-ci hissə | 2-ci hissə | 3-cü hissə |
|---|---|---|
| | | |

İştirakçılar Hovard Qardnerin “Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsi üzrə hansı tipə aid olduğunu müəyyən etmək üçün tərtib edilmiş testlərdən istifadə edə bilərlər.

### Müxtəlif üsullarla dərketmə üzrə test

Bu yoxlama sualları sizin ən səmərəli öyrətmə üsulunuzu müəyyənləşdirməyə kömək edəcək. Əgər o, sizin bəzi xüsusiyyətlərinizi əks etdirirsə, əsasən, həqiqətə uyğundursa, qısaca “D” (Düzgün), əgər həqiqətə uyğun deyilsə, o zaman “S” (Səhv) yazın. Əgər fikir həqiqətə bəzən uyğun olur, bəzən də uyğun olmursa, o zaman cavab üçün yeri sadəcə boş buraxın (“Məktəbəqədər təhsilin kurikulumu”, 2015/2016 35).

| Suallar | Doğrudur/Səhvdir |
|---|---|
| 1. Mən kimisə sözlə istiqamətləndirməkdənsə, xəritə çəkməyə üstünlük verərdim. | |
| 2. Mən hirsli və ya sevincli olanda, adətən, bunun səbəbini bilirəm. | |
| 3. Mən musiqi alətində ifa edirəm (və ya ifa edərdim). | |
| 4. Mən musiqini əhval-ruhiyyəmlə əlaqələndirə bilirəm. | |
| 5. Mən ağlımda vurma hesablamalarını apara bilirəm. | |
| 6. Mən dostuma ağır hislərin aradan qaldırılmasında kömək edə bilirəm, çünki özüm də həmin hislərlə müvəffəqiyyətlə mübarizə apara bilirəm. | |
| 7. Mən kalkulyator və kompüterlə işləməyi xoşlayıram. | |
| 8. Mən yeni rəqsləri tez öyrənirəm. | |
| 9. Mənə mübahisə və ya debatda nə düşündüyümü demək asandır. | |
| 10. Mən yaxşı mühazirə, nitq və ya nəsihəti xoşlayıram. | |
| 11. Mən, harada olduğumdan asılı olmayaraq, həmişə şimal və cənubun harada olduğunu bilirəm. | |
| 12. Mən yığıncaqlar və ya xüsusi tədbirləri təşkil etməyi xoşlayıram. | |
| 13. Həyat musiqisiz boş görünür. | |
| 14. Dibçək güllərinə qulluq etməyi sevirəm. | |
| 15. Mən tapmacaları həll etməyi və oyun oynamağı xoşlayıram. | |
| 16. Velosiped sürməyi öyrənmək asan idi. | |
| 17. Mən məntiqsiz mülahizə və ya fikirləri eşidəndə hirslənirəm. | |
| 18. Mən digər insanları mənim planlarımı həyata keçirməyə inandıra bilirəm. | |
| 19. Mənim müvazinət hissim və istiqamətləndirmə bacarığım yaxşıdır. | |
| 20. Mən digərlərinə nisbətən, rəqəmlər arasındakı əlaqəni daha tez və asan görürəm. | |
| 21. Mən modellər (heykəllər) düzəltməyi xoşlayıram. | |
| 22. Dərslərimi bağça, yaxud parkda daha yaxşı öyrənirəm. | |
| 23. Mən obyektə bir dəfə baxmaqla onu yan və ya arxadan asanlıqla görə bilərəm. | |
| 24. Mən rəqəm və fiqurlarla işləməyi xoşlayıram. | |
| 25. Mən sakit oturub daxili hislərimə qapanmağı xoşlayıram. | |

| Suallar | Doğrudur/Səhvdir |
|---|---|
| 26. Binaların sadəcə xarici görünüşü və quruluşuna baxmaq mənə xoş gəlir. | |
| 27. Mən vanna otağı və ya tək olanda mızıldanmaq, fit çalmaq və ya mahnı oxumağı xoşlayıram. | |
| 28. Mən idmanın atletik növlərində bacarıqlıyam. | |
| 29. Mən dostlarıma təfsilatlı məktublar yazmağı xoşlayıram. | |
| 30. Adətən, mənim sifətimdəki ifadədən xəbərim olur. | |
| 31. Mən digər insanların üzündəki ifadəyə qarşı həssasam. | |
| 32. Mən əhval-ruhiyyəmə nəzarət edirəm. Mənim onu müəyyən etməkdə çətinliyim olmur. | |
| 33. Yolu yaxşı yadımda saxlamağı bacarıram. | |
| 34. İnsanların mənim haqqımda nə düşündüklərini hiss edirəm. | |
| 35. Mən təbiətdə gəzintini çox sevirəm. | |
| 36. Mən söz və onun birləşmələrinin dəqiq mənasını tapmaqda bacarıqlıyam. | |
| 37. Heyvanları sevirəm və onlar haqqında oxumağı xoşlayıram. | |
| 38. Mən həmişə yeni qurğular və cihazların olduğu təsvirləri anlayıram. | |
| 39. Mən digərlərinin əhval-ruhiyyəsinə qarşı hissiyyatlıyam. | |

**Qiymətləndirmə cədvəli**

"D" kimi qeyd etdiyiniz sualı dairəyə alın və aşağıdakı siyahıya görə hesablayın. Cəmi toplayın. Hər kateqoriyada dördünün cəmi güclü bacarığı göstərir.

| A Lingvistik | B Məntiqi-riyazi | C Vizual-görmə | D Bədən-kinetik | E Səs-musiqi | F Fərdlərarası | G Fərddaxili | E Naturalist |
|---|---|---|---|---|---|---|---|
| 9 | 5 | 1 | 8 | 3 | 2 | 12 | 38 |
| 10 | 7 | 11 | 16 | 4 | 6 | 18 | 14 |
| 17 | 15 | 39 | 19 | 13 | 26 | 32 | 22 |
| 37 | 20 | 23 | 21 | 24 | 31 | 40 | 34 |
| 30 | 25 | 27 | 29 | 28 | 33 | 35 | 36 |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"İdrak nəzəriyyələrinin tətbiqi mexanizmini hazırlayır".

1. Aşağıda verilən uşaq şəxsiyyətinin inkişafının 4 mərhələsi hansı nəzəriyyəyə aiddir:
    - Ətraf mühitə inam – inamsızlığa qarşı (0-1 yaş);
    - Müstəqillik hissi – utancaqlıq və tərəddüdə qarşı (1-3 yaş);
    - Təşəbbüskarlıq – günahkarlıq hissinə qarşı (4-5 yaş);
    - Əməksevərlik – tənbəlliyə qarşı (6-11 yaş).

A) J. Piajenin koqnitiv inkişaf nəzəriyyəsi
B) H.Qardnerin çoxşaxəli intellekt nəzəriyyəsi
C) Psixoanalitik nəzəriyyə ( düz )
D) L.S. Vıqotskinin sosial-mədəni nəzəriyyəsi

2. E. Erikson uşaq şəxsiyyətinin inkişafında 4 mərhələni ayırd edin.

| **0 – 1 yaş** | **1 – 3 yaş** | **4 – 5 yaş** | **6 – 11 yaş** |
|---|---|---|---|
| | | | |

3. Cədvəli J.Piajenin koqnitiv inkişaf nəzəriyyəsi əsasında işləyin. Hər mərhələnin təsnifatını yazın.

| | |
|---|---|
| Şemata (sxemlər) | |
| Adaptasiya | |
| Assimilyasiya | |
| Uyğunlaşma | |

## 2.8. İdrak fəaliyyətinin inkişafı üçün pedaqoji prosesin təşkilini təsvir edir

### İdrak fəaliyyətinin inkişafı üçün pedaqoji prosesin təşkili

Pedaqoji prosesin müxtəlif sahələri – tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı bir-biri ilə sıx vəhdət təşkil edir və bir-birini tamamlayır. Təlim və təhsil şəxsiyyətin tərbiyəsi və ümumi və psixi inkişafına güclü təsir göstərir. Tərbiyə və inkişaf prosesi isə, öz növbəsində, təlim və təhsil prosesinə – şagirdin zehni işdə daha səylə çalışması, fəallığı, borc və məsuliyyət hissinin gücləndirilməsinə kömək edir.

Pedaqoji prosesin inkişaf dinamikası obyektlə subyekt arasında qarşılıqlı münasibətlərin xarakterindən asılıdır. Pedaqoji prosesin obyektlərini ayrı-ayrı fərdlər (şagirdlər) və onların qrupları (sinif və məktəb kollektivi) təşkil edir. Pedaqoji prosesin subyekti kimi isə ayrı-ayrı şəxslər (müəllim, tərbiyəçi, valideyn və s.), habelə kollektiv orqanlar (pedaqoji şura, ictimai təşkilatlar, pedaqoji kollektiv və s.) çıxış edir. Pedaqoji prosesdə tərbiyənin obyekti onun subyektinə çevrilməlidir. Bu cəhətin nəzərə alınmaması pedaqoji prosesdə ciddi qüsurlar doğura bilər (avtoritar tərbiyə, şəxsiyyətin passivliyi və s.).

Pedaqoji proses dedikdə, şəxsiyyətin tərbiyəsi, təhsili, təlimi və inkişafı ilə bağlı aparılan bütün məqsədyönlü, planlı və mütəşəkkil işlər nəzərdə tutulur.

Pedaqoji prosesin bir neçə səciyyəvi cəhəti vardır:

- Pedaqoji prosesin ayrı-ayrı sahələrinin vəhdəti;
- Pedaqoji prosesdə obyekt və subyektin qarşılıqlı əlaqəsi;
- Pedaqoji prosesin inkişafı;
- Pedaqoji prosesdə ümumi məqsəd, qanunauyğunluq, prinsip, forma və metodların mövcudluğu.

Pedaqoji prosesin səciyyəvi cəhətlərindən biri onun inkişafı və mütəhərrikliyidir. Bunun sayəsində gənc nəslin tərbiyə, təhsil, təlim və inkişaf səviyyəsi dəyişir və təkmilləşir. Pedaqoji prosesin daxili hərəkətverici qüvvəsini şagirdlər qarşısında qoyulan tələblərlə onların bu tələbləri yerinə yetirmək üçün real imkanları arasındakı ziddiyyət təşkil edir. Bu ziddiyyət o zaman inkişafın mənbəyi olur ki, irəli sürülən tələblər şagirdlərin imkanlarına müvafiq olsun. Tərbiyəçi-müəllimin vəzifəsi şagirdlər və uşaq kollektivinin təlim-tərbiyə səviyyəsini öyrənmək, onların qarşısında real tələblər qoymaq və şəxsiyyət və kollektivin inkişaf perspektivlərini layihələşdirməkdən ibarətdir.

Pedaqoji prosesi səciyyələndirən cəhətlərdən biri də bu prosesdə ümumi məqsəd, qanunauyğunluq, prinsiplər, forma və metodların olmasıdır. Pedaqoji prosesin qanunauyğunluqları bu prosesə xas olan zəruri və davamlı əlaqələrlə – səbəb-nəticə asılılıqları ilə bağlıdır. Belə qanunauyğun əlaqələr çoxcəhətlidir:

- Pedaqoji proseslə cəmiyyətin tələbatları ilə imkan və şəraiti arasında əlaqə;
- Pedaqoji prosesin müxtəlif sahələri (tərbiyə, təhsil, təlim və şəxsiyyətin inkişafı) arasında əlaqə;
- Şəxsiyyətin fəaliyyəti və ünsiyyəti ilə onun inkişaf nəticələri arasında əlaqə;
- Pedaqoji prosesin subyektləri arasında əlaqə;

- Kollektiv və şəxsiyyət arasında əlaqə;
- Pedaqoji prosesin məqsədi, məzmunu, forma və metodları arasında əlaqə;
- Şəxsiyyətin imkanları ilə ona pedaqoji təsirin xarakteri arasında əlaqə və s..

Hər bir əlaqə ilə bağlı müvafiq qanunauyğunluqlar özünü göstərir. Əgər bu qanunauyğunluqlardan (eləcə də onları əks etdirən pedaqoji prinsiplərdən) hər hansı biri nəzərə alınmazsa, pedaqoji proses səmərəli qurula bilməz. Bu cəhət pedaqoji prosesin forma və metodlarına da aiddir.

Pedaqoji prosesin ümumi metodları fəaliyyətin tamlığı konsepsiyası baxımından müəyyən olunur. Bu metodlar həm təlim, həm də tərbiyə prosesində özünü göstərir:

- Şəxsiyyətin ağlı və şüurunu formalaşdıran metodlar;
- Zehni və mənəvi fəaliyyət, ünsiyyət və ictimai davranış təcrübəsini formalaşdıran metodlar;
- Fəaliyyət və davranışı stimullaşdıran və motivləşdirən metodlar;
- Nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodları.

Pedaqoji prosesin təşkili formalarında da ümumi cəhətlər özünü göstərir: Həm təlim, həm də tərbiyə prosesində fərdi, qrup və kollektiv formalar tətbiq olunur.

Pedaqoji prosesə xas olan ümumi cəhətlərlə yanaşı, bu prosesə daxil olan sahələrin spesifik cəhətləri və özünəməxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlərin nəzərə alınması təlim, təhsil, tərbiyə və şəxsiyyətin inkişafı proseslərinin daha səmərəli təşkil edilməsinə imkan verir.

Pedaqoji prosesin tamlığı onun sahələri qarşısında vahid məqsədin durması və şəxsiyyətin bütövlüyü ilə təmin olunur. Tərbiyə, təhsil və təlim prosesləri özünəməxsus xüsusiyyətlərə malik olsa da, hamısı ümumi bir məqsədə – şəxsiyyətin ahəngdar inkişafına xidmət edir. Həm tərbiyə, həm də təlim üç əsas funksiyanı – təhsilverici, tərbiyəedici və inkişafetdirici funksiyaları yerinə yetirir. Bu zaman pedaqoji prosesin bütün sahələri qarşılıqlı əlaqədə çıxış edir: Təlim prosesi tərbiyə funksiyasını həyata keçirdiyi kimi tərbiyə prosesi də təlim prosesinə təsir göstərir.

Ümumi məqsəd baxımından pedaqoji prosesin hər bir sahəsi bu və ya digər funksiyanın yerinə yetirilməsində aparıcı (dominant) rol oynayır. Belə ki təlim prosesi öyrədici (təhsilverici) və inkişafetdirici, tərbiyə prosesi isə tərbiyəedici funksiyanın həyata keçirilməsinə daha çox xidmət göstərir. Buna müvafiq olaraq, pedaqoji prosesin hər bir sahəsi özünəməxsus vəzifələr və məzmuna malikdir. Təlimin məzmununda elmi təsəvvürlər, anlayış və qanunların və bacarıq və vərdişlərin aşılanması aparıcı yer tutur, lakin təlimin məzmunu eyni zamanda tərbiyə və inkişaf vəzifələrinin həlli və gənc nəslin ideya-mənəvi tərbiyəsinə kömək göstərir. Tərbiyənin məzmununda şəxsiyyətin ideya-mənəvi təsəvvürləri, inamı, əqidəsi, dünyagörüşü və müsbət davranış vərdişləri aşılamaq əsas yer tutur, lakin tərbiyə prosesinin məzmunu şəxsiyyətin təhsil səviyyəsinə, biliklərinin genişlənməsinə də güclü təsir göstərir, təlimdə şagirdlərin fəallıq və səyini stimullaşdıran amil kimi çıxış edir. Şəxsiyyətin çox müxtəlif keyfiyyətləri – zehni, əxlaqi, ideya-siyasi, əmək, fiziki, estetik və digər keyfiyyətləri qarşılıqlı vəhdətdə formalaşır və inkişaf edir, bu

keyfiyyətlər biri-digərini şərtləndirir, tamamlayır. Bununla da şəxsiyyətin bütövlüyü – ahəngdar inkişafı təmin olunur. Əgər pedaqoji prosesin müxtəlif sahələri bir-birindən ayrılıqda, əlaqəsiz həyata keçirilərsə, pedaqoji prosesin tamlığı pozular. Bu da şəxsiyyətin inkişafına mənfi təsir göstərər. Göründüyü kimi, pedaqoji prosesin müxtəlif sahələri ümumi tərbiyə məqsədinin həyata keçirilməsində iştirak edir. Geniş mənada tərbiyənin məqsədi nədir? Biz necə insan yetişdirmək istəyirik? Bu məqsədə hansı yollarla nail olmaq mümkündür? Bu suallar pedaqoji fəaliyyətlə məşğul olan hər kəsi ciddi maraqlandırır.

**Məqsəd –** pedaqoji prosesin birinci ünsürüdür. O, fəaliyyətin digər ünsürlərini – məzmun, vasitə və metodları müəyyən edir. Pedaqoji fəaliyyətin səmərəli nəticə verməsi üçün onun məqsədini bilmək vacibdir, çünki məqsədsiz fəaliyyət yoxdur. Məqsədsiz fəaliyyət kortəbii xarakter daşıyır. Bunu okeanda kompassız və mayaksız hərəkət edən gəminin işinə bənzətmək olar. K.D.Uşinski məqsədi bilmədən fəaliyyət göstərən müəllimi "Layihəsiz bina tikən bənna"ya bənzədirdi.

Tərbiyənin məqsədi dedikdə, pedaqoji fəaliyyətin son nəticəsi, yəni insan şəxsiyyətinin layihəsi başa düşülür. Bu məqsəd cəmiyyətin tələbatı ilə müəyyən olunur və cəmiyyət necə insan yetişdirmək lazım gəldiyini bir növ, məktəb və ailəyə sifariş verir. Məktəb də bu sosial sifarişi yerinə yetirir. Müxtəlif cəmiyyətlərdə, eləcə də eyni cəmiyyətin müxtəlif inkişaf mərhələlərində tərbiyənin məqsədi dəyişilə bilər, məsələn, 70 illik kommunist rejimi dövründəki məqsədlərlə hazırda – müstəqil dövlət quruculuğu dövründəki tərbiyə məqsədlərində ciddi fərqlər vardır.

Tərbiyənin başlıca məqsədi ahəngdar inkişaf etdirilmiş şəxsiyyət yetişdirməkdir. Belə şəxsiyyət birtərəfli yox, bir çox cəhətdən (zehni, fiziki, mənəvi və s. cəhətdən) inkişaf etdirilməlidir. Ahəngdar inkişaf etdirilmiş şəxsiyyətin keyfiyyətləri çoxdur. Hər bir keyfiyyətin formalaşdırılmasında tərbiyənin ayrı-ayrı tərkib hissələri aparıcı (dominant) rol oynayır. Bunu cədvəl şəklində nəzərdən keçirək (Cədvəl 2.5):

| Ahəngdar inkişaf etmiş şəxsiyyətin əsas keyfiyyətləri | Tərbiyənin tərkib hissələri |
|---|---|
| 1. İntellektual keyfiyyətlər; | Zehni (əqli) tərbiyə; |
| 2. İdeya-mənəvi keyfiyyətlər; | İdeya-mənəvi tərbiyə; |
| 3. Əxlaqi təmizlik; | Əxlaq tərbiyəsi; |
| 4. Əmək və peşə hazırlığı; | Əmək tərbiyəsi; |
| 5. Estetik zövq; | Estetik tərbiyə; |
| 6. Fiziki sağlamlıq, gümrahlıq; | Fiziki tərbiyə; |
| 7. İqtisadi, ekoloji və hüquq mədəniyyəti. | İqtisadi, ekoloji və hüquq tərbiyəsi. |

**Cədvəl 2.5. Ahəngdar inkişaf etdirilmiş şəxsiyyətin keyfiyyətləri**

Şəxsiyyətin ahəngdar inkişafı üçün göstərilən tərbiyə sahələri kompleks şəkildə həyata keçirilməlidir. Pedaqoji prosesə kompleks yanaşma o deməkdir ki, hər bir şagird tərbiyənin bütün sahələri ilə əhatə olunsun, şagirdə yəni zehni, əxlaqi, əmək, estetik, fiziki və s. hazırlıq keçirilsin. Bunun üçün məktəbdə lazımi şərait və maddi baza yaradılmalı və məktəb

kompleksi təşkil edilməlidir. Pedaqoji proses öyrənən və öyrədənin qarşılıqlı fəaliyyəti zamanı reallaşıb təlim məqsədlərinə xidmət edən texnoloji əməliyyatlarla müşayiət olunur.

İnsan məktəbəqədər təhsildən başlayaraq ömür boyu pedaqoji prosesin iştirakçısı olur. Qazanılan zəruri bilik və bacarıqlar pedaqogika elminin köməyi ilə öyrənənlərə çatdırılır. Bu işdə təlim strategiyalarının böyük əhəmiyyəti vardır.

Cəmiyyətdə yeni ictimai münasibətlərin yaradılması, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, dünya təhsil sisteminə inteqrasiya, informasiya əsrinin tələbləri, təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşdırılması və bir çox digər amillər pedaqoji prosesdə təlim strategiyalarının səmərəli tətbiqi imkanlarının artırılması reallaşdırılmışdır. Ənənəvi tədris proqramında bilikyönümlülük, müəllimyönümlülük, fənyönümlük, təklifyönümlük, fəndaxili və fənlərarası əlaqə və fənlər üzrə qiymət normalarının müəyyən edilməsi kimi tələblər artıq köhnəlmiş texnologiyalardır.

Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin adı, həftəlik miqdarı və müddəti (Cədvəl 2.6)

Uşaqlar ümumi təyinatlı qruplarda birləşdirilirlər:

- I körpələr qrupu (1–2 yaş);
- II körpələr qrupu (2–3 yaş);
- Orta qrup (3–4 yaş);
- Böyük qrup (4–5 yaş);
- Məktəbəhazırlıq qrupu (5–6 yaş).

| № | | Məşğələlər | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin illik miqdarı |
|---|---|---|---|---|
| 1. | | Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| 2. | | Hərəkətlərin inkişafı | 2 | 72 |
| 3. | | Sensor tərbiyə (didaktik materiallar, oyuncaqlar və tikinti materialları ilə) | 1 | 36 |
| 4. | | Musiqi | 1 | 36 |
| | | Cəmi: | 6 məşğələ | |

**II körpələr qrupunun (2-3 yaş)**

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Hərəkətlərin inkişafı | Cümə axşamı<br>1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı |
| Çərşənbə axşamı<br>1. Sensor tərbiyə | Cümə<br>1. Musiqi |
| Çərşənbə<br>1. Hərəkətlərin inkişafı | |

**II körpələr qrupunun (2-3 yaş)**

Məşğələnin müddəti 10 dəqiqə olmaqla, yarımqruplarla keçirilir. Gün ərzində iki məşğələ olarsa, digər məşğələ günün ikinci yarısında keçirilir.

| № | Məşğələlər | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin illik miqdarı |
|---|---|---|---|
| 1. | Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| 2. | Hərəkətlərin inkişafı | 2 | 72 |
| 3. | Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla və tikinti materialları ilə) | 1 | 36 |
| 4. | Təsviri fəaliyyət | 1 | 36 |
| 5. | Musiqi | 2 | 72 |
| | Cəmi: | 8 məşğələ | |

**II körpələr qrupunun (2-3 yaş)**

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | Cümə axşamı<br>1. Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2. Hərəkətlərin inkişafı |
| Çərşənbə axşamı<br>1. Sensor tərbiyə<br>2. Hərəkətlərin inkişafı | Cümə<br>1.Musiqi |
| Çərşənbə<br>1. Təsviri fəaliyyət | |

**II körpələr qrupunun (2-3 yaş)**

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti 15, onların arasındakı fasilə isə 10 dəqiqə olur. Şənbə günləri məşğələ keçirilmir, oyun və əyləncələr təşkil olunur.

| № | Məşğələlər | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| 1. | Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| 2. | Fiziki mədəniyyət | 2 | 72 |
| 3. | Məntiqi və riyazi təfəkkürün inkişafı | 1 | 36 |
| 4. | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| 5. | Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma və quraşdırma) | 2 | 72 |
| 6. | Musiqi | 2 | 72 |
| | **Cəmi:** | **10 məşğələ** | |

**Orta qrup (3-4 yaş)**

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | Cümə axşamı<br>Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>Fiziki mədəniyyət |
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | Cümə<br>1. Təsviri fəaliyyət<br>2. Musiqi |
| Çərşənbə<br>1.Bədii təfəkkürün inkişafı<br>2.Təsviri fəaliyyət | |

**Orta qrup (3-4 yaş)**

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti 20, məşğələlər arasındakı fasilə isə 10 dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir və oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar və əmək fəaliyyəti təşkil olunur.

| № | Məşğələlər | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| 1 | Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| 2 | Fiziki mədəniyyət | 2 | 72 |
| 3 | Məntiqi və riyazi təfəkkürün inkişafı | 1 | 36 |
| 4 | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| 5 | Təsviri fəaliyyət (rəsm, kəsib-yapışdırma), (yapma və quraşdırma) həftəaşırı | 2 | 72 |
| 6 | Musiqi | 2 | 72 |
| | **Cəmi:** | **10 məşğələ** | |

**Böyük qrup (4-5 yaş)**

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | Cümə axşamı<br>1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | Cümə<br>1. Təsviri fəaliyyət (yapma və quraşdırma)<br>2. Musiqi |
| Çərşənbə<br>1. Bədii təfəkkürün inkişafı<br>2. (Təsviri fəaliyyət rəsm və kəsib-yapışdırma) | |

**Böyük qrup (4-5 yaş)**

Məşğələlər günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti 25, məşğələlər arasındakı fasilə isə 10 dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir və oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar və əmək fəaliyyəti təşkil olunur.

| № | Məşğələlər | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| 1. | Ətraf aləmlə tanışlıq | 1 | 36 |
| 2. | Fiziki mədəniyyət | 2 | 72 |
| 3. | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 | 36 |
| 4. | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| 5. | Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma və quraşdırma) | 2 | 72 |
| 6. | Musiqi | 2 | 72 |
| 7. | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 | 72 |
| | **Cəmi:** | **12 məşğələ** | |

**Məktəbəhazırlıq qrupu (5-6 yaş)**

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf aləmlə tanışlıq<br>2. Fiziki mədəniyyət<br>3. Təsviri fəaliyyət | Cümə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi |
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi<br>3. Savad təliminə hazırlıq və nitq inkişafı | Cümə<br>1. Savad təliminə hazırlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |
| Çərşənbə<br>1. Bədii təfəkkürün inkişafı<br>2.Təsviri fəaliyyət | |

**Məktəbəhazırlıq qrupu (5-6 yaş)**

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti 30, məşğələlər arası fasilə isə 10 dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir və oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar və əmək fəaliyyəti təşkil olunur.

**Cədvəl 2.6. Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin adı, həftəlik miqdarı və müddəti**

## Təlim prosesinin səmərəli təşkili prinsipləri

Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi-müəllim təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi-müəllim və uşaq təlimin aparıcı subyektləri kimi çıxış edirlər. Münasibətlər "Subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürü, düşüncəsi, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olurlar. Tərbiyəçi-müəllimlərin rəhbərlik funksiyası dəyişilir və informasiya verilməsi sahəsindəki fəaliyyət məhdudlaşdırılır. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən və istiqamətləndirən məktəbəqədər təhsilin kurikulum məsləhətçisi kimi uşaqların müstəqil idraki fəaliyyəti və yaradıcılığını

təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmaq və yaradıcı fəaliyyət göstərməyə sövq edilirlər.

Uşaqların fiziki inkişafı və sağlamlığına kömək etmək üçün aşağıdakı strategiyalar çox mühümdür. Bunlar hər bir uşağın fərdi ehtiyaclarının təmin edilməsi və fiziki inkişafına kömək göstərilməsi baxımından əhəmiyyət daşıyır:

- Hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması;
- Uşaqların tibbi müayinə ilə təmin olunması;
- Uşaqların optimal inkişafını artıran qidalanmanın təmin olunması;
- Uşaqların sağlamlığı, fiziki forma və fəal hərəkətlərini artıran gündəlik şəraitin yaradılması;
- Uşaqların fiziki hərəkətlərini məhdudlaşdırmayan fəaliyyətin təmin edilməsi üçün təhlükəsiz şəraitin yaradılması;
- Materialların bütün uşaqlar üçün əlçatan (hündürlük, ölçü və yerləşmə) olması;
- Musiqili oyunlar, mahnı oxunması, rəqs və digər mədəni fəaliyyətlərin uşaqların gündəlik rejiminə daxil edilməsi;
- Fiziki xüsusiyyətlər, eləcə də fərdi üstünlüklər haqqında müzakirələrin aparılması;
- Risk faktorları və uşaqların hüquqlarının pozulması hallarının qarşısının alınması;
- Uşaqların gündəlik həyati bacarıqlara yiyələnmələri üçün şəraitin təşkil edilməsi;
- Öyrətmə və öyrənmə strategiyalarının (məsələn, musiqili oyunlar – musiqi və fiziki hərəkətləri idraki inkişafla əlaqələndirmək) birləşdirilməsi;
- Mürəkkəb tapşırıqların daha kiçik hissələrə bölünməsi və ya tədbirlərin sayının azaldılması ilə sadələşdirilməsi;
- Gün ərzində uşaqların müxtəlif fəaliyyətlər və rejimlərə cəlb edilmələri;
- Öyrənmə üçün praktik və sensor (məsələn, öyrənmə, görmə, dadına baxma, iyləmə və manipulyasiya etmə) təcrübənin təmin edilməsi;
- Təlimin uşaqların müxtəlif qabiliyyətləri və öyrənmə yolları ilə uzlaşdırılması.

Uşaqların estetik inkişafını təmin edilməsi üçün aşağıdakı strategiyalara istinad edilməsi məqsədəmüvafiqdir:

- Yaradıcılığa həvəsləndirən müvafiq mühitin yaradılması;
- Rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
- Qiymətləndirmə bacarığının yaradılması;
- Uşaqların incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirilməsi;
- Qrup otağında uşaqların fəal şəkildə öyrənmələri, təsvir etmələri və yaradıcılıq fəaliyyəti göstərmələri üçün şəraitin yaradılması;
- Yaradıcı düşünmə və özünüifadənin asanlaşdırılması üçün tərbiyəçinin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;

Estetik inkişafın təmin edilməsi üçün ailələrin maarifləndirilməsi.

**Səmərəli təlim prosesinin təşkili prinsipləri**

Təlim prosesində aşağıdakı prinsiplərə istinad edilir:

- Şəxsiyyətyönümlülük - bu prinsip uşaqlara şəxsiyyət kimi yanaşmağı tələb edir, həyatda ona lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmunu və həyata keçirilməsində onun nəzərə alınması vacib hesab edilir;
- Diferensiallaşdırma və fərdiləşdirmə - bu prinsip uşaqların fərdi xüsusiyyətləri, maraq və tələbatları, fiziki və əqli inkişaf səviyyələri, psixo-fizioloji xüsusiyyətlərini nəzərə almaq və onların təliminin bu xüsusiyyətlər əsasında təşkil olunmasını tələb edir;
- İdrak fəallığı - təfəkkürün fəallaşdırılması əsasında yaradılan idrak fəallığı məktəbəqədər təhsil materiallarının koqnitiv xarakter daşıması və onun fəal təlim şəraitində reallaşdırılmasına şərait yaradır və uşaqlarda hər hansı problemin həlli tələbatı və onlarda idrak proseslərinin fəallaşdırılmasını gücləndirir;
- Əyanilik - bu prinsip məktəbəqədər təhsil müəssisələrində uşaqların öyrənməyə olan marağını stimullaşdırır və öyrəndiklərinin daha keyfiyyətli mənimsənilməsinə şərait yaradır;
- Əməkdaşlıq - tərbiyəçi – uşaq – valideyn münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunmasını nəzərdə tutur;
- Nəticəyönümlülük - bu prinsip fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasını tələb edir.

## Tələbələr üçün fəaliyyətlər

1. Səmərəli təlim prosesinin təşkili prinsiplərini qruplaşdırın və sxem üzərində işləyin.
2. Məktəbəhazırlıq qrupu üçün aşağıdakı həftəlik məşğələ cədvəlini tamamlayın:

| | |
|---|---|
| Bazar ertəsi<br>1. Ətraf aləmlə tanışlıq | Cümə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı |
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı | Cümə<br>1. Fiziki mədəniyyət |
| Çərşənbə<br>1. Bədii təfəkkürün inkişafı. | |

3. "Məktəbəqədər təhsil konsepsiyası" nı araşdırın, uşaqlarla pedaqoji işin humanistləşdirilməsinin məqsəd və prinsiplərini yazın, aşağıdakı cədvəldə verilmiş meyarlardan istifadə edərək təhsil prosesinin qurulmasının tədris, intizam və şəxsiyyətyönümlü modellərinin müqayisəli təsvirini verin. Nəticələr cədvəldə göstərilir.

**Tədris prosesinin qurulması üçün tədris, intizam və şəxsiyyətyönümlü modellərinin müqayisəli xüsusiyyətləri**

| Meyarları | Göstəricilər | Təhlil |
|---|---|---|
| Məqsəd | | |
| Təlim şüarı | | |
| Ünsiyyət üsulları | | |
| Rabitə taktikası | | |
| Uşaqların filtri | | |
| İşin əsas formaları | | |
| Gözlənilən nəticələr | | |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"İdrak fəaliyyətinin inkişafı üçün pedaqoji prosesin təşkilini təsvir edir".**

1. Pedaqoji prosesin səciyyəvi cəhətlərini tamamlayın:
   A) Pedaqoji prosesin ayrı-ayrı sahələrinin vəhdəti;
   B) Pedaqoji prosesdə obyektlə subyektin qarşılıqlı əlaqəsi;
   C) ...
   D) ...

2. Məktəbəqədər təhsil müəssisəsi tərbiyəçi-müəlliminin fəaliyyətini təhlil edin (günün birinci və ya ikinci yarısında, diqqətli araşdırma əsasında və mühazirələrə əsasən).
   Aşağıdakı suallara cavab verərək esse yazın:
   - Tərbiyəçi müəllim hansı vəzifələri yerinə yetirdi?
   - Tərbiyəçi müəllim hansı peşəkar bacarıqlara malikdir?
   - Pedaqoqun hansı fərdi keyfiyyətləri onun fəaliyyətinin uğurunu təmin edir, yaxud çətinlik yaradır?
   - Tərbiyəçi müəllimin tədris fəaliyyətinin yaxşılaşdırılması üçün hansı təklifləriniz var?

3. Aşağıdakı plana uyğun olaraq peşəkar özünütəhsil proqramı hazırlayın.

A) Hansı fərdi keyfiyyətlər peşəkar adlanır? Tərif verin.
B) Peşə idealınızı müəyyənləşdirin (məktəbəqədər təhsil müəssisəsinin tərbiyəçi-müəllimi üçün hansı keyfiyyətlərin peşəkar olduğunu düşünürsünüz?).
C) İdealınıza necə uyduğunuzu və ona daha yaxın olmağa səy göstərdiyinizi təhlil edin.
D) Fəaliyyət metodlarınızı hansı yolla, necə inkişaf etdirdiyinizi və peşəkar keyfiyyətlərinizi inkişaf etdirməyə necə davam edəcəyinizi müəyyənləşdirin.

# TƏLİM NƏTİCƏSİ 3

# ESTETİK-YARADICI İNKİŞAFI TƏŞKİL ETMƏK

## 3.1. Müxtəlif əyləncə, tamaşa və bayramların ssenarisini hazırlayır

Uşaq bağçasında keçirilən bayram və əyləncələr uşaqlar üçün həmişə şənlik və təntənə deməkdir. Bayram uşaqların həyatına parlaq bir hadisə kimi daxil edilir və uzun müddət onların yaddaşında qalır. Lakin bayramın mənası təkcə uşaqlara şadlıq gətirməkdən ibarət deyil, o, uşaqların hərtərəfli inkişafına kömək edən tərbiyə vasitəsidir. Bayramlar uşağın qəlbində Vətənə məhəbbət, əmək adamlarına hörmət, milli adət və ənənələrimizin qorunub saxlanması və bu bayramların mahiyyət və məzmununun öyrənilməsi anlayışı yaratmalıdır. Bayram, həmçinin mühüm bədii vasitəsidir. Musiqili ədəbi material və geyimlərin gözəl tərtibatı uşaqlarda estetik zövqü inkişaf etdirir. Uşaqlar bayram tədbirlərində iştirak etdikcə onların şüuru, nitqi və dünyagörüşü sürətlə inkişaf edərək müvafiq bilik, bacarıq və vərdişlərlə zənginləşir. Hər bir bayram və şənliklərin keçirilməsi xüsusi hazırlıq və bədii tərtibat tələb edir. Bayramların təşkili uşaqların yaş və anlama səviyyəsinə uyğun olmalıdır.

Bayram və şənliklər uşaqlarda məşğulluq, sevinc, fərəh və iftixar hissinin yaradılması məqsədi ilə həyata keçirilən təntənəli tədbirlərdir. Belə tədbirlər uşaqlarda ictimai fəallıq hissi yaradır və onlarda həmin hadisələr və milli adət-ənənələr haqqında müvafiq anlayışlar yaradır. Belə tədbirlərə hazırlaşarkən folklordan götürülmüş bayatılar, nəğmə və şən mahnılar milli mənəvi dəyərlərimizdə məhəbbət hissi yaradır. Uşaqlar bədii mətn, mahnı və hikmətli sözlər vasitəsilə öz doğma respublikası haqqında yeni-yeni məlumatlar alır və xalqımızın yüksək dəyanətliliyi, mərdlik, əməksevərlik, qonaqpərvərlik və digər mənəvi keyfiyyətləri ilə fəxr edirlər. Bu məqsədlə də uşaq bağçalarında qeyd edilən bayram şənlik və tədbirləri məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir.



**Şəkil 3.1. İctimai-siyasi bayram**

Uşaq bağçalarında keçirilən bayram tədbirləri məzmununa görə üç qrupa bölünə bilər

- İctimai-siyasi bayramlar (Şəkil 3.1);
- Məişət bayramları (Şəkil 3.2);
- Mövsümi bayramlar (Şəkil 3.3).




**Şəkil 3.2. Məişət bayramı**



**Şəkil 3.3. Mövsümü bayram**

**İctimai-siyasi bayramlar.** Dövlət tərəfindən təntənəli səviyyədə həyata keçirilən şənliklərdir. Belə bayramlara 8 Mart Beynəlxalq qadınlar günü, 28 May Respublika günü, 18 Oktyabr Dövlət Müstəqilliyi günü, 31 Dekabr Dünya azərbaycanlılarının həmrəyliyi günü və 1 İyun Beynəlxalq uşaqlar günü aiddir. Bütün bu bayram şənlikləri qeyd edilməklə uşaqlar bu tarixi hadisələrin mahiyyəti ilə yaxından tanış olur, onların məzmununa aid şeir və mahnılar öyrənir, şən rəqs və əyləncəli proqramlar hazırlayırlar.

İctimai-siyasi bayram şənlikləri ilə yanaşı, uşaq bağçalarında siyasi xarakterli tədbirlər və tarixi hadisələrin xüsusi qeyd olunması yüksək əhəmiyyət kəsb edir.

Məsələn, 31 Mart milli soyqırımı günü, 20 Yanvar faciəsi və Xocalı soyqırımı günlərinin qeyd olunması tariximizin qanlı səhifələri haqqında uşaqlara yaşlarına müvafiq məlumatlar verir və onları düşmənə nifrət hissi aşılayır. Uşaqlarda Xocalı soyqırımı haqqında geniş anlayışın yaradılması məqsədi ilə bu barədə onlara ətraflı məlumat verilməlidir. Şəhidlərin xatirəsi əziz tutulmaqla uşaqları mərdlik, mübarizlik və qəhrəmanlıq ruhunda tərbiyə etmək zəruridir. Çünki indi müstəqil Azərbaycan Respublikasının həyati gerçəkliyi uşaqlarda yüksək mənəvi dəyərlərin, o cümlədən birlik, həmrəylik, qeyrətlilik, Vətən, xalq və doğma torpağa bağlılıq, Milli Orduya məhəbbət, düşmənə nifrət və digər keyfiyyətlərin daha yüksək səviyyədə tərbiyə olunmasını tələb edir. Bir də ölməz şairimiz S.Vurğun demişkən, "Bədii söz uşaq qəlbini bahar kimi şəfəqləndirməyi bacardığı kimi, onu zülmətlər, tufanlar və fırtınalardan keçirmək, mübarizə, inkişaf və tərəqqiyə hazırlamalıdır. Uşaqlarımız sevinməklə yanaşı, pərişan olmaq və gülməklə yanaşı, ağlamaq və mütəəssir olmağa da alışmalıdırlar". Xüsusən, xalqımızın milli istiqlaliyyət uğrunda apardığı mübarizə erməni faşizminin alçaq cinayətkarlığı məktəbəqədər dövrdən uşaqlara aydın başa salınmalıdır. Milli qəhrəmanlar, şəhid oğul və qızlarımızın döyüş şücaətləri, Dağlıq Qarabağ, Xocalı qırğını, Şuşa və Laçına dair yazılmış əsərlərdən uşaq bağçalarında keçirilən tədbirlərdə yerli-yerində istifadə edilməlidir.

Uşaq bağçalarında çalışan tərbiyəçilər tarixi tədbirlər hazırlayan zaman bədii əsərlərdən istifadə edərkən Səməd Vurğunun vaxtilə dediyi kimi "Xalqımızın varlığını sadəcə ardıcıl bir şəkildə keçmək deyil, onun mənəvi həyatını böyük vüqar və iftixar hissi ilə tərənnüm etməlidir". Bu o deməkdir ki, orta, yaxud böyük qruplardakı uşaqlar (məktəbəqədər yaşlı uşaq) Vaqifin böyük bir şair olması və Cavanşirin böyük bir qəhrəman olmasını öyrəndiyi zaman onların azərbaycanlı olmaları və Azərbaycan torpağında yazıb-yaradılmaları ilə fəxr etməlidirlər. Belə olduqda hər bir söhbət pedaqojiləşərək öz vəzifəsini daha yaxşı yerinə yetirmiş olur. "Uşaq xəyalı ağ buludlarların cərəyanına qoşulub uçur, aydın gecələrdə sayrışan ulduzlar içində gəzib səyahət edir, ayla qalxır, günəşlə doğur, dərin dəryalarda qəvvas kimi üzür, keçilməz ormanlardan, dağlıq və qayalıqlardan öz zəif ayaqları ilə keçir, şirlər və pələnglərlə pəncələşir".

**Məişət bayramları.** İctimai-siyasi bayramlardan fərqli olaraq, birinci növbədə, hər ailədə milli ənənə kimi yüksək səviyyədə qeyd edirlər. Belə bayramlara Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı və s. aiddir. Bu bayramların hər birinin özünəməxsus qeydetmə xüsusiyyətləri vardır. Uşaq bağçalarında qeyd olunan hər bir bayram şənliyinin məqsədi, birinci növbədə, uşaqlarda sevinc, fərəh, iftixar və digər nikbin hisləri

formalaşdırmaq və bu bayramlar haqqında onlarda müvafiq bilik və anlayış yaratmaqla milli adət-ənənələri yaşatmaq ruhunda tərbiyə etməkdir. Bu məqsədlə uşaq bağçalarında qeyd olunan hər bir bayram şənliyi məzmun etibarilə maraqlı və dolğun olmalıdır.

Məktəbəqədər yaşlı uşaqlara yüksək sevinc və fərəh gətirən bayramlardan biri “Yeni il” bayramıdır. Uşaqlar al-əlvan oyuncaqlarla bəzədilmiş şam ağacı və Şaxta babanı çox sevirlər. Şam ağacı ətrafında dövrə vurub oynamaq və mahnı oxumağı uşaqlar çox xoşlayırlar. Bu məqsədlə uşaqlara tapşırılan hər bir mahnı və şeiri onlar böyük həvəslə öyrənməyə çalışırlar. Ona görə də tərbiyəçi uşaqların bu istəyindən səmərəli istifadə edərək onlara çoxlu mahnı və şeirlər öyrətməlidir.

Yeni il bayramına hazırlıq ərəfəsində uşaqlara M.Seyidzadənin “Yolkamız”, “Qış baba”, Ə.Cəmilin “Şaxta baba xoş gəlib”, T.Mütəllibovun “Şən yolka”, “Qış”, Ə.Ə.Əlibəylinin “Şaxta baba”, M.Dilbazinin “Yolka bayramı”, “Təzə il nəğməsi”, “Qış” və Zeynal Xəlilin “Yeni il” şeirlərini öyrətmək çox faydalıdır. Şeir və mahnıları öyrənmək və onları oxumaq uşaqların nitqi, vokal qabiliyyəti, estetik zövqü, mədəni davranışı, bədii fəaliyyəti, həssaslığı və digər əqli keyfiyyətlərini inkişaf etdirir.

Milli məişətimizdə ən geniş qeyd olunan bayram Novruz bayramıdır. Novruz bayramı çox qədim tarixə malikdir, çünki bu bayramı bizim ulularımız öz adət ənənələri üzrə çox təntənə ilə qeyd etmişlər. Qabaqcıl uşaq bağçalarında Novruz bayramı daha maraqlı keçirilir. Bayrama iki həftə qalmış, yəni su çərşənbəsi günündən başlayaraq bayrama xüsusi hazırlıq işləri görülür. Uşaqlara bayram haqqında maraqlı söhbətlər edilir, mahnılar oxunur, şeirlər öyrədilir və ssenari əsasında müxtəlif bayram tamaşaları hazırlanır. Tamaşa zamanı mahnı oxuya-oxuya “Səməni xonçası” və “Sünbül xonçası”gəzdirilir, “Kosa-kosa” və “Qodu-qodu” oyunları göstərilir, Bahar qız haqqında şeirlər oxunur və şən rəqslər edilir. A.Səhhətin “Yaz günləri”, “Əziz qonaqlar”, A.Şaiqin “Kəpənək”, “Bənövşə”, M.Ə.Sabirin “Yaz günləri”, S.Vurğunun “Bahar nəğməsi”, Z.Cabbarzadənin “Bahar gəlir”, X.Əlibəylinin “Qızılgül” və başqa şairlərin şeirləri uşaqların dilinin əzbəri olur.

**Mövsümi bayramlar.** Bu şənliklər ilin fəsilləri ilə bağlıdır. Məsələn: baharın gəlişi, yay istirahət düşərgəsinin açılması və qışın gəlişi ilə bağlı keçirilən şənliklər uşaqlar üçün faydalıdır.

Uşaq bağçalarında keçirilən hər bir tədbir və bayram şənliyi uşaqları təbiət, adət ənənələrimiz və tariximizlə yaxından tanış edir və onların dünyagörüşlərini formalaşdırır. Yüksək milli-mənəvi dəyərlərlə tərbiyə olunmasına güclü təsir göstərir.

Yüksək tərbiyəvi əhəmiyyət kəsb edən bayram şənliklərinə məqsədyönlü hazırlaşmaq və səmərəli həyata keçirilməsində mühüm pedaqoji şərtlərə düzgün əməl olunması çox vacibdir:

- Bayram şənliklərinin məzmunu ideyalılıq və bədii cəhətdən təsirliliyi baxımından, düzgün müəyyən olunmalıdır;
- Bayram şənlikləri uşaqlarda marağın artırılması və şüurlu fəaliyyətin inkişafına xidmət etməlidir;
- Bayram şənlikləri incəsənətin müxtəlif sahələri üzrə uşaqlarda müvafiq bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasına xidmət etməlidir;

- Bayram şənlikləri uşaqlarda milli-mənəvi dəyərlərin formalaşdırılmasına zəmin yaratmalıdır;
- Bayram şənliklərinin məzmun və məqsədi uşaqların anlama səviyyəsinə uyğun və tam aydın olmalıdır.

**Əyləncələr**

Uşaq bağçalarında bayramlardan başqa əyləncələr də keçirilir. Əyləncələr də bayramlar kimi uşaqların həyatında yadda qalan hadisədir. Əyləncələrin əsas məqsədi uşaqlara sevinc və şadlıq gətirməkdir. Eyni zamanda uşağın təəssüratları zənginləşir və bu da böyük təlim-tərbiyəvi əhəmiyyətə malikdir.

Əyləncələrin ən geniş yayılmış formalarından biri kukla teatrıdır. Kukla teatrı öz məzmun və maraqlılığı etibarı ilə uşaqları özünə cəlb edir. Onların əqli tərbiyəsində mühüm yer tutur. Məktəbəqədər yaş dövrünün sonunda uşaqların zövqü və marağı daha geniş formalaşır, və onlarda həyati hadisələrə müəyyən münasibətlər yaranmağa başlayır. Onlar çox emosional olurlar. Teatrdakı bədii surətlər onların diqqətini özünə cəlb edir. Kukla teatrları vasitəsilə dünyagörüşləri artır və gördükləri hadisələr uzun müddət yadda qalıb onların hafizəsində canlanır. Onlar teatra tamaşa etdikdən sonra teatrdan aldıqları təəssüratları ata və anaları, bacı və qardaşları və yaşıdlarına danışırlar. Tamaşaya baxdıqdan sonra uşaqlar gördüklərini ümumiləşdirib qısa məzmununu söyləyirlər.

Əyləncələrin uşaqların tərbiyəsində əhəmiyyəti nəzərə alınaraq uşaq bağçalarında keçirilməsinə diqqət yetirilməsi lazımdır. Lakin çox təəssüflə deyə bilərik ki, uşaq bağçalarında uşaqlara əyləncələr çox az və bəzən də heç göstərilmir. Unutmaq olmaz ki, Uşaq bağçasının tərbiyə-təlim proqramında əyləncələrin bütün formaları nəzərdə tutulub. Ondan istifadə etmək hər bir tərbiyəçinin öz ixtiyarına verilib. Tərbiyəçi çalışmalıdır ki, günün hər bir vaxtından istifadə edərək işini səmərəli təşkil etsin. Uşaqlar maraqlı tərbiyə vasitələrindən istifadə edərək bağçaya cəlb edilməklə yanaşı, onların əqli inkişafının qayğısına qalmaq da mühüm əhəmiyyət kəsb edir.

## Tələbələr üçün fəaliyyətlər

1. Bayramların təşkili xüsusiyyətlərini cədvələ uyğun təsvir edin:

| İctimai-siyasi bayramlar | Məişət bayramları | Mövsümü bayramlar |
|---|---|---|
| | | |

2. Ziqzaq təlim texnikasından istifadə edərək verilmiş mətni təhlil edin və fikirlərinizi bölüşün.

3. Kazusların oxunması. Aşağıda verilən kazusu-problemi araşdırın və müzakirə edin.

Anaları bayrama dəvət etməzdən əvvəl orta qrupun uşaqları otağı necə bəzəyəcəkləri və dəvətləri necə təşkil edəcəyini müzakirə etdilər. Axşam dəvətnamə kartları hazırlamağa başladılar. Müəllimə Sevincə yaxın gəldi və qız səssizcə boş vərəq çıxardı. "Anana nə yazacaqsan?" deyə tərbiyəçi soruşdu. Qız susdu.

Müəllimə nə etməlidir?

- Uşağa düşünməyə imkan verməli;
- Digər uşaqların dediklərini dinləməyi təklif etməli.

4. Məktəbəqədər təhsil müəssisələrində bayram ssenarisi üçün təkliflər hazırlayın.

5. Aşağıdakı suallar ətrafında müzakirələr aparın:
   - Bayram necə təşkil olunur?
   - Bayramların psixoloji əsasları hansılardır?
   - Bayramların pedaqoji əsasları hansılardır?
   - Bayramların təşkili üçün hansı parametrlər vardır?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Müxtəlif əyləncə, tamaşa və bayramların ssenarisini hazırlayır".**

1. Seçdiyiniz hər hansı bayram ssenarisini hazırlayın.
2. Aşağıdakı cədvələ bayramlardan gözləntilər və resursları qeyd edin:

| | **Gözləntilər** | **Resurslar** |
|---|---|---|
| İctimai-siyasi bayramlar | -<br>- | -<br>- |
| Məişət bayramları | -<br>- | -<br>- |
| Mövsümi bayramlar | -<br>- | -<br>- |

3. Yüksək tərbiyəvi əhəmiyyət kəsb edən bayram şənliklərinə məqsədyönlü hazırlaşmaq və onu səmərəli həyata keçirmək üçün mühüm pedaqoji şərtləri seçin:
   1. Bayram şənliklərinin məzmunu ideallılıq və bədii cəhətdən düzgün müəyyən olunmalıdır;
   2. Bayram şənlikləri uşaqlarda marağın artırılması və şüurlu fəaliyyətin inkişafına xidmət etməlidir;
   3. Bayram şənlikləri incəsənətin müxtəlif sahələri üzrə uşaqlarda müvafiq bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasına xidmət etməlidir;
   4. Bayram şənlikləri uşaqlarda milli-mənəvi dəyərlərin formalaşdırılmasına zəmin yaratmalıdır;
   5. Bayram şənliklərinin məzmun və məqsədi uşaqların anlama səviyyəsinə tam uyğun olmalıdır;
   6. Bayram, həmçinin mühüm bədii vasitəsidir;
   7. Bayram və şənliklər uşaqlarda məşğulluq, sevinc, fərəh və iftixar hissinin yaradılması məqsədi ilə həyata keçirilən təntənəli tədbirlərdir.

A) 1, 2, 3, 4, 5;
B) 3, 4, 5, 6, 7;

## 3.2. Uşağın meyil, maraq və qabiliyyətlərini nəzərə alaraq təsviri fəaliyyət məşğələləri hazırlayır

Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hislər və zövq, bədii yaradıcılıq qabiliyyətləri və ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağıl, musiqi fəaliyyətində melodiya və mahnıların dinlənilməsi, uşağın musiqi alətlərində ifa etməsi və rəqs məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır. Yaradıcı əməli fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları və digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Estetik tərbiyə, həmçinin təbiət, ətraf mühit, insanların hərəkətləri və geyimdə gözəlliyi görmək bacarığı və yaradıcı qabiliyyətlərin formalaşdırılmasına (musiqi duyumu və təsviri fəaliyyət) imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafı və insani hislərin təkmilləşdirilməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur.

Uşaqlar təsviri fəaliyyət və quraşdırma (Şəkil 3.4 və Şəkil 3.5) məşğələlərində əşyaların düşünülmüş təsvirini əks etdirmək üçün öyrəndikləri metod və üsulları tam tətbiq etməyi bacarmırlar. Rəsm çəkmə prosesində uşağın təsəvvürlərinə görə qrafik obrazlarla təsvir olunan material kağız üzərində olduğu kimi görünür. Tədricən o, təsvir edəcəyi əşyaya uyğun oxşar cizginin və ştrixlərin sayını artırır və əşyanın nisbətən canlı təsvirini verir.



**Şəkil 3.4. Yapma**



**Şəkil 3.5. Dulusçuluq**

Bu yaşda uşağın psixi proseslərinin inkişafında mühüm dəyişikliklər baş verir. Oyun, rəsm çəkmə, quraşdırma və əmək prosesində uşaq əşyaların xüsusiyyətləri ilə tanış olur və qavrayış, təsəvvür, təxəyyül və təfəkkürü inkişaf edir. Onda əyani-obrazlı təfəkkür üstünlük təşkil edir. Bunun köməyi ilə uşaq əşyaları təkcə xarici oxşarlığına görə deyil, həm də onlardan harada istifadə olunmasına görə ümumiləşdirir. Belə təsəvvürlər əsasında əşyaların nədən hazırlanmasına, əhəmiyyətinə, əlamət və keyfiyyətlərinə görə qruplaşdırır və onda hər şeyi öyrənmək həvəsi güclənir. O, tədricən hadisənin səbəbləri ilə maraqlanır və saysız-hesabsız suallar verir. Bu yaşda uşağın nitqinin inkişafında mühüm dəyişikliklər baş verir: Söz ehtiyatı sürətlə zənginləşir və ətraf mühitdəki əşya və hadisələr haqqında təsəvvürləri genişlənir.

Bədii fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları və digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Təbiət, ətraf mühit, insanların hərəkətləri və geyimdə gözəlliyi görmək bacarığını tərbiyə etmək və yaradıcı qabiliyyəti (musiqi duyumu və təsviri fəaliyyət) inkişaf etdirmək məqsədəuyğundur. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafı və insani hislərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Bunun da təməli erkən yaş dövründə qoyulur.

Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

- Uşağın bədii fəaliyyətdəki iştirakını təmin etməklə yanaşı, incəsənət əsərlərinin qavranılması;
- İncəsənət əsərlərinə emosional münasibətin təzahürü üçün şəraitin yaradılması;
- Böyüklər tərəfindən oxuma, rəsmlərin çəkilməsinə və s. uşaqların diqqətinin cəlb olunması;
- Uşaqlar tərəfindən böyükləri təqlid etməyə həvəsləndirmək və birlikdə icra etmək.

Təsviri fəaliyyət rəsm, yapma, kəsib-yapışdırma və quraşdırma məşğələlərindən ibarətdir.

**Məşğələ 1**

Standart:

3.1.2. Rəng çalarlarını fərqləndirir.

3.1.1. Kəsib-yapışdırma (hazır və kəsdiyi kağızlar, təbiət və tullantı materiallardan sujetli-dekorativ təsvirlər yaratmaq) bacarıqları nümayiş etdirir.

Mövzu: Vazada güllər.

Məqsəd: Güllər haqqında danışır; müxtəlif kəsmə üsullardan istifadə edərək kompozisiyalar qurur.

İnteqrasiya:

2.1.4. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək nəticə çıxarır.

4.2.3. Problemin həllində müxtəlif üsullardan istifadə edir.

İş forması: kollektiv, fərdi və cütlərlə.

İş üsulu: əqli hücum, müzakirə və suallar.

Resurslar: uşaqlar üçün vəsait, rəngli kağızlar, yapışqan, albom vərəqi, qayçı və şəkillər.

Məşğələnin gedişi:
Motivasiya: Tərbiyəçi çəmənlik şəkli göstərir və soruşur:
Bura haradır?
Çəmənlikdə nələr görürsünüz?
Gülləri sevirsinizmi?
Cavablar dinlənilir.
Dərketmə mərhələsi: Çəmənlikdə nə rəngdə güllər görürsünüz?
Gülləri sevirsinizmi?
Heç çəmənlikdən gül toplamısınızmı?
Uşaqlarla rənglər müzakirə edilir. Vaza və güllərin rəngi seçilir.
Daha sonra vaza və güllərin kəsilmə qaydası göstərilir. Tərbiyəçi-müəllim nümunə hazırlayır.
Təqdimetmə mərhələsi:
Uşaqlar cütlərə bölünür. "Vazada güllər" şəklinə baxılaraq rəngli kağızlardan kəsib-yapışdırılmaqla həmin şəklə oxşar güllər düzəldilir.
Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Məşğələ 2**

Standart:
3.1.2. Rəng çalarlarını fərqləndirir.
3.1.3. Kəsib-yapışdırma (hazır və kəsdiyi kağızlar, təbiət və tullantı materiallardan sujetli-dekorativ təsvirlər yaratmaq) bacarıqları nümayiş etdirir.
Mövzu: Kirpi
Məqsəd: Kirpi hazırlamaq üçün lazımi ardıcıllığı müəyyənləşdirir.
Kirpi aplikasıyası düzəldir.
İnteqrasiya:
2.1.4. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək nəticə çıxarır.
3.2.2. Kollektiv əməkdə (tapşırıqları təbiətdə və qrup qaydalara uyğun yerinə yetirir) iştirak edir, təşəbbüslər irəli sürür və tapşırıqları yerinə yetirir.
İş forması: kollektiv, fərdi və cütlərlə.
İş üsulu: əqli hücum, müzakirə, rəngli kağızlar, yapışqan, qayçı və şəkillər.
Məşğələnin gedişi:
Aktuallaşdırma: Tərbiyəçi: uşaqlar sizə bir tapmaca deyəcəyəm. Tapın, görək, o nədir?
Yatanda yumru yatar
Ətinə dərman qatar
Kim istəsə, tutmağa
Əlinə tikan batar?
Dərketmə mərhələsi: Uşaqlar heç kirpi görmüsünüz?
Kirpinin tikanları nə işə yarayır?
Kirpinin ətində dərman olduğunu bilirdinizmi?
Tapşırıq 1 yerinə yetirilir.
Tərbiyəçi-müəllim kirpi aplikasiyası yaratmaq üçün lazım olan ardıcıllığı izah edir.

Təqdimetmə mərhələsi:

Tərbiyəçi lövhəyə kirpi aplikasiyası yapışdırır və deyir: "Uşaqlar gəlin nümunəyə uyğun fərdi şəkildə kirpi düzəldək və payız fəsli rəsminə yapışdıraq".

Tərbiyəçi məşğələni ümumiləşdirərək yekunlaşdırır.

**Məşğələ 3**

Standart:

3.1.2. Rəng çalarlarını fərqləndirir.

3.1.3. Kəsib-yapışdırma (hazır və kəsdiyi kağızlar, təbiət və tullantı materiallardan sujetli-dekorativ təsvirlər yaratmaq) bacarıqları nümayiş etdirir.

Mövzu: Rəngli kəpənək

Məqsəd: Rəngli kəpənək kəsib yapışdırmaq üçün lazımi ardıcıllığı müəyyənləşdirir.

Alətlərindən təyinatına görə istifadə edir.

İnteqrasiya:

2.1.4. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək nəticə çıxarır.

2.2.6. Nitqində əlamət, keyfiyyət və hiss bildirən sözlərdən istifadə edir.

İş forması: kollektiv və qruplarla.

İş üsulu: əqli hücum, suallar və müzakirə.

Resurslar: uşaqlar üçün vəsait, rəngli kağızlar, qayçı, yapışqan və şəkillər.

Məşğələnin gedişi:

Motivasiya: Kəpənək mahnısı dinlənilir.

Tərbiyəçi:

- Uşaqlar heç güllərin üstünə kəpənəklər qonarkən görmüsünüz?
- Kəpənəklər ən çox hansı fəsillərdə uçur?

Suallar dinlənilir və yeni mövzuya keçid edilir.

Dərketmə mərhələsi: Uşaqlar, kəpənəklər hansı rəngdə olur?

- Kəpənəklər haqqında nə eşitmisiniz?
- Kəpənəklər ən çox harada olur?

Kəpənəyin düzülmə ardıcıllığı uşaqlarla birlikdə müəyyən edilir. Nümunə hazırlanır və lövhədən asılır.

Tədbiqetmə mərhələsi:

Uşaqlar fərdi olaraq tapşırıq 2-ni yerinə yetirirlər. Kəpənək əvvəl düzəldilən gülün üstünə yapışdırılır. Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

## Tələbələr üçün fəaliyyətlər

1. Söz-söhbət (Buzz)* qrupları yaradaraq "Uşağın meyil, maraq və qabiliyyətlərini nəzərə alaraq təsviri fəaliyyət məşğələləri hazırlanması" mövzusunda müzakirə aparın.

   ***Qeyd:** Buzz - dörd və ya altı nəfərdən ibarət alt-qruplar şəxs tərəfindən qaldırılmış məsələ və ya verilmiş sual ətrafında beş dəqiqəlik bir müddət ərzində müzakirələr aparır və sonra bunu auditoriya ilə bölüşür.

2. Mühazirələrdən istifadə edərək uşağın meyil, maraq və qabiliyyətlərini müəyyən edən cədvəli işləyin:

Nəzərə alınmalı suallar:

1. Təsviri fəaliyyət məşğələsini yaratmaq üçün sizin istifadə edə biləcəyiniz hazır olan hər hansı materiallar varmı?
2. Onlar hansılardır?
3. Bu materialları daha faydalı və münasib etmək üçün nəyə ehtiyac vardır?

Sizin daha hansı yeni materiallar hazırlanmasına ehtiyacınız vardır?

| **Meyil** | **Maraq** | **Qabiliyyət** | **Məntiqi izahı/əsaslandırma** |
|---|---|---|---|
| | | | |

3. Təsviri fəaliyyət məşğələsini qurmaq üçün psixoloji-pedaqoji tələblər işləyin:

| Çeviklik | |
|---|---|
| Üstünlükləri | Çatışmazlıqları |

| Çoxfunksiyalılıq | |
|---|---|
| Üstünlükləri | Çatışmazlıqları |
| | |

## Qiymətləndirmə

1. İş planını düşünərək müəllim oktyabr ayında aşağıdakı tədbirləri keçirməyi planlaşdırdı: Tərəvəz mağazasına ekskursiya; payız parkında gəzinti; payız haqqında şeir və mahnılar öyrənmək; "Axşam şəhər küçəsi", "Payız parkı" mövzularında rəsm və aplikasiya məşğələləri.
   Müəllim uşaqlarla işləyərkən hansı vəzifələri izah etdi? İş planını hazırlayaraq tapşırığı necə formalaşdırmaq olar? Təsviri fəaliyyət üzrə eyni mövzularda plan tərtib edin.

2. Məktəbəhazırlıq qrupunda şəkil çəkməzdən əvvəl müəllim bitkinin bəzi hissələrinin daha açıq, digərlərinin isə tünd olmasına diqqəti cəlb edərək bitkinin müşahidəsini təşkil etdi. Şəkildə bunun necə təsvir olunacağını göstərdi.
   Uşaqların işlərini izləyən müəllim Şöhrətin təbiət tonlarının nisbətini çatdırmağı unutduğunu gördü. Müəllimə nə etməlidir?
   - Oğlana səhv olduğunu deməli;
   - Məşğələ zamanı bütün uşaqların diqqətini Şöhrətin səhvinə yönəltmək;
   - Hər kəs rəsmini bitirdikdən sonra onun rəsmini digər uşaqların rəsmləri ilə müqayisə etmək.
   - Sizin seçiminiz necə olardı?

3. Təsviri fəaliyyət məşğələsinin mərhələlərini qeyd edin.

## 3.3. Musiqi, əmək və təsviri fəaliyyət üçün nümunəvi vəsaitlər hazırlayır

### Musiqi fəaliyyəti üçün nümunəvi vəsaitlərin hazırlanması

İki yaşlı uşaqlar musiqi və bədii sözə qarşı çox həssas olurlar. Onlar böyük məmnuniyyətlə sadə nağıllar və mahnıları dinləyir, böyüklər oxuyarkən onlara qoşulur və özləri sevdikləri mahnını oxuyur və rəqs edirlər. Ritm, intonasiya və şeirlərin ahənginə həssaslıq artır. Hərəkətləri musiqiyə uyğun uzlaşdırmaq qabiliyyəti yüksəlir və musiqi sədaları altında elementar ritmik və müxtəlif hərəkətlər yaranır. Bu dövrdə bədii fəaliyyət üçün zəmin formalaşdırılır və onu mənimsəməyin ilkin cəhdləri müşahidə edilir ("Maşın çəkəcəyəm"). Sadalanan bütün keyfiyyətlər uşaqları yeni inkişaf dövrünə hazırlayır.

Dörd yaşında uşaqda bədii nümunələri praktik şəkildə mənimsəmə qabiliyyəti artır, şeirlər və nağılları dinləməyi xoşlayır və yaşıdlarının nitqini təqlid etməyə çalışır.

Bu dövrdə uşaqda musiqini dinləmək və qavramağa emosional həssaslıq artır. Musiqi əsərlərindəki ziddiyyəti (şən və sakit) fərqləndirir və tanış nəğmələr adlandırır. Ucadan səslənən musiqi alətlərini tembrinə görə fərqləndirir. Səsini tərbiyəçi-müəllimin səsinə uyğunlaşdıraraq ucadan oxuyur.

Beşyaşlıda əxlaqi estetik hislər inkişaf edir. Mahnını təhrif etmədən oxumaq və ədəbi əsərin qəhrəmanına düzgün münasibət bəsləmək bacarığı yaranır. O, melodiyanın ritmi və musiqi alətlərinin müxtəlif tembrlərini dərk edir və bəzi mahnılar və şeiri yadda saxlamaq və ifadəli oxumağı bacarır.

Məktəbəhazırlığın psixodiaqnostikasında ən az müraciət olunan sahələrdən biri uşaqların musiqi qabiliyyətləridir. Psixologiyada ən ümumi qabiliyyətlər kateqoriyasına musiqi qabiliyyətləri də daxil edilir. Uşağın ümumi psixoloji hazırlığı və şəxsiyyətin formalaşmasında musiqi qabiliyyətləri mühüm rol oynayır, lakin təcrübədə bu amildən digər sensor etalonlar qədər istifadə edilmir.

Musiqi qabiliyyəti uşağın yaradıcı imkanları və dərketmə bacarığının mühüm göstəricilərindən biridir. Musiqi qabiliyyətlərinin birləşdirilməsi musiqi duyumu yaradır. Musiqi duyumu uşağın əqli və emosional imkanları, təxəyyül zənginliyi, fantaziyası və yaradıcılıq imkanlarının kompleks göstəricisidir. Burada əsas amil musiqiyə emosional həssaslıqdır. Təcrübədə uşağın musiqi qabiliyyətlərini aşağıdakı göstəricilər əsasında müəyyənləşdirmək mümkündür. Bu qabiliyyətlərə:

- Musiqini melodiyasına, tembrinə, dinamikasına və ritminə görə sensor dərketmə qabiliyyəti;
- İntellektual qabiliyyətlər musiqi təfəkkürünün reproduktiv komponentləri;
- Musiqi hafizəsi;
- Səs yüksəkliyi və ritmin qavranılması;
- Ritmik hərəkətlərin asan icrası;
- Musiqi həssaslığı;
- Melodiyanın qavranılması;
- Musiqiyə qarşı emosional həssaslıq.

Musiqi duyumunun müəyyən olunmasında bir sıra metodlardan istifadə olunur. Onların tətbiqində aşağıdakı tələblər gözlənilir:

1. Uşaqların musiqi qabiliyyətinin diaqnostikasında oyunlardan istifadə etmək;
2. Musiqiyə qarşı emosional həssaslığın səviyyəsini müəyyən edərkən musiqiyə bələdləşmənin aktiv lik dərəcəsini aydınlaşdırarkən milli musiqi janrlarından istifadə olunmasına üstünlük vermək və uşağın ailə təcrübəsi və etnik mənşəyini nəzərə almaq;
3. Musiqi duyumunu yaş xüsusiyyətlərinə görə müəyyən etmək;
4. Musiqinin sensor xassələrini ayırd etmək bacarığını öyrənmək.

Göstərilən məsələlərlə bağlı olaraq çoxsaylı psixodiaqnostik nümunələr işlənmişdir. Onların köməyilə konkret nəticələr əldə etmək mümkündür.

**Musiqi üzrə məşğələ nümunəsi:**

Standartlar:

3.2.1. Musiqini dinləyərək xarakterinə, janrına, melodiyasına, ritminə, səs tonuna və müəyyən hissəsinə görə fərqləndirir, ifaçılıq (solo və xorla oxumaq, ritmik hərəkətləri yerinə yetirmək, uşaq musiqi alətlərində tək və ansamblda ifa etmək) bacarıqları nümayiş etdirir.

3.2.2. Müstəqil yaradıcılıq (təsviri fəaliyyət, musiqi və konstruktiv fəaliyyət və rolların ifası) qabiliyyətləri nümayiş etdirir.

Mövzu: «Məktəbə gedəcəyəm» (musiqisi O. Zülfüqarov, sözləri İ.Tapdıq).

Məqsədlər:

- Dinlədiyi musiqi nümunələrinin xarakteri və ritmini müəyyən edir.
- Mahnıları solo və xorla oxumaq və yaradıcılıq bacarıqlarını nümayiş etdirir.
- Musiqiyə uyğun ritmik hərəkətləri yerinə yetirir.

İnteqrasiya:

1.3.2. Fəaliyyət zamanı hərəki qabiliyyətlər nümayiş etdirir.

2.1.1. Dinləyib-anladığı fikirlərə münasibət bildirir.

4.2.2. Özünü qrupun üzvi kimi göstərməyə cəhd edir.

İş formaları: fərdi, kollektiv və qruplarla iş

Metodlar və üsullar: süjetli-rollu oyunlar, sual-cavab və müzakirə.

Resurslar: «Cücələrim» mahnısının məzmununa uyğun, əlində çanta məktəbə gedən uşaq şəkilləri, video-çarx, kompüter və proyektor.

Musiqi repertuarı:

I. Marş: «Şelkunçik» baletindən «Marş». (P.İ.Çaykovski).

II. Dinləmə: «Cücələrim» mahnısı (musiqisi Q.Hüseynli, sözləri T.Mütəllibov).

III. Mahnı: «Məktəbə gedəcəyəm» mahnısı (musiqisi O. Zülfüqarov, sözləri İ.Tapdıq).

IV. Musiqili-ritmik hərəkətlər: «Mən rəqs edirəm», «Gülgəzi», Azərbaycan xalq rəqsi.

**Məşğələnin gedişi**

«Şelkunçik» baletindən «Marş». P.İ.Çaykovski.

Motivasiya:

Musiqisi Q.Hüseynliyə, sözləri T. Mütəllibova məxsus «Cücələrim» mahnısı (solo və xor) səsləndirilir.

Suallar:

- Dinlədiyiniz musiqi sizə tanışdırmı?
- Mahnıda nədən bəhs olunur?
- Mahnı necə ifa olundu?

Solo və xor ifa haqqında məlumat yada salınır.

- Bütün mahnıları solo və xorla ifa etmək olarmı?

Uşaqların fikirləri dinlənilir.

**Dərketmə mərhələsi.**

- «Məktəbə gedəcəyəm» (musiqisi O. Zülfüqarova, sözləri İ. Tapdığa məxsus) mahnısı öyrədilir.
- «Cücələrim» (musiqisi Q. Hüseynliyə, sözləri İ. Tapdığa məxsus) mahnısı (solo və xor) səsləndirilir, ifa tərzi müzakirə olunur.
- «Gülgəzi» Azərbaycan xalq rəqsi səsləndirilir, rəqsin elementləri öyrədilir.

**Tədbiqetmə.**

- «Məktəbə gedəcəyəm» mahnısı solo və xorla ifa olunur, ritmi əl çalmaqla müşayiət edilir.
- Musiqisi Q.Hüseynliyə, sözləri T. Mütəllibova məxsus «Cücələrim» mahnısı (solo və xor) səsləndirilir, məzmunu və xarakteri müzakirə olunur.
- «Gülgəzi» rəqsinin elementləri yerinə yetirilir.

Məşğələ ümumiləşdirilərək yekunlaşdırılır.

**Əmək fəaliyyəti**

**1-2 yaş**

Məktəbəqədər yaşlı uşağın əsas fəaliyyət növü oyundur. Ancaq təlim-tərbiyə işini elə qurmaq lazımdır ki, bu yaşda uşaqda oyunla yanaşı, əməklə məşğul olmaq tələbatı da formalaşsın. Məktəbəqədər yaşlı uşaqlar böyüklərin əməyinə hələ körpə yaşlarından böyük maraq göstərir, uşaq oyunları və məişətdə onları təqlid edir və özləri də nə isə düzəltməyə səy göstərirlər. Uşaqlarda əməyə müsbət münasibət, əmək bacarıq və vərdişlərinin yaradılması üçün ətrafdakı böyüklərin canlı nümunəsi və onların əmək fəaliyyəti ilə bilavasitə təmasda olmaq mühüm əhəmiyyət kəsb edir. Odur ki, uşaqlarda əməyə maraq oyatmaq və bununla əlaqədar bu yaş dövründə aşağıdakı işləri aparmaq zəruridir:

- Əmək fəaliyyəti üçün lazım olan həyati və məişət əşyalarının göstərilməsi və adlandırılması;
- Gündəlik təsərrüfat-məişət əməyinin yollarının göstərilməsi;
- Oynadıqdan sonra oyuncaqları yığışdırmağın öyrədilməsi;
- Özünəxidmət bacarıqlarının formalaşdırılması.

Bədii fəaliyyət. Bədii fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür və ünsiyyət bacarıqları və digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Təbiət, ətraf mühit, insanların hərəkətləri və geyimdə gözəlliyi görmək bacarığını tərbiyə etmək və yaradıcı qabiliyyəti (musiqi duyumu, təsviri fəaliyyət) inkişaf etdirmək məqsədəuyğundur. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafı və insani hislərin təkmilləşdirilməsində mühüm rol oynayır. Bunun da təməli erkən yaş dövründə qoyulur.

Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

- Uşağın bədii fəaliyyətdəki iştirakını təmin etməklə incəsənət əsərlərinin qavranılması;
- İncəsənət əsərlərinə emosional münasibətin təzahürü üçün şəraitin yaradılması;
- Böyüklər tərəfindən oxuma, rəsmlərin çəkilməsi və s. uşaqların diqqətinin cəlb olunması;
- Uşaqlar tərəfindən böyükləri təqlid etməyə həvəsləndirmək və birlikdə icra etmək.

**2-3 yaş**

Əmək fəaliyyəti üzrə aşağıdakı istiqamətlərdə işlərin aparılması zəruridir:

- Özünəxidmət əməyi. Müstəqil səliqəli yemək yemə, soyunub-geyinmə və yuyunma bacarıqlarının aşılanması;
- Geyimlərindəki çatışmazlıqları görüb aradan qaldırılması üzrə vərdişlərin aşılanması;
- Təmizlik və gigiyena qaydalarına əməl edilməsinin öyrədilməsi;
- Məişət-təsərrüfat əməyi. Böyüklərin köməyi ilə nahar və məşğələ üçün masalara müvafiq ləvazimatlar və qab-qacağın düzülməsinin öyrədilməsi;
- Birgə əmək fəaliyyətinin təşkili.

Bədii fəaliyyət üzrə aşağıdakı işlərin aparılması zəruridir:

- Bədii fəaliyyətə qoşulma;
- Estetik təəssüratların genişləndirilməsi;
- İncəsənət əsərlərinə emosional cavab, onları bütünlüklə qavranılması imkanları və bədii bacarıqların inkişafı;
- Musiqi səslərinin xüsusiyyətlərinin mənimsənilməsində təsviri fəaliyyət əşyalarından (karandaş, kağız və s.) istifadə edilməsi.



**Şəkil 3.6. Əmək fəaliyyəti**

**3-4 yaş**

Əmək fəaliyyəti (Şəkil 3.6) üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Böyüklərin təsərrüfat-məişət və təbiətdə əməyinin müşahidəsinin təşkili və birgə təsərrüfat-məişət əməyinə cəlb edilməsi;

- Təsərrüfat-məişət əməyində istifadə edilən oyuncaqlarla (əmək alətləri ilə) iş üsullarının tətbiq edilməsi.

Bədii fəaliyyət üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

- İncəsənət nümunələri vasitəsi ilə uşağın dünyaya estetik münasibəti və bədii inkişafının formalaşdırılması;
- İncəsənət əsərlərinə emosional münasibət, təsviri fəaliyyət, musiqi və bədii-nitq fəaliyyəti şəraitində bədii bacarıqların inkişaf etdirilməsi.

**4-5 yaş**

Əmək fəaliyyəti üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Digərlərinə yardım istəyi və müstəqil fəallığa can atmanın dəstəklənməsi (Şəkil 3.7);
- Fəaliyyətin əsas növü qismində əməyin əhəmiyyətinin açılması və əmək müvəffəqiyyətlərinə görə qürur hissinin oyadılması;
- Əmək bacarıqlarının mənimsənilməsi prosesində vərdişlərin dəstəklənməsi;
- Uşaqların fərdi və birgə əmək fəaliyyətinin təşkili.



**Şəkil 3.7. Əməyin təbliği**

**5-6 yaş**

Əmək fəaliyyəti:

- Birgə və fərdi fəaliyyətdə tələbatın öyrənilməsi üçün imkanların yaradılması;
- Əmək bacarıqlarının formalaşdırılması, böyük və kiçik motor hərəkətlərinin inkişafı.

Bədii-yaradıcı fəaliyyət üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Bədii mədəniyyət və estetik şüurun əsaslarının formalaşdırılması;
- Ümumi və xüsusi bədii bacarıqların inkişafı, fərqləndirmə və müqayisə, xüsusiyyətlərinin ümumiləşdirilməsi və obrazın halına acıma əsasında fərqli qavramasının inkişafı;
- Müxtəlif bədii fəaliyyət prosesində müstəqillik və özünənəzarətin yardımı ilə bədii obrazın modelləşdirilməsi şəraitində subyektiv mövqe və özünüifadənin dəstəklənməsi;
- Bədii fəaliyyətə hissi mədəniyyət və yaradıcılıq münasibətlərinin aşılanması.

**Uşaq əməyinin təşkili formaları və xüsusiyyətləri**

Məktəbəqədər yaşlı uşaqların müxtəlif növ əməkdə fəaliyyəti formalardan asılı olaraq həyata keçirilir. Uşaqların əməli fəaliyyəti üç formada tapşırıq, növbətçilik və kollektiv formalarda keçirilməsi təlim məşğələlərinin məqsədindən asılıdır.

Uşaqların əmək fəaliyyətinin təşkilinin sadə forması tapşırıqların verilməsidir. Tərbiyəçi kiçik yaşlı uşaqların əmək fəaliyyətində planlı və müntəzəm məqsəd qoymadıqda tapşırıqlar daha faydalı əhəmiyyət kəsb edir. Kiçik yaşlarında uşaqlar öz fəaliyyətlərini, əsasən, oyunda reallaşdırdıqları üçün əmək tapşırıqlarına lazımi səviyyədə ciddi yanaşa bilmirlər. Bu sahədə şəxsi təşəbbüs göstərmək onlar üçün çətindir. Buna baxmayaraq, tərbiyəçi uşaqları əmək fəaliyyətinə təhrik etmək üçün müraciətlə nə isə bir iş görmələri, hər hansı əşyanı gətirmək, gülləri suvarmaq, balıqları yemləmək və s. xahiş edir.

Uşaqlara əmək tapşırıqlarının verilməsinin müəyyən xüsusiyyətləri vardır. Bura aiddir:

1. Tapşırıqların həmişə böyüklər tərəfindən verilməsi;
2. Nəticə əldə etmək üçün düzgün istiqamət verilməsi;
3. Tapşırıqların konkret müəyyənləşdirilməsi;
4. Uşaqlarla fərdi iş aparmaq üçün geniş imkan yaradılması.

Tapşırığın icrasında işin dəqiqliyi, uşağın vərdiş və bacarıqları, verilən tapşırığa münasibəti və işi axıra çatdıra bilmək səviyyəsinə tərbiyəçinin nəzarət etməsi asan deyildir.

Tapşırığın verilməsi fərdi kiçik qruplarla və iki-üç uşaqdan ibarət olmaqla və bəzən də kollektiv şəkildə həyata keçirilir:

1. Məzmun baxımından tapşırıqlar sadə və mürəkkəb;
2. İcraedilmə xarakterinə görə fərdi və ya birgə;
3. Yerinə yetirmə müddətinə görə epizodik, qısamüddətli və uzunmüddətli olur.

Tapşırıqlarda rəngarənglikdən istifadə etməklə uşaqların tərbiyə işində geniş şəkildə faydalanmağa tərbiyəçi nail olmalıdır.

Müşahidələr göstərir ki, uzunmüddətli tapşırıqlar uşaqlarda vərdişlərin formalaşdırılmasında xüsusi imkana malikdir. Tapşırıqlar uşaqlarda məsuliyyət hissini artırmaqla yanaşı, onların iki (oyun-əmək) fəaliyyət növünü tədricən ayırmaqda tərbiyəçiyə kömək edir. Ən sadə tapşırıqlar (nəyisə vermək, qaldırmaq, itələmək) belə oyundan fərqlənərək məqsədyönlüdür. Tapşırıq 3 yaşdan 5 yaşa qədər olan dövr üçün vacibdir. Tapşırıq daha çox günün birinci yarısı (səhər yeməyinə), yaxud ikinci yarısı üçün (gündüz yuxusundan sonra) təşkil edilir.

Yaxşı olar ki, uşaqlar daha erkən 1,5-2 yaşından sadə və gücü çatan işlərə cəlb edilsin. Uşağa "Oyuncağı gətir" və "Topu mənə gətir" kimi sadə tapşırıqlarda tərbiyəçi uşaqları məqsədyönlü həvəsləndirən və yaşlının tələblərini yerinə yetirmək bacarığını formalaşdırır. Kiçik qruplarda uşağı, əsasən, təbiət guşəsindəki əməklə bağlı rəngarəng tapşırıqlar, qrup otaqları və bağçanın sahəsində müxtəlif məişət-təsərrüfat əməyinin icrasına müntəzəm olaraq cəlb edilməsi üçün geniş imkan vardır.

Kiçik qrup uşaqlarının tapşırığı fərdi xarakter daşıyır. Tapşırıqlar pedaqoji və psixoloji baxımdan məqsədli olmalı və uşaqları faydalı əməyə sövq etdirməlidir. Burada əsas diqqət tapşırıqların məzmunu ilə şərtləndirilərək aşağıdakı amillərlə bağlıdır:

- Tərbiyəçinin maraq və həvəsi;
- Uşaq bağçası və qrupların mövcud şəraiti;

- Əmək tərbiyəsinin təşkili;
- Coğrafi şərait;
- Uşağın əməyinin pedaqoji prinsipi üzrə təşkili üzrə müəyyənləşdirilir (gücü çatmaq, pedaqoji məqsədəuyğunluq, təsir üsulu və onların miqdarı və mürəkkəbliyi).

Tapşırıqların mürəkkəbliyi işin miqdarı və əməyin əməliyyatlarından asılıdır. Tapşırığın digər xüsusiyyətlərini hərəkətlərin miqdarı, onları yerinə yetirmək üsulları və yekun vaxtı nəzərə alaraq qruplaşdırmaq lazımdır. Məsələn: Bir üsulla hərəkətin yerinə yetirilməsi ilə bağlı tapşırıqlar vermək, aparmaq, gətirmək, çəkmək, itələmək, qaldırmaq və s. aid etmək olar. Bunlar qısamüddətli epizodik tapşırıqlardır. Uşağa verilən sadə tapşırıqlar dərhal həllini tapmaqla onları ətraf aləmlə tez tanış olmaq, onları bir-birindən fərqləndirmək və lazım olandan məqsədyönlü istifadə etməyə imkan verir. Uşaqlarda belə tapşırıqlar cəldlik, çalışqanlıq, iradəlilik və digər keyfiyyətlər yaradır. Tərbiyəçi iş görərkən (kitab təmir edir) uşaqlar onun xahişi ilə ona lazım olan əşyalar və materialları (kağız, yapışqan, fırça, qayçı və s.) gətirirlər. Belə birgə əmək prosesində uşaqlar işin icrası üçün lazım olan material və alətlər, onlarla davranmaq qaydaları, xeyirxahlıq göstərmək və yaşlılaraköməklik etməyi öyrənirlər.

Bir üsulla icra olunan tapşırıqlardan fərqli olaraq ikinci qrupu bir neçə əmək əməliyyatı olan tapşırıqlar təşkil edir. Belə tapşırıqların icrası üçün uşaqlarda müəyyən əmək fəaliyyəti vərdişləri, iş üçün əlavə əşya və ya avadanlıq olmaqla, onlarla davranmaq, götürmək, sonda iş yerini yığışdırmaq, öz fəaliyyətini elementar şəkildə planlaşdırma bacarığı lazımdır. Məsələn: qəfəsi yumaq, heyvanları, balıqları, quşları yemləmək, otaq bitkilərini, güllüyü və dirriyi suvarmaq.

Üçüncü qrup tapşırıqlar uşaqlar tərəfindən dərhal yox, bir neçə dəfə təkrardan sonra nəticə ilə bağlı olan tapşırıqlardır. Məsələn: səpmək və əkmək. Belə tapşırıqlar böyük və məktəbə hazırlıq qruplarında tətbiq edilir.

Xüsusi qrupa daxil olan tapşırıqların nəticəsi görünmür. Məsələn: Səhər yeməyinin bu gün nə olacağını aşpazdan soruşmaq və canlı guşənin sakinlərindən quş, ev dovşanı üçün yem olub-olmadığını soruşmaq.

Tapşırıqların düzgün icrasına tərbiyəçi tərəfindən pedaqoji rəhbərlik uşağın əmək fəaliyyətinin məqsədinə uyğun olan düzgün nəticələrin qazanılmasına səbəb olur.

Uşaqlarla aparılan tərbiyəvi təhlil işlərində əmək tapşırıqlarının məzmununu əvvəlcədən planlaşdırmaq məqsədəuyğundur. Uşağın fəaliyyəti meyarlara (işi həvəslə axıra çatdırır, yaşlıları ilə işləməyi bacarır və s.) uyğun olaraq dəyərləndirilməlidir.

Uşaq əməyinin nisbətən (tapşırıqla müqayisədə) mürəkkəb təşkili forması növbətçilikdir. Uşaqdan müstəqillik tələb edən növbətçiliklə bağlı tapşırıqları tərbiyəçi ardıcıllıqla hissələrə bölməlidir. Uşaqlar tapşırıqları (salfetləri gətir, indi işə qaşıqları düz, çörəkqabını stolun üstünə qoy) ardıcıllıqla yerinə yetirməklə onlarda "Stolun üstünə süfrə salmaq"la bağlı ümumi bacarıq formalaşır.

Kiçik qrupda növbətçilik ilin axırında yeməkxanada keçirilə bilər. Bu zaman uşağa tapşırılır ki, özünün oturduğu stolun düzəldilməsində dayəyə köməklik etsin. Uşaq özü ilə eyni stolda oturan həmyaşıdları üçün stola qaşıqları paylayır və çörəkqabı, salfet, stəkan və

meyvə boşqablarını düzür. Uşaqların marağına istinad olunaraq tərbiyəçi onlarda vəzifə anlayışını başa düşmək imkanı yaradaraq aydınlıq gətirir. Burada əsas diqqət fəaliyyətlərində ardıcıllığın öyrənilməsinə yönəldilməlidir.

Orta qrupda növbətçilik ilin əvvəlində (sentyabr, oktyabr) həyata keçirilir. Tərbiyəçi məşğələlərə hazırlaşarkən uşaqların köməyindən istifadə edir. Nöbətçilərin sayı işin həcmindən asılıdır. Yay vaxtı dirrik və çiçəklikdə iş çox olduğuna görə tərbiyəçi növbətçilərin sayını artırmalıdır.

Böyük qruplarda uşaqların növbətçiliyi onların birləşməsi, müstəqillik və özünütəşkil, ictimai faydalılığının dərk edilməsi kimi keyfiyyətlərin tərbiyə olunması üzrə əməyin məzmunu formalaşdırılır.

Uşaqlar "Yeməkxana" üzrə məşğələyə hazırlıq, "Təbiət" guşəsi üzrə müntəzəm olaraq növbətçilik edirlər. Növbətçiliyin hər növü üzrə ən azı iki uşaq təyin olunur. Yeməkxana üzrə növbətçinin əməyinin məzmunu:

- Süfrənin tam düzəldilməsi;
- Stolun yığışdırılması.

Böyük qrupda: Təbiət guşəsində növbətçilik keçirilərkən onun əhəmiyyətini məşğələdə tərbiyəçi izah edərək:

- Canlı guşədə yeni nümunələr;
- Onlara qulluq etmə.

Məktəbəhazırlıq qrupunda növbətçilik işinin həcmi artırılır: Uşaqların əmək fəaliyyətinin təşkilində kollektiv əmək mühüm əhəmiyyət kəsb edir. Onun məzmununa daxildir:

- Qrup otağını yığışdırmaq;
- Sahəni səliqəyə salmaq;
- Dirrik və güllükdə seyrəltmə aparmaq;
- Tərəvəz və meyvə yığmaq;
- Otağı bəzəmək (bayramqabağı).

Uşaqların kollektiv əməkdə eyni vaxtda iştirakı tərbiyəçinin onlarla apardığı pedaqoji rəhbərlikdən çox asılıdır. İşi sadələşdirmək üçün uşaqlar böyük qruplara bölünməlidirlər. Əməkdə uşaqların birləşdirilməsi (əməkdaşlıq) ilə yanaşı, əmək, ümumi əmək, birgə əmək həyata keçirilməklə nail olunması mümkündür.

Tərbiyəçi bir neçə uşağa eyni vaxtda tez-tez fərdi tapşırıq verir. Uşaqlar sərbəst olaraq bir-birindən asılı olmayaraq yanaşı işləyirlər.

Uşaqlarda kollektiv əməkdə bir çox mənəvi keyfiyyətlər formalaşır:

- Bir yerdə çalışmaq;
- Bir-birinə kömək etmək;
- Yoldaşın düşdüyü çətinliyi dərk etmək;
- Öz köməyini təklif etmək;
- Ümumi əmək nəticələrinə sevinmək.

Uşaqları ümumi əməkdə birləşdimək "Bir nəfərin görə bilmədiyini birlikdə görərik" prinsipinin reallaşdırılmasıdır.

Ümumi əməyin xüsusiyyətinə, misal olaraq, oyuncaq qoyulan rəfləri yığışdırmaq tapşırığını icra etmək. Bunun üçün oyuncaqlar, gəlinciklər və rəfləri silmək lazımdır. Eyni nəticə uğrunda işlər uşaqlar arasında bölünür.

Kollektiv əməyin digər bir mürəkkəb növü uşaqların birgə əməyidir. Birgə əməyin məzmununun bir neçə əməliyyata ayrılması məqsədəuyğundur. Bu işin xarakterindən asılıdır. Məsələn, təbii materiallardan oyuncağın hazırlanması birgə əməklə deyil, yalnız bir uşağın işi əvvəldən axıra çatdırıb yekunlaşdırmasıdır.

Birgə əməyə misal olaraq: hər hansı bitkinin əkilməsini birgə həyata keçirmək olar. Uşaqların bir hissəsi ləkləri nişanlayır, yumşaldır, başqaları şitilləri daşıyır və paylaşdırır, üçüncülər isə şitilləri aqrotexniki qaydada (tərbiyəçinin köməyi və nəzarəti ilə) əkirlər.

Uşaqların kollektiv əməkdə birləşdirilməyinin üç üsulu (yanaşı əmək, ümumi əmək və birgə əmək) həyata keçirilərkən tərbiyəçi tərəfindən metodik rəhbərliyin düzgün təşkili didaktik əhəmiyyət daşıyır.

Tərbiyəçi uşaqların kollektiv əməyinə rəhbərlik edərkən eyni vaxtda iki məsələni həll etmiş olur:

- Hər bir uşağın səyini qoyulmuş məqsədə yönəltmək;
- Tapşırığı yerinə yetirməkdə çətinlik çəkən uşaqlara xüsusi diqqət yetirmək.

**Müxtəlif materiallar və alətlərlə uşaqların tanış edilməsi və oyuncaqların hazırlanması**

Məktəbəhazırlıq qrupunda uşaqlar əl əməyi ilə daha çox məşğul olduqları üçün onlar əşyalar və məmulatların hazırlanmasında emal texnologiyaları və vasitələrlə bağlı bilik, bacarıq və vərdişlər qazanırlar. Materiallarla iş zamanı uşaqlar əsas didaktik prinsiplərə uyğun olaraq təlim məşğələlərinə cəlb edilir. Yəni işin sadədən mürəkkəbə doğru aparılması və konstruksiya seçilərkən çətinlik dərəcəsinin ardıcıllığının gözlənilməsinə riayət olunmalıdır. Uşaqların hər hansı kiçik məmulatın (əşyanın) hazırlanmasında hərəkətlərinin təkrar olunması vacibdir. Bunun üçün uşaq əvvəlki konstruksiyanın hazırlanmasında qazandığı bacarıqlardan sonrakı fəaliyyətində tətbiq etməyə nail olmalıdır. Qeyd olunan əməli fəaliyyətin səmərəli olması, ilk növbədə, uşaqların təlim məşğələlərində istifadə olunan materialların xassələrini öyrənirlər.

Tərbiyəçi uşaqların müxtəlif təbiət materialları və zərərsiz yumşaq materiallarla tanış etməklə onlardan hansı məqsədlərlə məişətdə istifadə olunması barədə maraqlı söhbətlər edərək motivasiya yaratmalıdır.

Ekskursiya zamanı ağacların cavan saplaqları toplanmalı və bu fəaliyyətlər vasitəsilə uşaqlarda xüsusi maraq yaradılmalıdır. Uşaqlar saplaqların elastikliyi və toxunmada istifadə qaydalarını əməli işlərində şüurlu şəkildə dərk etmiş olurlar. Tərbiyəçi izah edir ki, yazın əvvəlində kəsilmiş saplaqlar daha yaxşı əyilir. Bunlardan səbət və zənbil toxumaq əlverişlidir. Qeyd olunan fəsildə kəsilmiş təzə saplaqlar isladılmadan asanlıqla əyilir. Saplaqları çox saxladıqda onları hörməzdən əvvəl islatmaq və bir qədər isti buxarla yumşaltmaq lazımdır. Bu da onların daha çox elastikliyi və əyilməsinə imkan yaradır. Bir çox

hallarda saplaqların kəsildikdən sonra 5 gündən 15 günədək qurumaması üçün təknəyə yığılıb üstünə su tökülür. İsladılmış saplaq peç və ya zəif odun üstündə yumşaldıla bilər.

Tərbiyəçi uşaqlara iki müxtəlif şəkilli (girdə və uzunsov) səbətin necə toxunduğunu göstərməklə izah edə bilər.

Karton və papiros kağızından müxtəlif oyuncaqlar hazırlamaq olar. Həmin oyuncaqlara “Quşlar”ı misal gətirmək mümkündür. Bu oyuncaqlar bir qayda olaraq açılan və bükülәndir. İşə başlamazdan əvvəl tərbiyəçi lazım olan materiallar və alətləri əldə etməli və işin məqsədi ilə uşaqları tanış etməlidir.

Lazım olan material və alətlər: papiros kağızı, karton, yapışqan, iti qayçı və fırça. Bundan əlavə oyuncaq hissələrini yapışdırmaq və ülgü ilə kəsmək üçün 2-3 vərəq sadə və qalın ağ kağız lazım olacaqdır.

Fərz edək ki, ördəyi düzəltmək tələb olunur. Bunun üçün oyuncaq konturunun ülgüsünü hazırlamaq lazımdır. Bu məqsədlə bir vərəq ağ kağız götürüb onu damalara ayırırıq. Ayrılan damaların sayı çertyojda olanlara uyğun gəlməlidir. Damaları çəkəndən sonra ördəyin gövdəsinin yuxarı hissəsi karandaşla ağ kağıza çəkilib qayçı ilə kəsilir. Eyni əməliyyat ördəyin gövdəsinin aşağı hissəsi üçün də aparılır. Alınan bu iki ülgü bir vərəq kartonun üstünə sərilib karandaşla cızılır. Bütöv ülgü kartondan kəsilir. Rəngli karandaşlarla ördəyin burnu, gözü və ayaqları çəkilir. Ördəyin gövdəsi papiros kağızından hazırlanır.

Kağızdan bayram şənlikləri üçün “Çiçək hörükləri” hazırlamaq uşaqlar üçün maraq doğurur. Çiçək hörükləri üçün iki cür kağız lazım olur. Çiçəklər üçün rəngbərəng papiros kağızı və yarpaqlar üçün yazı kağızından istifadə olunur. Əvvəlcə çiçək hazırlanır. Bunun üçün papiros kağızından kvadratlar kəsilib (16 x 16 sm) çiçəyin ülgüsü hazırlanır və bu kvadratların üstünə qoyulub ayrı-ayrı altı ləçək kəsilir və üst-üstə növbə ilə yapışqanlanır.

Müxtəlif materiallardan aplikasiya hazırlamaq uşaqlarda böyük maraq doğurur. Çünki uşaqlar ekskursiya zamanı yarpaqlar və çiçəklər toplayanda onların nə qədər cəlbedici formalarda olduğu onları heyrətə gətirir. Bunun üçün trafaretdə aplikasiya üçün çiçəklər və yarpaqların formalarından istifadə edilərək naxış düzəltmək daha asandır. Uşaqlar müxtəlif yarpaqlar və çiçəklər yığıb qurudurlar (ütülənir). Trafaret üçün çiçək və yaxud yarpaq çəkmək məqsədilə o qalın kağız və ya nazik kartonun üstünə qoyulub iti çərtilmiş karandaşla konturu çəkilir. Sonra balaca qayçı ilə çəkilmiş yarpaq və ya çiçəyin kontoru kəsilir. Beləliklə, trafaret hazır olur.

Trafaretdən istifadə edilərək kağız və parçadan aplikasiya üçün müxtəlif bəzək naxışları düzəltmək olar. Məsələn: Trafaretdən istifadə edilməklə kağız və parçadan aplikasiya üçün müxtəlif bəzəklərdən süfrə düzəldilir. Bunun üçün böyük və kiçik yarpaq trafaretlərinin ülgüləri hazırlanır. Bu ülgülərlə yaşıl, sarı və qəhvəyi parçalardan yarpaqlar kəsilir. Sadə süfrə stolun üstünə salınandan sonra uşaqların bəyəndikləri böyük və kiçik trafaretlər süfrənin üstünə müxtəlif quruluşda düzülür. Müxtəlif yarpaqlardan düzülmüş naxış nümunələri parçaya köklənir.

Uşaqların çoxsaylı əşyalar və modellərin hazırlanmasında kağızdan kəsilmiş həndəsi fiqurların (üçbucaq, kvadrat və s.) mühüm əhəmiyyəti vardır. Belə məşğələlərin təşkili uşaqlarda emal texnologiyalarına (ölçmə, nişanlama, qatlama, kəsmə və birləşdirmə) marağını artırır, əşyanın hazırlanması üçün emal vasitələrini seçir, əşyanın qrafik təsvirini çəkməyi öyrənir, əşyanın hazırlanması ardıcıllığını müəyyən edir, əşyanı hazırlamağa uyğun emal texnologiyası seçir. Detalları hazırlanır, alətlərlə işləyərkən təhlükəsizlik texnikası və gigiyena qaydalarına riayət edilir. Kağızdan raket (Şəkil 3.8) hazırlanarkən ilk növbədə onun konturu çəkilir. Kvadrat və üçbucaqlardan istifadə edərək raketin mozaikası tərbiyəçinin köməyilə həyata keçirilir. Raket mozaikasının hazırlanmasında kağızın qatlanması üsulundan istifadə edərək kvadratın bərabər hissələrə bölünməsi üsulunu tətbiq etməklə reallaşdırılır.



**Şəkil 3.8. Kağızdan raket**

Kağız və kartondan əşyaların hazırlanması uşaqların əl əməyinin inkişafında mühüm əhəmiyyəti vardır. Əvvəl uşaqlara kağız və kartonun xüsusiyyətləri izah olunmalıdır. Sadə təcrübələrlə uşaqlara aydınlaşdırılmalıdır ki, kağız müəyyən istiqamətdə yerləşən liflərdən ibarət olub asanlıqla qatlanır. Qatlanma zamanı liflər istiqamətdə daha yaxşı əyilir. Digər istiqamətlərdə qeyri-bərabərlik alınır. Biz deyilənləri kağızı boru şəklində bükmək, yüngülcə qatlayıb açmaq, kağızı kəsməklə müəyyən edə bilərik. Kağızı liflər istiqamətində kəsdikdə düz xətt, əks hallarda isə əyri və ziqzaqlı formalar alınır.

Uşaqların müxtəlif materiallardan əşyaların hazırlanması texnologiyasına aid məşğələlərdə kağızdan ev, səbət, qutu, kartondan mebel və ağac modellərini hazırlamaq bacarıqlarını qazanırlar. Bu da uşaqlarda intellektual səviyyəni yüksəldir.

Təbii materiallarla iş uşaqların qozalar, toxumlar, yarpaqlar, meyvələr, oduncaq qabığı, budaqlar və s. haqqında müvafiq biliklər qazanmalarını təmin edir. Təbii materiallarla işlənərkən uşaqlara kağız, kibrit və parça qalıqları, əlaqələndirici material kimi gil və budaqlardan faydalanmaq məsləhət görülür. Uşaqlar təbii materiallarla işləyərkən ümumi əmək bacarıqları və vərdişləri qazanırlar.

Sərçə modeli hazırlanarkən aşağıdakı təlim məqsədlərinin reallaşdırılması qarşıda durur:

1. Sərçənin forması və quruluşu ilə tanışlıq;
2. Sərçənin bədəninə uyğun olaraq təbii materialları seçmək bacarığı aşılamaq;
3. Oxşar, eyni və fərqli cəhətləri müəyyən etmək.

4. Təlim məqsədlərinə uyğun olaraq məşğələ aşağıdakı ardıcıllıqla aparılır:
5. Tərbiyəçi tərəfindən görüləcək işlə əlaqədar olaraq psixotreninq aparılır;
6. Uşaqların fəallığının təmin olunması və onların fikirlərinin öyrənilməsi;
7. Sərçənin quruluşunda eyni, oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsi;
8. Sərçənin maketinin hazırlanmasında lazım olan təbii materialların seçilməsi;
9. Nümunə və ya şəklə uyğun olaraq işin tamamlanması;
10. Refleksiyanın aparılması.

Sünbüllü oyuncaqlar (gəlincik, at, xoruz) hazırlamaq uşaqlar üçün maraqlıdır. Burada qarşıda aşağıdakı didaktik tələb durur: təbii material olan sünbülün xassələri, ondan istifadə etməklə oyuncaqların hazırlanması texnologiyasını aydınlaşdırmaq, uşaqlarda diqqətin, dəqiqliyin, iradi keyfiyyətlərin tərbiyə olunması .

Uşaqlar materiallardan faydalanarkən müvafiq alətlərdən istifadə etmək zərurəti meydana çıxır. Hər bir peşəyə aid olan alətlərin lazım olmasını uşaqlar dərk edirlər. Alət materialın forması, ölçüsü və şəklini dəyişən əmək vasitəsidir. Hər bir əl alətinin də istifadə qaydası vardır. Qayçı ilə iş zamanı kəsmə istiqamətini nəzərə almaq lazımdır:

1. Düz xətt üzrə kəsmə üçün qayçı düzünə hərəkət etdirilməlidir;
2. Dairəvi detalları kəsilərkən qayçı tərpənməz kəsilən materiala fırladılır;
3. Mürəkkəb konturlu detallar bir neçə kəsik edilməklə kəsilə bilər;
4. Bir arasıkəsilməz xətt üzrə kəsmə üçün kağız müxtəlif tərəflərə döndərilir.

Biz ilə iş zamanı aşağıdakılara əməl edilməlidir:

5. Bizin dəstəyindən tutmaq;
6. Aləti təhlükəsiz yerdə saxlamaq;
7. Ancaq taxta altlıq üzərində işləmək;
8. Deşiləcək nöqtəni nişanlamaq;
9. Dəstəyi sağ və sola fırlatmaqla deşməni icra etmək.
10. Alət və materiallarla işləyərkən sanitariya-gigiyena qaydalarına əməl olunmalıdır.

**Təbiətdə əmək və əl əməyi**

Aparılan tədqiqatlardan məlum olmuşdur ki, heç bir başqa əməkdə olmayan əqli və iradi səylərlə bağlı keyfiyyət təsirləri təbiətdə əməyin köməyi ilə reallaşdırılır. Uşaqların təbiətdə əməyi fiziki inkişaf üçün əlverişli şərait yaradaraq onların hərəkətlərini kamilləşdirir, orqanlarının fəaliyyətini formalaşdırır və əsəb sistemini möhkəmləndirir. Uşaqların təbiətdə əməyi onları torpaq və bitkilərin müxtəlif xassələrini öyrənməklə qarşılaşdırır, dünya görüş dairəsini genişləndirir və əkmə materialı, əmək prosesləri, əmək alətləri və bir çox anlayışların dərk olunmasına imkan yaradır. Uşaq şəxsi təcrübəsi nəticəsində bitkinin zəruri tələbatlarını hiss edir, onun fəallıq halında olmasına suyun qida kimi əhəmiyyətini anlayır. Ümumiyyətlə, orqanizmin mühitdən asılılığı və bitki və heyvanların artma və inkişaf ardıcıllığı (cücərtilərin əmələ gəlməsi, yarpaqlama, çiçəkləmə və barverməə) dərk edilməklə əmək prosesində təbiətdəki qanunauyğunluqlar və əlaqələr

müəyyənləşdirilir.

Təbiətdə əmək uşaqlarda müşahidəçilik qabiliyyətini inkişaf etdirməklə bu sahədə çalışan insanlara hörmət hissi tərbiyə edir.

Məktəbəqədər təhsil müəssisələrində kiçik yaşlı uşağa tərbiyəçinin köməyi ilə sadə tapşırıqlar icra etdirilir quşlar və ev dovşanlarını yetişdirmək, otaq bitkilərini sulamaq, iri yarpaqları silmək, güllərin iri toxumları və soğanı əkmək, ləklərdəki bitkiləri suvarmaq və tərəvəzi yığmaq.

Orta qrup: Müstəqil olaraq sadə tapşırıqları yerinə yetirir, bitki və heyvanlara qayğı göstərir (təbiət guşəsində bitkiləri sulayır, heyvanları yedizdirir və s.). Əmək fəaliyyəti zamanı bu yaşda olan uşaqlar tədricən bitkilərin həyatı və böyüməsi üçün zəruri olan şəraiti (günəş işığı, isti, nəmlik və s.) yaratmağı dərk edirlər.

Məktəbəqədər təhsil müəssisələrində böyük yaşlı (5-7 yaşında) uşaqları ilin bütün fəsillərində işləməyə alışdırmaq lazımdır. Təbiətdə əməyin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, burada nəticə məhsuldar olur. Bitki, tərəvəz və gülləri yetişdirməkdən ibarətdir. Burada nəticə konkret olsa da, əldə etmək çətin və vaxt aparandır.

Heyvan və bitkilərə qulluq üzrə əməyin məzmununa aşağıdakılar aiddir:

- Quşlar və digər heyvanların qəfəslərinin təmizlənməsi, yem və su təknələrinin yuyulması və onların su ilə doldurulması;
- Xırda heyvanların yetişdirilməsi üçün yemin hazırlanması, meyvə köklərinin yuyulub doğranması və göyərtinin hazırlanması;
- Sahədə ev heyvanlarına (it, toyuq, ördək və s.) qulluq prosesində iştirak edilməsi;
- Otaq bitkilərinin suvarılması, yuyulması, çilənməsi, quru yarpaqların kəsilməsi və torpağın yumşaldılması;
- Cərgə və ləklərin düzəldilməsində iştirak edilməsi, tərəvəz və güllərin iri və xırda toxumlarının əkilməsi və şitil və bitkilərin yerinin dəyişdirilməsi;
- Bostan, güllük, bağ, əkin və səpinə qulluq etmə (suvarma, yumşaltma, cərgəarası alaq etmə, seyrəltmə, dibdoldurma, bağlama və s.);
- Bostan və bağda məhsulun yığılmasında yaşlılara kömək (toxum və meyvənin yığımı və s.) sahənin yığışdırılması.

Qeyd olunan məzmuna daxil olunan əmək proseslərində uşaqların məqsədyönlü fəaliyyəti, onların şəxsiyyət kimi formalaşdırılması, fiziki və əqli imkanlarının inkişaf etdirilməsinin düzgün təşkili tərbiyəçinin pedaqoji rəhbərlik metodlarından asılıdır. Tərbiyəçi hər bir yaş qrupunun uşaqları üçün əməyin ən sadə növlərini seçməlidir. Bu məqsədlə əməyi dozalaşdırmaq lazımdır. Əmək prosesinin uzunmüddətli olması əməyin xarakterindən asılıdır. Məsələn:

- Toxumların səpilməsi zamanı əkilən materialın həcmi;
- Səpinin texnikası;
- Cərgələrarası alaq etmədə uşaqlarda fikrin toplanması;
- Böyük diqqət tələb olunması.

Qeyd olunan prosesin həyata keçirilməsi üçün böyük yaşlı uşaqlar üçün 10 dəqiqə vaxt lazım gəlir.

İşə başlamazdan əvvəl uşaq avadanlığını tərbiyəçi qabaqcadan hazırlayıb yoxlamalıdır. Bu avadanlıqlar uşaqların boyu və qüvvəsi, onların imkanlarına müvafiq və düzgün konstruksiyalı olmalıdır. Məsələn: Suvarma üçün olan iki qulplu susəpən. Belə olduqda əmək uşağın orqanizminin möhkəmlənməsinə kömək edə bilər.

Uşaqlarda avadanlıqlara qayğılı münasibət tərbiyə etmək lazımdır (onu düzgün saxlamaq, təmizləmək, yumaq və işdən sonra yığmaq). Əmək prosesində uşaqlarda avadanlıqdan istifadə ilə əlaqədar mədəniyyət formalaşdırılmalıdır. İlk növbədə, iş yerini səliqəli saxlamağa uşaqları sövq etmək lazımdır.

Uşaqlarda məzmunlu əmək fəaliyyəti zamanı idrak qabiliyyəti inkişaf edir. Məsələn, heyvanlara qulluq edən uşaq onların hərəkət üsullarını dərk edir (necə yeyir, necə üzür, uçur və s.), eyni zamanda onda bədənin ayrı-ayrı hissələrini ayırmaq bacarığı yaranır (dimdik, dil, qanadlar və s.). Bununla da uşaqlarda praktik (əməli) hərəkətlərdə idraki qabiliyyətlər formalaşdırılır. Artıq uşaqlar dərk edirlər ki, otaq bitkilərinin yarpaqlarının təmiz və gözəl olması üçün onlar yuyulmalıdır. Uşaqların əmək fəaliyyəti zamanı materialların xüsusiyyətlərini (qum səpələnir, o, quru və nəm olur, nəm qumdan tikintidə istifadə olunur, qar soyuqdur, əriyir) şərh etmək məsləhətdir.

Bitkilərə qulluq üçün tərbiyəçi uşaqlara xüsusi təlim keçməli və əmək prosesini nümayiş etdirməlidir. Bu iş suvarmanın düzgün təşkili ilə şərtləndirilir və uşaqların bu zaman müvafiq üsulların necə tətbiq edilməsini bilmələri başlıca şərtdir:

- Kiçik susəpəni düzgün tutmaq;
- Susəpənin lüləyini dibçəyin qırağına yaxınlaşdırmağı bacarmaq;
- Quru torpağı nəm torpaqdan fərqləndiməyi bacarmaq (torpağı rənginə görə və əl ilə yoxlamaqla);
- Suvarmanın vacib olduğunu bilmək;
- Susuzluğa görə bitkinin yarpaq və yarpağın elastikliyinin olmasını yoxlamaq;
- Bitkiyə su o vaxta qədər verilir ki, altlıqda görünsün.

Uşaqlara torpağın yumşaldılmasını öyrədərkən onların diqqətini bərkimiş torpağın bitkinin kökünə suyu pis buraxmasına yönəltmək lazımdır. Təbiət guşəsinin sakinləri olan quşlara qulluq zamanı uşaqlar onları hansı yemlə nə qədər miqdarda yemləmək lazım olduğunu öyrənirlər:

- Quşlar gündə iki dəfə yemlənir;
- Dənlər, yerkökü və yaşıl otlarla;
- Otaq temperaturlu təmiz su içirilir;
- Su hər gün dəyişilir;
- Quşları uçmaq üçün qəfəsdən bir qədər buraxmaq.

Uşaq şəxsiyyətinin formalaşdırılmasında əl əməyinin əhəmiyyəti geniş olub onların qarşısında geniş yaradıcılıq imkanları açır. Əl əməyinin məzmununu, əsasən, quraşdırma

işləri təşkil edir.

Oyuncaqların düzəldilməsi uşaqlarda politexnik bilik və bacarıqların qazanılmasına ilk addımlar atılır. Uşaqlar kağız və kartondan əşyalar hazırlayarkən, ağacı mişarlayarkən, təbii materiallardan istifadə edərək həyata keçirtdikləri əməli işlər kəsmə, yapışdırma, yonma, kəsmə, deşmə, mıxlamaq, tanışlıq, onların zəngin xassələri, rəngi, forması, möhkəmliyi ilə əlaqədar müvafiq təsəvvürlər qazanırlar.

Əl əməyinin məzmunu və ona pedaqoji rəhbərlik metodları tərbiyəçi tərəfindən planlı və məqsədyönlü həyata keçirilməlidir.

Müxtəlif materiallardan oyuncaqların hazırlanması əl əməyinin məzmununa daxildir. Uşaqları oyuncaqların hazırlanmasına alışdırmaqla onlarda müvafiq bilik və bacarıqlar qazanmaqla müxtəlif əşyaların quruluşu üzərində düşünmək və asudə vaxtlarını faydalı keçirməyə təminat verir. İlk növbədə, tərbiyəçi bu əmək növünə maraq göstərmək və oyuncaqların hazırlanması üzrə texnoloji əməliyyatlar aparmağı bacarmalıdır. Tərbiyəçi eyni detaldan (kibrit qutusu) müxtəlif oyuncaqların (paravoz, divan və yazı masası) hazırlanmasını uşaqların qarşısında nümayiş etdirməklə əməliyyatların sadə olması barədə təsəvvür yaradır.

Tərbiyəçi (əl işi ilə əlaqədar) oyuncaqların hazırlanmasında lazım olan bütün materialı (müxtəlif ölçülü və formalı qutular, çarxlar, əlvan kağız, karton, məftil və s.) qabaqcadan əldə etməlidir. Bununla yanaşı, alətlər qayçı, qısa, kiçik biz və yapışqan ilə uşaqlar tanış edilməli və onlardan istifadə qaydaları nümayiş etdirilməlidir.

Məktəbəqədər təhsil müəssisələrində məktəbəhazırlıq qrupunda olan uşaqların ağac üzərində işlə bağlı fəaliyyətinə xüsusi maraqla yanaşılır. Onlar çəkic, mismar, kəlbətin və yastı ağız kəlbətindən istifadə etməyə səy göstərirlər. Uşaqlarda (xüsusən, oğlanlar) konstruktorluq və ixtiraçılıq bacarığı göstərməyə həvəs artır. Burada əsas didaktik prinsiplərə aşağıdakılar daxildir:

- İşin sadədən mürəkkəbə doğru aparılması;
- Çətinlik dərəcəsinin ardıcıllığının gözlənilməsi;
- Sadə əşyaların hazırlanmasında hərəkətlərin təkrarlanması;
- Əvvəlki qazanılan bacarıqlardan daim istifadə olunması.

Tərbiyəçinin əl əməyi ilə bağlı həyata keçirtdiyi pedaqoji rəhbərlik zamanı əyanilikdən geniş istifadə edilməsi vacibdir. İşin planlaşdırılması üsulları uşaqlara aydınlaşdırılmalıdır. İş vərdişləri təliminin ilk mərhələsində texniki üsullara daha çox diqqət yetirilməlidir. Bu məqsədlə hazırlanan məmulatın detalları qabaqcadan təyin edilməli və nəticənin tez qazanılmasına şərait yaradılmalıdır. Məsələn, kiçik oturacağın düzəldilməsi üçün iki kubik (kibrit qutusu) və taxta parçası kifayət edər. Stol hazırlamaq işini də beləcə təşkil etmək mümkündür.

**Özünəxidmət və təsərrüfat məişət əməyi**

Özünəxidmət dedikdə, bədənin təmizliyi və paltarın səliqəliliyi haqqında müntəzəm qayğı və bunun üçün lazımi işləri görmək, daxili tələbata görə hazırlıq və gigiyenik qaydalara riayət etmək başa düşülür. Məktəbəqədər yaşlı uşaqların həyatında

özünəxidmətin tərbiyəvi əhəmiyyəti dəyərləndirilərkən, ilk növbədə, onun gündəlik tələbat kimi zəruriliyi ilə şərtləndirilməsi lazımdır. Uşaq məhz özünəxidmət vasitəsilə özünə qayğı göstərməyin qədrini bilir və yaxın ətrafda olan doğmalarına fəal surətdə diqqətli olmaq bacarığı öyrənir. Uşaq özünəxidmət etdikdə müəyyən fiziki və əqli səy göstərmiş olur. Özünəxidmətdə uşağın qarşısında ona aydın olan, zəruri və konkret məqsədlər qoyulmalıdır. Üç yaşlı uşaq üçün özünəxidmətlə bağlı əməli fəaliyyətin hər biri cəlbedicidir. Bu, uşaqlarda müstəqilliyə imkan verir, öz tələbatını ödəyir və öz tərəfindən həll edilməli problem kimi təzahür edir (ayaqqabını geymək, onun bağlarını düzgün bağlamaq və s.). Digər tərəfdən uşağın iradəsi gərginləşir və onun diqqəti bu proseslərə cəlb edilir.

Orta qrupun uşaqları geyinərkən daha sərbəst olur və öz aralarında söhbətlər edirlər.

Özünəxidmət vərdişlərinin formalaşdırılması üçün tərbiyəçinin metodik hazırlığı vacibdir. Bunun üçün tərbiyəçi pedaqoji rəhbərliyi həyata keçirərkən bütün uşaqların iştirakını təmin etməli, əmək vəzifələrini tədricən mürəkkəbləşdirməli və özünəxidmət əmək növünün məktəbəqədər yaşlı uşaqların tərbiyə vasitəsinə çevirməlidir. Uşaqlara xidmətedici əmək vərdişlərinin aşılanması ilə yanaşı, eyni zamanda müsbət keyfiyyət və adətlərin (qənaətçilik, səliqəlilik, müstəqillik, əməksevərlik, fəallıq və s.) tərbiyə olunması daim diqqətdə saxlanılmalıdır. Qeyd olunan dəyərlərə uşaqları alışdırmaq, praktik fəaliyyətə o vaxta kimi cəlb etmək lazımdır ki, hər biri özünəxidmət edə bilsin. Sonrakı mərhələdə tərbiyəçi fəaliyyətin planlaşdırılmasını təmin etməlidir.

Özünəxidmət əməyi ilə əlaqədar uşaqlarda vərdişlərin formalaşdırılmasının əsas metodik üsulu hər bir elementar hərəkət və onun ardıcıllığının yerinə yetirilməsini nümayiş etdirməkdən ibarətdir. Məsələn, tərbiyəçi deyir: "Leyla, bax mən necə əl–üzümü yuyacağam təmiz və səliqə ilə:

- Əvvəlcə qollarımı çirmələyəcəyəm;
- Sonra əllərimi su ilə isladacağam;
- Bax belə..." (tərbiyəçi öz hərəkətlərini izahatla nümayiş edir).

Özünəxidmət əməyi zamanı (geyinmə, əl-üz yuma, oyuncaq və materialların yığışdırılması) təlim üsulları dəyişilməməlidir. Özünəxidmət vərdişlərini qazanmaq üçün uşaqların məşq etmələri vacibdir. Uşaqlarda vərdişlər formalaşdırıldıqdan sonra tərbiyəçi tədricən ətraflı olaraq şifahi izahatlara keçir. Tərbiyəçinin vaxtında və yerində verdiyi izahatlar uşaqlarda vərdişlərin möhkəmləndirilməsi və dəqiq hərəkətlərin yaranmasına səbəb olur. Tərbiyəçi bu məqsədlə ümumi xatırlama metodundan da geniş istifadə edə bilər. Burada ən başlıca cəhət uşaqların iş nəticələri ilə tərbiyəçinin maraqlanmasıdır. Bunsuz uşaqların düzgün tərbiyəsindən danışmaq olmaz.

Özünəxidmət üzrə əmək mürəkkəb olmasa da, təşkil etmə tələb edir. Bu proses şəxsi tələblərin ödənilməsi ilə bağlı olan vəzifələrin yerinə yetirilməsində təşkili formaları gündəlik və uzunmüddətli müntəzəm iştirakı kimi həyata keçirilir.

Özünəxidməti təşkil edərkən tərbiyəçilər gigiyena tələblərinə əməl olunmasını səmərəli izləməlidirlər. Kiçik qruplarda özünəxidmət vərdişlərini formalaşdırmaq onların müstəqil yemək, əl-üz yumaq və geyinib-soyunmaq öyrədilməklə şərtləndirilir. Müşahidələr göstərir ki, tərbiyəçilər uşaqlarda özünəxidmət vərdişləri tətbiqində sistemsizliyə yol

verirlər. Əl-üz yuma vərdişlərinin aşılanması zamanı tərbiyəçi fəal olmalıdır. O, uşağı əl-üz yuyana yaxınlaşdıraraq deyir: “Özün əl-üzünü yu, mən isə sənə kömək edim”. Tez bir anda tərbiyəçinin köməyi ilə uşaq tapşırığı yerinə yetirir. Bir çox hallarda hərəkətlərin ardıcıllığını tərbiyəçi nümayiş etdirir:

1. Əlləri su ilə islatmaq;
2. Ovcunun içi və əllərinin arxa tərəfini sürtmək.

İki aydan sonra uşaqlara tələblər mürəkkəbləşdirilir (qolları çırmalamağı öyrətmək, dəsmaldan düzgün istifadə etmək). Tərbiyəçi uşaqların diqqətini əl-üz yuyulduqdan sonra xarici görünüşlərinə cəlb edir (təmiz, səliqə). Tərbiyəçi kiçik uşaqları gigiyenik qaydaları anlatmağa yönəltmək üçün motivasiya yaratmalıdır. Sən oyundan sonra əlləri nə üçün yumalısan? Əlləri yumadan stolun arxasında nə üçün oturmaq olmaz? Uşaq verilən suallara uyğun müsbət motivlərlə köklənərək zəruri addımları atır.

Təcrübə göstərir ki, üç yaşlı uşaqlar geyinmə və soyunmada əvvəlcə çətinliklə üzləşirlər. Uşaqlarda bu işdə maraq tərbiyə etmək üçün tərbiyəçi onları süjetli şəkillərin (“Gəzintiyə”) tamaşası zamanı bu prosesl tanış edir.

Uşaqları özünəxidmət üzrə tələblərlə tanış etmək üçün məşğələlərdən ətrafdakı yaşlılar və böyük məktəbəqədər yaşlı uşaqların davranışı üzrə gündəlik müşahidələr, kitablarda verilən illüstrasiyalara baxış və bədii əsərlər, mütaliə və gəlincik tamaşalarından istifadə olunmalıdır.

Orta qrup uşaqları əl-üz yuma, geyinmə və yeməkdə daha çox müstəqillik göstərirlər. Beş yaşlı uşaqlar özünəxidmət üzrə bir çox əsas vərdişlərə yiyələndikləri üçün onların qarşısında geyinmə zamanı qarşılıqlı kömək göstərmək vəzifəsi qoyulur. Beş yaşlı uşaqların üç yaşlı uşaqlarla ünsiyyəti üçün onların qarşısında geyinmə zamanı qarşılıqlı kömək göstərmək vəzifəsi qoyulur. Beş yaşlı uşaqların üç yaşlı uşaqlarla ünsiyyətinin təşkili onlarla köməklik göstərmələri ilə öz həllini tapır.

Böyük və məktəbəhazırlıq qrupları özünəxidmət üzrə uzunmüddətli vəzifələr və ona yaxın məişət əməyinə böyük əhəmiyyət verilir.

Uşaq şəxsiyyətinin formalaşmasında təsərrüfat məişət əməyinin mühüm əhəmiyyəti vardır. Uşaqlar təsərrüfat-məişət əməyinə həyatının ikinci ilindən başlayırlar. Uşaq bağçasında təsərrüfat-məişət əməyi məzmununa görə müxtəlif olub qrup və soyunma otaqları və yuyunma və yataq otaqlarında səliqə-səhman işləri daxildir.

Birinci kiçik qrupda (həyatının üçüncü ilində) əməyin məzmunu yaşlıların (valideynlər, ailə üzvləri, uşaq bağçasında çalışanlar) məişət əməyi haqqında təsəvvürlər uşaqlarda formalaşdırılır. Əməyin məzmunu uşaq üçün (tərbiyəçinin xahişi ilə) aşağıdakı fəaliyyət növləri daxildir:

- Oyuncaqları meydançaya çıxarmaq;
- Stulları stollara yaxınlaşdırmaq;
- Məşğələlər üçün didaktik materialları gətirmək (aparmaq);
- Sahədən yarpaqları yığmaq;
- Çörək olan boşqabları stollara düzmək.

İş metodu ilə bağlı olaraq təsərrüfat-məişət əməyinə pedaqoji rəhbərlik, ilk növbədə, yaş xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir.

Balaca uşağı əməyə alışdırarkən tərbiyəçi ona həm hərəkətin məqsədi, həm də işin nəticəsini dərk etməyə nail olmalıdır. Məsələn: ”Boşqabı iki əlinlə tut, özünə söykəmə. Boşqabı stolun üstünə qoy”. Uşaq boşqabı stolun üstünə qoyub işin nəticəsindən məqsədə çatdığından sevinc hissi keçirir.

Təsərrüfat-məişət əməyində iştirak zamanı zəruri olan hərəkətlərin formalaşdırılmasında metodik üsul kimi oyun məşğələlər və oyun təmrinlərindən istifadə etmək əhəmiyyətlidir. ”Küsən oyuncaqlar” oyunu bu cəhətdən xarakterikdir. Oyunun məzmununda Ülvi adlı bir oğlan oyuncaqlarla oynamağa maraqlı olmasına baxmayaraq, sonda onları səliqə ilə yerinə yığmaqda tənbəllik göstərir. Növbəti dəfə oynamaq istəyəndə bütün oyuncaqlar (top, dovşan, maşın, ceyran və s.) ondan qaçmalı olur. Hadisədən pərişan olan oğlan səhvini dərk edib ağlamağa başlayır və hərəkətini etiraf edir, onlara daim qayğılı olacağını əminliklə bildirir. Onun fikrini eşidən oyuncaqlar onun yanına qaçırlar. O, isə dediyi sözünü əməli reallaşdırır. Tərbiyəçi qeyd olunan süjetə əsaslanaraq uşaqlarda motivasiya yaradır:

- Oyuncaqlar nə üçün oğlandan qaçdı?
- Oyuncaqların qaçmaması üçün nə etmək lazımdır?

Uşaqların mənalı cavabları onlarda təsərrüfat məişət əməyinə düzgün münasibət və maraq tərbiyə edilməklə vacib olan hərəkətlərin mənimsənilməsini təmin edir.

Bütün hallarda uşaqların müvəffəqiyyəti tərbiyəçi tərəfindən qeyd olunmalıdır. Çünki uşaqların dəyərləndirilməsi, onların şən əhval-ruhiyyəsinə səbəb olur.

Üç-dörd yaşlı uşaqların təsərrüfat və məişət əməyi ilə bağlı yaşlıların fəaliyyətinə yönəldilməklə onların təsəvvürləri genişləndirilə bilər. Bu yaşda olan uşaqların fəaliyyətini tərbiyəçi (əməyin məzmunu) sistemli olaraq məşğələlər üçün materialların hazırlanmasına alışdırır:

- Karandaşlar və fırçalar olan qutuları düzmək;
- Qutuları yığmaq;
- Yapma üçün taxta hazırlamaq;
- Məşğələ üçün stulları qoymaq;
- Süfrəni düzəltməkdə dayəyə köməklik etmək;
- Qaşıqlar, salfetlər və çörək qablarını düzmək;
- Yeməkdən sonra çay qab-qacağını təsərrüfat stoluna yığmaq.

Metodik baxımdan bu işlər tərbiyəçi tərəfindən uşaqların əmək hərəkətlərinin öyrədilməsi və vərdişlərin təkmilləşdirilməsi vəzifəsi kimi qalır.

Tərbiyəçi işin fərdi formasından tapşırıqda istifadə edilərək lazımi nəticə əldə etmək məqsədi ilə nəyi, necə, hansı ardıcıllıqla etmək göstərilir və izah edilir. Tərbiyəçinin uşağın qarşısına qoyduğu məqsəd onun marağına səbəb olmalıdır.

Orta qrupda əməyin məzmunu, əsasən, bu əmək proseslərinin miqdarının artırılması hesabına mürəkkəbləşdirilir. İlin əvvəlində tərbiyəçinin müşayiəti ilə görülən işləri ilin

sonunda uşaqlar müstəqil olaraq icra edirlər.

Metodik cəhətdən beş yaşa qədəm qoyan uşaqların təsərrüfat məişət əməyinə rəhbərlik edərkən özünə ətrafdakılara fəaliyyətləri ilə fayda vermələrini anlatmağa tərbiyəçi müvəffəq olmalıdır. Onlar bunu növbətçilik fəaliyyətləri ilə həyata keçirmiş olurlar.

Böyük qruplarda altı yaşına qədəm qoyan uşaqlarla aparılan işin məzmunu daha da genişləndirilir:

- Nahar vaxtı uşaqlar (üçüncü) yeməyi paylayırlar;
- Nahardan sonra stolun üstü yığışdırılmaqda dayəyə köməklik göstərilir;
- Məşğələnin sonunda material və vəsaitlər yerinə yığılır;
- Yapışdırma və rəsm zamanı istifadə edilən fırça və stəkan yuyulur;
- İşdən sonra stollar silinir;
- Qrup otağının hər həftə yığışdırılmasında iştirak edilir;
- Çarpayılar düzəldilir.

Qeyd olunan bütün işləri uşaqlar səylə, həvəslə, istəklə, maraqla, arzuları ilə görməlidirlər. Altı yaşlı uşaqlarla işin təşkili metodikasında kollektiv fəaliyyət mühüm əhəmiyyət daşıyır. Bu əməkdən uşaqların mənəvi tərbiyəsinin formalaşdırılması vasitəsi kimi faydalanmalıdır:

- Məqsədyönlülük;
- Mütəşəkkillik;
- Məişət əməyinin zəruriliyi;
- Mühümlülüyü;
- Əməyə hörmətin dərkedilməsinin formalaşdırılması;
- Kollektiv fəaliyyətdə ünsiyyət və hörmətin tərbiyə olunması.

Məktəbəhazırlıq qrupunda təsərrüfat- məişət əməyi uşaqlar tərəfindən bütövlükdə dərk olunur. Əməyin məzmunu artıq tamlığı ilə uşaqların fəallığı nəticəsində öz həllini tapır. Süfrənin düzəldilməsi proseslərinə stolun güllərlə bəzədilməsi, yeməyin paylaşdırılması, stulları, pəncərə altlarını silmək, oyuncaq və materialla olan şkafları səliqəyə salmaq daxildir.

İşin metodik təşkili iki istiqamətdə həllini tapır. Burada ictimai əhəmiyyətli kollektiv əmək fəaliyyəti, tapşırıqları və növbətçilik vəzifələrinin həyata keçirilməsi ilə bağlı işlər.

Uşaqların əməyinə pedaqoji rəhbərlik metodları əməli fəaliyyətdə buraxılan səhvlərin qarşısını almaq, onun vaxtında aradan qaldırması ilə bağlı məsləhət vermək və müvafiq kömək göstərməyə yönəlməlidir. Uşağa hörmət və ehtiram göstərmək, həvəsləndirmək ona sevinc bəxş edir, özünü bacarıqlı və müstəqil şəxsiyyət kimi hiss etməyə sövq etdirir.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbyaşlı uşaqlara münasibətdə "əmək", "əmək fəaliyyəti" anlayışlarının mahiyyətini araşdırın və təqdimat edin.
2. Daha kiçik və yuxarı məktəbəqədər yaşlı uşaqlarda əmək fəaliyyətinin hər bir komponentinin xüsusiyyətlərini formalaşdırın və sxem yaradın
3. Uşaq bağçasında məktəbəqədər təhsil müəssisələrində uşaqların əmək fəaliyyətinin tərkib hissələrinə baxın, məlumatları nəzəri prinsiplərlə əlaqələndirin. Tədqiqatı təqdim edin.
4. Müxtəlif yaş qruplarında iş məzmununun təhlili. Müxtəlif yaş qruplarında işin məzmununun təhlilinə əsasən aşağıdakı cədvəli hazırlayın:

| **Əməyin növləri<br>Uşaq əməyi məzmunu** | **1-2 yaş** | **2-3- yaş** | **3-4 yaş** | **4-5 yaş** | **5-6 yaş** |
|---|---|---|---|---|---|
| Özünəxidmət | | | | | |
| Məişət | | | | | |
| Təbiətdə | | | | | |
| Əl əməyi | | | | | |

5. Uşaqların əmək tərbiyəsində folklorun rolunu müəyyənləşdirin.
6. Uşaq bağçalarında şeirlər, mövzuya aid atalar sözləri seçin və rəngarəng dizayn edin. Bu materialdan istifadə edərək məşğələ hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Musiqi, əmək və təsviri fəaliyyət üçün nümunəvi vəsaitlər hazırlayır”.**

1. “Əmək tərbiyəsinin vacib şərtləri” adlı referat hazırlayın.
2. Verilmiş meyarların səhv (S) və doğru (D) olduğunu qeyd edin:
   Alət və materiallarla işləyərkən sanitariya-gigiyena qaydalarına əməl olunmalıdır. Bura daxildir:

| Meyarlar | Doğru | Səhv |
|---|---|---|
| 1. Uşaqların bir-birilərinə mane olmadan sərbəst hərəkət etmələri üçün bir oyun sahəsi təşkil edilməlidir. | | |
| 2. Uşaqların avadanlıqdan düzgün istifadə etməsinə diqqət yetirilməlidir. | | |
| 3. Uşaqlar üçün təhlükəli olan əşyalar tamamilə çıxarılmalıdır. | | |
| 4. Kəsici əşya və sınmış hissələrin olub-olmamasını bilmək üçün hər gün bütün avadanlıqlar və ərazi yoxlanmalıdır. | | |
| 5. Avadanlıqlar arasında olan məsafə heç bir önəm daşımır. | | |
| 6. Uşaqların təhlükəsizliyini təhdid edən nasaz avadanlıqlar çıxarılmalı və ya təmir edilməlidir. | | |
| 7. Meydançanın ərazisində şüşə, zibil və böyük daşlar olmamalıdır. | | |
| 8. Oyun meydançası üçün qum, xırda çınqıl, taxta yonqar, rezin döşəmə və ya xırdalanmış rezin kimi yumşaldılan örtüklə örtürməlidir. | | |
| 9. Oyun meydançasının döşəməsi taxta və ya bərk vasitə ilə döşənməlidir. | | |
| 10. Uşaqların ağızlarına bitki, ot, çınqıl və ya torpaq götürməməsinə diqqət yetirilməlidir. | | |
| 11. Oyun meydançası uşaqların kənara qaçmaması üçün çəpərlənməlidir. | | |
| 12. Alət və materiallarla işləyərkən sanitariya-gigiyena qaydalarına əməl olunmalıdır. Bura daxildir: | | |
| 13. Hər səhər yuxudan duranda əlləri, üzü, boyunu və qulaqları soyuq su ilə yumaq; | | |

| | | |
|---|---|---|
| 14. Dişləri səhər və yatmazdan əvvəl fırçalamaq, hər yeməkdən sonra ağızı yaxalamaq vacibdir. Dişləri üç dəqiqədən az olmayaraq fırça və diş məcunu ilə yumaq lazımdır. Fırça çox yumşaq olmamalıdır; | | |
| 15. Əlləri həmişə yeməkdən əvvəl və sonra, məktəbəqədər təhsil müəssisəsindən və gəzintidən qayıdandan sonra sabunla yumaq lazımdır; | | |
| 16. Həftədə bir dəfədən az olmayaraq, yayda isə gündə iki dəfə duş qəbul etmək faydalıdır; | | |
| 17. Yuyunduqdan sonra yataq dəstini dəyişmək lazımdır. Alt paltarlarını və corablarını isə gündəlik dəyişmək lazımdır; | | |
| 18. Yatmazdan əvvəl ayaqları soyuq su (qışda ılıq su) və sabunla yumaq lazımdır; | | |
| 19. Həftədə bir dəfə dırnaqlar tutulmalıdır. Hər gün saçlar daranmalıdır. Üst paltarlar və ayaqqabılar tez-tez təmizlənməlidir. Həmişə təmiz cib dəsmalı və ya birdəfəlik nəm salfet gəzdirmək lazımdır; | | |
| 20. Otağınızı və sinifdə partanızı təmiz, oyuncaqları səliqəli saxlamaq və onların üzünü vaxtaşırı dəyişmək lazımdır. | | |

3. Venn diaqramını işləyin. Fəaliyyətlərin fərqli və oxşar cəhətlərini yazın.



## 3.4. Estetik-yaradıcı fəaliyyətin səmərəli təşkili üçün tədqiqat aparır

### Estetik-yaradıcı fəaliyyətin səmərəli təşkili

Estetika gözəllik haqqında elmdir. “Estetika” yunan sözü olub hiss vasitəsilə “Dərk etmək” deməkdir. Estetik keyfiyyət uşaqda kiçik yaşdan özünü göstərir, tərbiyə və təlim prosesində tədricən formalaşır. Uşaq yaşa dolduqca tədricən estetik mədəniyyətə yiyələnir və onda estetik qavrayış, maraq, meyil və bədii yaradıcılıq inkişaf edir.

Məktəbəqədər yaş dövründə estetik tərbiyə çox böyük əhəmiyyət kəsb edir. Estetik tərbiyənin bünövrəsi ailədə qoyulur. Ailə gözəllik və uşaq zövqünün ilk məktəbəqədər təhsil müəssisəsi və ana laylası uşaqların ilk melodiyasıdır. Ailədəki səliqə-sahman, təmizlik, uşaq oyuncaqları, ev avadanlığı və əşyalarının gözəlliyi, valideynlərin oxuduğu mahnı və şeirlər, danışdıqları nağıllar və təbiət gəzintiləri bütün bunlar kiçik yaşlarda uşaq zövqünü formalaşdırır.

Estetik tərbiyə uşaq bağçasında daha sistemli xarakter kəsb edir. Uşaqlarla estetik məzmunlu məşğələlər təbiətlə və ətraf aləmlə tanışlıq, musiqi, rəsm, gil, quraşdırma işləri və əmək məşğələləri aparılır, musiqili-didaktik oyunlar keçirilir və bayram və əyləncələr yüksək estetik formada təşkil edilir.

Kiçik məktəb yaş dövründə uşağın estetik inkişafında müəyyən dəyişiklik yaranır. Bədii əsəri dərketmə qabiliyyəti nisbətən yüksəlir, musiqinin ritmini, əşyaların rəngini asanlıqla fərqləndirir və onlara özünəməxsus münasibət göstərir. Orta qrup uşaqlarında qavrayış xeyli inkişaf edir və bu onlarda öz dəqiqliyi və müxtəlifliyi ilə seçilir.

Estetik tərbiyənin sisteminə ailə və uşaq bağçasında estetik tərbiyə və məktəbəqədər təhsil müəssisəsində təlim prosesi və sinifdənxaric tədbirlər, məktəbəqədər təhsil müəssisəsindən kənar tərbiyə müəssisələri, habelə uşaq həyatının təşkili və insan münasibətlərində estetik tərbiyə işləri daxildir.

Təsviri incəsənət məşğələləri də estetik tərbiyədə böyük əhəmiyyətə malikdir. Rəsm uşaqların bədii zövqü, təxəyyülü və yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Məşğələdə istifadə olunan əyani vəsaitlər, sinfin estetik tərtibi və məşğələdə yaradılan mənəvi-emosional mühit də estetik zövqün mühüm mənbəyini təşkil edir.

Estetik tərbiyənin mühüm bir vasitəsi və imkan yolu təbiət gözəllikləridir. Təbiət gözəlliklər mənbəyidir. O, estetik hislər və təxəyyülün inkişafına zəngin material verir. Təbiət ən yaxşı rəssamdır: "Xəyal həqiqi güldən daha yaxşı heç bir şey təsəvvür edə bilməz" (N. Çernışevski). Təbiət həm də tərbiyəçidir. O, insanın ağlı və qəlbini zənginləşdirir, onda yüksək estetik və mənəvi hislər - vətənpərvərlik, xeyirxahlıq, həssaslıq, doğma torpağa məhəbbət və iftixar hislərini oyadır. Bütün bunlar isə təbiət, ətraf mühit və insanlara estetik münasibətin formalaşdırılmasına kömək edir. Estetik tərbiyənin mühüm bir istiqaməti məişət, geyim və münasibətdə gözəllik ruhunda uşaqları tərbiyə etməkdir. Onlar məktəbəqədər təhsil müəssisəsi və ailə şəxsi həyatda gözəllik qanunları ilə yaşamaq, hər yerdə estetik mühit yaratmağa çalışmalıdırlar: Gözəl danışmalı, gözəl geyinməli, gözəl yeriməli və gözəl davranmalıdırlar.

Burada müəllimin, valideynlərin nümunəsi, emosional mədəniyyəti böyük rol oynayır. Müəllimin daxili gözəlliyi, uşaqlarla ədalətli münasibəti, həssaslığı, pedaqoji məharəti, hər

işdə ölçü hissini gözləməsi, düzlüyü, doğruçuluğu, mədəniliyi münasibət və davranış estetikasının çox təsirli vasitəsidir. Əgər uşaq ədalətsizlik və təhqirlə qarşılaşmışsa, təşviş, qorxu, sıxıntı, ümidsizlik keçirirsə, bu hislər onun ürəyinə gözəllik yolunu sanki bağlayır. Bunu nəzərə alaraq, məktəbəqədər təhsil müəssisəsi təlimə hazırlıq dövründə yüksək mənəvi-psixoloji iqlim, həssaslıq və humanizm mühitinin yaranmasına nail olmalıdırlar.

Estetik tərbiyənin məzmununa estetik bilik, bacarıq, vərdiş, hiss, maraq və zövq daxildir. Uşaqların gözəllik haqqında anlayışları ətraf mühiti estetik cəhətdən dərketmə prosesində yaranır. Məktəbəqədər yaşlı uşaqlar obyektiv həqiqəti əks etdirən qrafik işlər – nəqqaşlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, ədəbiyyat, musiqi və onların müxtəlif janrlarını mənimsəmə prosesində estetik cəhətdən formalaşırlar.

Uşaqlar həmçinin ətraf mühitdən irəli gələn estetik anlayışları da mənimsəyirlər. Böyüklərin rəhbərliyi altında uşaqlar gözəl və çirkin, yaxşı və pis anlayışlar haqqında təsəvvür və biliklərə də yiyələnirlər. Məktəbəqədər yaşlı uşaqlar gülməli əsərlərə tamaşa edərkən güldüyü, sevindiyi kimi, faciə əsərlərindəki kədərli əhvalatlardan kədərlənməyi də bacarırlar. Uşaqlar çalınan musiqidə, tamaşa etdikləri rəsm əsərində, oxuduqları nəğmədə şad və kədərli halları duyur, onu əhval-ruhiyyələrində əks etdirir, bundan sevinir, kədərli əhvalatlardan isə dərin həyəcan keçirirlər. Onlar bəzən bunu -çəkdikləri rəsmlərdə əks etdirməyə çalışırlar.

Estetik tərbiyənin metodlarını aşağıdakı qaydada qruplaşdırmaq olar:

1. Ətraf həqiqətləri, incəsənət əsərləri, onlara emosional münasibət göstərmək, estetik hiss, maraq, tələb və münasibətləri formalaşdıran metodlar, bu cisim və hadisələri müşahidə etməklə incəsənət əsərlərinə baxmaq, onları dinləmək yolu ilə müqayisə aparmaq və fərdiləşdirmək qabiliyyəti formalaşdırır;
2. Uşaqlarda estetik şüurun elementlərini formalaşdırmaq. Bu, müxtəlif söhbətlər, ekskursiya və gəzinti zamanı müşahidə aparmaq, oyun metodu vasitəsilə olur;
3. Uşaqları estetik və bədii sahədə fəaliyyətə təhrik etmək, onlarda bu sahədə bacarıq və vərdişlər yaratmaq, incəsənət növlərindən asılı olaraq musiqi, rəqs, şəkil çəkmək, applikasiya, bədii zövq və s. sahələrdə təsviri sənətin elementlərini mənimsəmək;
4. Uşaqların müstəqil fəaliyyəti prosesində onların estetik və bədii qabiliyyətləri inkişaf etdirilir. Uşaqların axtarıcı fəaliyyəti, problemli situasiya, hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq ona diferensiv qaydada yanaşmaqdan ibarətdir. Bu zaman o, yaradıcı, axtarıcı, icraedici qabiliyyətini işə salmaqla, tərbiyəçinin dolayı yolla köməkliyi ilə qarşıya çıxan çətinliyi aradan qaldırmalıdır.
5. Müəllimlərin şəxsi nümunəsi, məktəbəqədər təhsil müəssisəsinin zövqlə tərtib olunmuş interyer imkanları səmərəli reallaşdırmaq üçün nümunəvi yollar açır.

Təbiət mənbələri vasitəsilə estetik tərbiyə işləri aparmağın aşağıdakı yolları mümkündür:

1. Mənbələrdən istifadə baxımından: Uşaqlara müstəqil müşahidələr aparmağı tapşırmaq və tullantı materialları, ədəbi–bədii və təsviri sənət nümunələrindən

istifadə yolu ilə;
2. Ətraf aləmdən istifadə baxımından: Təlim ekskursiyaları, gəzintilər və uşaqların müstəqil müşahidələri yolu ilə;
3. Sualtı mənbələrdən istifadə baxımından: Təbiət və əl işləri materiallarından istifadə yolu ilə.

İncəsənət əsərləri vasitəsilə estetik tərbiyənin yolları:

1. Musiqinin dinlənilməsi, ardınca təəssüratların bölüşdürülməsi, müəllimin izahat və istiqamətverici söhbətləri yolu ilə;
2. Rəsm, heykəltəraşlıq və dekorativ–tətbiqi sənət nümunələrinin seyr edilməsi və müəllimin izahat və söhbətlərinin müşayiəti ilə müşahidə yolu ilə;
3. Poeziya nümunələrinin aktyorlar, müəllim və gözəl diksiyası olan uşaqların ifasında dinlənilməsi və sonradan təəssüratların bölüşdürülməsi, söz və dilin ecazkar qüdrəti barədə söhbətlərin aparılması yolu ilə;
4. Teatr və kino tamaşalarına kollektiv baxış, sonradan müzakirə və təhlil aparılması yolu ilə;
5. Memarlıq və inşaat abidələrini canlı müşahidə, yaxud onları təsvir edən tablolar və efir-ekran materiallarına tamaşadan sonra söhbət–müzakirə aparmaq yolu ilə.

Cəmiyyətin özünün yaratdığı təbii imkanlardan istifadə vasitəsilə estetik tərbiyənin yolları:

1. İnsani münasibətlər mövzusunda həyati faktlara istinad edilərək sərbəst söhbətlər və müzakirələr aparmaq yolu ilə;
2. Mənəviyyat və əxlaq mövzusunda həyati faktlara istinad edilərək sərbəst söhbətlər və müzakirələr aparmaq yolu ilə;
3. Əmək, əməyin qüdrəti və misilsiz gözəllik mənbəyi olması barədə həyati faktlara istinad edilərək söhbət və müzakirələr aparmaq yolu ilə.

Estetik tərbiyənin məqsədi insanda estetik mədəniyyət formalaşdırmaqdan ibarətdir. Bu məqsədi həyata keçirmək üçün işin aşağıdakı istiqamətlərdə aparılması vacibdir:

1. Uşaqlara estetika ilə bağlı müvafiq bilik, bacarıq və vərdişlərin aşılanması;
2. Uşaqlarda estetik hiss, estetik şüur, qavrama, estetik maraq, estetik tələbat, zövq, estetik ideal, estetik fəaliyyət və estetik dəyərləri qiymətləndirmənin formalaşdırılması;
3. Nəticə olaraq estetik zövqün tərbiyə edilməsi.

Elmi-pedaqoji ədəbiyyatda estetik tərbiyənin vəzifələri müxtəlif ifadə tərzləri ilə qeyd edilir, amma ümumi məntiq təxminən eynidir. Ona görə də həmin fikirləri ümumiləşdirərək demək olar ki, estetik tərbiyənin vəzifələri aşağıdakılardır:

1. Təbiətdə, incəsənətdə və ictimai münasibətlərdə gözəlliyi qavramaq, mənimsəmək, başa düşməkdə uşaqlara kömək etmək;
2. Gözəllik əlamətlərini məktəbəqədər təhsil müəssisələrinin həm mənəviyyatı və həm

də görkəmində inkişaf etdirmək. Bu baxımdan onlara mənəvi gözəlliyin nə olduğunu dərk etdirmək və davranış, zahiri görkəm və geyim estetikasının mahiyyətini anlatmaq;

3. Uşaqlara təkcə gözəlliyi duyub dərk etməyi yox, həm də onu yaşatmaq və inkişaf etdirmək və insanı əhatə edən aləmə gözəllik gətirmək qabiliyyətini təlqin etmək;
4. Eybəcərlik, qeyri–estetik davranış tərzləri, məişət xoşagəlməzliyi və incəsənət əsərlərindəki estetik nakamilliyə qarşı dözümsüzlük tərbiyə etmək;
5. Həqiqi gözəllikdən zövq almaq, onun mahiyyətini başa düşüb qiymətləndirmək və mühakimə yürütməyi öyrətmək;
6. Məktəbəqədər təhsil müəssisəsi təliminə hazırlaşan uşaqların bədii ifaçılıq və bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və s..

Beləliklə, qeyd etdiyimiz keyfiyyətlərin məktəbəqədər təhsil müəssisəsi təliminə hazırlıq dövründə əhəmiyyəti vacibdir.

**Estetik tərbiyənin prinsipləri**

Estetik tərbiyənin səmərəsi üçün bir sıra prinsipləri rəhbər tutmaq lazımdır. Həmin prinsiplərə aşağıdakılar daxildir:

1. Estetik tərbiyə insanın ideya-mənəvi tərbiyəsi və dünyagörüşünün formalaşdırılması prosesi ilə sıx əlaqəli şəkildə aparılmalıdır. Estetik tərbiyə işində istifadə olunan materiallar (ədəbiyyat, incəsənət əsərləri - musiqi, rəsm, kino və teatr tamaşaları) gənc nəslin zövqünü tərbiyə etməklə yanaşı, şəxsiyyətin ideya-mənəvi cəhətdən formalaşmasına kömək göstərməlidir. Uşaqlara təqdim olunan sənət əsərləri yüksək ideyalı, bədii cəhətdən dəyərli, mənəvi cəhətdən zəngin və dolğun olmalıdır;

2. Estetik tərbiyədə müəyyən sistem və ardıcıllıq gözlənməlidir. Bədii-estetik bacarıq və vərdişlər müntəzəm çalışma və məşq tələb edir, əks halda onlar unudula bilər. Təsadüfdən-təsadüfə bədii əsər oxumaqla, yaxud musiqi əsəri dinləməklə yüksək estetik zövq aşılamaq olmaz. Çalışmaq lazımdır ki, uşaq hər hansı incəsənət sahəsi ilə, bədii əsər mütaliəsi ilə müntəzəm şəkildə və müəyyən sistemlə məşğul olsun. Bu yolla, bir tərəfdən, bədii-estetik qabiliyyətləri inkişaf etdirmək, digər tərəfdən isə mütaliə, musiqi, təsviri sənət və incəsənətin digər sahələrinə tələbat yaratmaq asan olar;

3. Estetik tərbiyə hərtərəfli aparılmalıdır. Bu o deməkdir ki, uşaqları estetik tərbiyənin müxtəlif mənbələri ilə təbiət, ədəbiyyat, incəsənət və cəmiyyət gözəllikləri ilə daha çox qovuşdurmaq, onların maraq və qabiliyyətlərinin inkişafı qeydinə qalmaq lazımdır. Bu məqsədlə məktəbəqədər təhsil müəssisələri incəsənət və bədii yaradıcılığın müxtəlif növlərinə (musiqi, rəsm, rəqs, ədəbiyyat, mahnı və bədii fəaliyyətə) cəlb etmək, eyni zamanda onun məişət, davranış, geyim və münasibətdə estetik tələblərə uyğun hərəkət etməsinə fikir vermək lazımdır. Əks halda estetik tərbiyə birtərəfli gedər, uşaq incəsənətin hər hansı bir sahəsi ilə məşğul olub digər

sahələri ilə maraqlanmaz. Uşaqların fərdi maraq və qabiliyyətlərinin inkişafına diqqət yetirməklə yanaşı, onların digər sahələrdə də inkişafına qayğı göstərilməlidir;

4. Estetik tərbiyədə tədriciliyi gözləmək vacibdir. Birdən-birə ciddi əsərləri (musiqi, təsviri sənət və bədii əsərlərin mürəkkəb janrlarını) qavramaq çətindir. Bu halda uşaqda incəsənət və bədii yaradıcılığa mənfi münasibət formalaşa bilər. Buna görə də estetik tərbiyədə sadə formalar, bədii əsər və incəsənətin sadə janrlarından başlayıb tədricən mürəkkəb formalar və janrlara keçmək lazımdır. Uşaqlar nağıllar, lirik və xalq mahnılarına böyük maraq göstərirlər. Sonralar bu zəmin üzərində daha ciddi bədii, musiqi və təsviri sənət əsərləri ilə tanışlığa keçmək səmərəlidir;
5. Estetik tərbiyədə uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Gözəllik, incəsənəti qavrama qabiliyyəti, həyata münasibət və estetik zövq baxımından müxtəlif yaş dövrlərində fərqli cəhətlər vardır. Buna görə də estetik tərbiyə işində hər yaşın xüsusiyyətlərini nəzərə almaq və müxtəlif yaş dövrlərində estetik tərbiyə işinin məzmun və formasını fərqli şəkildə qurmaq lazımdır. Kiçik məktəbəqədər yaşlı uşaqların maraqları səthi, davamsız və qeyri-mütəşəkkil olur. Onlar bədii və incəsənət əsərində ümumi məzmunu və ideyanı tapmaqda çətinlik çəkir və detallara daha çox diqqət yetirirlər. Bədii yaradıcılıqda onları nəticədən daha çox yaradıcılıq prosesinin özü (şəkil çəkmək, musiqi alətində çalmaq, əsərin oxunuşu və s.) daha çox cəlb edir.

Yeniyetmə yaşında özünüifadə və özünütəsdiq tələbatı güclüdür. O, bədii əsər və incəsənət əsərinin məzmununu başa düşmək və ona qiymət verməyə çalışır. Yeniyetmələr bədii-estetik yaradıcılığa meyil göstərirlər.

İlk gənclik yaşında uşaqlar həyatın estetik tərəflərinə maraq göstərir və onlara seçici münasibət bəsləyirlər. Onlar incəsənət və bədii yaradıcılıqla məşğul olmağa özünütəsdiq vasitəsi kimi daha çox diqqət yetirirlər. Bu yaşda insan gözəlliyi, məişət və davranış gözəlliyi böyük məna kəsb edir.

Estetik tərbiyədə yaş xüsusiyyətlərini bilmək və nəzərə almaq lazımdır. Bu, hər bir yaşda estetik tərbiyə işini daha səmərəli qurmağa imkan verir.

6. Estetik tərbiyədə məktəbəqədər təhsil müəssisəsi, ailə, məktəbəqədər təhsil müəssisəsindən kənar müəssisələr, mədəniyyət ocaqları, bədii yaradıcılıq təşkilatları (rəssamlar, bəstəkarlar, yazıçılar birlikləri) bir-birilə sıx əməkdaşlıq etməli, vahid xətt üzrə əlbir işləməlidirlər. Bu yolla bütövlükdə estetik tərbiyə işinin qoyuluşunu yaxşılaşdırmaq və ayrı-ayrı gənc istedadların üzə çıxması və bədii-estetik yaradıcılıq qabiliyyətlərinin inkişafına təsirli kömək göstərmək mümkündür.

**Estetik tərbiyənin sistemi, yolları və vasitələri**

Estetik tərbiyənin sisteminə - ailədə və uşaq bağçasında, məktəbəqədər təhsil müəssisəsidə, təlim prosesində və sinifdənxaric tədbirlərdə, məktəbəqədər təhsil müəssisəsindən kənar tərbiyə müəssisələrində, habelə uşaq həyatının təşkilində, insan

münasibətlərində estetik tərbiyə işləri daxildir. Məktəbəqədər təhsil dövründə estetik tərbiyə çox böyük əhəmiyyət kəsb edir. Estetik tərbiyənin bünövrəsi ailədə qoyulur. Ailə gözəllik və uşaq zövqünün ilk məktəbəqədər təhsil müəssisəsi və ana laylası uşaqların ilk melodiyasıdır. Ailədəki səliqə-səhman, təmizlik, uşaq oyuncaqları, ev avadanlığı və əşyalarının gözəlliyi, valideynlərin oxuduğu mahnı və şeirlər, danışdıqları nağıllar, təbiət gəzintiləri - bütün bunlar kiçik yaşlarda uşaq zövqünü formalaşdırır.

Estetik tərbiyə uşaq bağçasında daha sistemli xarakter kəsb edir. Uşaqlarla estetik məzmunlu məşğələlər, təbiət və ətraf aləmlə tanışlıq, musiqi, rəsm, gil, aplikasiya, quraşdırma işləri və əmək məşğələləri aparılır, musiqili-didaktik oyunlar keçirilir və bayram və əyləncələr yüksək estetik formada təşkil edilir. Uşaqlar vaxtaşırı olaraq tamaşalar, səhnələşdirilmiş oyunlar, özfəaliyyət konsertləri, rəqslər və bayramlarda bədii tərtibat işlərinə cəlb edilirlər. Bütün bunlar estetik tərbiyədə mühüm rol oynayır.

Məktəbəqədər təhsil müəssisələrində estetik tərbiyə geniş məzmunda aparılır. Təlim prosesi estetik tərbiyənin çox mühüm vasitəsi olub uşaqların estetik zövq və bacarıqlarının formalaşdırılmasında böyük rol oynayır. Musiqi və nəğmə məşğələləri estetik tərbiyənin qüdrətli vasitəsidir. Musiqi insan qəlbinin dili kimi səciyyələndirilir. Musiqi və nəğmə uşaqların əhvalı və işgüzarlığına müsbət təsir göstərir. K.D. Uşinskinin qeyd etdiyi kimi, balaca bir mahnının ifasından sonra uşaqlar yağışdan sonrakı güllər kimi çiçəklənirlər. Xüsusilə, xorla oxunan mahnı zehni yorğunluğu götürür və xoş əhval aşılayır. Buna görə də musiqi və nəğmədən təkcə bu məşğələlərdə yox, habelə tənəffüslər və əmək tədbirlərində və gəzintilər zamanı geniş istifadə etmək faydalıdır. Bəzi məktəbəqədər təhsil müəssisələrimizdə ilk məşğələnin əvvəlində dövlət himni səsləndirilir və uşaqlar xorla himni oxuyurlar.

Təsviri incəsənət məşğələləri də estetik tərbiyədə böyük əhəmiyyətə malikdir. Rəsm uşaqların bədii zövqü, təxəyyülü və yaradıcılıq qabiliyyətini inkişaf etdirir. Bu vəzifələri yerinə yetirmək məqsədi ilə təsviri incəsənətin müxtəlif sahələrindən - naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ rəsm və təsviri incəsənət haqqında söhbətlərdən istifadə olunur. Məktəbəqədər təhsil müəssisəsinin ibtidai siniflərində formalaşdırılan bədii təsəvvür və bacarıqlar yuxarı siniflərdə daha da genişləndirilir və uşaqlarda bədii təfəkkür, varlığa estetik münasibət və incəsənətə maraq və məhəbbət tərbiyə edilir.

Estetik tərbiyədə bədii ədəbiyyat məşğələləri də böyük imkanlara malikdir. Bədii nümunələr (şeir, hekayə və nağıllar) və bədii ədəbiyyat uşaqlarda estetik hislər, estetik zövq və mühakiməni inkişaf etdirir. Bədii əsərlərin mütaliəsi və tədrisi prosesində təbiət, cəmiyyət və insan münasibətlərindəki gözəlliklər bədii obrazlar vasitəsilə daha yaxşı qavranılır. Uşaqları bədii əsərlərin müstəqil oxusuna cəlb etməklə onlarda mütaliə tələbatı formalaşdırmaq və qeydinə qalmaq lazımdır.

K.D. Uşinski təbiətin gənc ruha təsirini müəllimin təsirindən də güclü hesab edərək yazırdı: "Bəs təbiət, bəs şəlalələr, bəs ətirli çəmənlər və dalğalı səhralar, bəs güllü-çiçəkli bahar və qızılı payız bizim tərbiyəçimiz olmayıblarmı? Gənc ruhun tərəqqisində gözəl mənzərənin tərbiyəvi təsiri o qədər böyükdür ki, müəllimin təsiri ona rəqib ola bilməz" (Seçilmiş əsərləri (rusca), M., 1963, s. 52-53). Böyük pedaqoqun fikrincə, çəməndən bir dənə

də çiçək dərməyən və göy otun üstündə ayaqyalın qaçmayan uşaq yazıq uşaqdır.

Uşaqlar təbiətə canlı maraq göstərirlər. Təbiət uşaqlar üçün başdan-başa sirli aləmdir. “Bu nədir?” refleksi ilə onlar bu möcüzəli aləmi öyrənməyə can atırlar. Bu işdə gəzinti və ekskursiyalar təsirli vasitədir. Təbiət haqqında heç bir şəkil, kitab və söhbət uşaqların canlı müşahidələrini əvəz edə bilməz. Təbiət üzərində müşahidələr təkcə estetik zövq tərbiyəsi üçün deyil, habelə zehni və mənəvi tərbiyənin qüdrətli vasitəsidir: O, insanın ağlı və qəlbini zənginləşdirir, onda yüksək estetik və mənəvi hislər - vətənpərvərlik, xeyirxahlıq, həssaslıq, doğma torpağa məhəbbət və iftixar hisləri oyadır. Bütün bunlar isə təbiət, ətraf mühit və insanlara estetik münasibətin formalaşdırılmasına kömək edir. Təbiətə estetik münasibət tərbiyəsi onun gözəlliklərini sevdirməklə yanaşı, eyni zamanda uşaqları bu gözəlliyi qorumaq və artırmaq işinə cəlb etməyi də nəzərdə tutur.

Məktəbəqədər təhsil müəssisələrində təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: meşəçilik, yaşıllaşdırma işləri, iməciliklər, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, Novruz bayramı ilə bağlı yaşıllıq və təmizlik işlərinin görülməsi və s. belə formalardandır. Məktəbəqədər təhsil müəssisəsi uşaqlarda təbiətə məhəbbət, ona qayğılı münasibət tərbiyəsini daim diqqət mərkəzində saxlamalıdır. Çünki təbiətə məhəbbət doğma yurd, vətənə və insanlara məhəbbətin təməlidir.

Estetik tərbiyənin mühüm bir istiqaməti məişət, geyim və münasibətdə gözəllik ruhunda uşaqları tərbiyə etməkdir. Onlar məktəbəqədər təhsil müəssisəsi, ailə və şəxsi həyatda gözəllik qanunları ilə yaşamaq və hər yerdə estetik mühit yaratmağa çalışmalıdırlar: Gözəl danışmalı, gözəl geyinməli, gözəl yeriməli və gözəl davranmalıdırlar.

Estetik tərbiyədə insan gözəlliyi və münasibət gözəlliyi böyük əhəmiyyət kəsb edir. Sadəlik və təvazökarlıq, adamlara qarşı diqqətlilik, xeyirxahlıq, mədənilik və mərifət şəxsiyyətin estetik mədəniyyətinin mühüm göstəriciləridir. Əksinə, kobudluq, nəzakətsizlik, mərifətsiz hərəkət, yersiz gülüş, insan ləyaqətinə toxunan sözlər və ədəbsiz danışıq estetik mədəniyyətin aşağı səviyyəsini göstərir.

Məişət və münasibət mədəniyyətinin aşılanmasında təkcə izahat işləri azdır və uşaqları davranış gözəlliyinə alışdırmaq da vacib məsələdir. Burada müəllim və valideynlərin nümunəsi və emosional mədəniyyəti böyük rol oynayır. Müəllimin daxili gözəlliyi, uşaqlarla ədalətli münasibəti, həssaslığı, pedaqoji məharəti, hər işdə ölçü hissini gözləməsi, düzlüyü, doğruçuluğu, mədəniliyi münasibət və davranış estetikasının çox təsirli vasitəsidir. Müəllim hay-küylə, hədə-qorxu və qışqırıqla işləyirsə, tez-tez cəzaya əl atırsa, uşaqlara qarşı həssaslıq və humanizm göstərmirsə, onda uşaqlara pis nümunə vermiş olur. Böyük humanist pedaqoq V.A.Suxomlinski belə müəllimi aşağı mədəniyyətli müəllim adlandıraraq yazırdı ki, hay-küy olan yerdə kobudluq və emosional gönüqalınlıq olur. Hay-küylə tərbiyə edilən (ailədə isə döyülən, söyülən) uşaq öz ətrafındakı gözəlliyi görmür, xeyrə həssaslığı itirir, etinasız, rəhmsiz, bəzən isə qəddar böyüyür. Görkəmli pedaqoq müəllimlərə gənc ürək qarşısında, habelə öz-özündə insan gözəlliyini aşkar etmək, yüksək emosional mədəniyyətə yiyələnmək, uşaqlara qarşı həssas olmaq və onlarla ədalətli və mülayim davranmağı tövsiyə edirdi. Onun fikrincə, əgər uşaq ədalətsizlik və təhqirlə qarşılaşmışsa, təşviş, qorxu, sıxıntı və ümidsizlik keçirirsə, bu hislər onun ürəyinə gözəllik

yolunu sanki bağlayır. Bunu nəzərə alaraq məktəbəqədər təhsil müəssisəsidə yüksək mənəvi-psixoloji iqlim, həssaslıq və humanizm mühitinin yaranmasına nail olmaq lazımdır.

Bütün bunlar kompleks halında götürüldükdə gənc nəslin estetik tərbiyəsi, varlıq və insanlara estetik münasibətin formalaşdırılmasına kömək göstərir.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbəqədər təhsil müəssisələri üçün müxtəlif proqramlarda estetik tərbiyənin məzmununu araşdırın. Müqayisə proqramlarının nəticələri barədə fikirlərinizi bildirin.
2. Ətraf mühit və sənət əsərlərinin uşaqların estetik inkişafına təsiri. Pedaqoji və metodik ədəbiyyatın təhlilinə əsasən valideynlər üçün məsləhət kimi çıxış edə biləcək bir hesabat hazırlayın.
3. Müzakirə sualı:
   Yaradıcılığın nə olduğunu izah edin. Uşaq eyni problemi həll etmək üçün müxtəlif yollar axtarırsa, onda məhsulun yaradılması prosesi yaradıcı və axtarış xarakterinə malikdirmi?
4. Məktəbəqədər yaşlı uşaqların yaradıcılıq fəaliyyətinin növləri və xüsusiyyətlərini araşdırın. Aşağıdakı sahələrdə uşaqların bədii fəaliyyətlərindən biri haqqında qısa bir göstəriş hazırlayın:
   - Məktəbəqədər yaşda formalaşma;
   - Təlimatın məzmunu və xüsusiyyətləri;
   - Təşkilat şərtləri.
5. Uşaq rəsm çəkməyə çox həvəslidir və bunun üçün bütün imkanlardan istifadə edir: Həm qrup otağı, həm də həyətdə (yer və qarda) çəkir. Bir gün müəllim ona müraciət edir: "Bəsdir çəkdiyin, başqa bir işlə məşğul ol!"
   Vəziyyəti qiymətləndirin. Uşaqlarla birtərəfli məşğuliyyətə münasibətiniz necədir?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Estetik-yaradıcı fəaliyyətin səmərəli təşkili üçün tədqiqat aparır”.**

1. Məktəbəqədər təhsil müəssisələrində uşaqların bədii və estetik tərbiyəsi metodları:
   - İnandırıcılıq, təlim, problemli vəziyyət və müxtəlif sənət fəaliyyətində empatiya oyun metodlardan istifadə nümunələrini seçin (seçmək üçün).
   - Uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün vəzifələr hazırlayın.
2. “Estetik tərbiyənin təşkili formaları" diaqramı hazırlayın.
3. Yaş qrupuna uyğun uşaqların müxtəlif sənət fəaliyyətlərinə münasibətlərini öyrədən məşğələ qurun.

# TƏLİM NƏTİCƏSİ 4

# SOSİAL-EMOSİONAL İNKİŞAFI TƏŞKİL ETMƏK

## 4.1. Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışmalar hazırlayır

### Sosial-emosional inkişaf

Uşaq üçün erkən yaş dövrü davamlı olmayan emosional əhval-ruhiyyə, emosiyaların yaradılması və həssaslığı ilə səciyyələndirilir. Bütün bunlar uşaqlarla psixoloji işin əsas istiqamətlərini - uşağın həyatının emosionallığı və onun tənzimlənməsinə köməyi müəyyən edir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf etdirilir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və s. kimi mənəvi keyfiyyətlər formalaşdırılır. Uşaqlar oyun, əmək və əməli fəaliyyət və kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Bu dövrdə uşaqların böyüklər və yaşıdları ilə ilkin qarşılıqlı fəaliyyətin müxtəlif formaları yaradılır. Ünsiyyətin köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Beləliklə, ünsiyyət uşağın sosial şəxsiyyət kimi formalaşdırılmasında əsas vasitəyə çevrilir.

Sosiallaşma prosesi insan həyatının uşaqlıq dövründən başlayır və bütün ömrü boyu davam edir. Hamıya məlumdur ki, uşaqlarda nitqin lazımi səviyyədə inkişaf etməməsi onlarda sosial davranışın zəruri komponentlərinin vaxtında inkişaf etməsini tormozlayır, bu isə uşaqda emosional-şəxsi və davranış çətinliklərinin yaradılmasına gətirib çıxarır. Uşaq aktiv fəaliyyətə can atır və bu istəyin sönməsinə imkan verməmək və onun gələcək inkişafına kömək etmək çox vacibdir. Uşaq fəaliyyəti nə qədər dolğun və rəngarəng , eyni zamanda uşaq üçün nə qədər çox əhəmiyyətli olsa və onun təbiətini əks etdirsə, onda onun inkişafı bir o qədər yaxşı gedəcəkdir. Bu səbəbdən məktəbəqədər yaşlı uşaq üçün ətrafdakılarla - yaşıdları və böyüklərlə aktiv ünsiyyət və oyunlar daha yaxın və təbiidir.

### Məktəbəqədər yaşlı uşaqlarda ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün oyunlar

**"Meşə həyatı" oyunu;**

Tərbiyəçi xalçanın üzərinə oturur və uşaqları öz ətrafına toplayır;

Tərbiyəçi: Təsəvvür edin ki, siz meşədəsiz və müxtəlif dillərdə danışırsız. Lakin siz bir-birinizlə hər hansı yolla ünsiyyət qurmalısınız. Bunu necə etmək olar? Heç bir söz demədən öz xeyirxah münasibətini nə cür bildirmək olar? Nə isə soruşmaq üçün nə etmək lazımdır? "Necəsən" sualını vermək üçün yoldaşımızın əlini sıxırıq (göstərir). "Hər şey yaxşıdır" demək üçün başımızı onun çiyninə doğru əyirik və dostluq və sevgimizi bildirmək üçün başını sığallayırıq (göstərir). Hazırsız? Başladıq. Səhərdir, günəş çıxıb və siz yuxudan yenicə oyanmısınız.

Oyunun sonrakı gedişatını pedaqoq iradi şəkildə davam etdirir və diqqət edir ki, uşaqlar öz arasında danışmasın.

**"Qarışqa yuvası" oyunu;**

Tərbiyəçi uşaqları öz ətrafında əyləşdirir;

Tərbiyəçi: Siz heç meşədə qarışqa yuvası görmüsünüz? Qarışqa yuvasında heç bir

qarışqa işsiz oturmur, hər biri məşğuldur: Biri evi möhkəmlətmək üçün ağac qırıntıları daşıyır; biri yemək bişirir; biri uşaqlara baxır. Bu cür qarışqa həyatı bütün yaz və yayı davam edir. Soyuq payız gəldikdə isə qarışqalar bir yerə toplaşıb öz isti evlərində yatır. Onların yuxusu çox möhkəm olduğundan nə qar, nə çovğun onları qorxuda bilər. Qarışqa yuvası yazın gəlişi ilə oyanır. Lakin həmişəki iş həyatına başlamazdan əvvəl qarışqalar böyük qonaqlıq təşkil edir. Belə bir təklifim var: Bayram gününü yaşayan sevincli qarışqalara çevrilək? Qarışqaların bir-birini necə salamladığı, yazın gəlişinə necə sevindiyi və bir-birinə qışda gördükləri yuxunu necə danışdığını göstərək? Lakin unutmamalıyıq ki, qarışqalar danışmağı bacarmır. Ona görə də jestlərlə ünsiyyət qurmalıyıq. Tərbiyəçi və uşaqlar yuxarıdakı hekayəni pantomim şəklində göstərir və rəqslərlə bitirir.

İnsan şəxsiyyəti, sosial-emosional inkişaf fəaliyyət və ünsiyyət prosesində formalaşdırılır. Bu baxımdan fəaliyyətin ahəngdar və qanunauyğun inkişafı uşağın sosiallaşdırılması prosesində əsas amildir. Bu inkişaf real təcrübədə və onun yaşına uyğun olan aparıcı fəaliyyət formasının səmərəli qurulması və hərəkətlərin məqsədyönlü dərk edilməsi sayəsində baş verir. Həmin prosesdə bir növ bələdləşmə sistemi özünü aydın göstərir. Fəaliyyətin iki tərəfi:

- Əşyavi-praktik fəaliyyət;
- İnsanlarla qarşılıqlı münasibət hər bir yaş mərhələsində dəyişilir və yeni məzmun alaraq növbəti fazaya ötürülür.

D.Feldşteynə görə uşaq psixologiyasında sosial inkişafla bağlı məsələlərin özünəməxsus problemləri vardır. Həmin problemlər aşağıdakı mühüm məsələləri əhatə edir:

1. Fərdi inkişafın spesifik qanunauyğunluqlarını;
2. Şüurlu və məqsədyönlü fəaliyyətin formalaşdırılmasını;
3. Real və xəyali obyektlərlə əməliyyat bacarığının yaradılmasını;
4. Uşağın daxili mövqeyinin möhkəmləndirilməsi və digər bu kimi imkanları.

Fəaliyyət formasının aparıcı mahiyyəti ondan ibarətdir ki, psixi proseslər məhz həmin fəaliyyətdə daha uğurla və intensiv inkişaf etdirilir. Uşaq yeni və daha yüksək inkişaf mərhələsinə keçməyə hazırlayır.

Uşaqlarda fəaliyyətin aktuallaşdırılması onların öz hərəkətlərinin bu və ya digər tərəflərinin təkmilləşdirilməsinin nəticəsidir. Belə təkmilləşmə fəaliyyət vasitəsilə yerinə yetirilir. Hər bir hərəkətin kamillik səviyyəsi ontogenezin müvafiq mərhələsi və sosiallaşma və fərdiləşmə prosesinin inkişaf səviyyəsinə uyğun gəlir. Ümumilikdə inkişaf prosesində aparıcı fəaliyyətin rolunu bir neçə aspektdən səciyyələndirmək olar:

I. Aparıcı fəaliyyət və digər fəaliyyət növlərinin mahiyyəti və rolunu inkar etmir, həm də insanın fəaliyyəti yalnız əsas fəaliyyət forması ilə məhdudlaşdırılmır. Əslində onun fəaliyyəti çoxplanlıdır. Sosiallaşma prosesində aparıcı fəaliyyətin ayırd edilməsi yolu ilə insanın dinamik inkişafını şərtləndirən fəaliyyət formasından istifadə etmək və təlim-tərbiyədə bu sahəyə üstünlük vermək daha məqsədəuyğundur. Çünki aparıcı fəaliyyət tipi hər bir fərdiyyətin müvafiq yaş dövründə həyatda tutduğu mövqeyinə görə dominantdır.

Modernləşmə prosesində bu amilin nəzərə alınması sosiallaşdırılan uşağın yeni norma və qaydalarının daha effektli mənimsənilməsini təmin etmiş olur;

II. Fəaliyyətin hansısa formasının aparıcı fəaliyyət kimi ayırd edilməsi, həmin inkişaf dövründə baş verən müəyyən qanunauyğunluqları da ayırd etmə, fəaliyyət prosesinin spesifik xüsusiyyətlərini müəyyənləşdirmə və uşağa effektli təsirin - öyrətmə, təlqin və imitasiyanın yollarını ayırd etməyə imkan verir;

III. Yaş psixologiyasında aparıcı fəaliyyət adı altında qeyri-mütəşəkkil və kor-təbii qurulan fəaliyyət başa düşülmür. Məsələn, yeniyetmələrin özünüdərk tələbatı, yaxud böyük məktəbəqədər yaş qruplarında tədris-peşə fəaliyyəti ilə bağlı müxtəlif sahələrə marağı bilavasitə cəmiyyətin tərbiyə sistemi vasitəsilə, müxtəlif sosial təsirlərlə istiqamətləndirilir (Cədvəl 4.1). Əsas məsələ onların düzgün özünüinkişaf yolunu tuta bilməsi, inkişafda olan insanın inkişafda olan fəaliyyətinin təmin edilməsidir. Əks halda bu inkişaf arzuolunmaz istiqamətlərə yönəldilərək neqativ nəticələr törədə bilər.

| **İnsan münasibətlərinə yönəldilən fəaliyyət formaları** | |
|---|---|
| Aparıcı fəaliyyət növü | Yaş dövrü |
| İntim-emosional ünsiyyət | Körpəlik - 1 yaşa qədər |
| Rollu oyunlar | Məktəbəqədər yaş qrupu - 3-6 yaş |
| İntim-şəxsi ünsiyyət | Yeniyetməlik - 10-15 yaş |
| **Əşyavi–praktik fəaliyyət formaları** | |
| Aparıcı fəaliyyət növü | Yaş dövrü |
| Əşyavi-manipulyativ fəaliyyət | Körpəlik - 1-3 yaş |
| Təlim fəaliyyəti | Kiçik məktəbli - 6-10 yaş |
| Tədris-peşə fəaliyyəti | Gənclik - 15-21 yaş |

**Cədvəl 4.1. Yaş dövrləri üzrə aparıcı fəaliyyət formaları**

İnsanlarla əlaqələr sistemində hər bir insan digərindən mövqeyinə görə fərqləndirilir. Yuxarı yaş mərhələlərinə keçdikcə yeni münasibətlər ön plana keçir. Beləliklə də, məhz insanlarla qarşılıqlı münasibətlər zəminində uşaqda özü və dünyanın dərki sürətləndirilir. Tədricən məktəbəqədər yaşın sonunda insan münasibətlərinin diferensiasiyası baş verir. Belə diferensiallaşmanın köməyilə o hansı situasiyada kimdən nələri gözləmək lazım gəldiyini müəyyənləşdirir. “Mən”in kimliyi, imkanları və maraqları haqqında aydın təsəvvür yaradılır. Nəticədə, “Ruhun bütün aspektlərində inteqrasiya əldə olunduqda insan harmoniya və bütövlük hiss edir” (Yunq). İnsan yalnız özünü dərk etdikdə belə rühi harmoniya əldə edir.

İnsanlarla qarşılıqlı münasibətlərin inkişaf səviyyəsinə uyğun olaraq uşaq özünü əşyavi-praktik fəaliyyətdə reallaşdırır. Vasitə, simvol, işarə və hərəkətləri mənimsəyərək yeni-yeni əşyaların mahiyyətini dərk edir. O cümlədən yeni sosial mənalar axtarır və onların mahiyyəti arasında yeni səbəb-nəticə əlaqələri yaradır. Praktik fəaliyyət fərdin yaşadığı mühitin tələblərinə və sosiallaşmanın ictimai normalarına uyğun qurulmalıdır. Halbuki

hazırda təhsildə paradoksal bir vəziyyət yaradılmışdır. Əslində, öz varlığını dərk etməklə yeniləşmə yolu tutan cəmiyyətdə uşağın fəaliyyəti məhz öz "Mən"ini dərk etmək və bunu praktik fəaliyyətdə reallaşdırmağa yönəldilməlidir.

| **Yaşlar** | **Yaş mərhələləri** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **3–4** | | **5–6** | | **7** | |
| Oyunlar | Oyunların sayı | Faiz | Oyunların sayı | Faiz | Oyunların sayı | Faiz |
| Birinci qrup (əşyalarla) | 3 | 20 | 1 | 2 | 0 | 0 |
| İkinci qrup (süjetli) | 8 | 53 | 5 | 11 | 2 | 3 |
| Üçüncü qrup (qaydalı) | 3 | 20 | 18 | 39 | 22 | 29 |
| Dördüncü qrup (süjetli-qaydalı) | 1 | 7 | 22 | 48 | 42 | 55 |
| Beşinci qrup (idman-yarış) | 0 | – | 0 | – | 10 | 13 |
| Cəmi | 15 | 100 | 46 | 100 | 76 | 100 |

**Cədvəl 4.2. Oyunların yaşlar üzrə qruplaşdırılması**

Elə oyunlar vardır ki, onları bir neçə qrupa daxil etmək olar (Cədvəl 4.2) Məsələn: didaktik, hərəkətli, rollu oyunlar və s.. Yaş artdıqca uşaqların oyunlara münasibəti dəyişir. Bu, uşağın şəxsiyyətinin inkişafı, tələbatların, maraqların məzmununun dəyişməsi ilə bağlıdır.

Məktəbəqədər təhsil müəssisələrinin işində istifadə olunan hərəkətli-rollu oyunlar 5 qrupa bölünür:

1. Hadisələrin təqlidi üzrə və əşyalarla oyunlar;
2. Süjetli-dramatik oyunlar;
3. Sadə qaydalı-süjetli oyunlar;
4. Süjetli-qaydalı oyunlar;
5. İdman-yarış xarakterli oyunlar.

Uşaqların psixoloji baxımdan hazırlanmasında oyun fəaliyyətinə ayrılıqda nə pedaqoji (tərbiyə), nə də psixoloji (özünütərbiyə) prosesi kimi yanaşılır. Bu prosesdə oyunun rolu psixo-pedaqoji nöqteyi-nəzərdən qiymətləndirilir. Ümumilikdə, uşaq oyunlarının psixo-pedaqoji vəzifələri aşağıdakı problemlərin həllinə yönəldilir:

- Psixi inkişaf;
- Fərdiyyətin inkişafı;
- Mənəvi keyfiyyətin formalaşdırılması;
- İnsanlarla münasibətlərin tənzimlənməsi;
- Şəxsiyyət strukturunun formalaşdırılması;

- Yaradıcı qabiliyyətlərin inkişafı;
- Məktəb təliminə hazırlıq və s..

Oyun, bu prosesdə hər bir fərdin sosiallaşdırılması üçün “Təcrübə meydanı” funksiyasını yerinə yetirir. Motivasiya sahəsi isə özünün sosial məzmunundan asılı olmayaraq hər bir uşağın şəxsi həyat təcrübəsində özünün həyat şəraitinə və fərdi xüsusiyyətlərinə müvafiq qaydada inkişaf etdilir. Bu inkişaf zəncirinin hər hansı halqasının qırılması sonrakı mərhələnin gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir.

## Tələbələr üçün fəaliyyətlər

1. Sosiallaşma - bir şəxsin cəmiyyətdəki mövcud sosial və davranış normaları və dəyərlərini mənimsəməsi, eyni zamanda, bütün cəmiyyətin maraqlarına cavab verən yeni fərdi normaların qurulması prosesidir. Sosializasiya anlayışını pedaqogika predmetini xarakterizə edən "Təhsil", "Tərbiyə", "Təlim" və "İnkişaf" terminləri ilə birlikdə qoymaq mümkündürmü?
2. Sosial-emosional inkişafı təmin etmək üçün oyun və çalışmalar hazırlayın.
3. (Dördkünc üsulundan istifadə edərək fəaliyyəti təşkil edin) Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışmaların uşaqlar tərəfindən yaxşı mənimsənilməsi və yerinə yetirilməsi üçün tərbiyəçi-müəllimin istifadə etdiyi metodlardan hansını vacib hesab edirsiz? Araşdırın, tərəfinizi müəyyən edin və səbəbini izah edin.

   1-ci künc: Sosial-emosional inkişafda aparıcı fəaliyyət və digər fəaliyyət növlərinin mahiyyəti və rolu;

   2-ci künc: Sosial-emosional inkişafın uşağa effektli təsiri; öyrətmən, təlqin və imitasiyanın oyun vasitəsi ilə yolları;

   3-cü künc: Sosial-emosional inkişafı oyun-tapşırıq yolu ilə fəaliyyətin təşkili;

   4-cü künc: Sosial-emosional inkişafın oyun vasitəsi ilə möhkəmləndirilməsi.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışmalar hazırlayır".**

1. Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışma hazırlayın.
2. Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun və çalışmaları aşağıdakı cədvələ uyğun olaraq qruplaşdırın və təsnifatını qeyd edin.

| Oyun nəzəriyyəsi | Təsnifatı |
|---|---|
| | |

3. Sosial-emosional inkişafın təmin edilməsi üçün oyun, çalışmalar və uşaq oyunları nəyi öyrədir?

| Təqlid | Rollu oyun | Dramatik oyunlar | Didaktik oyunlar | Tikinti |
|---|---|---|---|---|
| | | | | |

## 4.2. Uşaqlara həssaslıq, qayğıkeşlik və xeyirxahlılığı aşılamaq üçün səmərəli yollar müəyyənləşdirir

Uşaq sosial təcrübəni cəmiyyətdə əldə edir. Ünsiyyət insanların bir-birini anlamasından irəli gəlir. Uşaq bağçasının hər bir qrupunda uşaq münasibətləri cərəyan edir. Məktəbəqədər yaşlı uşaqlar dostluq edir, küsür, barışır, qısqanır, bir-birinə kömək edir, bəzən isə xırda "Dəcəlliklər" edirlər. Bütün bu münasibətlər uşaqlar tərəfindən çox həssaslıqla yaşanır. Məhz bu, uşaqlar arasında tez-tez baş verən münaqişələri, mübahisələri, bəzən isə davaları izah edir.

Tolerantlığın (sənə oxşamayan digər insanı anlamaq bacarığı) formalaşdırılması üçün şəraitin yaradılması zəruridir. Uşaqların əksəriyyətində ünsiyyətin bu inkişaf səviyyəsinə yalnız təhsil prosesində nail olunur.

Uşağın sosial təcrübəni mənimsəməsi yalnız ünsiyyətdə deyil, həm də digər insanlarla müştərək fəaliyyət zamanı da baş verir. Sosiallaşma prosesi boyu uşaq yeni fəaliyyət növlərini mənimsəyir. Bu və ya digər dövrdə müəyyən fəaliyyət növünə daha çox üstünlük verilir. Erkən yaş dövründə əşyavi fəaliyyətə, məktəbəqədər təhsil müəssisəsinə qədər yaş dövründə oyun fəaliyyətinə, məktəbəqədər təhsil müəssisəsində təhsilə və s.. Uşaqların inkişafı uşaq bağçasında onların oyun, təhsil, əmək, təhsildənkənar fəaliyyətlərinə edilən məqsədyönlü təsir nəticəsində baş verir. Seçilən fəaliyyətin həyata keçirilməsi zamanı yeni rolların mənimsənilməsi və onların əhəmiyyətinin dərk edilməsi baş verir.

Körpənin emosional problemini – onun nə üçün təlaşlı, aqressiv, ağlağan olmasını hiss edib və elə bir nağıl uydurmaq lazımdır ki, onun qəhrəmanları, onların sərgüzəştləri və cəsur hərəkətləri uşaq üçün həyati olan problemi (qorxu, təklik, özünə inamsızlıq, kobudluq və s.) həll etməyə kömək etsin. Zahirən (gözləri, qulaqları, saçları ilə) və xasiyyətcə (utancaq, dalaşqan və s.) uşağa oxşayan və nağıl süjetinə görə, maneələri aşmaq üçün bir çox imkan və seçimləri yaradılan fantastik məxluq uydurulmalıdır. Uşaq köməyi hiss edəcək və ona əziyyət verən vəziyyətdən çıxış yolunu tapacaq. Uşağa nağıl danışarkən onu adi səslə və uşağın anlaya biləcəyi, valideynləri ilə real ünsiyyət zamanı mənimsədiyi dildə danışmaq lazımdır.

Valideynlərin verdiyi istiqamətlərin cədvəlini diqqətlə nəzərdən keçirməli və uşağına nəyisə qəti surətdə söyləyərkən bunun nəticələri haqqında düşünməli, bunun, valideynlərin tərbiyəçiyə verdiyi istiqamət (Cədvəl 4.3) ola bildiyini düşünməlidir. Uşağınıza, əslində ona arzu etmədiyinizi söyləməyin.

| **Neqativ istiqamətlər<br>Bunu söyləyərkən** | **Pozitiv istiqamətlər<br>Sözünüzü düzəldin** |
|---|---|
| “Güclü olanlar ağlamır” | “Ağla – yüngülləşərsən” |
| “Ancaq özünü düşün, heç kimə yazığın gəlməsin” | “Nə versən – onu da alarsan” |
| “Sən həmişə atan (anan) kimisən” | “Anan necə də ağıllıdır! Atanıza əhsən olsun! Onlar hamıdan yaxşıdırlar!” |

| | |
|---|---|
| "Sən olmasaydın daha yaxşı olardı!" | "Sən varsan deyə, biz çox xoşbəxtik!" |
| "Elə ömür boyu atan (anan) kimi sürünəcəksən..." | "Hər kəs öz yolunu özü seçir" |
| "Sözə baxmasan–xəstələnəcəksən!" | "Sən həmişə sağlam olacaqsan!" |
| "Alma almaya bənzər" | "Nə əkərsən – onu da biçərsən" |
| "Sənə nə qədər güc sərf etmişik, sən isə..." | "Biz səni sevirik, anlayırıq, sənə inanırıq" |
| "Sənin ağlın kəsən iş deyil..." | "Sənin fikrin hamı üçün maraqlıdır" |
| "Allah cəzanı verəcək!.." | "Allah səni sevir!" |
| "Çox yemə, kökələcəksən, səni heç kim sevməyəcək". | "Ye, nuş olsun!" |
| "Heç kimə inanma, aldadarlar!.." | "Dostlarını özün seç..." |
| "Əgər özünü belə aparsan, səninlə heç kim dostluq etməyəcək!" | "Sən insanlara necə münasibət bəsləsən, onlar da sənə elə münasibətdə olacaqlar. Nə tökərsən aşına – o da çıxar qaşığına" |
| "Sən həmişə bunu hamıdan pis edirsən..." | "Hər kəs səhv edə bilər. Bir də cəhd elə!" |
| "Sən həmişə pinti olacaqsan!" | "Sən necə də təmiz və səliqəlisən. Təmizlik – sağlamlıq deməkdir" |
| "Kişilər qadınlardan ağıllıdır..." | "Hər şey insanın özündən asılıdır..." |
| "Sən pissən!" | "Mən səni hər halında sevirəm..." |
| "Zəhlə tökən olsan – tək qalacaqsan" | "Özünü sevsən – hamı səni sevəcək" |
| "Yaxşı olan hər şey nə vaxtsa bitir, həmişə konfet yemək olmaz" | "Bu həyatda hər şey səndən asılıdır" |

**Cədvəl 4.3. Tez-tez istifadə edilən aforizmlər**

Uşağın ətraf təbiətə, insan əməyinin məhsullarına qarşı qayğıkeş, məsuliyyətli münasibətinin inkişaf etdirilməsi üçün şərait yaratmaq: Heyvanlara və bitkilərə qulluq etmək, quşları yemləmək, təmizliyə riayət etmək, oyuncaqları, kitabları qorumaq çox vacibdir.

Həmçinin, sosial-şəxsi inkişaf təbiətdə, ictimai müəssisələrdə davranışın əxlaqi normalarına malik olmanı, özünə və digər insanlara (yaxınlarına, yaşıdlarına və b.) görə məsuliyyət hissinin dərk edilməsini də nəzərdə tutur.

Məktəbəqədər yaşlı uşağın sosial-şəxsi inkişafı onun intellektual, emosional, estetik, fiziki inkişafının və digər inkişaf növlərinin ümumi prosesləri ilə ayrılmaz şəkildə bağlıdır. Buna görə də bəzən onu digər inkişaf növləri və istiqamətlərindən məhdudlaşdırmaq çox çətin olur.

Qrupun tərbiyəçisi uşaq üçün çox vacib bir insandır. Uşaq ona etibar edir, onun şübhəsiz nüfuza, mümkün olan bütün müsbət keyfiyyətlərə – gözəlliyə, xeyirxahlığa, müdrikliyə malik olduğuna inanır. Bu təəccüblü deyil, çünki uşağın uşaq bağçasındakı həyatı

bütövlükdə tərbiyəçidən asılıdır. Uşağın nəzərində məhz o, oynamaq və ya gəzməyin, şəkil çəkmək və ya qaçmağın, hətta sakitcə oturub dinləməyin vaxtını təyin edir. Tərbiyəçi müxtəlif maraqlı oyun, rəqs, məşğələ, tamaşalar qurur, kitablar oxuyur, nağıllar, hekayələr danışır. O, uşaqlar arasında baş verən münaqişələri həll edir, qaydalar qoyur, o, hər şeyi bilir və hər zaman kömək edə, tərifləyə, bəzən isə fikir verməyə və hətta danlaya bilər.

Ontogenezin dördüncü ili məktəbəqədər yaşın ilkin dövrü olub şəxsiyyətin inkişafı baxımından keyfiyyətcə yeni mərhələdir. Bu dövrdə psixi aləmin formalaşdırılmasını şərtləndirən bir sıra xüsusiyyətlər vardır. Belə ki, 3-4 yaş dövründə özünəhörmət tələbatından irəli gələn eqoist hislər uşaqda gördüyü hər şeyi özününkü hesab etmək meyli yaradır. Öz davranışını, əsasən, düşünülməmiş hərəkətlər üzərində, yaranmış situasiyanın oyatdığı hislərin təsiri altında qurur. Uşağın davranışı artıq yaşlılar tərəfindən nəzarətin obyektinə çevrildiyindən, tez-tez narazılıqla, tənbehlə üzləşir, cəzalanmamaq və ya böyüklərin rəğbətini qazanmaq üçün hislərini tənzimləməyə məcbur olurlar. Özünəhörmət hissi formasını dəyişərək ləyaqət hissinin elementləri hesabına zənginləşir. Uşaqda ləyaqət hissinin formalaşdırılması müxtəlif sosial qruplarda birləşən insanların qarşılıqlı münasibətinin xüsusiyyətləri ilə bağlı olub hər şeydən əvvəl milli xüsusiyyətlərlə şərtləndirilir.

Üçyaşlı uşaqlarda psixi inikşaf, ümumilikdə, onların fərdiləşdirilməsi və sosiallaşdırılması ilə xarakterizə olunaraq müxtəlif psixoloji prinsiplərlə tənzimlənir:

- Fərdiyyətin və şəxsiyyətin inkişafı sahəsində xarakter əlamətlərinin möhkəmləndirilməsi prosesi gedir;
- Fərdi iş üslubu formalaşdırılmağa başlanır;
- Ətraf aləmə mənəvi münasibət yaradılır;
- Şəxsiyyətin quruluşunu əmələ gətirən faktorlar: özünəbələdləşmə, özünəhörmət, özünüqiymətləndirmə, özünüistiqamətləndirmə, özünənəzarət və özünütənzimetmə intensivləşdirilir.

3 yaşda dərketmənin inkişafı üçün ən əhəmiyyətli məsələ bu yaşın qanunauyğunluqlarına uyğun olaraq yenicə fəallaşmağa başlayan emosional təxəyyüldür. Bu təxəyyül yaşlı tərəfindən uşağın şüurunda yaradılan "yaxşı oğlan", "yaxşı qız", "yaxşı adam" obrazıdır. Obraz nə qədər məzmunludursa, uşağın öz rolu haqqındakı təsəvvürü də bir o qədər geniş olur. Öz obrazına sədaqətli qalmağa çalışaraq o, təsadüfi halların təsiri ilə yaranmış hərəkətlərdən qaçır. Tədricən öz hərəkətlərinin müsbət nəticəsinə arxayın olaraq sabit etibar hissinə yiyələnir. Belə özünəinam uşağa utancaqlıq, şübhə, təhqir olunmaq hislərindən qaçmağa imkan verir.

Məktəbəqədər yaşlı uşaqlarda oyun hərəkətlərinin xüsusi motivləşməsinə ehtiyac yoxdur. İlk təşəbbüsə həvəslə qoşulur, problemi həvəslə "həll edirlər". Gördükləri iş onlarda məmnunluq hissi yaradır. Kiçikyaşlılar oyun prosesi və onun nəticələrinin reallığa uyğun olması ilə deyil, yaşlılar tərəfindən özlərinə diqqət yetirilməsi ilə maraqlanırlar. Digər tərəfdən, onlar yaşlının təklifinə tənqidi yanaşmaq təcrübəsinə kifayət qədər yiyələnməmiş olurlar. Belə münasibətdə isə obrazlı hərəkətlərlə və simvolik vasitələrlə də kifayətlənmək mümkündür.

Kiçikyaşlılara konkret bir hərəkət, məsələn, yarpaq şəkli çəkmək, göbələk düzəltmək, körpü qurmaq təklif olunduqda isə vəziyyət dəyişir. Artıq burada obrazlı hərəkətlər işə yaramır, təlim tapşırığının həlli tələb edilir. Təlim tapşırıqlarının yerinə yetirilməsi məqsədilə oyun situasiyalarının yaradılması şərti də bu zərurətdən doğur. Kiçikyaşlılarla qurulan belə situasiya "oyun-təlim-oyun", beşyaşlılarla qurulan situasiya isə "təlim-oyun-təlim" prinsipi əsasında həyata keçirilə bilər. Bir məsələni də nəzərə almaq lazımdır ki, burada söhbət ümumilikdə uşaq fəaliyyətinin təşkilindən deyil, onun subyektiv məqamlarından gedir.

Yaşlılar uşağı hələ kiçik yaşlarından formal davranışa sövq edirlər. Bu sövq etmənin nəticəsində əmələ gələn davranış forması "mərkəzi rollar"dır. Valideyn, uşaq və s. bura daxildir. "Uşaq böyüyün sözünü kəsməz", "Uşaq icazəsiz iş görməz", "Uşaq təkbaşına küçəyə çıxmaz" və s. ifadələrlə onlara tez-tez öz rolunun ssenarisi xatırladılır. Beləliklə, 3 yaşdan başlayaraq, uşaqda davranışın real tərəfləri ilə yanaşı, formal tərəfləri möhkəmlənir. O, öz davranışını formal planda hazırlayaraq, özündə sosial müdafiə olunmuş qaydaları qoruyub saxlayır. Bu prosesdə fərdi-tipik xüsusiyyətlərin inkişafını da ciddi şəkildə təmin etməyə çalışaraq, onun bütövlüyünü qoruyub saxlamağa can atır. "İrsiyyətdən və ətraf mühitdən tikinti materialı kimi istifadə edərək şəxsiyyət binası qurur, lakin onun arxitekturasında öz şəxsi üslubunu əks etdirir" (A.Adler).

Real davranış fərdiyyətin formalaşmasına və buna uyğun dərketmə elementlərinin inkişafına da münasib zəmin yaratmış olur. Tərbiyə prosesində uşağın xarici davranışı onun daxili tələbatı olmadan düzgün istiqamətlənə bilmir. Fərdi-tipik cəhətlərin kənar təsirlərlə sıxışdırıldığı halda psixi proseslərin dinamikası zəifləyir. Ona görə də belə böhran mərhələsində uşağın həyat və fəaliyyətinə diqqətlə yanaşmaq tələb olunur. Normal qiymətləndirmə sayəsində şəxsiyyətin strukturu möhkəmlənir, sabitləşməyə doğru gedir. Kənardan göstərilən düşünülməmiş, yersiz təsirlər uşaqda əks təsirli hissləri bərpa edir, möhkəmləndirir. Həmin təsirlər davamlı olduqda xarakter əlamətləri, mənəvi keyfiyyətlər vaxtında möhkəmlənə bilir. Belə təsirlərə qarşı davamlılıq göstərmək üçün uşaq ətraf aləmə, həmçinin özünün daxili imkanlarına etibar etməlidir. Bu imkanları ilə sosial tələbləri dəf etmək bacarığına əmin olmalıdır.

Vərdişlər, təsəvvürlər və xarakter arasındakı əlaqə də tərbiyə işində mühüm şərtdir. Bu prosesdə pedaqoji təsirlərin rolu yüksək qiymətləndirilir. Belə ki, 3 yaşda daha geniş vasitələrlə qurulmalı olan davranış mədəniyyəti, tərbiyəsi uşağın sonrakı həyatının məzmununu müəyyən edir.

Uşağın tərbiyəsi ilə məşğul olan hər bir yaşlı bilməlidir ki, onların dünyası uşaqlar üçün anlaşılmazdır. Yaşlıların hərəkətləri bir sıra hallarda uşaqlarda xoşagəlməz münasibət yaradır. Çünki uşaq yaşlılar mühitində azad deyil. Bu mühitdə mütəmadi olaraq məcburiyyətlə üzləşir. Yaxud o, real hadisələrdən kənar saxlanılaraq, yaşlıların aləminə yaxın buraxılmır.

3 yaşda uşaq yaşlının şəxsi keyfiyyətləri ilə maraqlanır, daxili aləmini təsvir edir, ancaq öz hislərini həmin səviyyədə tənzimləyə bilmir. 4-5 yaşdan etibarən belə imkanlara tədricən yiyələnir. Bu aralıq mərhələdə uşağın özünü tənzimləməyə yönəldilən hər hansı hərəkətin diqqətin səciyyəsi, nitq və hərəkət sürətinin dəyişilməsi, daxili imkanların

səfərbər edilməsi, sosial tələblərə daha ciddi yanaşılmasında ifadə olunur. Beləliklə, şəxsiyyətin strukturunun hissi-emosional tərəflərin formalaşdırılmasına başlanır. Mənəvi hislər mənəvi təsəvvürlərdən, mənəvi anlayışlardan və keyfiyyətlərdən əvvəl təbii imkanlar şəklində mövcud olub təbii mənşəlidir. Bu hislər sosiallaşma prosesində ətraf aləmin təsirləri ilə intensiv olaraq yaradılır, həm də daim uşağın xəyali hərəkət və davranış motivinin tərkibində, onun komponentlərindən biri kimi möhkəmləndirilir, dəyişməz məzmun alır.

Məktəbəqədər yaş dövrdə insanın ətraf aləm hadisələrinə yanaşma tərzi, fəaliyyət prosesi üçün seçdiyi fərdi üslubu, şəxsiyyət və idrakı bütün imkanları ilə təzahür edir və onun xarakteri haqqında təsəvvür yaranır. Bu sahədə nə öyrədilməlidirsə, onları məhz 3-6 yaşda öyrətmək lazımdır. Bu şərtlər nəzərə alınaraq həmin təsirlər uşağa birbaşa deyil, dolayı vasitələrlə, mənəvi keyfiyyətlərə dinamik təsir göstərən hislər formalaşdırılmaqla edilə bilər.

Uşağın hərəkəti çox zaman yaşlıların rəğbətini qazanmağa yönəldilmiş özünəhörmət cəhdi ilə şərtləndirilir. 3 yaşlı uşaq ətraf mühitlə əlaqələr qurmaq üçün kifayət qədər sosial təcrübəyə malik olur. Bu təcrübəni müxtəlif sosial təsirlərlə fərdi qaydada mənimsəyir. Sosial motivlərin ilkin forması əxlaqi-mənəvi motivlərdir.

Uşaq ilk dövrlər daxili qüvvələrin təsiri altında, ciddi şəkildə götür-qoy etmədən, əvvəlcədən planlaşdırmadan, situativ hislərlə hərəkət edir və nə istədiyini izah etməkdə çətinlik çəkir. Onu fəaliyyətə sövq edən əsas səbəbi yalnız hərəkət məqsədindən müəyyənləşdirmək mümkün olur. Sosial motivlərin ilk dəfə nə zaman əmələ gəlməsi mübahisəli məsələdir, lakin əmələ gəlmə prosesinin elmi təhlili çoxsaylı nəzəriyyələrdə öz əksini tapmışdır. Bu nəzəriyyələrdə əsas cəhət sosial motivlərin şəxsiyyətin formalaşdırılması prosesinin ayrılmaz tərkib hissəsi kimi izah edilməsidir. Şəxsiyyətin formalaşdırılması isə 3-5 yaş mərhələsi ilə əlaqələndirilir.

Uşaq sosiallaşma prosesində xoşagəlməz hislərin oyadılmasından ehtiyat edərək, öz "Mən"inin orijinal naturasına təzyiq göstərir və onu sıxışdırır. Bu, təsadüfi baş vermir. Bu konflikt tam fərdi azadlıq cəhdilə sosial normalar arasındakı qaçılmaz ziddiyyətdən doğulur.

Şəxsiyyətin gələcək əxlaqi-etik məzmununu uşağın valideyndən asılılıq səviyyəsi müəyyən edir. Xarakterin formalaşdırılması da valideynin bu məsələyə münasibətindən asılıdır. Uotson valideynin tərbiyəvi təsirini aşağıdakı kimi izah edir: "Əgər siz cavan bitkini pəncərənin qarşısına qoysanız, o, işığa doğru əyiləcək. Siz həmin bitkini məcbur etmisiniz ki, yaratdığınız şəraitə uyğunlaşsın".

Şüuraltı amillər, xüsusilə, arxetiplər sosial inkişafın məzmununu müəyyənləşdirən mühüm şərtlərdən biridir. Uşağın öz anası haqqındakı qavrayışında onun xüsusiyyətləri olan arxetipik ana atributları: tərbiyə, nəsilartırma, cismani bağlılıq kimi məsələlər barədə nöqteyi-nəzərlər mövcuddur.

Sosiallaşma prosesində yaradıcı qabiliyyətlər müstəsna rol oynayır. Yaradıcı qabiliyyət erkən yaş dövründə təzahür edir və sosial maraqların inkişafına zəmin yaradır. A.Adler bu barədə öz fikrini belə izah edir: "Hər bir insan öz yaradıcılığının nəticəsidir". Müəllif bu prosesdə insanın sosial mənşəyinin, ailədə neçənci övlad olmasının, fiziki bütövlüyünün təsirini də ön plana çəkir.

E.Erikson hesab edir ki, uşaqlarda ətraf aləmə qarşı münasibət, etibar hissi qidanın miqdarından, yaxud valideyn nəvazişindən deyil, daha çox ananın uşağı tanıma, daimilik və narahatlığa üstüngəlmə hislərini vermə bacarığından asılıdır. O, uşağın inkişafını daha dərindən təhlil edərək dinamik və neqativ tərəflərinin psixoloji xarakterini açmış, bu prosesdə ətraf mühit amillərinin rolunu şərh etmişdir.

## Tələbələr üçün fəaliyyətlər

1. "Mənəvi tərbiyə mexanizmi" sxemini tərtib edin. Komponentlərdən biri xaric olunarsa, mənəvi keyfiyyətlə nə baş verdiyini izah etməyə çalışın. Onu başqa bir komponentlə əvəz edə bilərsizmi? Bu suallar ətrafında müzakirə aparın.
2. Məktəbəqədər təhsil müəssisələrində uşaqlara həssaslıq, qayğıkeşlik və xeyirxahlığı aşılamaq üçün səmərəli yollar müəyyənləşdirmək üçün təkliflər hazırlayın.
3. Aşağıdakı cədvəli doldurun:

| Həssaslıq komponentləri | Qayğıkeşlik şərtləri | Xeyirxahlığın məzmunu |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşaqlara həssaslıq, qayğıkeşlik və xeyirxahlılığı aşılamaq üçün səmərəli yollar müəyyənləşdirir”.**

1. “Uşaqlara həssaslıq, qayğıkeşlik və xeyirxahlığı aşılamaq üçün səmərəli yollar“ layihəsini işləyin və şifahi təqdimat edin.
   Perfokartlarla iş:
   Perfokart 1: Uşaqlarda həssaslığın inkişafını müəyyən edin.
   Perfokart 2: Uşaqlarda qayğıkeşlik haqqında qrafik qurun.
   Perfokart 3: Sosial-emosional mühiti yaradın.
2. Uşaqlarda həssaslıq, qayğıkeşlik və xeyirxahlılığı inkişaf etdirmək üçün zəruri elementləri qeyd edin:

| Element | Məqsəd |
|---|---|
| | |

3. Uşaqlarda həssaslıq, qayğıkeşlik və xeyirxahlığı inkişaf etdirmək üçün mühitin gözləntiləri və resurslarını cədvəldə qeyd edin:

| | Gözləntilər | Resurslar | |
|---|---|---|---|
| Həssaslıq | -<br>-<br>- | -<br>-<br>- | Həssaslıq |
| Qayğıkeşlik | -<br>-<br>- | -<br>-<br>- | Qayğıkeşlik |
| Xeyirxahlıq | - | - | Xeyirxahlıq |

### 4.3. Ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar seçir

Məktəbəqədər yaş mərhələsi insanın fiziki, psixi və sosial inkişafı baxımından əhəmiyyətli bir dövrdür. Bu dövrdə refleksiya sahəsində ciddi dəyişikliklər gedir, yeni şərti reflekslər yaradılır. Şərti reflekslərin sürətlə əmələ gəlməsi və sürətlə sönməsi, şərti ləngimənin gec yaranması, davamsız olması ilə səciyyələnən yeni doğulmuşların - körpələrin ali sinir fəaliyyəti məktəbəqədər yaşın sonunda geniş refleksiv imkanların yaradılması ilə başa çatdırılır.

Uşağın fəaliyyəti, ünsiyyəti və davranışı müstəqil xarakter alır. Refleksiyanın inkişaf səviyyəsi özünü, ilk növbədə, uşağın psixomotor fəaliyyətində göstərir. Ətraf aləmə bələdləşmə üzrə uşaqlarda ilkin bacarıq və vərdişlər yaradılır. Sosial mühitlə ikitərəfli qarşılıqlı münasibətlərin qurulmasının əsası qoyulur.

Məktəbəqədər yaş dövründə insanın başqaları ilə ünsiyyət və münasibətlərini, kommunikativ əlaqələrini özündə cəmləşdirən empatik münasibətlər baş verir.

Empatiya - özünü başqa insanın və ya canlının yerində hiss etmə bacarığı, başqasının dərdinə şərik olma hissidir. Empatiya, eyni zamanda, başqa insanın emosional halını onun mimika və hərəkətlərindən duyma qabiliyyətini ehtiva edir. Həmçinin, insanı görmədən onun emosional halını tam dəqiq hiss etmək qabiliyyətini nəzərdə tutur.

Hələ 1 yaşdan başlayaraq uşaqlarda nitqi anlamanın (fonetik eşitmə) və rabitəli nitqin inkişafı gedir. Nitqin inkişafı uşağın hərəki fəallığı ilə paralel baş verir. Dərketmə imkanlarının artması qarşılıqlı qaydada nitqin inkişafında öz əksini tapır.

Məktəbəqədər yaş dövründə insan şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur. Bu prosesin ilkin və ən dinamik, əhatəli, məzmunlu mərhələsi başa çatdırılır. Belə ki, bu dövrdə mənəvi hislər inkişaf etdirilir, mənəvi keyfiyyətlər haqqında təsəvvürlər, anlayışlar formalaşdırılır. Uşaq özünü sosial varlıq kimi dərk etməyə başlayır. Şəxsiyyət də dərketmə prosesində formalaşdırılır. Bu hadisə ətraf aləmlə qarşılıqlı münasibət zəminində, özünüdərketmə prosesində baş verir. Bu baxımdan dərketmənin və şəxsiyyətin inkişafının ilkin mərhələsi – özünütanımadır. Özünütanıma prosesini yaşayan uşaq əzələ, vətər, bağlar vasitəsilə öz bədənini, daxili orqanlarını dərk etməyə başlayır. Bu mərhələ uşağın doğulduğu andan bədən üzvlərini adlandırmağa, onların funksiyalarını dərk etməyə qədər davam edir. Nəticədə özünü başqa obyektlərdən fərqləndirir.

Uşaq şəxsiyyətinin inkişafının ikinci mühüm mərhələsi özünəməxsusluq dövrüdür. Onlar özlərinə aid olan insanları, əşyaları, ailəni, evini, yaşadıqları ərazini, nəhayət, Vətənini adlandırır və fərqləndirirlər. 3 yaşda "Mən"- təsəvvürünün yaradılması ilə uşaq şəxsiyyətində keyfiyyət dəyişmələri müşahidə olunur. Ətraf aləmlə müntəzəm əlaqələr zəminində uşaq özünün kimliyi haqqında təsəvvürlərə yiyələnir, özünü həmçinin cinsi baxımdan fərqləndirir. Beləliklə, uşaq öz adını, cinsini, kimin övladı olmasını öyrənərək dərk etməyə başlayır ki, boyun artmasından, ətrafdakılarla qarşılıqlı münasibətdən asılı olmayaraq o, hamı üçün dəyərli insan olaraq qalır. Uşağa aid olan zəngin sosial inkişaf mühiti özünəməxsusluq hissini gücləndirir.

İkinci yaşın axırlarından uşağın ünsiyyət vasitə və yollarını dərk etməyə başlaması mənəvi tərbiyə üzrə işin aparılması üçün zəmin yaradır. Bu dövrdə kollektivdə uşaqların

birgə fəaliyyəti tədricən xeyirxah, emosional ünsiyyət münasibətləri yaradır.

Həyatının altıncı ilində uşaq həyatı boyu lazım olacaq mühüm keyfiyyətlərə yiyələnir: böyüklərın danışdıqlarını anlayır, öz fikrini onlara başa sala bilir. Böyüklərlə ünsiyyətin ən qabarıq forması belə qarşılıqlı anlaşmaya əsaslanan şəxsi ünsiyyətdir. O, öz şəxsi keyfiyyətləri haqqında böyüklərın fikrini bilmək istəyir.

Böyüklərlə ünsiyyətin daha mürəkkəb forması olan oyun və təlim prosesində qarşılıqlı yardım, sadə tapşırıqların yerinə yetirilməsi əsasında uşaqda hissi, idrak və mənəvi keyfiyyətlər formalaşdırılmağa başlanır.

Bu dövrdə uşağın yaşıdları ilə qarşılıqlı münasibəti daha da möhkəmləndirilir. Qarşılıqlı anlaşma və rəğbət əsasında uşaqlar bir qrupda birləşdirilirlər. Hər bir uşaq yaşıdlarının hərəkətlərinə tənqidi münasibət bəsləyir. Qrupdaxili münasibətlər həmrəyliyinin ilk rüşeymlərini yaradır və kollektivçiliyin bünövrəsini qoyur.

Erkən yaşlı uşaqlar, əsasən, ünsiyyət, oyun və əşyavi-manipulyativ fəaliyyətlərə cəlb olunurlar. Buna görə bu fəaliyyətlər əsasında hansı bacarıqların formalaşdırılmasına imkan yaradılacağı dəqiq bilinməlidir. Ünsiyyət, əşyavi-manipulyativ fəaliyyətlər uşağı dili fəal mənimsəməyə kömək edir və onu oyuna hazırlayır. Əşyalarla fəaliyyətin təsiri altında ünsiyyət və oyun zamanı uşaqlarda təfəkkür, yaddaş, duyğu və digər idraki proseslər inkişaf edir.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

Ətraf mühitdəki həm sosial, həm də təbiət obyektləri ilə tanışlıq, onlarla davranma yollarının göstərilməsi, uşağın əşyalarla, oyuncaqlarla fəaliyyətə həvəsləndirilməsi, perseptiv fəaliyyətin formalaşdırılması;

Uşağın manipulyativdən əşyavi fəaliyyətə, sonra isə alət fəaliyyətinə keçidə həvəsləndirilməsi;

Qeyri-ixtiyari idraki proseslərə və ixtiyarilik üzərində emosionallığın üstünlüyünə əsaslanaraq uşağın idraki tələbatının dəstəklənməsi və stimullaşdırılması;

2-3 yaşlı uşaqlarla ünsiyyət. Bu dövrdə fiziki inkişafın intensivliyi azalsa da, ətrafdakılarla münasibətdə əsaslı dönüş baş verir. Fəaliyyətlərin müxtəlifliyindən və məşğələlərin xarakterindən asılı olaraq onlar nitq fəaliyyətinin müxtəlif formalarına cəlb olunurlar. Əvvəlki yaş dövrünə nisbətən ətrafdakılarla canlı ünsiyyətə - dialoqa girir, danışanı dinləməyə, eşitdiklərini başa düşməyə, sual verməyə, "Bu nədir?", "Nə vaxt?", "Harada?", "Nə üçün?" suallarına cavab verməyə çalışırlar. Erkən yaşlı uşaqlar tərbiyəçi-müəllimlərin nəzarəti ilə sosial mühitə uyğunlaşmağı, başqalarıyla qarşılıqlı əlaqə saxlamağı və ünsiyyət qurmağı öyrənirlər.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

- Təhlükəsiz ünsiyyət dairəsinin genişləndirilməsi: "Yanında" qarşılıqlı fəaliyyətdən "Birlikdə" qarşılıqlı fəaliyyətə keçid;
- Emosional-işgüzar ünsiyyətin tələbatına uyğun olaraq uşağın müraciətinə cavabın təşkili;
- Ətraf mühit barədə danışmaq xahişinin dəstəklənməsi və cavablandırılması. Digər uşaqlarla ünsiyyət qurmaqda uşağa yardım edilməsi;

- Ünsiyyət prosesində müsbət emosiyaların ortaya çıxarılması üçün şəraitin yaradılması. Böyüklərin və uşaqların müsbət nümunələrinin təqlid edilməsi istəyinin dəstəklənməsi.

3-4 yaşlı uşaqlarla ünsiyyət üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

- Şəxsiyyətlərarası münasibətlərdə uşağın tələbatının təmin olunması üçün təhlükəsiz və rahat atmosferin yaradılması;
- Uşaqların marağı üzrə ünsiyyətin təşkili, müsbət münasibətlərin qurulmasına yardım göstərilməsi;
- Mədəni ünsiyyət qaydalarına müvafiq olaraq ilkin kommunikativ bacarıqlarının formalaşdırılması;
- Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin istifadəsində, uşaqlar və böyüklərlə ünsiyyətin qurulması üzrə vasitə və üsulların (salamlaşmaq, gözlərə baxmaq, təşəkkür etmək və s.) mənimsənilməsində uşağa yardım.

4-5 yaşlı uşaqlarla ünsiyyət fəaliyyəti üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Müstəqil şəkildə böyüklər və yaşıdları ilə qarşılıqlı fəaliyyət zamanı müəyyən olunmuş qaydaların gözlənilməsi;
- İşgüzar situasiya və ünsiyyətin inkişaf etdirilməsi;
- Uşağın yaşıdları tərəfindən qəbul olunması üçün əlverişli şəraitin yaradılması;
- Birgə fəaliyyət, kiçik qruplarla fəaliyyəti təşkil edilərək uşaq kollektivinin formalaşdırılması;
- Ali əxlaqi hislərin aşılanması (vətənpərvərlik, kollektivizm, mehribanlıq və s.);
- Şəxsiyyətlərarası münasibətlər sistemində əlverişli yer və mövqeyə malik olmaq üçün uşağa ünsiyyət üsullarının və vasitələrinin (oyuncaqları bölüşmə, oyunların təşkili, yardım və s.) mənimsənilməsinə yardım edilməsi.

5-6 yaşlı uşaqlarla ünsiyyət fəaliyyəti üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Mübahisəli vəziyyətin qeyri-zorakılıq yolu ilə həll olunmasının, ünsiyyətdə əxlaqi normaların aşılanması;
- Böyüklər və digər uşaqlara idraki, praktik və kommunikativ məsələlərin həlli üçün suallar vermək bacarığının formalaşdırılması;
- Ünsiyyət zamanı etibar və hörmətin aşılanması;
- Dostluq münasibətləri üçün şərait və imkanların yaradılması, kollektivçilik və liderliyin formalaşdırılması;
- Başqa insanların emosional vəziyyətinin başa düşülməsi bacarıqlarının formalaşdırılması.

**Yaşıdlarla ünsiyyət tələbatının xüsusiyyətləri**

Uşağın şəxsiyyətinin formalaşdırılmasında yaşıdlar mühitinin də rolu böyükdür. Uşaq yaşıdlarla münasibətə özünü reallaşdırma tələbatı ilə sövq edilir. 3 yaşa qədər yalnız fərdi qaydada oynayan uşaq 3 yaşda rollu oyunlara can atır. Bu oyunlarda onun tərəf müqabili

yaşıdıdır.

Uşaq mikroqruplarında aparılan təcrübələr göstərir ki, hər bir mikroqrup özünəməxsusluğu ilə digərlərindən fərqlənir. Ümumiyyətlə, məktəbəqədər yaşlı uşaqlarla komplektləşdirilmiş qruplar nəinki özündə cins, yaş xüsusiyyətlərini, eləcə də, uşağın mənsub olduğu sosial təbəqənin, yaşadığı regionun, onu əhatə edən mühitin mədəni dəyərlərini, eyni zamanda, “Mən” haqqında təxəyyül elementlərini ifadə edir. Uşağın yaşıdlarla həssas münasibəti bir sıra şərtlərlə səciyyələndirilir. Belə ki, qrupun oyun prosesində öz yaşıdlarını qarşılıqlı qiymətləndirməsi əhəmiyyətli dərəcədə rolun oynanılması səviyyəsinə uyğun olaraq dəyişilir. Belə təsirin mexanizmi özünüqiymətləndirmənin qrupun qiymətləndirilməsinə yaxınlaşdırılması ənənəsinin yaradılması ilə şərtləndirilir.

Burada söhbət yalnız yaşlıların nəzarəti altında qurulan fəaliyyətdən gedir. 4 yaşlı uşaqlar qrup oyunlarında qarşıya qoyulmuş məqsədi sona çatdırmaq qədər özünə və başqalarına nəzarət imkanlarına hələ tam malik deyillər. Uşağın özü haqqındakı təsəvvürləri onun fərdi təcrübəsində yaşıdlarla ünsiyyəti zamanı yaradılır. Bu ünsiyyətin məzmunu özünüqiymətləndirməni tənzimləyir. 4 yaş bu baxımdan özünüdərketmənin mühüm mərhələsidir.

Məktəbəqədər yaşın sonuna qədər uşaq öz yaşıdına şəxsiyyət kimi yanaşa bilmir. Yaşıd onun üçün öz maraqlarını reallaşdırmaqdan ötrü vasitədir. Əgər həmyaşıdı bu tələbin ödənilməsi üçün işə yaramırsa, tərəf müqabil kimi öz əhəmiyyətini itirir. Oyun üçün xüsusi əhəmiyyət kəsb edən əşyalarla müqayisədə arxa plana keçir, çox asanlıqla onunla ünsiyyətdən imtina edir. Yalnız məktəbəqədər yaşın sonunda yaşıdlara qarşı şüurlu əxlaqi münasibət özünü göstərir.

Uşaq fəaliyyəti yalnız insanlarla deyil, əşyalarla, təbiətlə də yeni münasibətin yaradılmasını zəruri edir. Əşyalara, təbiət elementlərinə münasibət özünəməxsus xüsusiyyətlərə malikdir. Onları əhatə edən əşyaları, təbiət elementlərini mahiyyətinə görə deyil, sensor əlamətlərinə görə fərqləndirir və qiymətləndirirlər. Rəngli, hərəkətli, səsli obyektlərə xüsusi diqqət yetirirlər. Onlarda elə əşyalara və oyuncaqlara maraq oyanır ki: a) yaşlılar həmin obyektə xüsusi diqqətlə yanaşırlar; b) ondan istifadə qaydalarını bilirlər; c) əşya oyun üçün əhəmiyyət kəsb edir.

Xatırlatmaq lazımdır ki, ümumilikdə, körpə yaşlı uşaqların ünsiyyəti insanlara qarşı sosial tələbatla yaranmır. Həyatının birinci ilində uşağın insanlarla ünsiyyət tələbatında yalnız iki meyar üstünlük təşkil edir - başqasına maraq və ona müsbət reaksiya göstərmək. Bunlar empatik inkişafda vacib məsələlərdir, lakin empatik sahənin formalaşdırılması üçün yetərli deyildir. Empatik aləmin dəyərləndirilməsini səciyyələndirən ən vacib məsələlər uşağın insanlarla ünsiyyətə təşəbbüs göstərməsi, onun təsirlərinə həssas olması, refleksivliyidir. Bu imkan yalnız reflektiv sistemlə empatik sistemin əlaqəsi sayəsində yarana bilir.

Nitqin semantik məzmunu. Sözlərin, sinonimlərin, intonasiyanın müxtəlif variantlarından, məsələn, “Edirəm” feilinin, “Gözəl” sifətinin bir çox oxşar formalarından, mübaliğə və təşbehlərdən istifadə edirlər. Bu bacarıqdan söhbətlərində, həmyaşıdlarla

ünsiyyətində məharətlə yararlanırlar. 5 yaşa keçmiş uşaq sanki birdən-birə dəyişilir. Ağıllı mühakimələr yürüdür, ciddi söhbətlərə qoşulur, tənqidi fikirlər söyləyir. Sözdə vurğu, cümlədə pauza, nitqdə intonasiya beşyaşlıların nitqinin mədəni səviyyəsinin əsas göstəriciləridir.

Nitqin qrammatik quruluşu. Nitq qrammatik cəhətdən bitkinləşdirilir. Bir nağılın, yaxud hekayənin içərisində eyni ismi bütün hallarda, sayları tək və cəm halda, xəbəri indiki, keçmiş və gələcək zamanda asanlıqla işlədilir. Nağıl personajları, hekayə qəhrəmanları məharətlə yamsılanır: “Ayı dedi: - Eheyy! Sən məndən…qorxmursan? Ha-ha-ha!”, yaxud, siçan qorxaq səslə civildədi: “Ci-ci-ci, v a-y-v a-y, mən haaa-raa qaçım? V aa-yy!”. Onlar 12 rəngi fərqləndirir və adlandırırlar.

5-6 yaş dövrü “Sosial standartlaşdırılmış nitq dövrü” kimi də xarakterizə edilir. Uşaqlar ünsiyyət bacarığına və davranış mədəniyyətinə yiyələndikdə ətraf aləmlə birbaşa əlaqə qura bilirlər. Təbiət, mədəniyyət hadisələrilə bilavasitə tanış olur, onların iştirakçısına çevrilirlər. Bu zaman öz nitqinə də tələbkarlıqla yanaşır, münasib elementlər seçir, onları münasib məqamlarda işlədir, münasib tərzdə ifadə edirlər. Bu, koqnitiv imkanlar sayəsində mümkün olur, çünki insan münasibətlərinin bu yüksək səviyyəsi idrakın, hislərin və iradənin assosiativ əlaqəsi ilə yüksək şüurluluq zəminində tənzimlənir.

Nitqin riyazi ölçüləri. Beşyaşlıların nitqi müvafiq riyazi ölçülərə malik olmalıdır. Ona görə də təlim məşğələlərində onların nitqi bu səviyyəyə qaldırılır. Beşyaşlıların nitqinin ən spesifik ölçüsü müstəqil nəqletmədə işlətdikləri sözlərlə bağlıdır. Məsələn, beşyaşlı uşaq nəqletmə zamanı heç bir müdaxilə olmadan 30-dan 60-a qədər söz işlətməlidir. Onlarda fəal söz ehtiyatı 100-ə çatır. Elə istedadlı uşaqlar da var ki, həmin rəqəm 150-200 və daha çox olur. Bu göstəricilərə fikrin ifadəliliyi, tamlığı, emosionallığı, süjet üzrə inkişafı, süjetin hissələrə ayrılması və yenidən kuliminasiya nöqtəsinə doğru yönəldilməsi də daxildir.

Beşyaşlı uşaqların nitqinin qüsurlu cəhətlərindən biri onun diqqətlə tənzimlənməməsidir. Uşaq müstəqil fikir söyləyərkən onun üçün mətnin bir mövzu ətrafında mərkəzləşdirilməsi və tabe edilməsi çətinləşir. 5 yaşlı uşaq ən azı 4-6 sözdən ibarət cümləni nitq mədəniyyətinin müvafiq tələblərinə görə ifadə etməlidir.

Beşyaşlı uşaqların oyun, əmək və təlim fəaliyyəti zamanı nitqi 2-3 dəfə zəifləyir. Bunun səbəbi xarici nitqin daxili nitqlə əvəzlənməsi ilə izah edilir. Bu faktı reqressiv əlamət kimi qiymətləndirmək olmaz. Əslində daxili nitqin inkişafı fəaliyyətin məhsuldarlığını artırır, koqnitiv imkanları genişləndirir.

Nitqin inkişafında məşğələdənkənar oyun fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Onlar öyrəndikləri yenilikləri, nitq elementlərini oyun süjetinə daxil edərək vərdişə çevirirlər. Məhz bu baxımdan beşyaşlıların süjetli-rollu oyunları özünün real nəticələrinə görə yüksək qiymətləndirilir. Müşahidələr göstərir ki, beşyaşlıların nitqinin göstərilən səviyyəsi heç də bütün uşaqlar üçün xarakterik deyildir.

## Tələbələr üçün fəaliyyətlər

1. Ünsiyyət qaydaları və normalarının məzmununun müxtəlif şərtlərdən asılılığını konkret misallarla sübut edin. Məzmundakı fərqləri izah etməyə çalışın.
2. Hər hansı bir yaş qrupu üçün "Ünsiyyət qaydaları" yaradın və onların həyata keçirilməsinin yollarını inkişaf etdirin.
   Bunun üçün atalar sözləri, kəlamlar, şeirlərdən istifadə edin.
   Hər qaydanın uşaq üçün başa düşülən və cəlbedici olmasını düşünün.
3. Ziqzaq təlim texnikasından istifadə edərək verilmiş mətni təhlil edin və fikirlərinizi bölüşün.
4. Kazusların oxunması: Aşağıda verilən kazusu-problemi araşdırın və müzakirə edin.
   Bəzi uşaqlar müəyyən edilmiş davranış qaydalarını yalnız tərbiyəçinin birbaşa şəxsi nəzarəti ilə yerinə yetirirlər. Əgər bu belə deyilsə, qaydalar unudulur deməli.
   Bunu necə izah etmək olar:
   - Məktəbəqədər yaşlı uşaqların xüsusiyyətləri ilə;
   - Formalaşdırılmış bacarıqların zəifliyi ilə;
   - Böyüklərin diqqətinin olmaması ilə?

Bəlkə başqa səbəblər var?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar seçir”.**

1. Aşağıdakılardan hansılar ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlardır?
    2. Söhbətlər;
    3. Müsahibələr;
    4. Süjetli-rollu oyunlar;
    5. Bukletlər;
    6. Məktublar;
    7. Valideynlər üçün jurnal və qəzet;
    8. Poçt qutusu;
    9. Şikayətlər;
    10. Audio yazıların istifadəsi;
    11. Sərgilər.

A) 4, 5, 6;
B) 1, 2, 3;
C) 8, 9, 10.

2. Aşağıdakılardan hansılar 4-5 yaşlı uşaqların ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar tətbiqinə dair tələblərdir?
    a) İşgüzar situasiya və ünsiyyətin inkişaf etdirilməsi;
    b) Uşağın yaşıdları tərəfindən qəbul olunması üçün əlverişli şəraitin yaradılması;
    c) Birgə fəaliyyət, kiçik qruplarla fəaliyyəti təşkil edilərək uşaq kollektivinin formalaşdırılması;
    d) Ali əxlaqi hislərin aşılanması (vətənpərvərlik, kollektivizm, mehribanlıq və s.);
    e) Şəxsiyyətlərarası münasibətlər sistemində əlverişli yer və mövqeyə malik olunması üçün uşağa ünsiyyət üsullarının və vasitələrinin (oyuncaqları bölüşmə, oyunların təşkili, yardım və s.) mənimsənilməsinə yardım edilməsi;
    f) Müstəqil şəkildə böyüklər və yaşıdları ilə qarşılıqlı fəaliyyət zamanı müəyyən olunmuş qaydaların gözlənilməsi;
    g) Valideynlər üçün stenddə yerləşdirilmiş məlumatların dinamik olması;
    h) Stendlərdə yerləşdirilmiş məlumatların aktual və düzgün olması;
    i) Məqalələrin valideynlər üçün anlaşılan dildə yazılması.

A) a, b, c, d, e, f;
B) b, c, d, e, f, h;
C) c, d, e, f, g, h;
D) d, e, f, g, h, i.

3. Aşağıda verilən cədvəli tamamlayın:

| **Ünsiyyət bacarıqlarının inkişafına xidmət edən metodlar** | | |
|---|---|---|
| Məqsədləri | Tələbləri | Məzmunu |
| | | |
| | | |
| | | |

## 4.4. Əməkdaşlıq və komandada işləmək bacarıqlarını formalaşdırmaq üçün çalışmalar hazırlayır

Məktəbəqədər yaş uşaqların həyatında əhəmiyyətli bir dövrdür, çünki anadan olandan məktəbəqədər təhsil müəssisəsinə qədər çox inkişaf yolu keçir. Uşağın şəxsiyyət kimi formalaşdırılması onun ətrafındakı dünyanın təsiri altında baş verir və bu işdə uşaq bağçası və ailə, xüsusilə, əhəmiyyətli rol oynayır. Uşaqda əməkdaşlıq vərdişlərinin formalaşdırılması daha çox məhz əmək tərbiyəsi çərçivəsində həyata keçirilir. Bu bacarıqların formalaşdırılması uşağın sosiallaşdırılması prosesinə, yəni onun kifayət qədər müstəqil olduğu cəmiyyətə daxil olmasına kömək edir və buna görə də özünü tamhüquqlu üzv kimi hiss edir.

Son zamanlar pedaqoqlar və valideynlər tez-tez həyəcanla qeyd edirlər ki, bir çox məktəbəqədər təhsil müəssisələrində uşaqlar həmyaşıdları ilə ünsiyyətdə ciddi çətinliklər çəkirlər. Ünsiyyət qurmaq, dostluq münasibətləri qurmaq və saxlamaq, qarşılıqlı fəaliyyət göstərmək, insanlarla əməkdaşlıq etmək və birgə yaşamaq bacarığı tam inkişaf etmiş və özünü reallaşdırmış şəxsiyyətin zəruri tərkib hissələridir. Eyni zamanda insanın uğurlu psixi sağlamlığının rəhmidir.

Əməkdaşlığın təşkili ünsiyyət bacarığının daha keyfiyyətli inkişafına, onun ətrafında olan digər insanlarla qarşılıqlı əlaqədə olmağına imkan yaradır. Məktəbəqədər yaşlı uşaqlarda əməkdaşlıq vərdişlərinin formalaşdırılması üç yaşdan başlayaraq məqsədəuyğundur. Bu yaşda uşaq böyüklərlə əməkdaşlıq qurmağa bacarıqlıdır: Ümumi məqsədin qəbul edilməsi, vəzifələrin bölüşdürülməsi, nəticənin və məqsədin nisbəti.

Əməkdaşlıq birgə fəaliyyətdə qarşılıqlı fəaliyyətin bir növüdür. Təhsil prosesində əməkdaşlıq qabaqcıl yerli pedaqoqlar və psixoloqların əsərlərində nəzərdən keçirilmişdir: Ş.A.Amonaşvili, L.S.Vıqotski, V.Davydova, A.N. Leontyeva, D.B.Elkonin, A.S.Makarenko, V.A.Suxomlinski və bir çox başqalarının praktiki fəaliyyətində.

Etiraf etmək lazımdır ki, müasir uşaqlar birgə fəaliyyətin və qarşılıqlı fəaliyyətin təşkilində xeyli çətinliklər çəkirlər. Bu, uşağın inkişafına mənfi təsir göstərir. Məktəbəqədər yaş əməkdaşlıq bacarıqlarının mənimsənilməsi üçün ən əlverişli zamandır. Əməkdaşlıq uşaqların bir-birinə olan marağı və birgə fəaliyyəti əsasında qurulur.

Uşaqlarda əməkdaşlıq üsullarının formalaşdırılması istiqamətində işlərin bir neçə mərhələdə aparılması məqsədəuyğundur:

1-ci mərhələ - uşaqların emosiya və nitqinin zənginləşdirilməsi (müsbət emosional fonun yaradılması və saxlanılması, dostluq, əməkdaşlıq qaydaları haqqında söhbətlər, davranış nümunələrinin nümayişi və s.

Təhsil müəssisəsində, 1-ci mərhələdə, bu cür oyunlar oynaya bilərsiniz: didaktik oyunlar "komplimentlər", "tap, kim getdi?", "güzgülər mağazasında meymun"; “pantomima oyunu", “heyvanı təsvir et”.

2-ci mərhələ - əməkdaşlıq modellərinin mənimsənilməsidir. Texnologiya modellərin 3 növünü müəyyənləşdirir:

1. Birgə - fərdi əməkdaşlıq modeli təklif edir ki, cüt və ya yarımqrupda ümumi məqsəd qəbul edildikdən sonra hər bir fəaliyyət iştirakçısı olan uşaq ümumi işinin bir

hissəsini fərdi şəkildə yerinə yetirəcəkdir. Son mərhələdə bu hissə ümumi yekun nəticənin bir hissəsi olacaqdır. İştirakçıların hərəkətlərinin razılaşdırılması onun başlanğıcında - məqsədin qəbul edilməsi mərhələsində, planlaşdırma zamanı və nəticələri yekunlaşdırmaq lazım olduqda həyata keçirilməlidir. Bu modeli mənimsəyərək təsviri fəaliyyətdə, "Yeni il küknarı" kollektiv applikasiyasını yerinə yetirmək olar: ümumi məqsədi qoymaq, hər bir iştirakçı müstəqil olaraq oyuncağın applikasiyasını seçməli, yerinə yetirməli və sonra bütün işlər "Yeni il küknarı" ümumi stendində birləşdirilməlidir;

2. Birgə-ardıcıl əməkdaşlıq modeli yalnız ümumi məqsədin qəbul edilməsini deyil, həm də uşaqların hərəkətlərinin ardıcıl yerinə yetirilməsini nəzərdə tutur. Bu prinsiplə "İstehsal konveyeri" fəaliyyət göstərir. Bu modeldən istifadə edərək "Çiçək toxumlarının əkilməsi"ni təşkil edirik. Onlar ümumi bir məqsəd qoydular, yarımqruplarda uşaqlar arasında hərəkətləri payladılar: Biri əkir, digəri yerə tökülür, üçüncüsü isə suvarma suyu ilə suvarılır. "Qrupda qayda yaradaraq "Təhsil vəziyyətinin təşkil olunması üçün birgə - ardıcıl əməkdaşlıq modelindən həmişə istifadə edilir. Həmçinin onlar ümumi məqsəd qoyurlar, vəzifələri, hərəkətləri bölüşdürürlər, ümumi nəticəyə gəlirlər: Qrup təmizdir. Bu üsul rejim anlarının təşkili üçün istifadə olunur: yeməkxanada və məşğələlərin hazırlanması üzrə növbətçilik;
3. Birgə-qarşılıqlı əlaqə modeli bir tərəfdən uşaqlarda birgə işləmək üzrə müəyyən təcrübənin olmasını nəzərdə tutur, digər tərəfdən isə həm aralıq, həm də yekun nəticələrin planlaşdırılması, koordinasiyası və qiymətləndirilməsi bacarıqlarının mənimsənilməsində yeni imkanlar açır. Üçüncü mərhələ uşaq əməkdaşlığının inkişafıdır. Üçüncü mərhələyə keçid bütün əməkdaşlıq modellərinin mənimsənilməsində mümkündür, çünki texnologiya böyük yaşdan başlayaraq iki il işləməyi nəzərdə tutur.

Beləliklə, belə bir nəticəyə gəlirik ki, kiçik yaşlı uşaqlar arasında əməkdaşlığın inkişafında ən maraqlı, faydalı, səmərəli fəaliyyət oyundur.

İlkin mərhələdə, uşaqların bir-biri ilə tanış olma mərhələsində oyunlar bizə qrupda xoş əhval-ruhiyyə yaratmağa, uşaqların emosional gərginliyini aradan qaldırmağa kömək edir. Məsələn, "Bir-birimizə gülümsəyək", " Salam!", "Sabahınız xeyr!", "Gəlin salamlaşaq!", "Günəş şüaları".

Həmyaşıdları və böyüklər ilə qarşılıqlı əsasların yaradılması üçün hərəkətli və didaktik oyunlar həyata keçirilə bilər. Bu oyunlarda uşaqlar hərəkətləri yerinə yetirərkən hərəkətləri əlaqələndirməyi, kontakt qurmağı, böyüklərə qulaq asmağı, bir-biri ilə hesablaşmağı, ümumi məqsədə yaxınlaşmağı öyrənəcəklər.

Stolüstü-çap oyunlarında uşaqlarla oynayaraq uşaqlara oyun qaydaları haqqında razılığa gəlməyi, məqsəd qəbul etməyi, hərəkətlərin növbəliliyinə riayət etməyi, ümumi ərazidə hərəkət etməyi, tərəfdaşla məsləhətləşməyi, ünsiyyətə girməyi öyrətmək olar.

Birgə oyunların mütəmadi keçirilməsi həm uşaqları yeni təəssüratlarla zənginləşdirir, həm də onların şəxsiyyətinin inkişafı üçün vacib olan yeni sosial təcrübə verir.

Məktəbəqədər təhsil müəssisəsində təhsil prosesi iştirakçılarının qarşılıqlı əlaqə modelləri aşağıdakılardır:

1. **Uşaq-uşaq:**
   - Həmyaşıdları ilə sərbəst ünsiyyət qurur;
   - Qeyri-şifahi, intonasiya və dil ifadəliliyi vasitələri ilə obrazların ötürülməsini inkişaf etdirir;
   - Birgə yaradıcılıq fəaliyyəti vasitəsilə özünü ifadə edir;
   - Kollektivdə qarşılıqlı əlaqə yaratmağı öyrənir: Ümumi məqsədlər naminə şəxsi istəklərdən imtina etmək;
   - Razılaşmağı öyrənir və münaqişəli vəziyyətləri konstruktiv şəkildə həll edir.
2. **Valideyn-uşaq:**
   - Uşağın hüquq və azadlıqlarının tanınması;
   - Əməkdaşlıq;
   - Empatiya və dəstək, vəziyyətin dialoq yolu ilə müzakirəsi;
   - Məhdudiyyətlərin çevik tətbiqi.
3. **Müəllim - uşaq:**
   - Uşağın şəxsiyyətinin dəyərinin tanınması;
   - Unikallığın tanınması - uşağın şəxsiyyətinin fərdiliyi: Uşağın ümumi və xüsusi qabiliyyətlərinin müəyyənləşdirilməsi və inkişafı;
   - Yaşa və fərdi qabiliyyətlərə uyğun məzmun, forma və metodların seçilməsi;
   - Tərbiyə və təlim öz-özünə bir nəticə kimi deyil, hər bir uşağın şəxsiyyətini inkişaf etdirmək üçün bir vasitə kimi işlədikdə fərdi inkişafın prioriteti kimi özünü göstərə bilir;
   - İctimailəşməyə istiqamətləndirmə - insanın müasir mədəni dəyərlərinin, biliyinin, gündəlik, iqtisadi, sosial, mənəvi həyatının bilik və inkişafı, cəmiyyətdə mövcud həyat qaydaları və standartlarına uyğunlaşma;
   - Uşağın fərdi böyüməyə meylinin aktuallaşdırılması;
   - Uşağın tədqiqat və yaradıcı maraqlarının aktivləşdirilməsi;
   - Əxlaqi hərəkətlərin təkmilləşdirilməsi, özünü kəşf etmək və idrak problemlərinin açıqlanması üçün şərait yaradılması;
   - Pedaqoji qarşılıqlı əlaqənin uşağın özünün həyata keçirməsinə yönəldilməsi - təbii imkanların, meyillərin, bacarıqların, ehtiyacların və meyillərin açıqlanması və inkişafı.
4. **Müəllim-valideyn:**
   - Könüllü əməkdaşlıq;
   - Müəllimlərin valideyn-övlad münasibətləri problemlərinin həllində səmimi marağı;

- Müəllimlərin valideynlərin inanclarına və fikirlərinə hörmətli münasibət;
- Valideynlərin uşaq baxımından dəyərli olan keyfiyyətləri tərbiyə etməkdə şərtsiz hüququnun tanınması;
- Valideynlərin müəllimlərin (mütəxəssislərin) xoş münasibətinə və səriştəsinə inamı;
- Müəllimlə fərdi ünsiyyətin məxfiliyi.

Qarşılıqlı fəaliyyətin əsası kimi əməkdaşlıq - qarşılıqlı anlaşma, bir-birinin mənəvi aləminə nüfuz etmə, bu fəaliyyətin gedişinin və nəticələrinin kollektiv təhlili ilə bağlı uşaq və böyüklərin birgə inkişaf edən fəaliyyətinin humanist ideyasıdır.

Əməkdaşlıq strategiyasının əsasını pedaqoqun uşaqların idrak maraqlarının stimullaşdırılması və istiqamətləndirilməsi təşkil edir.

Əməkdaşlıq xarakterizə olunur:

- Məkan və müvəqqəti bərabərlik;
- Məqsəd birliyi;
- Fəaliyyətin təşkili və idarə edilməsi;
- Funksiyaların, hərəkətlərin, əməliyyatların ayrılması;
- Müsbət şəxsiyyətlərarası münasibətlərin olması.

**Komanda işi**

Komanda işi etibar etməyi, mübahisə etməyi və razılığa gəlməyi öyrədir.

Valideynlərdən soruşulsa ki, "Niyə uşağınızı uşaq bağçasına verirsiniz?" ən ümumi cavablar arasında "İctimailəşmək üçün" eşidiləcək.

Uşaqlar komandada necə işləməyi bacarmırlarsa, onlar bir çox üstünlüklərdən məhrum olurlar. Sosiallaşma, cəmiyyətdə həyat üçün uşağa faydalı olacaq bacarıqlar əldə etmə prosesidir. Bir komandada işləyərkən bir adam başqalarının ehtiyaclarını başa düşməyi, danışıqlar aparmağı, mübahisə etməyi, bir-birlərinə güvənməyi öyrənir. Sosiallaşma elə budur.

Komanda işi problemi daha dərindən başa düşməyə kömək edir. Həmyaşıdların qarşılıqlı, bir-birindən öyrənmə fəaliyyət komanda işinin əsasını təşkil edir. Onlar suallar verir və dərhal onlara cavab tapmağa çalışırlar. Davamlı müzakirə və beyin fırtınaları hər cür tərəfdən məsələni nəzərdən keçirməyə kömək edir.

Təhsil prosesi uşaqların və hər bir fərdi uşağın qarşılıqlı fəaliyyət göstərməsinə, ətrafındakı dünyanı mənimsəməsinə imkan verən lazımi şərtlərlə təmin edilməsinə yönəldilmişdir. Bu üsul, aparıcı mövqelərdən uşaq və yoldaşları arasında qarşılıqlı təsir prosesi olması ilə xarakterizə olunur.

**Uşaqların həmyaşıdları ilə qarşılıqlı əlaqəsi**

Əsas sahələrdən biri ünsiyyət fəaliyyəti zamanı uşaqların həmyaşıdları ilə qarşılıqlı əlaqəsidir. Bir məktəbəqədər yaşlı uşağın təcrübəsi bütün mümkün fəaliyyət növləri ilə ünsiyyət arasında sıx əlaqəni göstərir. Ünsiyyət uşağın bütün həyatına təsir göstərir.

Məktəbəqədər təhsil müəssisəsində inkişaf dövrünün bütün mərhələsində uşaq

getdikcə eyni yaşda olan uşaqlar ilə ünsiyyət ehtiyacını hiss etməyə başlayır.

**Komanda qurma bacarıqları**

Komanda şəklində işləmə bacarıqlarının formalaşdırılması yalnız mürəkkəb təhsil problemlərinin həllində kömək kimi, həm də müəllimlər və uşaqlar arasında qarşılıqlı əlaqə yolu deyil, uşaqların tam hüquqlu kollektiv fəaliyyəti, ətraf mühitlə davamlı və ya müvəqqəti təmas tələb edən problemlərin həlli kimi qəbul edilir.

"Komandada işləmə bacarıqlarını inkişaf etdirmək" termini varsa, onda komanda işi haqqında danışırıq. Uşaqlar ümumi işin müvəffəqiyyətinin onların birgə səylərindən asılı olduğunu başa düşdükdə ortaq olurlar və bir-birlərinə münasibətdə mövqelər dəyişilir. İstək əleyhinə olsalar da, müstəqillik və təşəbbüs göstərməyə başlayırlar.

Komanda işi bacarıqlarının inkişafı, hər biri digərindən fərqli olan, uşaqlara öz rolunu yerinə yetirən, iki və ya daha çox iştirakçı tərəfindən həyata keçirilən tədris fəaliyyətini əhatə edir.

Komanda ilə işin xüsusiyyətləri:

- Məqsədlərin aydın təsviri (uşaqlarımıza nə arzuladığımız haqqında razılığa gəlmək);
- Qarşılıqlı asılılıq (qrupun hər bir üzvünün işini qiymətləndirmək və başa düşmək, ümumi məqsəd);
- Bir ideyaya bağlılıq (fikirlərin, bacarığın, qabiliyyətin birləşdirilməsi, qrupa daha səmərəli işləməyə imkan verir);
- Kollektiv məsuliyyət hissi (komandanın işinə hər bir fərd cavabdehdir);
- Fikir ayrılığındakı müxtəlifliyin mexanizmi – vahid fikrə gəlməyin nəticəsidir.

## Tələbələr üçün fəaliyyətlər

1. "İnsanlar bütün Yer kürəsinin dostudur" tətili üçün bir ssenari hazırlayın.
2. Məktəbəhazırlıq qrupu üçün vətənpərvərlik tərbiyəsi işlərini planlaşdırın.
3. Etnik mənsubiyyət bir qəbilə, millət tərəfindən təmsil olunan insanların tarixən ortaya çıxarılan sabit bir sosial qruplaşdırılmasıdır. Məktəbəqədər təhsildə etnoloji yanaşma nədir?
4. Komandada işi necə təşkil etmək olar?
5. Əməkdaşlığı təşkil etmək üçün hansı formalardan istifadə etmək olar?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Əməkdaşlıq və komandada işləmək bacarıqlarını formalaşdırmaq üçün çalışmalar hazırlayır”.**

1. Əməkdaşlıq və komandada işləmək qaydalarını sadalayın:______________________________
   ______________________________________________________________________________

2. Aşağıdakılardan hansıları əməkdaşlıq və komandada işin vacib komponentləridir?
   1. Məqsədlərin aydın təsviri (uşaqlarımıza nə arzuladığımız haqqında razılığa gəlmək);
   2. Qarşılıqlı asılılıq (qrupun hər bir üzvünün işini qiymətləndirmək və başa düşmək, ümumi məqsəd);
   3. Bir ideyaya bağlılıq (fikirlərin, bacarığın, qabiliyyətin birləşdirilməsi, qrupa daha səmərəli işləməyə imkan verilməsi);
   4. Kollektiv məsuliyyət hissi (komandanın işinə hər bir fərd cavabdehdir);
   5. Fikir ayrılığındakı müxtəlifliyin mexanizmi – vahid fikrə gəlməyin nəticəsidir.
   6. Təşkilatı məsələlərin müzakirəsi;
   7. Valideynlərin psixo-pedaqoji bacarıqlarının artırılması.

A) 1, 2, 3, 6, 7;
B) 1, 2, 3, 4, 5;
C) 3, 4, 5, 6, 7.

3. Əməkdaşlıq və komandada işin şərtləndirən əsas terminlərdən ibarət lüğət tərtib edin:______________________________________________________________________
   ______________________________________________________________________________

## 4.5. Şəxsiyyət tərbiyəsini formalaşdırmaq üçün əsas prinsipləri təsvir edir

Cəmiyyətə və ətraf aləmə sosial-psixoloji adaptasiya üçün ilk sosiumların – ailənin və uşaq bağçalarının üzərinə böyük məsuliyyət düşür. Uşaqların mükəmməl şəxsiyyət kimi yetişdirilməsində, gələcək məktəb həyatına hazırlanmasında erkən sosiallaşma, öz yaşıdları və böyüklərlə ünsiyyətin rolu böyükdür. İnsanın gələcək həyatının necə qurulması , demək olar ki, bu dövrdən çox asılıdır. Çünki bu mərhələdə insan şəxsiyyəti 70% formalaşdırılmış olur.

Məktəbəqədər yaşlı uşağın şəxsiyyətinin sosiallaşdırılması sosial mədəniyyətin və mənəvi keyfiyyətlərin fundamentinin qoyulmasının göstəricisidir. Bu yaşda əmək vərdişlərinin, dəyərlərin, davranış qaydalarının və normalarının, biliklərin mənimsənilməsi onun bir şəxsiyyət olaraq inkişafı üçün zəmin yaradır. Uşağın mükəmməl sosiallaşdırılması, əsasən, sərbəst ünsiyyətin düzgün təşkilindən çox asılıdır. Fərdin inkişafı, onun qabiliyyətlərinin özünü büruzə verməsi, şəxsiyyətin formalaşdırılması ilə əlaqədardır. Ona görə ki, uşağın fiziki, mənəvi, əxlaqi, estetik və əmək tərbiyəsi istiqamətində şəxsiyyət kimi ilkin formalaşdırılması məhz ailədə və məktəbəqədər təhsil müəssisəsində baş verir.

Pedaqoji ədəbiyyatda məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi tərbiyəsinə təsir edən, yeni yanaşmaları nəzərə alaraq işlənmiş prinsiplər aşağıdakılar kimi göstərilir:

- Tərbiyədə yaş və fərdi xüsusiyyətləri nəzərə alan ənənəvi prinsip;
- Sistemlilik prinsipi. Bu prinsip ailə və ictimai tərbiyənin ənənələrini sosiomədəni dəyərlər əsasında bütöv inkişaf prosesinə çevrilməsini, valideynlərin vahid tərbiyə-təlim məkanında uşağın hərtərəfli inkişafı üçün "Təlim müəssisəsi - ailə-şəxsiyyət" münasibətlər sisteminin yaradılmasını nəzərdə tutur;
- İnteraktivlik prinsipi. Bu prinsip ailənin real vəziyyəti və tələblərini nəzərə alaraq uşaq və valideynlərin tərbiyə və təhsilinə şəxsiyyətyönlü yanaşmanı, forma və üsulları, onların əxlaqi şüurunun formalaşdırılmasını, pedaqoqların mədəni və mənəvi şüurunun fəallığını, sosiomədəni maarifləndirmənin müxtəlif formaları ilə yaradıcı motivasiyanın yaradılmasını, valideyn və pedaqoqların kommunikativ və idarəetmə vərdişlərini nəzərdə tutur;
- Mədəniyyətəmüvafiqlik prinsipi. Bu prinsip ailədə keçmişdən gələn sosiomədəni ənənələrin təmin edilməsini, onların ailənin sivil inkişafında əsas mənəvi-əxlaqi dayaq və əsas dəyərlər kimi qiymətləndirilməsini nəzərdə tutur.
- MTM üçün tərtib olunan proqramların məzmununun sosiomədəni və psixoloji adaptasiyası. Bu prinsip valideynlərin də pedaqoji prosesdə iştirakını və onların maraq və sorğularını nəzərdə tutur.

Aşağıdakı strategiyaların doğulandan məktəbəqədər təhsil müəssisəsinə daxil olana qədər bütün uşaqların müsbət sosial-emosional inkişafına kömək üçün istifadə edilməsi məqsədəuyğundur:

- Uşaqlara qarşı həssas olmaq;
- Təhlükəsiz, stimullaşdırıcı mühit yaratmaqla inkişaf və təlimi inkişaf etdirmək;
- Uşaqlara öz emosiyalarını qəbul etmək, başa düşmək və idarə etməkdə kömək

etmək;
- Mənfi emosiyalardan azad mühit yaratmaq;
- Özünüifadəyə şərait yaratmaq, onlara seçim vermək;
- Ünsiyyətin inkişafına ardıcıl və müntəzəm kömək etmək;
- Uşaqların inkişafı və davranışı narahatlıq doğurarsa, tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət almaq.

Şəxsiyyətin tərbiyəsi zamanı mənəvi tərbiyənin mexanizmi aşağıdakı düstura əsasən aparılır: (bilik və fikirlər) + (motivlər) + (hislər və münasibətlər) + (bacarıq və vərdişlər) + hərəkətlər və davranışlar = mənəvi keyfiyyət.

Uşağın tərbiyə prosesində bunları mənimsəməsi əxlaqi cəhətdən mükəmməl tərbiyəyə sahib olmasını və mənəvi dəyərləri də intensiv olaraq mənimsəməsinə hazır olduğunu göstərir.

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət kimi formalaşdırılmasında tərbiyənin şəxsiyyətyönümlü modelinin tətbiqi məqsədəuygundur. Tərbiyəçinin uşaqlarla qarşılıqlı təsirinin aşağıdakı üsulları mövcuddur:
- Uşaqların hüquq və azadlıqlarının tanınması;
- Bərabərhüquqlu əməkdaşlıq;
- Uşaqların duyğularına, hiss və həyəcanlarına şərik olmaq;
- Onlarla məsləhətləşmək, müzakirə etmək, fikirlərinə hörmətlə yanaşmaq;
- Məhdudiyyətləri ehtiyatla qoymaq.

Tərbiyəçinin bütün qrupla apardığı iş zamanı hər bir uşağın fərdi ünsiyyətini nəzərə alması qarşılıqlı anlaşmanı, etibarlı münasibətin qurulmasını təmin edir. Uşaqlar arasında ünsiyyətin yaradılmasının aşağıdakı üsulları mövcuddur:
- Uşaqların diqqətini bir-birinə cəlb etmək;
- Onları birlikdə fəaliyyət göstərmək üçün stimullaşdırmaq;
- Bir-birinə qayğı ilə yanaşmağı öyrətmək;
- Ünsiyyətin hər bir situasiyada və rejim anlarında təmin olunmasına imkan yaratmaq;
- Bir-birini dinləmək və güzəştə getməyi təbliğ etmək;
- Rejim anlarında situativ söhbətlər;
- Kiçik tapşırıqlar vasitəsilə əmək vərdişlərinin inkişafı;
- Rejim anlarında təhlükəsiz davranma vərdişlərinin formalaşdırılması;

Tərbiyəçi elə situasiya və oyunlar təklif etməlidir ki, burada ən azı 4-5 uşaq və ya bütöv qrup iştirak etsin. Bu prosesdə tərbiyəçi diqqəti ən çox ünsiyyət etməyən uşağa yönəldir və onun müsbət cəhətlərini yaşıdlarına söyləyir. Bu cür yanaşma passiv uşaqda özünəinam yaradır və kollektivə qoşulmağa sövq edir.

Əxlaqi hislərin, fikirlərin, vərdişlərin və mənəvi davranış təcrübəsinin əlaqəsini qurmaq üçün davranış motivləri və onların inkişafını, uşaqların fikirlərinin davranışlarına

uyğun gəlməməsinin səbəblərini aydınlaşdırmalıyıq. Mənəvi tərbiyənin metodları V.G.Nechaev, V.I.Loginova görə:

- Mənəvi davranışın formalaşdırılması;
- Təlim, məşq, fəaliyyətin idarə edilməsi;
- Mənəvi şüurun formalaşdırılması;
- Aydınlaşdırma, təklif, söhbət şəklində inanclar;
- Hisləri və əlaqələri stimullaşdırma;
- Nümunə, təşviq, cəza.

Uşaq şəxsiyyətlərinin tərbiyəsinin aparıcı metodları- yetkinlərin nümunəsi, uşağın müsbət davranış etdiyi, şifahi məntiqi tapşırıqları həll etdiyi pedaqoji vəziyyətin təşkili, etik söhbətlərdir.

Etik söhbətlərin aparılması metodologiyası L.P.Knyazeva, A.M.Vinogradov tərəfindən işlənmişdir. Etik söhbət üçün tələblər aşağıdakı kimi qəbul edilir:

- Uşaqların təcrübələrinə etibar;
- Müzakirə olunan vəziyyətlərin spesifikliyi;
- Seçim və ziddiyyətli bir vəziyyətin olması;
- Müşahidə və davranış ilə əlaqə;
- Şəxsi mövzuları müzakirə edərkən səliqəli və ehtiyatlı olmaq;
- Uşağa nəticə və ümumiləşdirmə ilə kömək etməyə tələsməmək.

Uşaq cəmiyyəti və ya uşaq bağçası qrupu mühüm sosiallaşdırıcı amildir. Uşaq məhz yaşıdları ilə bir qrupda öz fəallığını göstərir, ilk sosial yerini qazanır (“Ulduz”, “Lider”, “Rədd edilmiş”). Sosial yerin əlamətinin möhkəmləndirilməsi meyarları şəxsiyyətin təməl xüsusiyyətləridir (bacarıq, fəallıq, müstəqillik, davranış sərbəstliyi, yaradıcılıq, iradilik).

Məktəbəqədər yaşda uşağın cinsi- psixi inkişafı gedir. Bu, oğlanlarda və qızlarda bir-birindən fərqli olan cinsi-rol üstünlük və maraqların, həmçinin, cəmiyyətdə qəbul olunmuş cinsi-rol standartlarına uyğun olan davranışın formalaşdırılmasında təzahür olunur. Cinsi sosiallaşma prosesinin əsas səbəbi valideynlər və pedaqoqlar tərəfindən oğlanlar və qızlara qarşı qoyulan müxtəlif sosial-pedaqoji tələblərdədir.

Uşaq üçün bir qrup yaşıdları bir çox müsbət emosiyaların mənbəyidir. Burada onun özünü qiymətləndirməsi, iddia səviyyəsi korreksiya olunur. Özünü digər uşaqlarla müqayisə etməsi, davranışının yaşıdları tərəfindən qiymətləndirilməsi böyüməkdə olan şəxsiyyətin müsbət özünütəsdiqi üçün təməli təmin edir. Uşağın qrupla münasibətləri sosiallaşmanın vacib mərhələlərindən biri olan sosial emosiyalar vasitəsilə ifadə olunur və beləliklə də, şəxsiyyətin cəmiyyətə daxil olunması prosesini müəyyənləşdirir.

## Tələbələr üçün fəaliyyətlər

1. Müxtəlif yaş mərhələlərində məktəbəqədər təhsil müəssisəsində yaşlı uşaq şəxsiyyətinin sosial-emosional inkişafının məzmununun təhlili.
   Məktəbəqədər təhsil müəssisəsinin təhsil proqramına əsasən, cədvəldə əks olunan davranış mədəniyyətinin və məktəbəqədər yaşda insani hislərin tərbiyəsinin məzmununu təhlil edin:

| Tərbiyənin vəzifələri | 1-2 yaş | 2-3 yaş | 3-4- yaş | 4-5 yaş | 5-6 yaş |
|---|---|---|---|---|---|
| Mədəni bacarıqların inkişafı | | | | | |
| İnsani hislərin və müsbət emosiyaların tərbiyəsi | | | | | |

2. Məktəbəqədər təhsil müəssisələrində uşaqların təhsil və inkişafının innovativ proqramlarında mənəvi tərbiyə problemini araşdırın. Mühazirə mətninə əsasən aşağıdakıları müəyyənləşdirin:
   - Əxlaqi tərbiyənin şəxsiyyətin inkişafına təsiri;
   - Məktəbəqədər yaşlı uşaqlarda davranış və insani hislər mədəniyyətinin tərbiyəsi üçün şərait, metod və üsullar.

3. Aşağıdakı suallar ətrafında müzakirələr aparın:
   - Şəxsiyyət inkişafının xarici və daxili amilləri arasındakı fərq nədir?
   - Uşağın şəxsiyyətinin formalaşdırılması üçün təhsilin əhəmiyyəti nədədir?
   - Körpənin psixoloji və pedaqoji xüsusiyyətləri hansılardır? Bu xüsusiyyətləri necə izah etməlisiniz?

4. Erkən və məktəbəqədər yaşda bir uşaq şəxsiyyətinin inkişaf dinamikasını sahələrdən birində araşdırın: Emosional inkişaf, intellektual inkişaf, mənəvi inkişaf



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Şəxsiyyət tərbiyəsini formalaşdırmaq üçün əsas prinsipləri təsvir edir”.**

1. Şəxsiyyət tərbiyəsini formalaşdıran prinsipləri cədvələ uyğun təhlil edin:

| № | Prinsipin adı: | Məqsədi | Ünsiyyət qaydası | Gözlənilən nəticə |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

2. Məktəbəqədər təhsil müəssisəsində şəxsiyyət tərbiyəsini formalaşdırmaq üçün birgə tərbiyə işinin formaları hansılardır?

A) Fərdi, valideyn iclasları;
B) Fərdi, kollektiv;
C) Fərdi, pedaqoji şura;
D) Fərdi, cütlərlə.

3. Nə zaman müəllim öyrənmə prosesinin bir hissəsini təşkil edir?
   1. Valideynləri təşviq edərkən və məlumatlandıranda;
   2. Valideynlər uşaqları gətirdikləri və götürdükləri zaman salamladıqda;
   3. Valideynlərdən məlumat əldə etməyə çalışdıqda;
   4. Valideynlərin roluna hörmət etdikdə;
   5. Yaradıcı və təşəbbüskar olduqda;
   6. Ev və uşaq bağçası arasında ünsiyyəti dəstəklədikdə;
   7. Uşaq bağçası işlərinə valideynlərin iştirakını təmin etdikdə;
   8. Ailələrə istədiklərini nəzərə aldıqda;
   9. Valideynləri uşaqların tərbiyəsi və inkişafı haqqında məlumatla təmin etdikdə.

A) 1, 2, 3, 6, 7, 9;
B) 1, 2, 3, 4, 5, 6;
C) 1, 2, 3, 7, 8, 9.

## 4.6. Emosional mühitin təşkili üçün uyğun metodlar hazırlayır

Uşaq şəxsiyyətinin inkişafı üçün şərait yaradan sosial mühitdə ünsiyyətin rolu böyükdür. Ünsiyyət prosesində maddi və mənəvi dünya, təbiət, əşya və sosial aləmin dərk olunması, şəxsiyyətlərarası münasibətlərin inkişafı və emosional və iradi mədəniyyətin təşəkkül tapması baş verir. Ünsiyyət yeni sosial mühitə uyğunlaşmağa imkan yaradır. Ünsiyyət vasitəsilə uşaq özünü ifadə edir, digərlərini başa düşür, cəmiyyətdə öz yeri və vacibliyini dərk etməyə çalışır. Bunun üçün müvafiq bacarıqların mənimsənilməsi zəruri hesab edilir. Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır: Onun digərini başa düşüb qəbul etmək, məlumat vermək, hislərini ifadə etmək, bütövlükdə nitq inkişafına imkan yaradır. Qazanılan ilkin bilik, bacarıq və vərdişlər, milli-mənəvi keyfiyyətlər şəxsiyyətin həyat mövqeyini müəyyənləşdirir.

Müasir təhsil modelində məktəbəqədər təhsil ümumi təhsilin birinci pilləsi, uşaqların məktəbəqədər təhsil müəssisəsi təliminə müvəffəqiyyətlə keçməsi üçün bərabər imkanların yaradılmasının əsası kimi baxılır. Bu yaş mərhələsində bütün uşaqlar üçün ümumi olan xarakter cizgilərin, həmçinin xüsusi, fərdi psixi və davranış xüsusiyyətlərinin açılmasına və inkişafına nail olunur. Məktəbəqədər yaş dövründə uşaqlarda hərəkətliliyə tələbat gücəndirilir, operativ hafizə inkişaf etdirilir, hərəkətlərin dəqiqliyi, uyğunluğu, ayrılmazlığı yaradılır. Bütün hərəki fəaliyyətlər dərk olunur, dinamik və məqsədyönlü xarakter daşıyır, fiziki və idraki çalışqanlıq artır. Uşaqların xarakteri, əqli və iradi keyfiyyətləri, fəaliyyət göstərmək üçün motivasiyası formalaşdırılır. Məktəbəqədər təhsil ibtidai təhsilə keçid ərəfəsində (5-6 yaş dövrü) uşağın həm məktəbəqədər təhsil müəssisəsində, həm də sonrakı həyatında uğurlar qazanmasında həlledici rol oynayır. Məktəbəqədər təhsil pilləsində uşaqların təhsil alması, təlim-tərbiyə işinin daha səmərəli qurması tələb olunur. Bu zaman psixologiya, pedaqogika, sosiologiya, biologiya və digər elmlərin nailiyyətlərinə, milli mədəniyyətə, adət-ənənələrə, eləcə də, müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir. Bunlarla yanaşı, uşaqların ümumi inkişafı, onların şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyənin səmərəliliyinin artırılması, inkişaf və davranışda baş verə biləcək ləngimələrin, pozuntuların aradan qaldırılması, “Uşaq-uşaq”, “Tərbiyəçi-müəllim-uşaq”, “Valideyn-tərbiyəçi-müəllim” münasibətlərinin, eləcə də, kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır.

Uşaqların sosial və emosional inkişafı onların böyüdüyü mühit kontekstində öyrəndikləri ilə, mədəni vərdişlər, münasibətlərlə bağlı olduğu üçün valideynlər və tərbiyəçi-müəllimlər uşaqların bu istiqamətdə inkişafının formalaşdırılmasında əsas rol oynayırlar.

Aşağıdakı yanaşmalar hər bir uşağın öz unikal ehtiyaclarını ödəyən təcrübələr əldə etməsinə kömək edəcək:

- Uşaqlara qarşı həssas, məsuliyyətli və qayğıkeş olmaq;
- Uşaqlara öz emosiyalarını başa düşmək və idarə etməkdə kömək etmək;
- Müxtəlifliyi bildirən və mədəni davranış baxımından münasib fəaliyyət, təcrübə və materiallar toplusundan istifadə etmək;

- Ailə mədəniyyətinin qəbul edilməsi, yüksək qiymətləndirilməsi və maarifləndirilməsinə dəstək vermək və ailələrlə əməkdaşlıq qurmaq;
- İnsanlara qayğı və hörmətlə yanaşan və mənfi rəylərdən uzaq olan azad mühit yaratmaq;
- Qarşılıqlı münasibətlər qurmaq üçün davamlı şərait təşkil etmək;
- Uşaqların nəyi bildiyi və nəyi yaxşı bacardığına əsaslanmaq;
- Münaqişə və problemlərin həlli bacarıqlarının modelini yaratmaq və uşaqlara öyrətmək;
- Təlim prosesinin uşağa yönəldilməsi, yəni uşağın maraq, ehtiyac, inkişaf səviyyəsi, imkanları, ailə mədəniyyəti və s. nəzərə almaq.

Hər bir uşaq özünün fiziki və sosial dünyasında müxtəlif yollarla ümumi biliklər əldə edir. Mahiyyət etibarilə hər bir uşaq özünün ünsiyyəti, dili, intellektual düşüncəsi və zəruri həyati bacarıqlarının inkişaf etdirilməsinə kömək üçün ətrafdakıların dəstəyinə ehtiyac duyur. İdrakın inkişafına kömək etmək üçün aşağıdakı strategiyaların nəzərə alınması tövsiyə olunur:

- Uşaqların gündəlik həyati bacarıqlara yiyələnmələri üçün şəraitin yaradılması;
- Öyrətmə və öyrənmə strategiyalarının (məsələn, nəğməli oyunlar, musiqi və hərəkətləri idraki inkişafla əlaqələndirmək) birləşdirilməsi;
- Mürəkkəb tapşırıqların daha kiçik hissələrə bölünməsi ilə sadələşdirilməsi;
- Gün ərzində uşaqların müxtəlif fəaliyyətlər və çevik rejimlərə cəlb edilməsi;
- Öyrənmə üçün praktiki və sensor (məsələn, öyrənmə, görmə, dadına baxma, iyləmə və manipulyasiya etmə) təcrübənin təmin edilməsi;
- Təlimin uşaqların müxtəlif qabiliyyətlər və öyrənmə yolları ilə uzlaşdırılması.

Beşyaşlıların affektiv vəziyyəti sensor təsirlərə və emosional vəziyyətə görə dəyişir. Hələ ontogenezin ilk dövrlərindən başlayaraq xarici təsirlərlə baş verən bu dəyişmə məktəbəqədər yaşın sonunda yeni formada meydana çıxarılır. O, fərdi xüsusiyyət kəsb edir. Artıq 5 yaşın sonunda hislər özünün ali formalarında ümumiləşdirilərək ətraf mühit tərəfindən sosial məzmunda qəbul olunur. Beşyaşlı uşaqda da hislərin artıq kifayət qədər təkmilləşdirilmiş formaları yaradılır. Biz onları - Əxlaqi, estetik və intellektual olmaqla 3 qrupa bölürük.

5-6 yaş ərəfəsində empatiya adlandırılan sahədə hissi inkişaf hələ də özünün refleksivlik qabiliyyətinin zəifliyi ilə diqqəti cəlb edir. Bu dövrdə emosional sferanın formalaşdırılması istiqamətində aparılan iş empatiyanın refleksivlik qabiliyyətinin inkişafına yönəldilir.

Bu dövrdə emosiyaların dərk edilməsi sürətlə gedir. Ekspressiv işarələrin parametrlərinin fərqləndirilməsi, onların diferensiallaşdırılması və ümumiləşdirilməsi, əsasən, başa çatır. Bu prosesdə verbal funksiyalar mühüm rol oynayır. Öz roluna uyğun olaraq emosiyaların səmimi (daxili) və sosial-pozitiv (xarici) formaları yaradılır. Bu qabiliyyət 6 yaşda daha mükəmməl olur.

Emosiyaların məktəbəqədər yaşda ən yüksək səviyyəsi özünü sosial emosiyalarda göstərir. Bu, sosial motivlərin yaradılmasına birbaşa təsir edir. Psixoloqların gəldiyi qənaətə görə, uşağın sosial mühitdə şəxsiyyət kimi qəbul olunmasının başlıca şərtlərindən biri rolunda çıxış edən bu emosional yenidənqurulmanı "Emosional sosiallıq" adlandırmaq olar. Onun əsas göstəricisi uşağın sosial tələblərə uyğunlaşması və öz maraqlarını sosial maraqlara tabe edə bilməsidir. Əksinə, emosional-iradi sferada balansın pozulması və aqressivlik əlamətləri onun ciddi fərd kimi qəbul olunmasına imkan vermir.

4 yaşa qədər uşağın fəaliyyəti onun həyatında mühüm rol oynayan maraqlar, sosial yönəlişlik və ətrafdakı insanlar və mühitin tələblərinə uyğunlaşmaq xüsusiyyəti ilə diqqəti cəlb edir. Hansı səviyyədə müstəqillik və fərdilik elementləri ilə tənzimlənməsindən asılı olmayaraq uşaq öz hərəkətlərini daha çox yaşlıların pozitiv diqqəti əsasında istiqamətləndirir. Bütün bunlar onu istər ailədə, istərsə də ictimai mühitdə insanların qiymətləndirməsinə diqqətlə yanaşmaq və bu qiymət əsasında hərəkət etməyə vadar edir.

Sosial mühitin ümumi şərtlərinə baxmayaraq, cinsi xüsusiyyətlər və müvəffəqiyyət motivinin məzmununda da fərqlər yaradılır. Oğlanlarda qalibiyyət, uğur və üstüngəlmə, qızlarda isə uğursuzluqdan qaçma və özünüqoruma motivləri yaradılır. Bütün bunlar onu söyləməyə əsas verir ki, mühit oğlanlarda müstəqillik və müvəffəqiyyət, qızlarda isə qorunma motivlərini stimullaşdırır və möhkəmləndirir.

Uşağın yaşıdlar qrupunda statusunun müəyyən etdilməsi üçün sosiometriya metodundan istifadə edilir. Sosiometrik statusun uşağın müxtəlif keyfiyyətləri ilə müqayisəsi nəticəsində onun yaşıdlar qrupunda əlverişli mövqe tutmasının hansı xüsusiyyətlərdən asılı olması müəyyən olunur.

Uşaqların məktəbəqədər təhsil müəssisəsinə adaptasiyası onların yaş imkanlarına müvafiq olaraq ailədə və yaşıdlar qrupundakı mövqeyini möhkəmləndirmək, özünü adekvat qiymətləndirmək və təlim tapşırıqlarına alışmaq kimi problemlərlə də bağlıdır. Bu problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Özü və başqalarına sosial bələdləşmə, fərdiyyətin inkişafı və mənəvi keyfiyyətlərin və əxlaqi davranışın formalaşdırılması;
- Yaşıdlar arasında öz statusunun müəyyənləşdirilməsi;
- Yeni təlim tapşırıqları üzrə vərdiş və bacarıqlara alışma və motivasiya, empatiya və koqnitiv qabiliyyətlərin inkişafı;
- Özünənəzarətin təşkili və təlim-oyun fəaliyyətində müstəqillik və yaradıcılıq;
- Təlim tapşılıqlarına və məktəbəqədər təhsil müəssisəsinin mövqeyinə müvafiq hərəkətləri mənimsəmə.

Metodu seçərkən dördyaşlıların psixologiyasının spesifik xüsusiyyətləri əsas götürülür:

- 4-5 yaşlı uşaqların psixi imkanları eyni tapşırıq daxilində 4 saydan artıq hərəkət elementlərindən istifadə edilməsinə yol vermir;
- Bəzən sonuncu hərəkəti də başa çatdırmaq istəmir, qaydanı unudur, müxtəlif iş və hərəkətləri, əqli təmrinləri 6-7 dəfə təkrar etdikdən sonra onun icrası bacarığına

yiyələnir;

- Hərəkətlər müəyyən qədər mexaniki xarakter daşıyır, bir çox mürəkkəb vərdişlər isə mərhələlərlə dərk edilir. Ona görə də öyrədilən mövzunu bir neçə hissəyə bölmək lazım gəlir.

Məhsuldar fəaliyyətdə özünəxidmət, əl və məişət əməyinin təşkili üçün lazım gələn vərdiş və bacarıqların yaradılması, fəaliyyətdəki uğurları, əqli qabiliyyətləri uşağın psixomotor imkanları və fiziki fəallığı ilə bağlı olaraq inkişaf etdiyindən yaşlının qiymətləndirməsində həmin amillər ciddi şəkildə nəzərə alınmalıdır.

Proqramlardakı yeniliklərdən biri də uşaqların sosal təcrübəsinin dəyişilməsinə müasir sistemli yanaşmalardan daha geniş istifadə olunması zərurətidir. Əldə olunmuş nəticələr uşağın inkişafının 5-6 yaş mərhələsinin ən səciyyəvi və şəxsiyyətin strukturu ilə bağlı cəhətlərini aydınlaşdırmağa imkan verir. Əgər əvvəllər yalnız nəzəri məsələlərdə, yəni uşaq psixologiyasında əldə olunmuş nəticələrə uyğun olaraq hazırlanmış təlim proqramlarında varislik yaradılırdısa, indi bu məsələ artıq onun şəxsiyyətinin inkişafının real nəticələrinə görə həyata keçirilməlidir.

**Emosional mühitin təşkili üçün təlimin fərdiləşdirilməsi və diferensiallaşdırılması**

Bu istiqamətdə həyata keçirilən işlərin ilkin mərhələsini təlimin fərdiləşdirilməsi və diferensiallaşdırılması təşkil edir. Burada artıq diferensiallaşma yalnız uşaqların özləri ilə deyil, həm də onların şəxsiyyətinin ayrı-ayrı sahələri ilə bağlıdır. Məsələn, iradi-emosional aləm, motivasiya, qabiliyyətlər, intellekt və s.. Bütün bunlar uşaq yaradıcılığının inkişafı fonunda həyata keçirilir. Ümumi inkişafın ana xəttini təşkil edən bu məsələ özündə bir sıra subyektiv komponentləri birləşdirir. Çünki sosial baxımdan dəyərli hesab olunan şəxsiyyət yaradıcı şəxsiyyətdir. Yaradıcılıq isə fərdi mahiyyət daşıyır. İki insanın yaradıcılığında eyniyyət yoxdur. Hər bir kəsin yaradıcılığında mütləq özünəməxsus çalarlar tapmaq mümkündür. Ona görə də bu nəticəyə gəlmək olar ki, uşaq şəxsiyyətinin hərtərəfli inkişafı onun əsas qabiliyyətlərinin inkişafı prosesində baş verir. Həmin proseslər bir-biri ilə qırılmaz əlaqədədir.

Əqli tərbiyə işində və uşaqların idrak fəallığının təmin edilməsində əşyavi əməliyyatlar mühüm əhəmiyyət kəsb edir. 5 yaşda bu əməliyyatlar artıq xeyli məhsuldar olur. Əşyavi əməliyyatların aparılmasında aşağıdakı ardıcıllığı nəzərə almaq lazımdır:

- “Hissə-bütöv”;
- “Əşya-əşya”;
- “Əşya-əşyalar sistemi”.

Burada hər bir münasibət tipi uşaq təfəkkürünün məntiqi formasının inkişafına zəmin yaradır. 5 yaşlılar üçün “Əşya-əşyalar sistemi” münasibət tipi daha xarakterikdir. Bəzən isə yuxarıda göstərdiyimiz səbəblərə görə yüngülləşdirilmiş təlim şətaiti yaratmaq lazım gəlir. Bu zaman birinci və ikinci tiplərdən də istifadə etmək olar.

Bilik uşağın ayrı-ayrı dərketmə fəaliyyətinin məhsuludur. Yeni biliyin yaradılması üçün yeni idrak əməliyyatı aparılır. Bu prosesin səmərəliliyini artırmaq məqsədilə bir sıra

metodlardan istifadə olunması psixoloji baxımdan daha məqsədəuyğundur. Həmin metodlara pedaqoqun işini asanlaşdıran, uşaqların dünyagörüşünü artıran və qabiliyyətlərini inkişaf etdərən vasitə kimi yanaşılır.

Təlimin səmərəliliyi həm də onun əhatəliliyi və yeni məlumatların çatdırılması ilə izah olunur. Ona görə də təlimin təşkilində bir sıra sahələrin əlaqəli mənimsənilməsi lazım gəlir:

- Sosial həyat hadisələrilə bağlı müxtəlif situasiyaların müşahidəsi və təhlili;
- Əşya və hadisələr arasında əlaqənin yaradılması;
- Şeylərin müxtəlifliyi, hadisələrin dəyişilməsi, inkişafı və mahiyyətilə tanışlıq;
- Əşya və hadisələr arasında məkan-zaman münasibətlərinin yaradılması;
- Əyani modelləşdirmə bacarığının inkişafı;
- Obyektlərin sxematik təsviri və planlaşdırma;
- Problem-situasiyaların həlli şərtinin yaradılması;
- Təbiət materialları ilə praktik fəaliyyət;
- Didaktik oyunlar.

Son illər uşaqların təlimə intellektual hazırlığı ilə bağlı təklif edilmiş metodlar müsbət nəticələr verməkdədir. Bu metodlar 3 qrupa bölünür:

1. Uşaqların dərketmə fəaliyyətini motivləşdirmək və stimullaşdırmaq;
2. Dərketmə fəaliyyətilə bağlı hərəkətləri təsnifləşdirmək və reallaşdırmaq;
3. Təlim-dərketmə fəaliyyətinin effektivliyinə nəzarət və özünənəzarət.

Birinci qrup metodların tətbiqində əsas diqqət uşaqlarda təlim maraqlarının yaradılması və motivasiyanın inkişafına yönəldilir. Bunun üçün uşaqlara münasib şərait yaradılaraq maraqların inkişafı üçün əlverişli situasiyalardan istifadə olunur. Bu zaman uşaq yeniliklərlə tanış edilir və onu yeniliyin "İxtiraçısına" çevirmək lazımdır. Öz "kəşf"inə sevinən uşaqda yaradıcı fəaliyyət marağı dinamik formada artacaqdır. Bu maraq təlim motivasiyasının əsasında durmaqla məktəbəqədər təhsil müəssisəsinə hazırlıq işinin mühüm şərtlərindən biridir.

İkinci qrup metodlar özləri də bir-neçə yarımqrupa bölünür:

Obyekt və hadisələrin dərk olunmasına yönəldilənlər: Qavrama, yaddasaxlama, müqayisə, təhlil, məfhumların yaradılması, rabitəli nitq, riyazi təsəvvürlərin möhkəmləndirilməsi, inkişafı və fiziki fəallığın inkişafı;

Əqli hərəkətlərin təşkili və özünənəzarətin inkişafı: Əşyalarla sadə, əlaqələndirici hərəkətlər, riyazi təsəvvürlərin anlayışlar səviyyəsində təsdiqi, quraşdırma bacarığının formalaşdırılması, təfəkkür prosesləri, əl əməyi üzrə vərdiş və bacarıqların inkişafı sahəsində sistemli fəaliyyət.

Müəllimin işi belə ardıcıl və əlaqəli təşkili uşaqlarda biliklərin sistemliliyinə imkan yaradır. Hazırlanmış sxem və modellərin köməyilə əyani olaraq uşaq üçün mümkün səviyyədə obyektlərin xassələri, gizli tərəfləri, hadisələrin sosial məzmunu və baş vermə səbəbləri barəsində aydın və yaş imkanlarına müvafiq qaydada təsəvvür yaradılır. Belə şəraitdə o, ətraf aləmdə baş verənlər arasında əlaqə axtarmaq və onların münasibətlərini

aydınlaşdırmağa təşəbbüs göstərir. Bu cəhdlər: “Münasibət-münasibət”, “Model-orijinal”, “Model-məkan”, “Fikir-əməl”, “Obrazobyekt”, “Məkan-sxem” və s. formasında öz həllini tapır.

Üçüncü qrup metodlar uşaqlarda yeni biliklər və vərdiş və bacarıqların yaradılmasına xidmət edir. Onlar təlimin praktik metodlarına münasib olmaqla, yaradıcı təfəkkür, təxəyyül və fantaziyanın inkişafını şərtləndirir. Fəaliyyətin daim xarici mühitin tələb və normalarına uyğunlaşdırılması zərurəti özünənəzarət imkanlarının inkişafını tələb edir. Uşaq daim bu zəmində axtarıcılıqla məşğul olur. Şəraitə və situasiyaya və qarşıya qoyulmuş vəzifələrə müvafiq hərəkətlər seçir və onun nəticələrinin səmərəliliyini diqqət mərkəzində saxlamağa çalışır.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi metod və texnikalarının xarakteristikasını verin.
2. Əxlaq tərbiyəsi üsullarından biri haqqında esse hazırlayın:
3. Uşaqların sosial-emosional tərbiyəsi üçün tapşırıqlar hazırlayın.
4. "Uşaqları sosial reallığa təqdim etmə metodologiyası" adı altında onlarda vətənpərvərlik tərbiyəsi metodologiyasını ətraflı araşdırın. Ssenari hazırlayın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Emosional mühitin təşkili üçün uyğun metodlar hazırlayır.”**

1. Emosional mühitin təşkili üçün uyğun metodları ayırd edin. Aşağıdakı cədvəldə müvafiq qeydiyyat aparın (V – vəzifə, P – prinsip).

| № | Məzmun | V | P |
|---|---|---|---|
| 1. | Hər bir uşağın ailəsi ilə əməkdaşlıq qurmaq | | |
| 2. | Uşaqların dərketmə fəaliyyətini motivləşdirmək və stimullaşdırmaq | | |
| 3. | Dərketmə fəaliyyətilə bağlı hərəkətləri təsnifləşdirmək və reallaşdırmaq | | |
| 4. | Təlim-dərketmə fəaliyyətinin effektivliyinə nəzarət və özünənəzarət | | |
| 5. | Uşaqların inkişafı və tərbiyəsi üçün ailə və uşaq bağçasının səylərini birləşdirmək | | |
| 6. | Qarşılıqlı anlaşma, ümumi maraqlar, ünsiyyətə müsbət münasibət, valideyn, uşaq və tərbiyəçi-müəllimlərin qarşılıqlı əməkdaşlığını təmin etmək | | |
| 7. | Valideynlik sahəsində valideynlərin bacarıqlarını artırmaq | | |
| 8. | Valideynləri birgə fəaliyyətə cəlb etmək | | |
| 9. | Ailə üçün uşaq bağçasının açıqlığını təmin etmək (valideynin uşağının necə yaşadığı və inkişaf etdiyini bilmək və görmək imkanları) | | |
| 10. | Müəllim və valideynin uşağın inkişafında birgə əməkdaşlığı | | |

2. Təsəvvür edin ki, siz yeni işə başlamış tərbiyəçisiniz. Sizin valideynlərlə işinizdə nailiyyət əldə etmənizə nə yaxşı təsir edər, işinizi nə çətinləşdirəcək?

3. Emosional mühitin təşkili üçün uyğun metodları seçərkən yarana biləcək problemləri sadalayın.

# TƏLİM NƏTİCƏSİ 5

# İNKİŞAFI MÜŞAHİDƏ ETMƏK

## 5.1. Gün ərzində hər bir uşağın inkişafını izləmə mexanizmini hazırlayır

### Qrupda aparılan müşahidə

Müşahidə qrup otağında hər hansı azyaşlı uşağın təlim fəaliyyətinin qiymətləndirilməsinin nəticələri haqqında məlumat əldə etməyin ən mühüm yoludur. Tərbiyəçilər müşahidə apararkən nəzərdə tutulan təlim nəticələrində təsvir edilən ayrı-ayrı bilik, bacarıq və ya səciyyəvi cəhətlərə xüsusi diqqət yetirməlidirlər. Gündəlik müşahidə həm planlaşdırılan, həm də təsadüfi müşahidələrdən ibarət olmalıdır. Müşahidələri qeydə almağın qısa qeydlər, yaddaş siyahıları və reytinq şkalaları kimi müxtəlif yolları vardır. Qiymətləndirmə strategiyaları və vasitələri bunlardır:

- Epizodların qeydiyyatı;
- Təsviri və ya gündəlik qeydlər;
- “Portfolio” və ya iş nümunələri;
- Müsahibə və söhbətlər;
- Qovluqlar;
- İnkişafın ardıcıllığı;
- Yaş və inkişaf səviyyəsi cədvəlləri;
- Özü və həmyaşıdını qiymətləndirmə;
- Videokasetlər və fotoşəkillər;
- Yazı nümunələri.

Tərbiyəçi müşahidə etdiyi hərəkətləri subyektiv şərhlərdən çəkinərək səliqə ilə qeyd etməlidir. Obyektiv müşahidəyə tərbiyəçinin qrupda baş verən hadisələr haqqında nə fikirləşdiyi və ya nə hiss etdiyi haqqında məlumat daxil edilməlidir. Müşahidəyə əsasən, uşaqların nə etdikləri və nə söylədikləri daxil olmalıdır. Müşahidə diaqnostika məqsədilə aparılır və davamlı qiymətləndirmə vasitəsi kimi çıxış edir. Bu metoddan istifadə zamanı tərbiyəçilər uşaqların təlim fəaliyyətini fasiləsiz izləyir, qeydlər aparır və uşaqların əldə etdikləri irəliləyişləri haqqında məlumatı valideynlərinə təqdim edir. Müşahidələrin qeydə alınması obyektiv məlumatın toplanmasından ibarətdir. Müşahidə uşaqların fəaliyyətinə mane olmadan onları izləmə prosesidir. Uşağın gündəlik fəaliyyətlərə necə münasibət göstərdiyini izlədikcə tərbiyəçi-müəllim uşağın vərdişlərə yiyələnmə səviyyəsi, temperamenti, maraqları və ümumi inkişafı haqqında məlumat toplamış olur. Bu metod uşaqların fərdi xüsusiyyətləri, ehtiyacları, qabiliyyətləri və maraqları haqqında məlumat toplamağa imkan verir. Müşahidə tərbiyəçi-müəllimlərə müəyyən edilmiş məqsədlərə dair cəld və düzgün məlumat əldə etməkdə köməklik göstərir.

Müşahidələr gündəlik və dövri olmaqla iki formada aparılır:

- Gündəlik müşahidə heç bir qaydaya tabe olmur. Tərbiyəçi-müəllim tərəfindən gündəlik həyat şəraitində aparılır. Alınan nəticələr ilkin məlumatlar formasında toplanır;
- Dövri müşahidə uşağın oyun, təlim və əmək fəaliyyəti zamanı aparılır. Bu müşahidə vasitəsi ilə uşağın fəaliyyəti ardıcıl öyrənilir və nəticələrə görə cədvəllər doldurulur.

Müşahidə, əsasən, uşağın maraqları və xüsusi diqqəti cəlb edən məqamlarını aşkar edir.

Məktəbəqədər yaşlı uşaqlar oyun və digər fəaliyyət növlərində olduğu müddətdə tərbiyəçi-müəllimin müşahidələri yazılı formada qeydə alınır. Qeydlər sərbəst və təyin edilmiş müəyyən vaxtda aparıla bilər. Tərbiyəçi-müəllimin müşahidələri tarix və qeydləri ilə birlikdə uşağın konkret nə etdiyinə əsaslanır. Qeydlər xaraktercə obyektiv olmalı və buraya heç bir rəy, mühakimə və şərhlər daxil olunmamalıdır.

**Müşahidənin qeyri-formal texnologiyaları**

1. Epizodların qeydiyyatı. Epizodlar – konkret hadisələrin qısa təsvirləridir. Onlar hadisənin nə zaman və harada baş verdiyi, onun səbəbləri, uşağın reaksiyaları və hadisənin nə ilə nəticələndiyi haqda faktiki məlumat verirlər;
2. Təsviri və ya gündəlik qeydlər. Adətən bu, uşaqların fərdi və ya qrup şəklində apardıqları fəaliyyətləri haqqında günün sonunda aparılan təəssüratların qeydləridir. Onlar subyektivlik tendensiyasını daşıyır və daha çox ani təəssürat və ya əhvalı tuturlar. Bu qeydlər gün ərzində baş verən hadisələr arasında uşaqların müəyyən nailiyyət və uğursuzluğunu izləməkdə faydalı ola bilər;
3. Tərbiyəçinin müşahidə kartı. Müşahidə kartı uşaqlarda izlənməsi vacib olan konkret davranış növlərini müəyyən edir. Bu kartda bütün inkişaf sahələri və istiqamətləri üzrə məktəbəqədər təhsil məssisəsinə hazırlıq qrupunun uşaqlarının əldə etmələri və mənimsəmələri vacib olan təsəvvür, bacarıq və qabiliyyətlər qeyd olunub. Tərbiyəçilər bu məlumatdan uşağın inkişafına kömək olmaq üçün pedaqoji məqsədlərin qoyulması və fəaliyyət növlərinin planlaşdırılmasında istifadə edə bilərlər;

Valideynlərin müşahidələrindən istifadə. Qiymətləndirmə və dəyərləndirmə fəaliyyəti prosesində uşaqlar və onların valideynləri ilə ünsiyyət uğurlu təlim fəaliyyəti üçün həlledici əhəmiyyət kəsb edir. Tərbiyəçilər valideynlərin qiymətləndirmə və dəyərləndirmə əməliyyatı, o cümlədən, hər hansı uşağın müsbət cəhətləri və növbəti tədbirləri müəyyən etməyə qiymətləndirmənin necə kömək göstərdiyini başa düşmək üçün valideynlərə məlumat verirlər.

Valideynlərin öz uşaqlarının inkişafına həsr olunan müzakirələrə cəlb edilməsi vacibdir. Tərbiyəçi valideynlərdən mümkün olduğu qədər çox məlumat toplamalı və uşağın məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşdırılması və nəzərdə tutulan təlim nəticələrinə nail olmaq istiqamətində əldə etdiyi irəliləyişi qiymətləndirərkən valideynlərlə məsləhətləşməlidir. Valideynlər ev şəraitində öz uşaqlarının bilik və bacarıqları ilə tanış olduqlarına görə tərbiyəçilər il boyunca valideynlərin öz uşaqları haqqında qeyri-rəsmi müşahidələrini öyrənmək üçün onları bağçaya dəvət etməlidirlər. Bu zaman valideynlər öz uşaqlarını qrup mühitində müşahidə etmək və öz müşahidələrini tərbiyəçilərlə müzakirə etmək imkanına malik olurlar.

Müşahidə metodu dedikdə, psixi hadisələrin cərəyanına müdaxilə edilmədən onu baş verdiyi təbii şəraitdə məqsədəuyğun və müntəzəm surətdə izləmək nəzərdə tutulur. Bu

metod psixoloji faktorları öyrənmək və təsbit etmək üçün böyük əhəmiyyətə malikdir. Müşahidə üçün xarakterik cəhət odur ki, burada tədqiqatçı öyrəniləcək hər hansı faktı özü müəyyən edir. Həqiqətdə isə müşahidə prosesində bu faktla bağlı olan bir çox məsələlər nəzərdən yayınır. Həmin məsələləri müşahidənin sonuna qədər aydınlaşdırmaq mümkün olmur. Müşahidə metodunun tətbiqi müxtəlif yaş dövründə müxtəlif tələblərlə həyata keçirilə bilər.

Uşağın davranışlarını qiymətləndirmək üçün müşahidələr bir sıra məqsədlərlə aparılır:

- Hərəkətlərinin müşahidəsi;
- Fəaliyyətinin müşahidəsi;
- Problemlərinin təzahür xüsusiyyətlərinin müşahidəsi;
- Münasibətinin müşahidəsi.

Hər bir elmdə müşahidənin öz çətinliyi və fəndləri vardır. Bu, psixologiyada incə məsələlərdəndir. Müşahidə hər hansı hadisə və hərəkətin və ya sənədin qavranılmasıdır. Əslində isə heç bir psixi hadisə qavrayış qədər aldadıcı deyildir, çünki qavrama – obyekti hissi olaraq mənimsəməkdir. Hər bir obyekt öz qanunları, mahiyyəti, məkan və zaman münasibətlərinə malikdir. Bizim qavrayışımız gerçəkliyi olduğu kimi qavramaq imkanında deyil. Digər tərəfdən, qıcıqlar ya öz intensivlik, ya da əvvəlki fəaliyyətimizlə uyğunluğu və əlaqəsinə görə qavranılır. Bütün bunlar müşahidə zamanı yanılma ehtimallarını artıran obyektiv və subyektiv amillərdir.

Müşahidə bir sıra xüsusiyyətlərə görə fərqləndirilir:

- Müşahidə zamanı qarşıya qoyulan vəzifənin həlli nəzərdə tutulmur, bu barədəki sualların cavabları sonda, daha etibarlı diaqnostik yollarla müəyyənləşdirilir. Psixoloq bu zaman fərziyyə halında qoyulmuş faktlar arasında hansısa əlaqənin olmasını fərz edərək həmin fərziyyəni yoxlamağı öz qarşısına məqsəd qoyur;
- Müşahidə situasiyası ciddiliklə ayırd edilmir və daha çox təbii şəraitə üstünlük verilir.

Müşahidə 4 mərhələdə aparılır:

1. Vacib faktların müəyyən edilməsi və onun bütün cəhətlərinin öyrənilməsi;
2. Fərziyyənin formalaşdırılması;
3. Prosesin təşkili;
4. Nəticələrin işlənməsi.

Müşahidə metodunun tətbiqinin müəyyən şərtləri vardır:

- Müşahidə psixodiaqnostik məlumatın əldə edilməsinə yönəldilməlidir;
- Öyrənilən hadisə barədə ətraflı məlumat əldə etmək üçün həmin hadisə müxtəlif şəraitdə nəzərdən keçirilməli və ona təsir edən amillər aydınlaşdırılmalıdır;
- Müşahidə mütəşəkkil və ardıcıl təşkil edilməlidir;
- Müşahidələrin nəticələri dəqiq qeyd edilməlidir;
- Müşahidə və onun nəticələri müşahidəçidən obyektivlik tələb edir.

Müşahidənin yazılması. Müşahidənin etibarlı nəticə verməsi üçün qarşıya dəqiq və aydın məqsəd qoymaqla yanaşı, müəyyən sxemdən də istifadə etmək lazım gəlir. Bu, müşahidə nəticələrini aydın ifadə etməyə imkan verir. Müşahidə materiallarını təsbit etmək üçün müxtəlif texniki vasitələrdən (foto, kino, səsyazma və s.) istifadə edilir.

Göründüyü kimi, müşahidə metodu psixoloji hadisələr barəsində müəyyən qədər qiymətli material verə bilir, lakin onun bir sıra nöqsanları da var. Həmin nöqsanlar və çatışmazlıqlar başqa metodların, ilk növbədə, testlərin köməyi ilə aradan qaldırıla bilər.

**Gün ərzində hər bir uşağın inkişafını izləmə mexanizmini qurmaq üçün istifadə olunana digər metodlar aşağıdakılardır:**

- Müsahibə. Tərbiyəçi-müəllim uşaqlarla müsahibəni söhbət formasında aparır. O həmçinin bu üsuldan uşaqların qiymətləndirmə göstəricilərini müəyyənləşdirmək məqsədi ilə valideynlərlə aparılan iş zamanı da istifadə edir. Uşaq haqda ilkin məlumatın toplanması üçün aparılır;
- Şifahi sorğu söhbət və oyunlar formasında keçirilir. Sorğu tərbiyəçi-müəllimə uşaqların əşyalar, hadisələr və onların xüsusiyyətləri haqqında mənimsədikləri biliklər və bacarıqların formalaşdırılması səviyyəsi və fəaliyyətlərdə tətbiqetmə bacarığını yoxlamağa imkan verir.
- Fəaliyyət məhsullarının təhlili. Uşaqlar məhsuldar fəaliyyətin (rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma və s.) nəticələrinə görə qiymətləndirilirlər. Bu qiymətləndirmələrin obyektiv aparılması üçün həmin sahələr üzrə normalar müəyyənləşdirilir.

Məktəbəqədər təhsil müəssisəsinə qəbul zamanı uşağın sonrakı inkişafını müşahidə etmək məqsədilə aşağıdakı formada anketin təqdim olunması məqsədəuyğundur:

1. Uşaq:
   - Soyad və ad
   - Təvəllüdü
   - Yaşadığı ünvan

2. Ata:
   - Soyad və ad
   - Təhsili, ixtisas və iş yeri

3. Ana:
   - Soyad və ad
   - Təhsili, ixtisas və iş yeri

1. Ailə tərkibi (uşaqla daima kim yaşayır)
   - Böyüklər:
   - Uşaqlar (yaş):

2. Uşaq ailənin hansı üzvünə daha çox bağlıdır

3. Uşağın tərbiyəsilə, əsasən, kim məşğul olur__________________________________________

4. Uşağın vərdişi, maraqları, hobbisi
5. Uşağın xüsusi istedadı
6. Uşağın xasiyyətində nə narahat edir və s. kimi suallar qeyd olunur.

Bu suallar yazılarkən müəllim özü istənilən qədər onu maraqlandıran suallar istifadə edə bilər.

İlin əvvəli diaqnostikanı təmin etmək (Cədvəl 5.1) üçün tərbiyəçi-müəllim və valideyn aşağıdakı cədvəli yazmalıdırlar:

| Meyarlar | Tərbiyəçi-müəllimlər | | | Valideynlər | | |
|---|---|---|---|---|---|---|
| | İlin əvvəli | | | İlin əvvəli | | |
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Cədvəl 5.1. Diaqnostik qiymətləndirmə üçün cədvəl**

## Tələbələr üçün fəaliyyətlər

1. Qruplarda müzakirə (20 dəqiqə). Tələbələr 3 qrupa bölünür və onlara tədrisin pedaqoji-psixoloji xüsusiyyətləri üzrə sahələr və mövcud problemlərin müəyyən edilməsi tapşırılır. Səbəb və nəticə modeli üzrə bu problemlərin baş vermə səbəbləri və nəticələrini müzakirə edin. Problemlərin həlli yollarını təklif edin.

Verilmiş cədvəli doldurmaqla tapşırığı yerinə yetirin.

| Sahələr | Problemlər | Səbəb | Nəticə | Problemin həlli |
|---|---|---|---|---|
| Müşahidə | | | | |
| Epizodların qeydiyyatı | | | | |
| Təsviri və ya gündəlik qeydlər | | | | |
| Tərbiyəçinin müşahidə kartı | | | | |

2. Təqdim olunan hər bir yaş dövründə baş verən fiziki, sosial, emosional və intellektual inkişaf xüsusiyyətlərini müşahidələr üzrə təqdim edin:

| | 0-3 | 3-6 |
|---|---|---|
| Fiziki<br>Sosial<br>Emosional<br>İntellektual | | |

3. Tədris prosesində uşaqların fərdi imkanlarını nəzərə alan elementləri açıqlayın:

1. Məzmun; –
2. Strategiya; –
3. Təlimin təşkili; –
4. Təlim fəaliyyətləri; –
5. Dəyərləndirmə. –

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Gün ərzində hər bir uşağın inkişafını izləmə mexanizmini hazırlayır".**

1. Tədris prosesinin müşahidənin xüsusiyyətlərinə aid olan səhv (S) və doğru (D) cavabları qeyd edin:

| | Doğru | Səhv |
|---|---|---|
| 1. Uşaqların yaş xüsusiyyətləri onun psixoloji inkişafında özünü əks etdirmir. | | |
| 2. Epizodların qeydiyyatının aparılması vacibdir. | | |
| 3. Təsviri və ya gündəlik qeydlər olmalıdır. | | |
| 4. "Portfolio" və ya iş nümunələri toplanmalıdır. | | |
| 5. Müsahibə və söhbətlər aparılmalıdır. | | |
| 6. Qovluqlar işlənməlidir. | | |
| 7. İnkişafın ardıcıllığı gözlənilməlidir. | | |
| 8. Yaş və inkişaf səviyyəsi cədvəlləri hazırlanmalıdır. | | |
| 9. Özü və həmyaşıdını qiymətləndirməlidir. | | |
| 10. Təhsilalanların fəaliyyətlərinə rəylərin verilməsi onların növbəti inkişafını təmin edir | | |

2. Verilmiş suallar əsasında "Analitik hesabat" meyarları hazırlayın (məzmunu, yeniliyi, faydası, nəticəsi və təklifləri):
   1. Müşahidə zamanı yaş xüsusiyyətləri necə nəzərə alınmalıdır?
   2. Uşaqların fizioloji inkişafı onların psixoloji vəziyyətinə necə təsir edir?
   3. Yaş həddi üzrə psixoloji inkişaf halları ailə, cəmiyyət və təhsildə necə əks olunur?
   4. Müşahidə zamanı fərdi imkanların məzmunu, strategiyası, təşkili və qiymətləndirilməsi necə həyata keçirilir?

3. Verilmiş müşahidə formalarının reytinq səviyyəsini müəyyən edin və səbəbini izah edin: 5-6-7-8-9-10

| № | Xüsusiyyətlər | Çox mühümdür | Mühümdür | Az mühümdür | Mühüm deyil |
|---|---|---|---|---|---|
| 1. | Müşahidə | | | | |
| 2. | Epizodların qeydiyyatı | | | | |
| 3. | Təsviri və ya gündəlik qeydlər | | | | |
| 4. | Tərbiyəçinin müşahidə kartı | | | | |

## 5.2. İnkişaf sahələrinə görə davamlı (formativ) qiymətləndirmə cədvəlləri hazırlayır

Məktəbəqədər təhsil müəssisələrində uşaqların təhsil fəaliyyətinin formativ qiymətləndirmə metodları

Məlumdur ki, tərbiyəçilər məktəbəqədər yaşlı uşaqların bilavasitə təhsil fəaliyyətini planlaşdırarkən mütləq aşağıdakıları - məqsəd, vəzifələr (təhsil, tərbiyə, inkişaf, məşğələnin təşkili forması (fərdi, yarımqrup, frontal), metodlar (praktiki, əyani, şifahi, oyun, məzmun) təhsil sahələrinin inteqrasiyası, struktur, eyni zamanda uşaqların yaşla bağlı təşkili üsulları və arzu olunan nəticələri planlaşdırıb müəyyən edirlər.

Effektivliyin planlaşdırılması zamanı məktəbəqədər təhsil müəssisələrində uşaqlarla məşğələlər yalnız arzu olunan nəticələri nəzərdə tutmamalı və yalnız nəticəyə yönəlməli, həm də idrak və ya fəaliyyət prosesinin özünə diqqət yetirməlidir. Bundan başqa, tapşırıqların yerinə yetirilməsi zamanı uşağın arzusu, cəhdi və fəallığına xüsusi diqqət yetirmək lazımdır.

Məşğələ əsnasında uşağın fəaliyyətinin tərbiyəçi tərəfindən qiymətləndirilməsinə ehtiyac varmı? Əlbəttə, qiymətləndirmənin uşağa təsiri vardır. Bu təsir yönümlü və stimullaşdırıcı olaraq təyin olunur. Uşağın bilik və bacarıqlarının səmərəliliyinin başa düşülməsinə imkan vermək qiymətləndirmənin yönləndirici təsirinin funksiyasıdır. Qiymətləndirmənin stimullaşdırıcı təsiri uşaqların uğur və ya uğursuzluq təcrübələrini müəyyənləşdirir və fəaliyyətə stimul verir.

Qiymətləndirmə uşaqların fəaliyyətini diaqnoz etmək, stimullaşdırmaq və tənzimləməyə imkan verir.

Qiymətləndirmə tədris prosesinin ayrılmaz hissəsidir. Qiymətləndirilərkən uşaqların yaş xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Aşağıdakı cədvəlin köməyi ilə formativ (Cədvəl 5.2) izləməni təşkil etmək mümkündür. Bu cədvəllərdə meyarlar yaşa görə standartlara əsasən yazılır.

| Meyar | 1-ci rüb | | | 2-ci rüb | | | 3-cü rüb | | | 4-cü rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

**Cədvəl 5.2. Formativ izləmə cədvəli**

Kiçik məktəbəqədər yaşda uşaqların fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi sonda deyil, məşğələ boyu olmalıdır. Bu, vacibdir. Körpə yaşda uşağın fəaliyyətindəki çatışmazlıqları birbaşa qeyd etmək lazım deyil. Bu onun xarakteri üçün narahatlıq və çətinlik yaradacaq. (Məsələn, uşaq şüaları olmayan bir günəş çəkdi. Tülkü adından müəllim şüalar Yerin işığı və istiliyini verməsə, soyuq və qaranlıq olacağını söyləyə bilər).

Orta yaşda uşaq artıq qiymətləndirmə və tənqidə sakit yanaşır. Orta yaşda uşaq nəticəni hədəf və ya nümunə ilə əlaqələndirmək və görülən işləri müstəqil qiymətləndirməyi öyrənir. Böyük yaşda olduğu kimi kiçik yaşda da tapşırığın uğursuz yerinə yetirilməsi tez-tez uşağı çaşqınlıq və işdən imtina etməyə aparır.

Buna görə məktəbəqədər yaşda uşağın özünə inamı və özünü idarə etməsinin formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Məsələn, işin çatışmazlığını göstərmək əvəzinə, ondan soruşulur: "Öz işini necə qiymətləndirərsən? Nəyi dəyişdirmək və ya düzəltmək istərdin?"

Hər bir uşağın müvəffəq olmaq imkanı əldə etməsi üçün təlim prosesini təşkil etmək vacibdir. Yetkinlərin vəzifəsi uşaqlara uğursuzluğa təbii bir təlim prosesi kimi baxmağı öyrətməkdir. "Heç bir şey etməyən səhv etmir".

Qiymətləndirmə üçün əsas qaydalar:

1. Qiymətləndirmə həm fiziki, həm də zehni olaraq uşağın sağlamlığına zərər verməməlidir;
2. Uşağın hərəkətlərinin səbəbləri başa düşülmədikdə qiymətləndirmə aparılmamalıdır;
3. Qiymətləndirmə zamanı müəllimin emosional vəziyyəti tarazlaşdırılmalı, ton isə xeyirxah olmalıdır;
4. Uşaq eyni şeyə görə dəfələrlə cəzalandırılmamalı və mükafatlandırılmamalıdır;
5. Qiymətləndirmə müxtəlif olmalıdır;
6. Qiymətləndirmə müsbət cəhətlərdən başlamalı, sonra isə mənfi tərəflərə keçməlidir;
7. Qiymətləndirmə uşağa uşağın spesifik hərəkətlərinin müəyyən edilmiş normalar və tapşırıqlara uyğunluğu və ya uyğunsuzluğunu göstərməlidir;
8. Tərif özünə inamı aşağı olan uşaqlara müsbət təsir göstərir, ittiham, bir qayda olaraq, fəaliyyətin uğursuzluğuna səbəb olur. Bu cür uşaqları tərifləmək üçün mümkün qədər tez-tez bir səbəb tapmalısınız;
9. Özünəgüvən hissi yüksək olan uşaqlar özününümayişə meyillidirlər. Belə uşaqlarla işləyərkən müəllim diqqətlə dinləməli və digər uşaqlarla bölüşmə hissini aşılamalı və onların özgüvənindən istifadə etməlidir. Ən təsirli cəza vasitəsi uşağın sevdiyi fəaliyyətlərdən müəyyən müddətə uzaqlaşdırmaqdır.

Qiymətləndirmə hər hansı bir fəaliyyətin ayrılmaz hissəsidir.

Qiymətləndirmədə əsas səhvlər:

- Müəllimlərin uşaqların yaşından asılı olmayaraq qiymətləndirici əsasları yoxdur (yəni müəllim uşağı niyə belə qiymətləndirdiyini izah etmir). Nəticə etibarilə uşaqların ətrafındakı dünyanın qiymətləndirilmə qabiliyyətinin formalaşdırılması ləng gedir. Çünki nadir hallarda nümunə reytinqləri eşidilir;
- Müəyyən bir fəaliyyət növündə ən uğurlu olan uşaqlar, bir qayda olaraq, tərbiyəçi tərəfindən müsbət qiymətləndirilir, çətinlik və problemləri olan uşaqlar isə çox vaxt mənfi və ya neytral qiymətləndirilirlər.

Qiymətləndirmə funksiyası – uşağın inkişafını stimullaşdırmaq. Lakin o, daha çox "uğurlu" uşaqlara münasibətdə işləyir. Təlim prosesində müxtəlif qiymətləndirmə növlərini tətbiq etmək lazımdır. Qiymətləndirmə fəaliyyətinin təşkili üçün bir metod seçərkən

qiymətləndirmə mövzusu, uşağın fərdi və yaş xüsusiyyətləri, fəaliyyət növünün xüsusiyyətləri nəzərə alınmalıdır.

Qiymətləndirmə fəaliyyətinin vasitələri:

1. Məşğələləri yekunlaşdıran suallar:
   - Nə öyrəndiniz?
   - Hansı tapşırıq yerinə yetirmək üçün çətin (asan) idi?
   - Bu gün nə öyrəndiniz?
   - Ananıza nədən danışırdınız?
   - Ən maraqlı nə idi?
   - Uşaqlara nə öyrətdiniz?

Bu tip suallara cavablar, ilk növbədə, uşaqlara öz nailiyyətləri və problemlərini başa düşmək imkanı verir.

2. Yeni adlar düşünmək və adlandırmaq işin reallaşdırılmasına kömək edir. Hər hansı bir hekayə, rəsm və mahnı üçün bir ad düşünə bilərsiniz.
3. Ən yaxşı (ən qeyri-adi, gözəl, qısa, uzun və s.) hekayəni seçmək və xüsusi bir albomda qeyd etmək. Uşaq hekayələrini düzəltmək zəruridir.
4. Təsviri fəaliyyət prosesində istifadə edə bilərsiniz:
5. Ən yaxşı 2-3 işin seçilməsi;
6. Seçim və sevimli iş haqqında bir hekayə.
7. Fərdi və ya kollektiv sərgi üçün işlərin seçilməsi.
8. Ən çox bəyəndiyim işə bir işarənin təyini (məsələn, ürək, ulduz).
9. Həmyaşıdların işi ilə bağlı bir tapmaca tərtib etmək və əvvəlcə şəklin məzmununu başa düşməyə imkan verir.
10. Qiymətləndirmə məktəbəqədər təhsil prosesində uşaqlar üçün tədris prosesinin məcburi bir hissəsidir, uşaqların fəaliyyətinin gedişatı və nəticələri barədə müəllimin rəyini ifadə edir və uşaqların stimullaşdırılması, diaqnozu, istiqaməti və tərbiyəsi vasitəsi kimi istifadə olunur.
11. Effektiv metodlardan biri də kollektiv tərifdir. Məşğələlərdə iştirak edən bütün uşaqlar özlərini bu sözlərlə ("Mən bu gün ağıllıyam, mən etdim") təriflədikdə, kollektiv əhval-ruhiyyə daha effektiv olur.

Müəllim qiymətləndirməsi ilə uşağın fəaliyyətdəki uğur arasında əlaqə var.

Böyüklərin həvəsləndirici qiymətləndirməsi uşağın öyrənmə fəaliyyətinə marağını formalaşdıran təsirli bir vasitədir.

Məktəbəqədər təhsil müəssisələrində təhlil sistemi və uşaq inkişafının dəyərləndirilməsi prosesi təşkil edilməli, uşaq inkişafının dinamikasının izlənməsi ilə bağlı planlı sənədləşmə aparılmalı və ailə ilə əks-əlaqə qurulmalıdır.

Dəyərləndirmə məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir. Dəyərləndirmə nəzərdə tutulan ümumi təlim nəticələrinə nail olmaqda uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün mühakimə yürütməkdən və həmin məlumatları şərh

etməkdən ibarətdir.

Məktəbəqədər təhsildə dəyərləndirmə uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və təlim prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv və etibarlı vasitələrlə ölçülməsidir.

İnkişafın izlənilməsi tədbirləri hər bir uşağa fərdi qaydada tətbiq edilir, uşaqların nitq, hissi, böyük və kiçik motor bacarıqlarında inkişaf ləngimələri və görmə və eşitmə ilə bağlı problemləri olan uşaqları müəyyənləşdirmək üçün istifadə edilir. Belə hallarda, inkişafın izlənilməsi tədbirlərinin nəticələrindən uşağın növbəti inkişaf səviyyəsinin qiymətləndirilməsini müəyyənləşdirmək üçün istifadə edilməlidir. İnkişafın izlənilməsi erkən uşaqlıq dövründə inkişaf və təlimin səviyyəsinin dəyərləndirilməsinin tam sistemində yalnız bir komponent kimi nəzərdən keçirilməlidir. Dəyərləndirmə xüsusi məqsəd kimi olmalı və ondan etibarlı nəticə kimi istifadə edilməlidir.

Tərbiyəçi-müəllimlər uşaqların ümumi inkişafına yardım göstərməyi planlaşdıra və həyata keçirə bilmək üçün hər bir uşağın sosial, fiziki, əqli və emosional xüsusiyyətlərinə bələd olmalıdırlar. Normal inkişaf edən uşaq haqqında olan bu məlumatlar tərbiyəçi-müəllimlərə öz diqqətlərini uşağın maraq və istəkləri, həmçinin yaranmaqda olan vərdiş və bacarıqlar üzərində cəmləşdirməkdə köməklik göstərir. Belə ki onlar uşağın təbii inkişaf mərhələləri üçün faydalı olan qarşılıqlı fəaliyyət formalarını müəyyənləşdirə bilirlər. Diqqətli müşahidə tərbiyəçi-müəllimlərə uşaqların inkişafı barədə xəbərdarlıq edir.

Uşağın normal inkişafının nə demək olduğunu və bu normal inkişaf sərhədlərinin hansı dərəcədə geniş ola biləcəyindən agah olan tərbiyəçi-müəllimlər qeyri-normal inkişaf edən uşaqları daha asanlıqla müəyyənləşdirə bilirlər. Onlar uşaqların gündəlik fəaliyyət və hərəkətlərə necə reaksiya verdiklərini müşahidə edərkən və valideyni sorğu-sual edərkən sistematik müşahidə və qeydiyyat metodlarından yararlanırlar. Bu cür metodlardan biri tərbiyəçi-müəllimlərin öz müşahidələrini sistematik qaydada təşkil etmək üçün faydalandıqları inkişafın izlənməsi siyahısıdır. İzləmə siyahısı tərbiyəçi-müəllim və valideynlərə uşağı başa düşməkdə kömək edən zəruri informasiya mənbəyi kimi davranış nümunələrini müəyyənləşdirməkdə yardımçı olur.

## Tələbələr üçün fəaliyyətlər

1. Müşahidə mexanizminin metodlarını təsnifatlaşdırın.
2. İzləmə mexanizminin təşkilinə aid edilən əsas anlayışlar haqqında qrup müzakirəsi aparın.
3. Müşahidənin nəticələrinin protokol nümunəsini hazırlayın.
4. Qrup işi: Karusel üsulundan[1] istifadə edərək əməkdaşlığın xüsusiyyətlərinin mənfi və müsbət cəhətlərini müəyyən edin və aşağıdakı cədvələ qeyd edin:

| 1, 2, 3, 4, 5, 6, 7-ci qrup | |
|---|---|
| İş bölgüsü | |
| + | - |
| | |

[1]Məşğələdən əvvəl iri ağ kağızlarda (vatman) mövzuya aid suallar yazılır. Müəllim qruplara müxtəlif sual yazılmış bir kağız verir. Qrup üzvləri sualı oxuyur və bir cavab yazır. Kağızlar saat əqrəbi istiqamətində müəllimin köməkliyi ilə qruplara ötürülür. “Karusel” kimi kağızlar bütün digər qruplardan keçərək axırda öz qrupuna qayıdır. Müəllim bu kağızları yazı lövhəsinə yapışdırır və bütün sinif cavabları müzakirə edir.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"İnkişaf sahələrinə görə davamlı (formativ) qiymətləndirmə cədvəlləri hazırlayır".**

1. Müşahidənin təşkil edilməsində tərbiyəçinin rolu haqqında esse yazın.
2. Müşahidəyə verilən tələblər haqqında təqdimat hazırlayın.
3. Uşağın davranışlarını qiymətləndirmək üçün müşahidələrin bir sıra məqsədlərinin təsnifatını qeyd et.

| Məqsəd | Təsnifat |
|---|---|
| Hərəkətlərinin müşahidəsi | |
| Fəaliyyətinin müşahidəsi | |
| Problemlərinin təzahür xüsusiyyətlərinin müşahidəsi | |
| Münasibətinin müşahidəsi | |

## 5.3. Müşahidələrə əsasən fərdi ehtiyac və maraqlarını müəyyənləşdirir

Cari (formativ) qiymətləndirmə müntəzəm aparıldığı üçün hər bir uşaq və eyni zamanda qrupun nailiyyətləri haqqında məlumat toplamağa imkan yaradır. Formativ qiymətləndirmə uşaqların standartların mənimsənilməsinə doğru irəliləyə bildikləri və ya hansısa bir hissəyə daha çox vaxt sərf etmək lazım olduğunu müəyyənləşdirmək, uşaqların öyrəndiklərini sərbəst tətbiq etməyi bacarmaq, əlavə məqsədlərə ehtiyac olduğu və hansı yollardan istifadə edilməsini müəyyənləşdirmək məqsədini daşıyır. Formativ (cari) qiymətləndirmə monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq müntəzəm xarakter daşımalıdır. Bu zaman uşaqların fəaliyyətinin nəticələri tərbiyəçi üçün real indikatorlara çevrilir.

Uşaqlar məktəbəhazırlıq qruplarına gələrkən həm bağça, həm də gələcək məktəb mühitinə uyğunlaşmağı öyrənirlər. Bunun üçün onlara inkişaf səviyyələrinə uyğun və müstəqil həyata keçirə bildiklərinə aid tapşırıqlar verilməli və müvafiq vaxt limiti qoyulmalıdır. Çalışmaq lazımdır ki, uşaq müxtəlif sahələr üzrə təlim tapşırıqları və mümarisələr (təmrin, oyun (kompüter oyunu), çalışma və s.) vasitəsilə öz nailiyyətlərini nümayiş etdirsin.

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt, uşağın əhval-ruhiyyəsi, verilən sualların xarakteri və onun məzmunu ilə uşağın tanışlığı vacib məsələdir. Bundan əlavə, uşağın təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu kimi amillərdən asılı olaraq uşaqların öz bilikləri və ya bacarıqlarını nümayiş etdirməkdə qazandıqları uğurun dərəcəsi də fərqli olur. İstənilən vaxtda uşağın davamiyyətini yaxşılaşdırmaq və onun bağçaya həvəslə gəlməsinə təsir göstərmək məqsədilə tərbiyəçi müxtəlif vasitələrdən istifadə edərək və uşağın təlim nailiyyətlərini qiymətləndirir.

Müşahidələr uşaqların bilmədikləri və ya bacarmadıqlarını aşkar etmək üçün aparılır və bu zaman onları bilik və bacarıqlarını göstərməyə sövq etməyə yönəldilir. Uşaqların bacarıqlarını aşkar etməyə yönəldilən fəaliyyətlər aparılarkən onların inkişaf səviyyəsi nəzərə alınır. Tərbiyəçilərin planlaşdırdıqları məşğələlər və tətbiq etdikləri tədris strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etmək, habelə bağça uşaqlarının nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır. Bəzi uşaqlar öz fərdi tələblərini ödəmək üçün fərqli tədris fəaliyyətinə ehtiyac hiss edə bilərlər.

Fərdi ehtiyaclar əsasən aşağıdakı tələblərə əsasən aparılır:

- Uşaqda mənfi hislər oyatmadan, onun özünəinamı və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılmalı;
- Uşağın hərəkət və davranışları müəyyən şəraitdə fəaliyyətinin nəticələri olmalı, uşağın şəxsiyyətinə yönəldilməməli, ona sevgi və hörmət bəslənməsi təmin edilməlidir;
- Uşaqlar özləri və yoldaşlarının nailiyyətlərinin müşahidə və dəyərləndirilməsində iştirak etməli;

- Uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılmalı;
- Tərbiyəçi hər bir uşağı nəzərə alaraq onun nailiyyətlərini müşahidə edib dəstəkləməlidir.

Məktəbəqədər yaşlı uşaqların fərdi ehtiyaclarının müəyyən edilməsinin əsas məqsədi ayrı-ayrı uşaq və uşaq qrupları üçün tərbiyəçilərə müvafiq qrup fəaliyyətinin müəyyən edilməsində köməklik göstərilməsindən ibarətdir.

Fərdi ehtiyac və maraqlar müəyyənləşdirilərkən tərbiyəçi nəzərə almalıdır:

- Uşaqların təliminə dair dəlillərin müxtəlif formalarına əsasən qurulmalıdır;
- Vaxtaşırı aparılmalıdır;
- Fərdi olaraq uşaqların başa düşdükləri kimi qrupların da başa düşdükləri əks etdirilməlidir;
- Hər bir uşağın xüsusi ehtiyacları, dili, öyrənmə üsulu və inkişaf mərhələsinə həssaslıqla yanaşma əks etdirilməlidir.

Fərdi formada müşahidənin nəticələri aşağıdakı kimi dəyərləndirilməlidir:

- İnkişafyönümlü təlim müvafiq təlim məqsədləri ilə əlaqələndirilməlidir;
- Uşağın inkişaf və böyüməsi nəzərə alınmalıdır;
- Təlimati planlama bilavasitə tətbiq edilə bilən məlumatla təmin edilməlidir;
- Lazım gəldikdə uşağın valideynləri və xüsusi təhsil mütəxəssisləri ilə əlaqə saxlanılmalıdır.

Peşəkar pedaqoq üçün yalnız uşağın fərdi və ümumi yaş xüsusiyyətlərini bilmək azdır. Həmçinin, uşağın aşağıdakı fərdi xüsusiyyətlərini də nəzərə almaq vacibdir:

- Fizioloji xüsusiyyətləri - bunlara psixi proseslərin sürəti, əsəb sisteminin oyanıqlığı (labillik), steniklik (ümumi tonus), fəallıq və şəxsiyyətin tipi (düşüncəli və ya bədii) aiddir;
- Düzgün olmayan pedaqoji fəaliyyət nəticəsində qazanılan xüsusiyyətlər bunlara təlaşlılıq, qapalılıq, intellektuallıq (əqli fəaliyyətin həddən artıq inkişaf etməsi), nümayişkarlıq və igidlik (həddən artıq dəqiqlik, nəyinsə üzərində ilişmə) aiddir.

Pedaqoqun mövqeyi uşağın qeyri-əlverişli inkişaf variantlarının korreksiya edilməsi, uşaq fəaliyyətinin spesifik növlərinin təşkil olunması, əməkdaşlıq və tərəfdaşlıq mövqelərindən dialoq münasibətlərinin qurulmasını tələb edir. Tərbiyəçi fərdi ehtiyac və maraqlarının həyata keçirilməsi üçün şərtləri qabaqcadan düşünməlidir:

- Uşaqların müxtəlif müştərək fəaliyyət növlərində olan və uşağın yaşıdları ilə qrupdakı vəziyyəti, sosial-əxlaqi təsəvvürləri, emosional halı, davranışı və təcrübi bacarıqlarının üzə çıxarılmasına imkan verən ünsiyyət və qarşılıqlı münasibətlərinin diaqnostikası metodlarından istifadə;
- Uşaqlarla qarşılıqlı təsirin demokratik (yardım edən) üslubundan istifadə;
- Qrupda müsbət və emosional-fəal münasibətlər və mikroiqlimin yaradılması;
- Uşaqlarda istiqamətləndirilmiş müsbət arzular və digərlərinə istiqamətləndirilməsi

və empatiya və altruizm təzahürlərinə əsaslanan taktikanın formalaşdırılması;

- Ənənələr və mərasimlərdən istifadə;
- Uşaqlar və müxtəlif qruplardan olan uşaqlarla müştərək fəaliyyətin təşkili;
- Uşaqların yaradıcılığının fərdi sərgiləri və vernisajlarının təşkili;
- Uşaqların sosial davranışının vaxtında korreksiyası: Davranışa məsləhət formasında nəzarət və "Anlamaq, hislərinə şərik olmaq və hərəkət etmək" prinsipi üzərində qurulan xüsusi tərbiyəvi vəziyyətlərin yaradılması.

Uşağın fərdi ehtiyacların müəyyən (Cədvəl 5.3) etmək üçün nəzərdə tutulan müşahidə vərəqi nümunəsi aşağıda göstərilmişdir:

<table>
<tr><td colspan="3">Uşağın adı:<br>Uşaq haqqında məlumat:<br>Təvəllüd:__________ Yaş: _______ Cinsi:_______<br>Bağça:______________ Qrup:______________<br>Valideynlər:____________________________<br>Diaqnoz və ya əsas çətinliklər (sensor və fiziki, sosial-emosional, koqnitiv inkişaf, ünsiyyət və qarşılıqlı münasibətə girmək və s. görülən problemlər):<br>________________________________________<br>________________________________________<br>________________________________________<br>Əlaqə telefonları:<br>Uşağın inkişaf səviyyəsi:<br>Tədris ilinin əvvəli:<br>Tədris ilinin ortası:<br>Tədris ilinin sonu:</td></tr>
<tr><td colspan="3">Bir illik qısa məqsəd və vəzifələr</td></tr>
<tr><td>Tədris ilinin əvvəli:<br>Məqsədlər:<br>1.<br>2.<br>3.<br><br>Tədris ilinin ortası:<br>Məqsədlər:<br>1.<br>2.<br>3.<br><br>Tədris ilinin sonu:<br>Məqsədlər:<br>1.<br>2.<br>3.</td><td>Qiymətləndirmə:<br>Müşahidə<br>Yazılı<br>Şifahi<br>Valideynin hesabatı<br>Standartlaşdırılmış test<br>Portfolio və s.</td><td>Nəticələr:<br>Tədris ilinin əvvəli:<br><br>Tədris ilinin ortası:<br><br>Tədris ilinin sonu:</td></tr>
</table>

**Cədvəl 5.3. Uşağın fərdi ehtiyacların müəyyən etmək üçün cədvəl**

## Tələbələr üçün fəaliyyətlər

1. Qrup işi. İlin əvvəlində müxtəlif məşğələlər üzrə müvafiq bilik və bacarıqların ümumi səviyyəsini müəyyən etmək üçün diaqnostik tapşırıq nümunəsi hazırlayın.
2. Mövzuların tədrisindən əvvəl diaqnostik tapşırıq nümunələri hazırlayın.
3. "Akvarium" üsulundan[2] istifadə edərək fəaliyyəti təşkil edin. Müzakirə mövzusu: "Formativ qiymətləndirmə uşaqların inkişafı üçün vacib şərtdir. Niyə?"
4. Formativ qiymətləndirmə qaydalarını prinsiplərlə uyğunlaşdıraraq aşağıdakı cədvələ əlavə edin:

| Qaydalar | Prinsiplər |
|---|---|
| | |
| | |
| | |
| | |

[2]Müəllim üçün qeyd: Akvarium bir neçə variantda keçirilə bilər.
"Akvarium"un keçirilməsinin 1-ci variantı: Uşaqların köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Uşaqlar 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir. Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, "Xarici dairə"nin iştirakçıları 1-ci diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.
"Akvarium"un keçirilməsinin 2-ci variantı: "Daxili dairə"nin iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin "Lehinə" olan dəlilləri söyləyirlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir və öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan uşaqlar öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

## Qiymətləndirmə

1. 3-6 yaş üzrə fərdi ehtiyacları müəyyən etmək üçün cavab nümunəsi hazırlayın.

2. Cavablardan biri səhvdir:

A) İnkişafyönümlü müvafiq təlim məqsədləri ilə əlaqələndirilməlidir;
B) Uşağın inkişaf və böyüməsi nəzərə alınmalıdır;
C) Təlimati planlaşma bilavasitə tətbiq edilə bilən məlumatla təmin edilməlidir;
D) Lazım gəldikdə uşağın valideynləri və xüsusi təhsil mütəxəssisləri ilə əlaqə saxlanılmalıdır.
E) Yalnız fizioloji xüsusiyyətləri nəzərə almalıdır.

3. Qiymətləndirmə aşağıdakı tələblərə əsasən aparılır: Səhv (S) və doğru (D) cavabları qeyd edin:

| | Doğru | Səhv |
|---|---|---|
| 1. Qiymətləndirmə uşaqda mənfi hislər oyatmadan onun özünəinamı və irəli getmə səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır. | | |
| 2. Qiymətləndirmənin obyekti uşağın hərəkət və davranışları və müəyyən şəraitdə fəaliyyətinin nəticələri olmalı, uşağın şəxsiyyətinə yönəlməməli, ona sevgi və hörmət bəslənməsini təmin edir. | | |
| 3. Uşaqlar özləri və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edirlər. | | |
| 4. Uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır. | | |
| 5. Tərbiyəçi hər bir uşağı nəzərə alaraq onun nailiyyətlərini izləyib dəstəkləyir. | | |
| 6. Uşaqların təliminə dair dəlillərin müxtəlif formalarına əsasən qurulmalıdır. | | |
| 7. Vaxtaşırı aparılmalıdır. | | |
| 8. Fərdi olaraq uşaqların başa düşdükləri kimi, qrupların da başa düşdüklərini əks etdirməlidir. | | |
| 9. Hər bir uşağın xüsusi ehtiyacları, dili, öyrənmə üsulu və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirməlidir. | | |

## 5.4. Portfolio hazırlayır

### Portfolio

Portfolio (ingilis dilindən tərcümədə portfel, mühüm sənədlər üçün qovluq deməkdir) uşağın əl işləri, fikirləşdiyi hekayələr, təsviri fəaliyyət məşğələlərinin nəticələri və əlavə olaraq uşağın hansısa fəaliyyətlə məşğul olarkən fotoşəkli və səhnələşdirmə zamanı rol ifa edərkən foto şəkillərinin saxlanıldığı qovluqdur. Bu iş nümunələri valideynlərə də öz uşaqlarının nailiyyətlərini görməyə imkan yaradır.

Portfoliodan istifadə edərkən uşaqlara dair əldə edilən məlumatlar təhlil və şərh edilir və qiymətləndirilir. İl ərzində tərbiyəçi-müəllimlər qiymətləndirmə ilə bağlı qərarlarını qeyd edirlər və bununla da uşağın il ərzində əldə etdiyi uğurları görməyə imkan yaradılır. Portfolio tərbiyəçi-müəllimlərə uşaqların inkişaf və nailiyyətlərinin dəyərləndirilmələrinə dair qərar verməkdə bələdçilik edir. Məktəbəqədər yaşlı uşaqların portfoliosu uşağın ayrı-ayrı nailiyyətlərinin adekvat təqdim edilməsi, həmçinin onun sosial, sosial-emosional və idraki inkişaf kimi fəaliyyət sahələri üzrə əldə edilən nəticələrinin nəzərə alınmasına görə effektiv dəyərləndirmə formasıdır. Portfolio həm formativ, həm də yekun hesabatda dəyərləndirmə məqsədilə aparılır və uzunmüddətli proses hesab olunur.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində portfolionu uşağın imkan və bacarıqları və fərdi keyfiyyətlərinin inkişaf səviyyəsinin kompleks qiymətləndirilməsi və "İnkişaf trayektoriyası"nın qurulması üçün fərdi nailiyyətlərin təhlilinin vasitəsi kimi müəyyən etmək olar.

Portfolioya aşağıdakılar daxildir:

- Təsviri və ya gündəlik qeydlər;
- İş nümunələri;
- Ailə məlumatları;
- İnkişaf səviyyəsi cədvəlləri;
- İnkişafa dair yekun hesabat.

Təsviri və ya gündəlik qeydlər. Bu, uşaqların fərdi və ya qrup şəklində fəaliyyətləri haqqında günün sonunda təəssüratlarının qeyd olunmasıdır. Onlar subyektiv xarakter daşıyır. Bu qeydlər gün ərzində baş verən hadisələr arasında uşaqların müəyyən nailiyyət və uğursuzluğunu izləməkdə faydalı ola bilər.

**İş nümunələri.** Uşaq tərbiyəçi-müəllim (valideyn) tərəfindən əvvəlcədən müəyyənləşdirilmiş xüsusi tapşırığı yerinə yetirir. Tapşırıq rəsm, kəsib-yapışdırma, yarımçıq işi tamamlama, quraşdırma, yapma, əşyalarla oyun və s. ibarət ola bilər. Bu, ay, rüb və il ərzində inkişaf dinamikasını izləməyə imkan verir.

Ailənin məlumatları. Tərbiyəçi-müəllimlər və valideynlər uşaqların təlim-tərbiyəsi işində daim əməkdaşlıq edirlər. Bu əməkdaşlığın mühüm bir cəhəti kimi ailənin uşaq haqqında məlumat verməsidir. Tərbiyəçi-müəllimlər sorğudan istifadə etməklə uşaq haqqında məlumat toplayır.

İnkişaf səviyyəsi cədvəlləri. Hər yaş dövrünün sonunda uşaqların inkişaf səviyyələri

müəyyən olunur. Uşaqların yaş və inkişaf səviyyələrinin müəyyənləşdirilməsi və qiymətləndirmənin mütəmadi aparılması uşaqların fərdi maraqları, öyrənmə üsulları və bacarıqlarına cavab verən müvafiq təlim strategiyalarının planlaşdırılması üçün əsas üsul hesab edilir. Bu qiymətləndirmə sistemi təlim strategiyaları vasitəsilə tərbiyəçi-müəllimlərin hansı cəhətə diqqət yetirmələri və uşaqların davamlı inkişaf və təliminə dəstək olmaqda köməklik göstərəcəkdir.

Məzmun standartlarında nəzərdə tutulmuş nəticələrin hamısı təlim prosesində nəzərə alınmalı və qiymətləndirmə zamanı uşaqların nəzərdə tutulmuş təlim nəticələri üzrə nailiyyətlərinə xüsusi diqqət yetirilməlidir.

İnkişafa dair yekun hesabat. Bu məktəbəqədər dövrdə 2 dəfə: 3-6 yaşın sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanmasıdır. Uşaq bu hesabatla növbəti mərhələyə qədəm qoyur. Bu zaman uşağın məktəbəqədər təhsilinin sonunda inkişafının səviyyəsi müəyyən edilir.

## Tələbələr üçün fəaliyyətlər

1. Portfolio nümunəsi hazırlayın.
2. Portfolionun məzmununa dair tələblər barədə esse yazın.
3. Portfolionun yaradılma məqsədlərini təhlil edin:

   Qrup 1: Portfolio hazırlama qaydaları;

   Qrup 2: Uşaqların təhsili, inkişafı və tərbiyəsi üzrə işlərin nəticələrinin təhlili və nümayiş etdirilməsi (foto, uşaqların rəsmləri, əl işləri, o cümlədən, valideynlərlə yerinə yetirilmiş işlər və s.);

   Qrup 3: Ailə və uşağa aid olan normativ sənədlərlə tanışlıq və (uşaq hüquqları haqqında məlumat və valideynlərin hüquq və vəzifələri, məktəbəqədər müəssisənin Nizamnaməsi və s.) portfolioya yığılması.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Portfolio hazırlayır”.**

1. Portfolionun hazırlanması layihəsini işləyin və şifahi təqdimat edin.
2. Portfolionu zəruri edən elementləri aşağıdakı cədvəldə qeyd edin:

| **Element** | **Məqsəd** |
|---|---|
| | |

3. Aşağıdakılar haqqında gözləntilər və resursları cədvəl üzrə yazın:

| | Gözləntilər | Resurslar |
|---|---|---|
| Təsviri və ya gündəlik qeydlər | -<br>-<br>- | -<br>-<br>- |
| İş nümunələri | -<br>-<br>- | -<br>-<br>- |
| Ailə məlumatları | | |
| İnkişaf səviyyəsi cədvəlləri | | |

## 5.5. Yekun (summativ) hesabat hazırlayır

Uşaqların məktəbəqədər təhsil pilləsi və yaş qrupları üzrə müəyyən olunmuş ümumi nəticələrə nail olduqlarını müəyyən etmək üçün summativ qiymətləndirmədən istifadə edilir. Summativ qiymətləndirmə ilin sonunda aparılır. Uşaqların müəyyən müddət ərzində əldə etdikləri nailiyyətləri ümumiləşdirmək və qiymətləndirmək məqsədi daşıyır. Bu zaman uşağın il boyu proqramın bölmələri üzrə qazandığı nailiyyətlər ümumiləşdirilir və qiymətləndirilir.

Tərbiyəçi-müəllim nailiyyətlərin qiymətləndirilməsi və dəyərləndirilməsinin nəticələri haqqında məlumatı valideynlər, uşaqlar və uşaqların təlim fəaliyyətində iştirak edən digər şəxslərə təqdim edir. Uşaqların nailiyyətləri barədə məlumat verərkən tərbiyəçilər istifadə etdikləri qiymətləndirmə və dəyərləndirmə yolları, təlim nəticələri və qiymətləndirmənin məqsədi haqqında da məlumat verirlər.

Hesabatda il boyunca nəzərdə tutulan təlim nəticələri üzrə uşağın irəliləyişi və nailiyyətini fərdi iş dəftərinə qeyd etmək lazımdır. Uşaq il boyu irəlilədikcə nail olduğu bacarıq və strategiyalar məlumatda əks olunmalıdır.

Hesabatda uşağın nəzərdə tutulan ümumi təlim nəticələri üzrə nailiyyətləri və tərbiyəçinin növbəti addımları, habelə valideynlərin növbəti addımlarının qısa şərhləri əks olunmalıdır. Hesabat rəsmi yazılı hesabatlar, valideynlərlə və uşaqlarla aparılan müzakirələr, həmçinin valideynlərlə aparılan rəsmi və qeyri-rəsmi vasitələrdən ibarət olmalıdır.

Hesabat aşağıdakı bölmələri əhatə edir:

- Giriş (mövcud vəziyyətdəki antripometrik göstəricilər (bu, tibb işçisinin məlumatı əsasında doldurulur), emosional vəziyyəti və davranışı;
- Əsas hissə:
  1. Fiziki inkişaf və sağlamlıq;
  2. İdraki inkişaf;
  3. Dil və ünsiyyət;
  4. Sosial-emosional inkişaf;
  5. Mədəni inkişaf və yaradıcılıq.
- Yekun: Burada uşağın aktual inkişaf imkanları, maraqları, qabiliyyətləri, eləcə də digər sosial-psixoloji göstəriciləri haqqında da məlumatlar öz əksini tapır:
  1. Maraqları;
  2. Qabiliyyətləri;
  3. Yaradıcılıq imkanları;
  4. Əməkdaşlıq bacarığı.

İnkişafa dair yekun hesabat isə 3 və 6 yaşın sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanmasıdır. Uşaq bu hesabatla növbəti mərhələyə qədəm qoyur.

Aşağıda inkişafa dair yekun hesabatın nümunəsi təqdim edilir:

**İnkişafa dair yekun hesabat (nümunə)**

**6 yaş (və ya 3 yaş)**

Uşağın ad, soyadı, atasının adı________________________________

Məktəbəqədər müəssisə______________________________________2017-2018

Tərbiyəçi-müəllim_____________________________________________

Məktəbəqədər dövrdə uşaqların həm fiziki, həm də psixofizioloji inkişafı sürətlə gedir. Uşaq diqqəti cəlb etməyi xoşlayır. Əli (ad şərtidir) bağçaya gəldiyi müddətdə onun boyu və çəkisinin artmasında nəzərə çarpacaq dəyişiklik baş vermişdir. Lakin nitqi, böyüklər və həmyaşıdları ilə ünsiyyəti normaldır. Təqlid etməyi xoşlayır. Oyun oynayarkən uşaqlarla düzgün davranır və oyunda çox zaman keçirməyi xoşlayır. Əşyalarla və quraşdırma oyunlarında qavrayış, hafizə, təxəyyül, təfəkkür və hərəki qabiliyyəti yaxşı inkişaf etmişdir. Oyun və təlim şəraitində diqqətlidir. Yoldaşları ilə əməkdaşlıq etmək və oyuncaqlarını paylaşmağı xoşlayır. Digərlərinə qarşı mehribandır və hörmət edir. Qrup otağında başqalarına kömək etməyi sevir. Kollektivdə davranış qaydalarına əməl edir. Fikrini ifadə edə bilir. Məkan və zaman anlayışlarından düzgün istifadə edir. Fiziki hərəkətləri düzgün icra edir. Həyatı və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını bilir. Eşitdiyi fikirləri şərh edir. Təsviri, musiqi və konstruktiv fəaliyyət göstərir, bayram və əyləncələr və səhnəciklərin göstərilməsində iştirak edir. Uşaqlara qarşı qayğıkeş münasibət bəsləyir və çətinlik zamanı kömək edir. Diqqəti isə bir qədər dağınıqdır. Öz işi ilə məşğul olarkən yoldaşlarının gördüyü işlər onun diqqətini yayındırır. Çünki o, hər şeyi bilməyə can atır və yeni şeyləri asanlıqla öyrənir. Onunla daha çox məşğul olmaq, onun öz gücündən konstruktiv və yaradıcı yollarla istifadə etməsinə kömək etmək lazımdır.

Tərbiyəçi-müəllimin imzası:_____________________________________________

Validеynin imzası:___________________________________

## Tələbələr üçün fəaliyyətlər

1. "Akvarium" üsulundan[3] istifadə edərək müzakirəni təşkil edin. Müzakirə mövzusu: "Summativ qiymətləndirmə vacibdir. Niyə?"
2. Summativ qiymətləndirmənin qaydalarını uyğunlaşdıraraq aşağıdakı cədvələ əlavə edin:

| Qaydalar | Prinsiplər |
|---|---|
| | |
| | |
| | |
| | |

3. Mühazirədə verilən nümunəyə əsasən hesabat hazırlayın.

[3]Müəllim üçün qeyd: Akvarium bir neçə variantda keçirilə bilər.
"Akvarium"un keçirilməsinin 1-ci variantı: Uşaqlarin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s.) müəyyən edilir. Uşaqlar 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir. Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, "Xarici dairə"nin iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.
"Akvarium"un keçirilməsinin 2-ci variantı:"Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin "Lehinə" olan dəlilləri söyləyirlər. Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşir, dəlilləri dinləyir, yazıya alır, təhlil edir və öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan uşaqlar öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Yekun (summativ) hesabat hazırlayır”.**

1. Hesabat aşağıdakı bölmələri əhatə edir:

| Bölmələr | Aiddir | Aid deyil |
|---|---|---|
| 1. Giriş (mövcud vəziyyətdəki antripometrik göstəricilər, (bu, tibb işçisinin məlumatı əsasında doldurulur), emosional vəziyyəti və davranışı; | | |
| 2. Əsas hissə: | | |
| 3. Fiziki inkişaf və sağlamlıq; | | |
| 4. Zəruri mədəni-gigiyenik bacarıqları formalaşdırmaq: Təsviri fəaliyyətlə məşğul olduqdan sonra əlləri müstəqil və düzgün yumaq bacarığı; | | |
| 5. Qələmlər, fırçalar və s. ilə hərəkət edərkən təhlükəsiz davranış haqqında fikirlər yaratmaq; | | |
| 6. Yekun: Burada uşağın aktual inkişaf imkanları, maraqları, qabiliyyətləri, eləcə də digər sosial-psixoloji göstəriciləri haqqında da məlumatlar öz əksini tapır. | | |

2. Summativ qiymətləndirmənin təşkil edilməsi qaydaları ilə bağlı təhlil xarakterli esse yazın.

3. 10 test hazırlayın və 10 ballıq sistemlə qiymətləndirin.

# CAVABLAR

| Təlim nəticəsi 2 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | A |
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 1 | A |

| Təlim nəticəsi 3 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 3 | A |

| Təlim nəticəsi 4 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 1 | B |
| Sual 2 | A |
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 2 | B |
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 2 | B |
| Sual 3 | B |

| Təlim nəticəsi 5 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | E |

# ƏDƏBİYYAT SİYAHISI


1. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu il. http://www.edu.gov.az/
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
4. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)
5. Baloğlan Quliyev. Fiziki tərbiyənin nəzəri metodik və praktik işlərin əsasları. 2010 Bakı.
6. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri //Kurikulum, 2011, № 2, səh.8-15.
7. Əliyeva T.Ə. Uşaq inkişafının qiymətləndirilməsi. B., Elmin inkişafı fondu, 2015.
8. Əlizadə Ə. Ə. Əsrin meqa meyilləri: psixopedaqoji problemlər [Mətn]: III cild.- B.: 2008.-501s.
9. Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi/ Təhsilin İnkişafı Mərkəzi, Bakı, 2003.
10. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2002.
11. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2009.
12. Kurikulum islahatı: tədqiqatlat, nəticələr. Bakı, TPİ, 2011.
13. Kurikulum, 2008, № 3.
14. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2010.
15. Məktəbəqədər təhsil təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 16 iyun 2017. http://www.president.az/articles/24248
16. Məktəbəqədər təhsil kurikulumu. 2012.
17. Pometun E. İnteraktiv təlim. (müəllim üçün vəsait) (Tərcümə edəni K.Quliyeva) Bakı, 2010.
18. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, http://edu.gov.az 5 sentyabr2009-cu
19. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, 2008.
20. Veysova Z. Fəal (interaktiv) təlim. (müəllim üçün vəsait), UNİCEF, 2007.
21. Allen, K. E., & Cowdery, G. E. (2014). *The exceptional child: Inclusion in early childhood education*. Independence, KY: Wadsworth Publishing.

22. Barton, E. E., & Smith, B. J. (2015). *The preschool inclusion toolbox: How to build and lead a high-quality program*. Baltimore, MD: Brookes.
23. Beginning to READ: Thinking and Learning About Print, Marilyn Jager Adams, Cambridge, MA: The MİTPRESS,1998.
24. Child Assessment Profile,Chicago Public Schools, 1999.
25. Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC,2002.
26. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies, Washington DC,2008.
27. Creative curriculum. For infants, toddlers and twos. USA, vashington, 2010.p.-247
28. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Early Learning Standards, Illinois State Board of Education,2002.
29. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC,2002.
30. Dunlap, G., Wilson, K., Strain, P., & Lee, J. K. (2013). *Prevent, teach, reinforce for young children: The early childhood model of individualized positive behavior support*. Baltimore, MD: Brookes.
31. Early Learning Standards, Illinois State Board of Education,2002.
32. Gail Gregory, Presenter.Make Your Day Conference Seattle, WA2005
33. Gauvreau, A. N., & Schwartz, I. S. (2013). Using visual supports to promote appropriate behavior in young children with Autism and related disorders. *Young Exceptional Children Monograph Series, 15*, 29–44.
34. K. Rudd and others, Labor's Plan for Early Childhood: Election 2007 Policy Document, Australian Labor Party, Canberra,2007.
35. K. Rudd, Press conference with Maxine McKew, Sydney Day Nursery, Sydney, 17 April2008.
36. Lamm, S., Grouix, J. G., Hansen, C., Patton, M. M., & Slaton, A. J. (2006). Creating environments for peaceful problem solving. *Young Children, 6*(1), 22–28.
37. LINGUA [On-line] Teacher Training and the Teaching of Foreign Languages in the Early Stages.
38. Peterson, N.L.(1987) Earli invertion for handicapped and at-risk shildren: An introduction to early childhood-special aducation.Denver, CO:love.
39. Sainato, D. M., & Carta, J. J. (1992). *Classroom influences on the development of social competence of preschool children with disabilities: Ecology, teachers, and peers*. In S. L. Odom, S. R. McConnell, & M. A. McEvoy (Eds.), Social competence of young children with disabilities: Issues and strategies for intervention. Baltimore, MD: Brookes.

40. Sandall, S. R., & Schwartz, I. S. (2008). *Building blocks for teaching preschoolers with special needs*. Baltimore, MD: Brookes.
41. Santora, L., & Anti-Defamation League staff. (2012). *How can you create a learning environment that respects diversity?* Retrieved on December 9, 2015, from http://www.adl.org/assets/pdf/education-outreach/How-Can-You-Create-a-Learning-Environment-That-Respects-Diversity.pdf
42. State of Connecticut. Department of Education, 165 Capitol Avenue, Hartford, Connecticut 06106, (860)713-6530.
43. The Division of Early Childhood (DEC), & the National Association for the Education of Young Children (NAEYC). (2009, April). *Early childhood inclusion*. Position statement. Retrieved on December 9, 2015, from
44. Training, Western Australia.
45. Куррикулум по воспитанию детей раннего и дошкольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогических наук. – Ch. :S. N., 2007 (CombinatulPolig.). – 108стр.
46. Арсентьева В.П. Игра – ведущий вид деятельности в дошкольном детстве. (учеб. Пособие). Москва, 2009.
47. Белая А. Е., Мирясова В. И. Пальчиковые игры для развития речи дошкольников. – М., 2000 г
48. Вайнерман С.М., Большов А.С., Силкин Ю.Р. Сенсомоторное развитие дошкольников на занятиях по изобразительному искусству. – М.: Владос, 2001
49. Варенцова Н.С. Готовим руку к письму. Занятия с детьми трех-четырех лет// Дошкольное воспитание. 1996 №2.
50. Гуськова Т.В. Трехлетние дети в саду и дома // Дошкольное воспитание. 1983. №4.
51. Денисенкова Н. Ваш ребенок познает мир // Дошкольное воспитание. 2000. №2.
52. Диканьская Н.Н., Герасименко Е.В. Оценочная деятельность как основа управления качеством образования. Стандарты и мониторинг в образовании. М., 2003, № 4, с.22-26
53. Здоровьесберегающая инфраструктура в системе образования [Текст]: учебное пособие / [Э.М. Казин, Н.П. Абаскалова, Р.И. Айзман и др., отв. Ред.: Э.М. Казин, Н.Э.
54. Касаткина]. – М: Изд-во «Омега-Л», 2014. – 575 с. : ил. Табл. – (Университетский учебник).
55. Кафедра человека и животных и валеологии, Лаборатория развития личности центра довузовской подготовки; [отв. Ред. Э.М. Казин]. – Кемерово: Сибирская издательская группа, 2009. – 82 с.
56. Коджаспирова, Галина Михайловна. Педагогика [Текст]: учебник / Г. М.Коджаспирова. – М. : КноРус, 2010. – 740 с.

57. Козлова С.А., Куликова Т.А. Дошкольная педагогика. Москва, 2007.

58. Кравцов, Г. Г. Психология и педагогика обучения дошкольников [Текст] / Г. Г.

59. Кравцов, Е. Е. Кравцова. – М. : МОЗАИКА-СИНТЕЗ, 2013. – 264 с. – [Электронный ресурс]
URL: http://www.pedpro.ru/http://biblioclub.ru/index.php?page=book&id=212168
(дата обращения: 27.12. 2014).

60. Кузнетцова А.Г. Личностно ориентированный подход к современному уроку: учебное пособие. Хабаровск,2004.

61. Макаренко А.С. Лекции о воспитании детей (любое издание).

62. Менг, Т.В. Исследование образовательной среды: проблемы, подходы, модели [Электронный ресурс] / Т.В. Менг. – 2011. 98 с.
URL: https://e.lanbook.com/book/5588 (дата обращения: 27.12.2014).

63. Менджерицкая Д. Детские игры // « Дошкольное воспитание». 2008. № 5. – с. 10.

64. Монакова Н.И. «Развитие эмоциональной сферы дошкольника». СПб «Речь» 2008.

65. Новоселова С. Развивающая предметная среда: Методические рекомендации по проектированию вариативных дизайн – проектов развивающей предметной среды в детских садах и учебно-воспитательных комплексах Л.Н. Павлова. 2-е изд. – М.: Айресс Пресс, 2007. – 119 с.

66. Осокина П.И. Физическая культура в детском саду. М., Просвещение,1973.

67. Психолого-педагогические и здоровьесберегающие аспекты формирования адаптивноразвивающей образовательной среды: учеб. Пособие / Кемеровский гос. Ун-т.

68. Родительские собрания в детском саду: Младшая группа / Авт.-сост. С.В. Чиркова. – М.: ВАКО, 2012.

69. Селевко, Г.К. Современные образовательные технологии. М., 2004 г.

70. Справочник педагога-психолога, 2012.

71. Тимофеева, Н.В., Зотова Ю.В. Занятие в детском саду. Волгоград, 2009.

72. Тульчинский Г.Л., Артемьева Т.В. Привлечение средств на проекты и программы в сфере образования и науки [Электронный ресурс]: Учебное пособие/ Г.Л.Тульчинский, Т.В. Артемьева. – Изд-во: «Лань», «Планета музыки». – 2010. – 288 с. –
URL: http://e.lanbook.com/books/element.php?pl1_id=1929
(дата обращения: 27.12.2014).

73. Флерина Е.А. Игра и игрушка. – Москва, 1973.

74. Эльконин Д. Воспитательное значение сюжетно-ролевой игры // «Дошкольное воспитание». 2008. № 8. – с. 17.
75. 7.0-36 aylıq çocuqlar için etkinlik kitab. UNİCEF-in 297eknik desteyi ile hazırlanmışdır.
76. Cocuk gelişimi ve eğitimi. Erken çocukluk eğitiminde temel ilkeler. Ankara 2011.40 s. http://www.megep.meb.gov.tr/mte_program_modul/moduller_pdf/Erken%20%C3%87ocukluk%20E%C4%9Fitiminde%20Temel%20%C4%B0lkeler.pdf
77. İlköğretime Hazırlık ve İlk öyretim Proqramları. Pegem Akademi, 2010.194s.
78. Okul Öncesi Eğitim Proqramı (36-72 aylık çocuklar için). Devlet Kitapları Müdürlüğü-Ankara2006.
79. Okul öncesi eğitimi 297eknik297. Ankara 2013.114s.
80. Okul Öncesi Eğitiminin 297eknik297 Yöntemleri. Ankara 2011.198s.
81. https://president.az/articles/977924 oktyabr 2013
82. http://ou.edu/socialwork/faculty/index.html
83. http://www.eddept.wa.edu.au/ November 2003. (modified) Department of Education
84. http://www.education.com/reference/article/Ref_Preparing_Your_Child/-dən Aprel 20
85. http://www.naeyc.org/files/naeyc/file/positions/DEC_NAEYC_EC_updatedKS.pdf
86. http://www.rand.org.
87. http://www.vanderbilt.edu/csefel/resources/states/iowa_pbsqpps_crosswalk.doc.
88. http://festival.1september.ru/
89. https://nsportal.ru/detskiy-sad
90. http://www.maam.ru/detskijsad/